AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

TÜRK XALQLARI FOLKLORU

# TUVA XALQ NAĞILLARI

- 13730 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər idarəsi
PREZİDENT KİTABXANASI

BAKI – 2013

**Azərbaycan Milli Elmlər Akademiyası**
**Foklklor İnstitutu Elmi Şurasının**
**qərarı ilə nəşr olunur.**

**LAYİHƏ RƏHBƏRİ: Muxtar KAZIMOĞLU (İMANOV)**
filologiya üzrə elmlər doktoru

**TOPLAYANI:** **Dorj Sengiloviç KUULAR**

**TUVA DİLİNDƏN**
**TƏRCÜMƏ EDƏNİ:** **Elmira SƏRXANLI**

**REDAKTORU:** **Əfzələddin ƏSGƏR**
filologiya üzrə fəlsəfə doktoru

**Türk xalqları folkloru. Tuva xalq nağılları.** Bakı, "Elm və təhsil" nəşriyyatı, 2013, 256 səh.

Azfolklor@yahoo.com

T $\frac{3202050000}{098 - 2013}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2013.

# İNSTİTUTDAN

Azərbaycan folklorunun digər xalqların şifahi xalq yaradıcılığı ilə əlaqəli şəkildə öyrənilməsinə çox böyük ehtiyac var. Folklor İnstitutu bu ehtiyacı nəzərə alıb elmi-tədqiqat obyektlərinin coğrafiyasının genişləndirilməsini və onun gerçəkləşdirilməsi üçün bir neçə yeni seriyadan kitabların nəşrini vacib sayır.

Həmin məqsədyönlü işlərdən biri "Türk xalqları folkloru" seriyasıdır. Bu seriyada Azərbaycan xalqı ilə eyni soykökündən olan, coğrafi baxımdan nə qədər uzaq düşsələr də, ortaq adət-ənənələri, təfəkkür və düşüncə tərzini, dil və din birliyini qoruyub saxlayan, tarixin çox qədim və keşməkeşli dönəmlərində oxşar taleyi yaşayan qardaş türk xalqlarının şifahi ədəbiyyatından seçmə nümunələrin tərcüməsi və nəşri nəzərdə tutulur. Türk folklorunun əksər janrlarına aid örnəkləri əhatə edəcək bu tərcümə və nəşrin gerçəkləşdirilməsi həm bütövlükdə ümumtürk folkloru və folklorşünaslığının, eyni zamanda ayrılıqda Azərbaycan folkloru və folklorşünaslığının gələcəyi üçün bir neçə cəhətdən mühüm əhəmiyyət daşıyır:

Ümumtürk folklorunu bir müstəvi üzərinə gətirir və bütövlükdə onun aydın mənzərəsini canlandırır.

Ayrı-ayrı türk xalqlarına məxsus mifoloji mətnlərin tərcümə və nəşr olunması ilkin ümumtürk təsəvvürlər sistemini hərtərəfli araşdırmağa əsaslı zəmin yaradır.

Müxtəlif türk xalqlarına aid mərasim mətnlərinin tərcümə və nəşr edilməsi Azərbaycan folklorşünaslığında o qədər də geniş öyrənilməmiş bir sahə olan mərasim folkloruna diqqət və marağı daha da artırır.

"Manas", "Alpamış", "Alıp Manas", "Maday Qara", "Altın Arıq", "Ural Batır", "Canqar", "Koblandı-Batır", "Altan Şaqay", "Altay Buuçi", "Yel qanadlı Nurgün Batır" və s. kimi

ədəbi örnəklərin tərcümə və nəşri Azərbaycan dastanları ilə əsaslı müqayisə və tutuşdurmalara geniş imkanlar açır.

Türk xalqlarında geniş yayılmış və çeşidli adlarla ("Koroğlu", "Qoroğlu", "Goroğlu") məşhur olan "Koroğlu" silsiləsinin qarşılıqlı-müqayisəli şəkildə araşdırılmasının sözügedən qəhrəmanlıq dastanının etnogenetik köklərinə və yaranma tarixinə daha da aydınlıq gətirəcəyi şübhəsizdir.

Bir sıra türk xalqlarında eyni adlar altında tanınmış "Tahir və Zöhrə", "Əsli və Kərəm", "Aşıq Qərib və Şahsənəm" və s. məhəbbət dastanlarının müxtəlif variantlarının tutuşdurulması onların tipologiyası və poetikası ilə bağlı sonadək öyrənilməmiş bir sıra məsələlərin daha dolğun, ətraflı araşdırılması üçün səmərəli olardı.

Azərbaycan əfsanə və rəvayətlərinin, nağıl və lətifələrinin digər türk xalqlarının uyğun janrlara xas olan örnəkləri ilə oxşar və fərqli cəhətlərinin üzə çıxarılması onların qarşılıqlı müqayisə yolu ilə tədqiq edilməsi nəticəsində mümkündür.

Ayrı-ayrı türk xalqlarının şifahi ədəbiyyatında geniş yer tutan atalar sözü və məsəllər, deyimlər, həmçinin tapmacalar arasında da eyni qaynağa bağlanan çoxlu ortaq xüsusiyyətlər mövcuddur ki, onların da araşdırılması bu gün folklorşünaslığın aktual problemlərindən biri kimi qarşıda durur.

Laylalar, oxşamalar, ninnilər, beşik nəğmələri ayrı-ayrı türk xalqlarında müxtəlif adlar daşısalar da, onlarda türk düşüncə və həyat tərzinin ən arxaik motivləri qorunub saxlanılmışdır. Bu gün həmin ortaq motivlərin araşdırılıb üzə çıxarılması böyük əhəmiyyət kəsb edir.

Azərbaycan xalq lirikasının poetik sistemini, janr və növ rəngarəngliyini, daxili strukturunu, rəmzlər və obrazlar aləmini, vəzn və qafiyə özəlliklərini yalnız güclü lirik-poetik ənənələrə malik olan ayrı-ayrı türk xalqlarının lirikasına yaxından və



dərindən bələd olduqdan sonra hərtərəfli tədqiq etmək mümkündür.

Folklor xalqın özüdür. Hər hansı bir xalqı yaxından tanımaq üçün onun folkloruna dərindən bələd olmaq lazımdır. Bu baxımdan Azərbaycan şifahi xalq ədəbiyyatı örnəklərinin digər türk xalqlarının müvafiq əsərləri ilə müqayisəli öyrənilməsi son nəticədə ümumtürk mifik-poetik təfəkkürünün inkişaf mərhələlərini üzə çıxarmağa geniş imkanlar açır.

"Türk xalqları folkloru" seriyasından çap olunacaq tərcümələr daha çox elmi-akademik səciyyə daşıyacaq və inanırıq ki, gələcək tədqiqatlar üçün etibarlı mənbə rolunu oynayacaqdır.

# GİRİŞ

Özünəməxsus tuva folklorunun daha bir yeni səhifəsi geniş oxucu kütləsinin üzünə açılır.

Xəritədə Yenisey çayına diqqət yetirin. İki çayın – Piy Hem və Kaa Hem çaylarının qovuşması Uluq Hemi – Nəhəng çayı yaradır. Vilayətin yerli sakinləri Yeniseyi belə adlandırırdılar. Burada Tuva Muxtar Vilayətinin paytaxtı sayılan Qızıl şəhəri yerləşir.

Tuvalıların əjdadlarının mədəniyyəti oxucular üçün təkcə şifahi xalq yaradıcılığında qorunub saxlanılmayıb. Tuvanın ərazisində qədim-türk (yenisey) yazılı-abidələri mütləq çoxluq təşkil edir. Yenisey abidələrinin dili qədim tuvalıların, qırğızların, xakasların, altay və şor əcdadlarının dilidir. Bu günümüzə qədər qorunub saxlanılan qədim şəhərlərin, dağ mədənlərinin, minlərlə kurqanların, xatirə lövhələrinin qalıqları Tuvanın ərazisində özünəməxsus sivilazisiyanın varlığından xəbər verir.

Bu kitab – Tuva nağıllarının əsas janrlarını: bahadırlıq, sehrli dünya, məişət və heyvanlar aləmini əhatə edən ilk böyük toplumdur. Nağıllar elə tərtib olunub ki, hər bir janr haqqında oxucuda ötəri də olsa təsəvür yaradılsın. Kitabda cəmi otuz beş nağıl var. Amma əlavə hesablamalara görə tuvalılar bu nağılların minə yaxınını yaddaşlarında qoruyub saxlayıblar.

Tuvalıların şifahi – şeir yaradıcılığı hələ XIX əsrdə tədqiqatçıların nəzərini özünə cəlb etmişdir. Türk dünyası araşdırılmalarının əsasını qoyan V.V.Radlov 1861-ci ildə Qara-xolda (indiki Bəy-taygin r-nu) olmuş və nağıl söyləyənlərin dilindən dörd mahnı və iki nağıl yazıb – "Kujuttum modun" və "Paqay Çuru" nağıllarını. Sonralar tədqiqatçı bu nağılları əsərlərinin I cildində – "Türk tayfalarının xalq ədəbiyyatından nümunələr" (Spb., 1866) adı altında çap etdirmişdir. Beləliklə də Radlov Tuva folklorunun ilk toplayanı oldu.



Q.N.Potanin 1879-cu ildə Tuvada 25-ə yaxın nağıl eləcə də bir neçə kosmoqonik əfsanə və rəvayətləri qələmə alır. Sonra onları özünün məşhur "Şimali-Qərbi Monqolustanın oçerkləri"ndə cap etdirmişdir (çıxar. II. Etnoqrafik materiallar, Sp.b. 1889. çıx. IV. Etnoqrafik materiallar, SP.b., 1883). Potanin tərəfindən toplanılmış əsərlərin içərisində Tuvalıların elə məşhur qəhrəmanlıq epopeyalarının konsepktləşdirilmiş qeydləri var ki, onları belə sıralaya bilərik: "Ertene-Mergen", Kanqıvay-Mergen (Potanin "Kanqıvayı" – "Xanqavay" kimi işlədib), "Tanaa - Herel" ("Tana – Kerel"), eləcə də bu gün çox yaxşı tanınmış sehirli və məişət nağıllarından – "Dövlətli Boralday", "Min kürən atı olan Tümendey və onun oğlu Er-Sarıq" və başqaları.

Xakas xalqının görkəmli oğlu, milli türkologiyanın banilərindən biri sayılan N.F.Katanin Q.N.Potanindən on il sonra Tuvaya gəlir. O, Tuvalıların folkloru, etnoqrafiyası və dili haqqında böyük həcmdə material toplayır. N.F.Katanovun müxtəlif janrlarda yazdığı 1410 əsəri V.V.Radlovun "Türk tayfalarının xalq yaradıcılığından nümunələr" məcmuəsində (T.XI, Sp (b), 1907) dərc olunmuşdur. Onlardan 12 məişət və sehirli nağılları – ("Qoca və şeytan", "Baldır-Bejeek-ool", "Yeddi sarı atı olan – Öskùs-ool", "Dilgiçək-oll", "Müdrik qız", "Qoca və Manqıs", "Qoca və pələng", "Üç qardaş" və s.) göstərmək olar.

1902-1903-cü illərdə Tuvanın Uryanxay diyarında Rus coğrafiya cəmiyyətinin Şərqi-Sibir elmi ekspedisiyasında iştirak edən sürgün inqilabçı F.Y.Kon tərəfindən yaradılmış folklor əsərlərinin qeydləri az maraq doğurmurdu. S.İ.Vaynşteyn tərəfindən müəyyən edilmişdir ki, F.Y.Konun topladığı və rus dilinə tərcümə etdiyi 8 nağıl nəşr olunmuş və dörd nağıl isə əlyazma şəklində qalmışdır.

Sonrakı illərdə, ta 30-cu illərə qədərki dövr də daxil edilməklə tuvalıların folklor əsərləri nə qələmə alınıb, nə də dərc olunub. Baxmayaraq ki, 1921-ci ildə Tuva Xalq Respublikasının yaranması ilə əlaqədar olaraq folklor nümunələrinin qələmə alınması üçün əlverişli şərait yaranmışdı, amma müdrik xalq nağılları xəzinəsinin toplanması və nəşri milli yazı ənənəsinin olmamasından yubanırdı. Yalnız 1930-cu ildən sonra Sovet-Türkşünas alimlərinin köməyi ilə Tuvanın yazılı ədəbiyyatı meydana gəlir və xalqın şifahi-poeziye irsinin ardıcıl toplanmasının öyrənilməsi və nəşri həyata keçirilir. Yalnız bir ildən sonra əfsanə və rəvayətlərin toplanması üçün "Şın" ("Həqiqət") qəzeti konkurs elan etdi. Ən yaxşı yazılar qəzetdə çap olundu. Ədəbi mühitə yeni qədəm qoyan Tuva ədəbiyatçıları xalq yaradıcılığında öz ustalıqlarını əks etdirirdilər. Tuva xalq-inqilabi partiyası öz işini şifahi-poeziye yradıcılığı, əsərlərinin toplanması və öyrənilməsi səmtinə yönəltmişdi. Partiya keçmişin feodal qalıqları ilə mübarizə də bu mirasdan istifadə etməyə çağırırdı. TNRP X Böyük xuralın qətnaməsində nağılların, nəğmələrin, məsəllərin və deyimlərin, tapmaca və çastuşkaların (bədiyə) nəşrinin vacibliyi xüsusi göstərilirdi.

1938-ci ildə "Tooldar" (Nağıllar) – adlı birinci Tuva nağıllarının ilkin məcmuəsi çap olundu. Bura iki qəhrəmanlıq nağılı və iki məişət nağılı daxil edilmişdi. 1939-cu ildə Tuva şairlərinin əsərləri məcmuəsində "Tanaa-Xerel Daş-Xürən atıyla" adlı bahadır rəvayəti çap olunmuşdur. 1941-ci ildə "İnqilabın şəfəqləri" almanaxında Tuvanın ən böyük həcmli nağılı sayılan "Alicənab Kara-Kogəl" dastanı çap olundu.

1944-cü ildə TXR könüllü surətdə Sovet İttifaqının tərkibinə daxil oldu. Sosialist gerçəklikləri, ölkənin böyük, iri ali təhsil mərkəzlərində elmi kadrların hazırlanması məqsədilə dil, ədəbiyyat və tarix üzrə elmi tədqiqat institutlarının yaranması



Marksist tətqiqat metodu ilə silahlanmış Tuva folklorçuluğunun meydana gəlməsinə şərait yaratdı. 1947—ci ildən başlayaraq NİİYRLİ Tuva dilində doqquz və rus dilində 4 nağılın nəşrini həyata keçirdi. Artıq Tuva epik yaradıcılığına həsr olunmuş – sanballı tədqiqat materialları çap olunurdu. L.V.Qrebnyovun "Tuvalıların qəhrəmanlıq eposu", İ.A.Vçeraşninin "Tuva xalq nağılları və folklorun öyrənilməsində müxtəlif problemlərə toxunaraq tədqiqatlar aprdığı bir məqalələri aradıcıl çap olunurdu".

Tuvalıların şifahi-poetik yaradıcılıq nümunələrinin toplanıb nəşr olunması ilə yanaşı respublikada nağıl söyləyənlərin yığıncaqqları təşkil edilir, hər il folklor gecələri keçirilir ki, bu da möhtəşəm folklor ənənələrinin qorunub saxlanılmasına yardım edirdi.

Tuva xalqının əfsanəvi nağıl yaradıcılığı janr və süjet xəttinə görə çox rəngarəngdir. Oxucuya təqdim olunan məcmuəyə əsasən bahadur nağılları, sehirli nağıllar, məişət tipli və ayrıca heyvanlar haqqında olan nağıllar daxil edilmişdir.

Məcmuədə verilmiş Bahadır nağılları iki nümunəvi şəkildə: "Bahadır Tevene-Möqe və onun atı Demir-Şilge" və "Qorxmaz Xan-Xülyük" adı altında verilmişdir. Bahadırlar həm öz aralarında, həm də o biri dünyanın qəsbkarları ilə döyüşür, həmçinin öz doğma torpaqlarını müdafiə edirək gözəgörünməz dünyanın fantastik sakinləri ilə vuruşda insanın üstün cəhətlərini qabarıq şəkildə əks etdirirlər.

Məcmuədə dərc olunan ən xarakterik xüsusiyyətləri özündə cəmləyən nağıl "Qoca Bumbaaday" – nağılıdır. Nağılın əsas qəhrəmanı Bumbaaday çox ağıllı, fərasətli və böyük fiziki gücə malik bir insandır. Atları **Lixoy Voronoi i Lenivıy vorona** və min ədəd qara qoyun sürüsü onun fəxri sayılırdılar. Bir dəfə onun qara qoyunları iki ağ quzu dünyaya gətirdilər, amma

göylər xanının qara qarğaları quzuların gözlərini eşib tökdülər. Elə buradan da Bumbaadayın göylər xanı ilə mübarizəsi başlayır. Qoca kin-küdurətli qüvvələri və öz müdrik cavabları ilə Qurbustu-xanın özünü belə məğlub edir. Bir çox xalqlarda olduğu kimi tuvalılarda da xeyirxahlıq ağ rənglə çox bağlıdır.

Nağılda ağ quzular – xeyirxahlığı, qara qarğalar isə – bədxahlığı nümayiş etdirir. Kurbustu-xanın üzərində çalınan qələbə xeyirxahlığın qələbəsi kimi təcəssüm etdirilir.

Çox vaxtlar sehirli nağıllrın qəhrəmanlarına düzgün hərəkət etməkdə sehirli əşyalar onların köməyinə yarayır: gözəgörünməz-paqaq, sürətlə hərəkət edən-idiklər, taxta-döyəcləyən boru, rəngarəng ipək, kədəklər (ipəklər), bülöv daşının qırıqları, dırmıq və sairə. Bundan əlavə qəhrəmanların mənsub olduqları bəzi əşyalar sehirli gücə mənsub olurlar.

Sehirli tuva nağıllarının bir hissəsi məşhur şərq nağıllarının tuva variantıdır. Belə ki, "Uran-Doydu" nağılının motiv oxşarlığı hindlilərin "Tutuquşunun kitabı" nağılına çox oxşaması mübahisə olunmazdır. Hindistanda çox məşhur olan "Arca-burca" silsilə nağılları, eyni zamanda Pançatantrının bəzi nağılları, "Canqra" və "Gesera" adlı mahnıları da Uluq-Hemin sahillərinə gəlib çatmışdı.

Məişət nağıllarında ən başlıca yeri Yetim-oğlan-Öskiis ool haqqında olan nağıllar başlıca yerlərdən birini tutur. Xan Öskiis-ollu amansız istismar edir, onu aldadır, nəticədə isə zavallı, yazıq oğlan xana ya özünün mükəmməl biliyi, ya da işıq saçan gözəlin sehirlərinin köməyilə qələbə çalır və nəticədə özü xan seçilir. Xalqın sosial düzgünlük haqqında olan xəyalları xeyirxah xan haqqında olan xəyallara çevrilmişdi. Onların fikrincə xan sadə, kasıb bir adamdan seçilməli idi. Elə həqiqəti axtarmaq arzuları, hər şeyi doğru-dürüst həll etmək bacarığı da



Öskiis-oolu nağılların birində hakim edir və xalq seçkiləri qələbə çalır.

Tuva məişət nağıllarının maraqlı bir xüsusiyyəti vardır. Müsbət keyfiyyətləri daşıyan adam ya cavan yeniyetmə ("Öskiis ool", Baldır-Bejeek), ya da qoca ("Qoca Ağ-Sal və cümət") olur. Onların nə böyük imkanı və nə də gücü olur, amma daxili müsbət keyfiyyətləri ilə xan və bəyləri üstələyirlər. İti hafizə, güclü iradə və zehni fəhm onlara istənilən güclü düşmənə qələbə çalmağa kömək edir. (Koolu-Sandaq).

Mənəvi təmizlik, namuslu olmaq və dost olmağı bacarmaq (məişət nağıllarında) xüsusiyyətləri alqışlansa da qorxaqlıq, xainlik, acgözlük, tamahkarlıq ("Altı qardaş") bir o qədər məzəmmət edilir və töhmətlənir.

Heyvanlardan bəhs edən tuva nağıllarında məişət nağılları mövzusu davam etdirilir. Bunlar əsasən alleqorik məişət nağıllarıdır ki, istənilən heyvan surətinin arxasında biz açıq-aşkar insanları görürük. Burada etnoloji motivlər o qədər də mühüm əhəmiyyət kəsb etmir. Tuvalıların, altayların, buryatların, monqol və kalmıkların yaradıcılığında aparılan çoxsaylı paralel süjet xətləri bu xalqların mədəni və tarixi birliyindən xəbər verir.

Bütün Tuva nağılları musiqi alətlərinin müşahidəsi olmadan yalnız mahnını oxumaqla yerinə yetirilir. Hər nağıl söyləyənin özünəməxsus ifa tərzi olur. Onların müxtəlifliyi əsərin ifa olunduğu müddətdə meydana çıxır. Məşhur Oorjak Çançi-Xoo əfsanələri və nağılları üç tembrdə oxuyur. Əgər söhbət bahadırın sakit, xoşbəxt həyatından gedirsə, mahnının oxunuşu çox yumşaq və mülayim, yox əgər bahadırların mübarizəsindən gedirsə – ritm dəyişir, temp qalxır, nağılçı nağıla qulaq asanları məcbur edir ki, əsərin qəhrəmanına şəfqətlə, dərdinə şərik olmaqla yanaşsın.

Tuva nağılsöyləyənləri – çox mötəbər insanlar sayılırlar. Məhz bu insanlar xalqın ən gözəl adətlərini və xalq müdrikliyini qoruyub saxlayanlar və təbliğ edənlərdir. Qədim Tuvada nağıllar Çinə və Monqolustana azad səyyahların gəlişini təmin edirdi. Nağıl söyləyənləri ova aparardılar ki, nağılın köməyilə çox xəz dəri əldə etsinlər. Çox böyük nağılçı sayılan Tuluş Baazanay ova tək getsə belə gecə ocaq qalayıb səhərədək nağıl söyləyərdi. O belə düşünürdü: "Tayanın sahibi mənim nağılımı dinləyərsə, müqabilində mənə ovlamaq üçün bir heyvan göndərər".

Tuvada nağıl söyləmək bu gün də çox populyardır. Tuluş Baazay, Oorjak Çançi-Xoo, Bayan Balbır, Xertək Sortuy-ool, SatTevek-Kejege, Monquş Ağıldar, Oorjak Mannay kimi nağıl söyləyənlərin nağılları maqnitofon lentlərində yazıya alınıb. Köhnə nağıl söyləyənlərdən ən sanballıları-Tülyüş Sarıq-xaa, Tülyüş-Qoqel oorjak-Xurqul ool, Salçaq Bişen (qadındır) və bir çoxları bu ənənəni davam etdirən ən dəyərli davamçılardır.

**D.S.Kuular**



## ALTI QARDAŞ

Bu hadisə çox qədim zamanlarda baş vermişdir. O vaxtlar qoyunun buynuzları çürüyüb düşər, keçilərin qurd salmış buynuzları isə qopub düşərdi.

Həmin vaxtlarda yer üzündə altı qardaş yaşayırdı. Onların nə anaları, nə ataları, nə qohumları, nə də heyvan sürüləri var idi. Onların heç arvadları da yox idi. Avara kökündə yaşayan qardaşların halı bax beləcə idi.

Bir dəfə qardaşlar təzə köçüb getmiş bir aulun yerinə gəlib çıxdılar. Kiçik qardaş həmin yerdə altı dənə təzə kəsilmiş mal boyunu tapdı.

– Qardaşlar, bir baxın, görün, mən nə tapmışam, bura gəlin, burda altı dənə inək boyunu var! Qardaşlar, indi biz yeyib doyarıq! Siz onları bişirin, mən də gedim görüm daha nə tapıram.

Kiçik qardaş axşamacan axtardı, amma heç nə tapmadı. O, geri qayıdanda gördü ki, qardaşları altı boyunu yeyib, ona bir tikə də saxlamayıblar.

– Qardaşlar, axı mən sizə altı boyun vermişdim. Və mənimlə birlikdə – biz altı nəfərik. Siz təkcə ən kiçik qardaşınızı unutmusuz. Bu niyə belə oldu?

– Bir halda ki, sən qarnını unudub getdin, deməli, günahkar sən özünsən. Bir halda ki, gecikmisən, özünə tüpürmüsən – özündən də küs, – deyə böyük qardaş dilləndi.

Kiçik qardaş bu dəfə ac yatdı. Səhər tezdən isə siçan və sünbülqıranları axtarmağa getdi. O, çox yol getdi və nəhayət, sarı düzün ortasında kiçik bir dərənin kənarına gəlib çıxdı. Dərədə iri bir dovşan yatırdı. Oğlanın əlinin altında bir daş belə yox idi. O, sakitcə dərədən uzaqlaşıb daş axtarmağa getdi. Ancaq bir dağın ətəyində girdə bir daş tapdı. Daşın bir üzü qızılı

rəngə çalır, o biri üzü isə ağ idi. Kiçik qardaş Xeymər-ool* tələsik dərənin kənarına gəldi. Dovşan hələ də yerində yatırdı. Oğlan nişan alıb daşı atdı. Girdə daş dovşanın başını dəlib keçdi. Xeymər-ool qaçaraq gəlib ölmüş heyvanı qaldırdı və daşı axtarmağa başladı. Oğlan torpağı qazmağa başladı və bütün günü qazdı. Axşama yaxın daşı tapıb kürəyində gizlətdi və dovşanı da qardaşlarına apardı.

Böyük qardaşları ocağın qırağında oturub sözləşirdilər.

– Sən heç nə gətirməmisən! – biri deyirdi.

– Sən özün heç nə gətirməmisən! – o biri deyirdi.

Kiçik qardaş dovşan supu bişirib hamısını yedirtdi. Onlar yeyib doydular, gedib yatdılar. Xeymər-ool isə səhər tezdən ova getdi. Meşənin qurtaracağında yoğun qara şam ağacının yanında bir maral gördü o, nişan alıb girdə daşı atdı. Daş maralın başını yardı, ondan ötüb yekə qara şam ağacını iki böldü, sonra yerə düşüb torpağın içində itdi. Xeymər–ool xeyirxah daşını yerdən qaldırdı, maralı çiyninə atıb qardaşlarının yanına getdi.

Böyük qardaşları dünən yedikləri dovşanın sümüklərini biri-birinin əlindən qapıb acgözlüklə yeyir və biri-birinə söyərək qışqırırdılar.

– Qardaşlar, dalaşmayın! – Xeymər–ool yaxınlaşıb dedi. – Bir baxın görün, sizə nə gətirmişəm! – Və o, ac qardaşlarına şorbayla ət yedizdirdi.

Bir neçə gündən sonra qardaşları ondan soruşdular:

– Sən bu qədər növbənöv heyvanları necə axtarıb tapırsan, ovlayırsan? Onları sənə kim verir?

– Onları mənə məhsuldar torpağım verir. Tandı – adlı – qızıl tayqam verir!

*Xeymər-ool – kiçik qardaş



Oğlan öz yumru, yastı daşını götürüb ürəyinin üstünə qoydu və Arzaytının* o biri tərəfinə yol aldı. O, «Ayt» qışqıra-qışqıra tayqanın o biri üzündə çoxlu heyvan öldürdü. Tayqanın bu üzündə isə «eyt» qışqırıb çoxlu heyvan əldə elədi. Sonra hamısını bir yerə topladı, özü isə qardaşlarının yanına gəldi.

– Qardaşlar, mən meşədə elə bir yer tapmışam ki, orada çoxlu heyvan ölüsü var! Gedək, mən sizə göstərim, – Xeymər-ool dedi.

Qardaşlar onun dalınca qaçdılar. Onlar bir yığın heyvan leşini görəndə, hamısı gülüşdü.

– Aha, belə de! – dedilər. – Biz də elə fikirləşdik k, sən özün belə cəsur və sərrast vuransan! Sənsə bizə gör haradan heyvan əti daşıyırmışsan! Ha-ha-ha!

Nəhayət ki, doxsan gün aclıq keçirən qardaşlar yeyib doydular, altmış gün aclıq keçirənlər isə xirtdəyədək doydular. Səhəri günü Xeymər-ool tayqanın o biri üzünə yollandı; o ən boz qurdu, ən qırmızı tülkünü, ən qara samur və ən alabəzək pələngi vurdu. Bütün heyvan cəsədlərini ocağın qırağına gətirdi. Qardaşlar ocağın qırağında əyləşib yorulmadan ət yeyirdilər. Kiçik qardaşlarını vəhşi heyvanların cəsədləriylə görəndə, onlar qorxdular.

– Sən onları necə öldürə bildin? Axı, onlar çox qəddar heyvanlardır? Çox qəribədir!

– Mən onları öldürməmişəm, onları tapmışam, onların cəsədləri yerdə idi. – Və Xeymər-ool böyük fəxrlə heyvanların dərisini soymağa başladı.

Böyük qardaşları öz aralarında belə danışdılar:

– Bizim ayağımız onunkundan pis deyil, biz də gedərik! Bizim gözümüz onun-kundan pis görmür, biz də taparıq!

* Arzaytı – sıra (dişli) dağlar

Səhəri günü onlar da tayqanın o biri üzünə getdilər. Qəfildən pələnglə üzləşdilər. Qardaşlar heyvandan qorxub elə qaçdılar ki, az qaldı biri-birini basıb öldürsünlər. Sonra bəbirlə rastlaşdılar – tər dabanlarından axmağa başladı. Bu key ovçular nəinki iri, vəhşi bir heyvanı, hətta adi bir burunduku* belə öldürə bilmədilər. Ocağın qırağına çox qanıqara, ac gəldilər və gördülər ki, kiçik qardaş onlar üçün ət bişirib, piy hazırlayıb, oturub onları gözləyir.

– Hə, mənim böyük qardaşlarım, harda idiniz, nə gördünüz, çoxmu heyvan öldürdünüz? Bəlkə ölü heyvan tapmısız? – deyə soruşdu.

– Yox, biz bu gün çox az yeri gəzmişik, ölü heyvana da rast gəlməmişik.

Səhəri günü qardaşları yuxuda ikən Xeymər-ool ova getdi. Böyük qardaşları yuxudan qalxdılar və çox böyük həsədlə, kinlə qardaşları haqqında danışmağa başladılar.

– Nə olur-olsun, istənilən gün o evə qənimət gətirir!

– Onun gözündən heç nə qaçmır, o, hər şeyi görür!

– Nə heyvan olursa-olsun, o, hədəfə alıb ovunu öldürür!

– Nə olub, o niyə bizdən qabaqdadır?

– Bəlkə o hansısa bir sehri bilir?

Xeymər-ool isə elə hey gedir və gedirdi.

Böyük qardaşları ocağın qırağında əyləşib qədərincə yeyib doyduqları vaxt, kiçik qardaş yorulmadan ucu-bucağı görünməyən sarı düzü keçib gedirdi. Nəhayət, o durub ətrafa boylandı. Bu düzün nə əzəli, nə də sonu var idi. O, nə qədər baxdısa, nə bir tərpənən, nə də ötüb keçən kölgə belə görmədi. Amma düzün tən ortasında nəsə qaralırdı. «Bu nədir, görəsən?» – Xeymər-ool fikirləşdi. – Doğrudanmı biz altı qardaşdan başqa da buralarda

* Burunduk - «Sincab tipli heyvan»



13730

adam var? Deyirlər ki, belə adamsız yerlərdə albıslar və şulbuslar cövlan edirlər. Bəlkə bu qaraltı elə albıs və şulbuslardır? Nə olur-olsun, irəli gedib görüşmək lazımdır! Və o kölgəlikdəki qara fiqurlarla görüşmək üçün sarı düzü keçib getdi. Gəlib gördü ki, bu kölgələr – yeddi dənə qara kojeedir*. Oğlan yaxınlaşanda məəttəl qaldı: birinci kojeedən səkkiz insan başı, ikincidən yeddi, üçüncüdən altı, dördüncüdən beş, beşincidən dörd, altıncıdan üç və yeddincidən iki insan başı asılmışdı.

Xeymər-ool getməyib, maraqlandı ki, görüm bura kim gələcək. Kojeelərdən on addım o tərəfə bir çala qazdı. Günəş uzaq tayqanı aşanda çala hazır oldu və Xeymər-ool çalanın içinə girib uzandı. Nə olacağını görsün deyə, o bütün gecəni yatmadı. Amma heç nə olmadı, bu gecə heç kim ora gəlmədi.

Böyük qardaşlar isə o gecə ocağın qırağında qalıb, ətdən və saladan o qədər yedilər ki, axırda ürəkləri bulandı. Bir neçə gündən sonra Xeymər-ool onların yadına düşdü.

– O, nəsə çox yubanır.

– Yəqin, ona nəsə olub.

– Bəlkə bir vəhşi heyvana rast gəlib? Bəlkə yaralıdır?

– Onu axtarmağa getməyəcəyik. Yoxsa, bu uzun yolu onu daşıyıb gətirmək lazım olar. Bu çox ağırdır.

– Yaxşı ki, o bizimlə deyil, ətin çox hissəsi bizə düşər.

Xeymər-ool isə çalada qara kojeelərin yanında oturub gözləyirdi. Günün axırında şimal tərəfdən bir neçə atlı göründü. Onlar yaxınlaşırdılar. Ulduzlarsayağı alabəzək rəngə çalan birinci at – çox xırda, yumşaq addımlarla irəliləyirdi. Atlı parçadan olan lentlə haşiyələnmiş çesuça xalat geymişdi. Səkkiz ilan biri-birinə dolaşaraq onun kəmərindən sallanmışdı. Səkkiz insan başı hörükləriylə biri-birinə bağlanaraq yəhərə bərkidil-

*Kojee – daş heykəl



Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

mişdi. Bu şulbusun başı isə səkkiz buynuzlu səkkiz inək başından ibarət idi. Başların biri-birinə birləşdiyi yerdə, birinci şulbusda olduğu kimi yeganə - bir dənə çox iri, çəp göz var idi.

Üçüncü *bozumtul at* – *vəhşi pişik kimi* ehityatla yeriyirdi. Atlı kənarı məxmərlə haşiyələnmiş, qəhvəyi çesunça parçadan xələt geymişdi. Altı ilan biri-birinə dolaşaraq onun kəmərindən asılmışdı.

Saçları ilə biri-birinə bağlanmış altı insan başı isə onun yəhərinə sancılmışdı. Atlının başı altı inək başından ibarət idi. Başların birləşdiyi yerdə, birinci atlıda olduğu kimi bir dənə çox böyük çəp göz var idi.

Dördüncü səmənd atlı – nəhəng addımlarla yeriyirdi. Atlı – xüsusi dəri ilə haşiyələnmiş sarı çesuça xələt geymişdi. Beş ilan biri-birinə dolaşaraq yəhərindən asılmışdı. Onun başı nəhəng sarı buynuzlu beş inək başından ibarət idi. Başların birləşdiyi yerdə tək iri, çəp, qırmızı bir göz var idi.

Beşinci əbləq at – tullanaraq, başını ata-ata gəlirdi. Atlı qıraqları ipəklə haşiyələnmiş mavi çesuça xələt geymişdi. Dörd ilan biri-birinə dolaşaraq kəmərindən asılmışdı. Saçlarından biri-birinə bağlanmış insan başları isə yəhərindən asılmışdı. Onun başı dörd inək başından ibarət idi. Başların birləşdiyi yerdə tək bir göz var idi. Göz həm çəp, həm də qıp-qırmızı idi.

Altıncı kəhər at – qorxurdu. Atlı sarı qısa xələtdə idi. Üç ilan biri-birinə dolaşaraq onun kəmərindən asılmışdı. Saçları ilə biri-birinə bağlanmış üç insan başı yəhərə bağlanmışdı. Onun başı boz buynuzlu üç inək başından ibarət idi. Başların birləşdiyi yerdə tək bir dənə qırmızı göz var idi.

Yeddinci çal at – sakit ahənglə addımlayırdı. Sonuncu atlı çox cındır bir xələtdə idi. Onun kəmərindən biri-birinə dolanmış iki ilan asılmışdı. İki insan başı onun yəhərinə bağlanmışdı. Onun başı iki gözlü, iki inək başından ibarət idi.



Xeymər-ool çalada uzanıb əsirdi, tərpənməyə də qorxurdu. Amma yumru ağ daşın yanında olduğunu düşünəndə o, qorxmaqdan əl çəkdi. Atlılar qara kojeeyə yaxınlaşdılar, yəhərlərindəki insan başlarını açıb kojeelərdən asdılar və bir cərgəyə düzəldib allaha dua etməyə başladılar. Xeymər-oolla ən yaxın duranı, onların birincisi – səkkizbaşlı şulbus idi. Oğlan onun başını nişan alıb daşı atdı. Ağ daş birinci şulbusun bütün səkkiz başını əzib keçdi, sonra ikinci şulbusun bütün başlarını üzüb, o biri başlara tərəf uçdu və hamısının inək başlarını yardı. Beləliklə şulbuslar bir-bir yıxıldılar. Onların başları tək-tək yerə səpilmişdi.

Xeymər-ool çox qiymətli ağ daşını yerdən qaldırdı, ulduz sayağı bərq vuran atını mindi, yerdə qalan atları şulbusların izi ilə dalınca sürüb şimala tərəf getdi. Oğlan onların qaldıqları aulu tapmağa çalışırdı. O, ucu-bucağı görünməyən Sarı düzü keçib aşırıma qalxdı və uzaqda aalı gördü. Ora yaxınlaşdı. Heç bir yerdə peyin yox idi. Heç bir yerdə mal-qara yox idi. Oğlan «Çox qəribədir» deyə fikirləşdi. O, atları təpənin altındakı ağaca bağlayıb alaçıqlara tərəf getdi.

Kənarda elə bir ağ alaçıq durmuşdu ki, onu heç doqquz atla belə əhatə eləmək mümkün deyildi. Alaçığın girişində yerə üç dəmir dirək vurulmuşdu. İkinci də ağ çadırdan ibarət idi. Üçüncü açıq boz, sonra isə tamam boz çadır dururdu. Beşinci və altıncı alaçıqlar onlardan da tünd rəngdə idi, sonuncu isə tamam qara idi.

Oğlan «Ən böyük ağ alaçığa gedəcəyəm» - deyə qərar verdi. Elə bu vaxt qara alaçıqdan çox gözəl, girdəsifət bir qız çıxdı. O, bir qucaq odunu götürüb alaçığa qayıtdı. «Yox, yaxşısı budur, qızın yanına gedim», Xeymər-ool fikrini dəyişdi. O, qara alaçığa tərəf getdi. Elə bu vaxt axırıncıdan əvvəlki alaçıqda gördüyündən də qəşəng bir qız çıxdı. O da bir qucaq odun

götürdü. Oğlan ona tərəf yollananda beşinci alaçıqdan odun dalınca daha bir gözəl qız çıxdı.

Hər alaçıqdan biri-birindən gözəl qızlar növbə ilə çıxırdı. Hamısı da Xeymər-oolun çox xoşuna gəlirdi. Nəhayət, ağ alaçıqdan elə bir qız çıxdı ki, o, ay kimi gözəl idi. O, çayın puçalını yerə atdı. Aulun başlanğıcında dayanan nəhəng ağ saraydan isə heç kim çıxmadı. Xeymər-ool ay qədər cazibədar olan qızın çadırına yollandı.

Gözəl qız döşəkçənin üstündə əyləşib çox qəribə şəkildə, adamı ələ salan kimi gülümsünürdü. Oğlan onunla nəzakətlə salamlaşıb soruşdu:

– Bu kimin köçəbəsidir? Bu ağ, gözəl çadır kimindir?

– Bu çadır – Kuunundur, – gözəl qız cavab verdi.

– O, hara gedib? – Oğlan soruşdu.

– O, öz qızıl kojeesini işıqlandırmağa gedib, – gözəl qız cavab verdi.

– O, nə vaxt gələcək? – oğlan soruşdu.

– O, günbatanda gələcək. İstəyirsinizsə gözləyin.

Xeymər-ool bu çadırdan çıxıb, qonşu ağ çadıra girdi. Bu çadırın sahibəsi də onu eyni müəmmalı təbəssümlə qarşıladı.

– Bu kimin alaçığıdır? – o soruşdu.

– Bu alaçıq Sarıq-Kuunundur*, – gözəl qız cavab verdi.

– Özü hardadır? – oğlan soruşdu.

– O, öz qızıl kojeesini işıqlandırmaq üçün gedib, – gözəl qız cavab verdi.

– O, nə vaxt qayıdacaq? – oğlan soruşdu.

– O, günbatanda gələcək. Əgər onunla işiniz varsa, onda gözləyin.

* Sarıq-Kuun – Sarı qu quşu



Oğlan bütün alaçıqları gəzib dolaşdı. Gözəl qızlar ona müəmmalı təbəssümlə baxırdılar. Sahiblərin hamısı öz qızıl kojeelərini işıqlandırmaq üçün getmişdilər. Bütün gözəl qızlar cavan oğlana çadırda qalıb sahiblərini gözləməyi təklif etdilər. Xeymər-ool sonuncu qara alaçıqda soruşdu..

– Bu aalın başlanğıcında duran nəhəng ağ saray kimindir?

– Bu Sıldıs-xanın* sarayıdır.

Oğlan ağ saraya getdi. «Bu alaçıqlarda yaşayan adamlar görəsən kimlərdir?» – O fikirləşdi. – Heç bir alaçıqda piyaləyə toxunmağa belə icazə vermədilər!

O, ağ saraya girəndə gözəl qızı gördü, qız günəş kimi, ay kimi işıq saçırdı. Onun əynində və ayağında alabəzək-qızılı geyim var idi. Onun uzun qara saçları beş hörüklə hörülmüşdü. Qızın alt dodağı qızıl və gümüş kimi bərq vururdu. Üst dodağı isə şəkər kimi nur saçırdı. Qız qızıl dombudan (çaydandan) qızıl piyaləyə çay süzürdü.

O saat da Xeymər-oolun ürəyinə bir işıq doldu. Onun cavan sinəsində bir alov yandı. O, çox nəzakətlə salamlaşıb, özünü təqdim etdi.

– Bu aal-çöl, bu gözəl saray kimindir? – deyə oğlan soruşdu.

– Bu, adamyeyən-şulbuslarındır, – gözəl qız cavab verdi. – Amma bu sarayda şulbusların xanı sayılan Sıldıs-xan yaşayır. Mən adi bir qoca ilə qarının qızıyam. Biz Çinge-hemin* mənbəyində yaşayırdıq. Mənim ata və anamı şulbuslar hələ keçən il yeyiblər. Məni isə xan özünə arvad edib. O, mənə insan əti yeməyi öyrətməyə çalışır. Artıq bir il olar ki, mən canlı insan görmürəm. Və nəhayət, siz gəldiniz. Haradan gəlirsiniz? Siz bu

* Sıldıs-xan – Ulduz xan

* Çinge-Hem – Ensiz çay

aula niyə gəldiniz? Siz necə sağ qalmısız? – Və qız oğlan üçün çay süzdü, ona şəkər və kökə verdi.

Xeymər-ool yedi, içdi və dedi:

– Mən dünyanı gəzib, özümə yemək axtarıram, əldə edirəm. Budur, gəzə-gəzə gəlib sizin torpaqlara çıxmışam. Bu şulbusların görkəmləri necədi?

– Onlar – çoxbaşlı əcaib məxluqlardır. Onların bir neçə inək başları var!

– «Deməli, mən aulun sahibləri olan – şulbusları öldürmüşəm», – deyə fikirləşən Xeymər-ool çox sevindi və dedi:

– Axı, sən çoxbaşlı xanını heç sevmirsən, özün də burda əziyyət çəkirsən. Gəl, qaçaq və bir yerdə yaşayaq.

– Əgər hər şey adamın istədiyi kimi alınsaydı, yaxşı olardı. Amma bu mümkün deyil. Əgər biz birlikdə getsək sümükləri quruyana qədər, sönməyən alovları sönənə qədər şulbuslar bizim izimizə düşüb gələcəklər. Onlar bizi tapıb, ətimizi yeyəcəklər. Tez burdan çıx, get. İndi onlar aşırımın o tayında sarı düzdə yedikləri adamların başlarını aparıb qızıl kojeeni ziyarət edirlər. Artıq gün batır. Onlar indilərdə gəlməlidirlər. Çıx, get. O biri gün, şulbuslar adam axtarmağa gedəndə, yanıma gələrsən.

– Niyə o biri çadırlarda bu haqda mənə heç nə demədilər?
– Əksinə, mənə qalıb, sahiblərini gözləməyi təklif etdilər.

– Onlar səni yemək istəyirdilər, artıq onlar insan əti yeməyi öyrəniblər.

– Qoy şulbuslar gəlsinlər, qoy məni yesinlər, mən səndən ayrılmayacağam.

Qız ağlayıb yalvardı ki, oğlan getsin. Onun oğlana yazığı gəlirdi.

– Yaxşı, – oğlan dedi, mən gedərəm, amma, sən məni təpəyə kimi yola sal.

Onlar saraydan çıxdılar. Təpəyə qalxdılar.



– Sən bu atları tanıyırsan? – Xeymər-ool soruşdu.

Gözəl ulduz kimi alabəzəkli atı, göy atı, boz atı, səmənd atı, əbləq-ala atı, kəhər atı və çal atı-tanınmış şulbusun atını tanıdı. Qız içini çəkdi və ağ qanqalın kökü tək nazik, ağ əllərini oğlanın boynuna doladı, ona sığındı və sevincindən başını onun sinəsinə söykədi.

– De görüm, bu atları necə götürə bildin? – nəhayət qız soruşdu.

– Onların sahiblərini öldürüb, atlarını götürdüm! – Xeymər-ool məğrurcasına dedi.

İkisi də birlikdə saraya qayıtdılar. Yedilər, istirahət etdilər, güldülər, danışdılar və danışmaqdan doymadılar. Xeymər-ool sarayda üç gün yaşayıb dördüncü günü dedi.

– Mənim beş qardaşım var. Onları bura gətirəcəyəm. Axı onların arvadları yoxdur.

O, Saldıs-sokar – atı minib, o biri atları da ardınca apararaq doğma tayqaya yola düşdü.

Böyük qardaşlar ocağın başına yığılmışdılar. Onlar həm ac, həm də əsəbi idilər. Bu müddətdə qardaşlar kiçik qardaşın tədarük gördüyü ətin hamısını yeyib qurtarmışdılar. Xeyməl-ool başına gələnləri onlara danışdı. Atları qardaşlarına verdi və onlar birlikdə yeddi gözəlin yanına yollandılar. Sonuncu qara çadırın sahibəsini özünə aşbazlığa götürdü, qalan gözəlləri isə qardaşlarına verdi. Onların hamısı bu aulda yaşamağa başladılar. Kiçik qardaş ov ovlayıb böyük qardaşlarına gətirirdi.

Bir dəfə Xeymər-ool ovda olanda, qardaşlar bir yerə yığıldılar və ən böyük qardaş dedi:

– Bizim kiçik qardaş özünü öyüb, lovğalanır. O, ağ sarayda yaşayır!

– Onun şəxsi aşbazı var, amma bizim yox! – ikinci qardaş onun sözünə qüvvət verdi.

– Ən gözəl qızı özünə götürüb, ondan pislərini bizə verib, – üçüncü qardaş əlavə etdi.

– O, bizə elə rəhbərlik edir ki, elə bil o, böyüyümüzdür,– dördüncü qardaş dedi.

– Onu cəzalandırmalıyıq! – beşinci qardaş əsəbiləşdi.

– Hə, sən düz deyirsən, – böyük qardaş dedi. – Onu şikəst edib burda qoyarıq, özümüz isə yeddi çay keçib, yeddi aşırımı aşıb köçərik buradan.

Ertəsi günü böyük qardaş saraya girib gördü ki, Xeymər-ool günəş kimi işıq saçan gözəlini qucaqlayıb yatır. O, yatan qardaşını toppuzla başından vurdu, gözəli onun ağuşundan qopardı, ayaqlarının ikisini də qılıncla doğradı. Böyük qardaş gözəli qardaşının ağuşundan ayıranda, o biri qardaşları sarayı söküb dağıdırdılar. Arvadı bir təhər onların əlindən çıxıb ərinin üstünə cumdu. Qardaşlar o saat onu tutdular, əlini-ayağını bağlayıb bir təhər atın üstünə atdılar. Sonra alaçığı bütünlüklə söküb yığdılar və atlara yükləyib yeddi çay keçib altı aşırımdan o tərəfə köçdülər. Ayaqsız Xeymər-ool tamam tək qaldı. O özünə gələndə ətrafa boylanıb gördü ki, düzdə heç nə qalmayıb, bir dənə də şey titrəmir. Heç nə hiss olunmur. O, yorğan döşəyinə tərəf süründü və onun üçün əziz olan ağ daşını gördü – qardaşlar yastığını çırpanda daş onun içindən düşübmüş. Xeymər-ool daşı qoltuğuna soxub, düzə tərəf süründü. Tezliklə təpənin yanında yağlı bir tərbağan gördü. O, çiy əti yeyəndən sonra, qarnı qızışdı, əllərinə güc gəldi, sönmüş gözləri işıldadı. “Dünyada mənim qardaşlarım kimi məkirli qardaş ola bilməz, mənim ağ daşım kimi gözəl daş dünyada ola bilməz! – o, fikirləşdi. – Əgər qardaşlarım mənimlə belə qəddarcasına hərəkət etdilərsə, onlar həyatda xoş gün görməyəcəklər”. Və sakitcə irəliyə süründü. O, çox süründü. Nəhayət, qarşısına əli – qolu olmayan bir adam çıxdı.



– Sən kimsən? Hardan gəlib, hara gedirsən? – Xeymər-ool soruşdu.

– Mən ən diribaş, ən itiqaçan adamam. Eşitdiyimə görə Şulbu-Xürədə bir adam yaşayır, deyilənlərə görə çeviklikdə ona heç kim çata bilməz. Mən də onunla yarışmağa qərar verdim. Amma şulbus məni çox tez haqladı. Əllərimdən tutub çiynimə kimi qolumu qopartdı. Bəs sənə nə olub? Sənin ayaqlarını kim qoparıb?

– Mənim məkirli qardaşlarım ayaqlarımı kəsib bu ucu-bucağı görünməyən düzə atıblar. O vaxtdan mən də beləcə sürünürəm. Dostum, bəlkə sən biləsən, harda müalicə almaq olar? Bir məsləhət ver.

– Elə həmin xürədə bir alim adam yaşayır. O, hər şeyə qabil insandır. Kora göz verir, ayaqsıza – ayaq, əlsizə də əl verir.

– Məni ora apar, – Xeymər-ool dedi.

– Mən özüm də ora getmək istəyirəm, amma həmən şulbusdan qorxuram. Yox, indi mən ora getmərəm, – qolsuz adam dedi.

– Qorxma, şulbusun öhdəsindən gəlmək mənim boynuma, – Xeymər-ool dedi.

Qolsuz adam razılaşdı. Xeymər-oolu çiyninə alıb, Şulbu-Xürəyə yola düşdülər. Çox yol getdilər, tez- tez dayanıb istirahət etdilər. Nəhayət, onlar əllərini qabağa uzadıb gələn bir adam gördülər. Qabağına çıxan ağacları kökündən qoparır, iri daşları quma döndərirdi. Məlum oldu ki, o kordur və yoluna çıxan hər bir şeyi əli ilə yoxlayır. Dostlar onu çağırdılar, salamlaşıb soruşdular ki, bəs, bu bəlaya o necə tutulub?

– Mən bir pəhləvan idim. Bir dəfə eşitdim ki, Şulbu-Xürədə bir adam yaşayır və heç kim ona qalib gələ bilmir. Mən də onunla yarışmaq istədim. Amma ora gələndə, üstümə ayı bədənli bir nəhəng atıldı. Onun başı inək başı idi, hər iki tərəfin-

dən də at yalmanı sallanırdı. Biz tutuşduq. Düz otuz gün – bir ay vuruşduq, heç kim də udmadı. Biz elə yorulmuşduq ki, qəflətən dayandıq. Inək başlı ayı məni buraxıb getdi. Mən onun hara getdiyini öyrənmək istəyəndə, məlum oldu ki, gözüm heç nə görmür: otuz günlük mübarizidə mən kor olmuşdum.

– Məkrli qardaşlarım, mənim ayaqlarımı kəsdilər, – Xeymər-ool dedi. Həmin nəhəngsə mənim dostumun əllərini qoparıb. Sən necə fikirləşirsən, bizi kim müalicə edə bilər?

– Şulbu-Xürədə bir alim yaşayır. O, hər şeyi bilir. Amma mən indi ora getməyə qorxuram. Mənim düşmənim oradadır, – igid dedi.

– Bizimlə gedək, – Xeymər-ool dedi. Biz hamımız birlikdə müalicə olunarıq.

– Yox, məni öldürsən də, mən ora getmərəm!

– Qorxma, nəhənglə mən özüm haqq –hesab çəkərəm.

Kor razılaşıb ayaqsız Xeymər-oolu çiyninə aldı, qolsuz da onlara yolu göstərdi. Nə qədər getdikləri məlum deyil. Nəhayət, Şulbu-Xürəyə gəlib çatdılar. Xeymər-oolun dostlarını qorxu götürmüşdü. Onlar geri qayıtmaq üçün Xeymər-oolu razı salmağa çalışırdılar.

– Yaxşısı budur, əlsiz, ayaqsız olaq, amma yaşayaq, – deyirdilər. – Axı, bu nəhəng bizi öldürəcək!

Xeymər-ool onlara çığıraraq qabağa getməyi əmr elədi. Onlar da yarğana çatıb dayandılar və dedilər.

– Biz qorxuruq. İnanmırıq ki, sən şulbusun öhdəsindən gələ biləsən. Bir bizə de, görək, sən onunla necə döyüşəcəksən?

Xeymər-ool qoltuğundan öz sevimli ağ daşını çıxartdı.

– Bax, bu daşla mən o nəhəngi öldürəcəyəm!

– Nə danışırsan! O sənin üçün milçək deyil, çətin bu daşla onu öldürəsən! – əlsiz dedi.

Kor daşı əliylə yoxlayıb dedi:



– Mən dala qayıdıram.

Xeymər-ool onları çox dilə tutdu, nəhayət ki, dostlar razılaşdılar.

Üçlükdə xürəyə getdilər. Amma qolsuz bir addım geri qaldı, sonra da qaçdı. Kor qolsuzun getdiyini bilmədiyindən sakitcə irəli gedirdi. Xeymər-ool səsiylə ona istiqamət verirdi. O, qəfildən soruşdu:

– Əgər bu nəhəngə qabaqdan baxsan, o necə görünür?

– Necə ki, o, məgər buradadır? – kor qorxub geri qaçmaq istədi.

– Yox, o hələ yoxdur, – Xeymər-ool dostunu sakitləşdirdi, – mən elə-belə soruşdum.

– O mavi rəngdədir, uzaqdan inəyə oxşayır. Yaxına gələndə hər iki tərəfə səpələnmiş qara yalmanı görünür.

Xeymər-ool onlara tərəf qaçan mavi inəyi görürdü. Amma kora heç nə demədi və ağ daşı hazırladı. Nəhəng dördayaqlı çapırdı. Həm də çox sürətlə yaxınlaşırdı. Əvvəlcə onun dağılan qara yalmanı, sonra da onun tüklü ayı bədəni uzaqdan görünürdü.

– Nədir, hələ gözə görünmür?– kor soruşdu.

– Yox, hələ görünmür,– cəsarətli oğlan cavab verdi, amma özü artıq daşı qulaylamağa hazırlaşırdı.

Nəhayət, nəhəng tamam yaxına gəldi. Xeymər-ool daşı tulladı və onun başını yardı. Daş onun başının bu tərəfindən girib, o biri tərəfindən çıxdı.

– Bu da şulbus! –dedi.

Kor diksinib geri çevrilərək qaçmaq istədi.

– Qaçma, şulbus artıq ölür. – Xeymər-ool kinayə ilə əlavə etdi.

Kor dostuna inanıb yaxınlaşdı və əli ilə nəhəngin cansız bədəninə toxundu.

– Deməli, mənim gözlərim olacaq, sənin ayaqlartın, dostumuzunsa qolları olacaq! – kor sevinərək dedi.

Qolsuz qaçaraq gəldi, ölmüş şulbusa ehtiyatla baxaraq soruşdu:

– Doğrudanmı dostumuz onu bu balaca ağ daşla öldürə bildi?

– Bəli, – kor cavab verdi, – dostumuz onu bu daşla öldürdü. Sənsə – qorxaqsan. Harada idin? Yaxşı, nə isə, üçümüz də alim-həkimin yanına gedək. O, bizə təbiblik edib sağaldar.

Üçlükdə xürəyə getdilər. Xalq onları qəhrəman kimi qarşıladı. Hamı ayaqsız Xeymər-oola sitayiş etməyə başladı.

– Sən bizi qorxunc vəhşidən azad etmisən.

– Xürədən qırağa çıxan kimi hamını yeyən vəhşi heyvandan bizi xilas eləmisən, – adamlar deyirdi. – Eşq olsun sənə!

Camaat onları altı təkərli arabaya qoyub, altı atı cilovlayıb alim təbibin yanına apardılar. Təbib onları tez sağaltdı və dedi:

– Qorxunc şulbus daha yoxdur. – Heç kim buranı Şulbu-Xürə çağırmayacaq. Bu yeri xeyirxahımız, bizim canımızı vəhşidən azad edən dostumuzun şərəfinə Xeymər-Kodan çağıracağıq. Xeymər-oolu da özümüzə xan təyin edirik.

Hamı bu fikirlə razılaşdı və təzə xanın şərəfinə böyük ziyafət düzəltdilər. Bütün el-oba, kasıblar da dövlətlilər də – hamı ətdən yeyib, araqdan içdilər. Otuz gün bayram elədilər, daha qırx gün də bayramı davam etdirdilər.

Sonra Xeymər-ool qara idiklərini, qara ipəkdən olan xalatını, qara samurdan olan papağını geyinib, Qalçan Qısqıl – atını minib həm qardaşlarını axtarmağa, həm də onlardan intiqam alıb hayıfını çıxmağa getdi.

Böyük qardaşlarısa hər gün söyüşüb dalaşırdılar ki, Xeymər-oolun gözəl arvadı kimə qismət olacaq?! Yazıq gözəl də gecə gündüz ağlayıb, elə hey əri haqqında düşünürdü.



Xeymər-ool atılmış köçəbələrinə gəldi. O, ağ sarayın durduğu yerə baxdı. Ona verilən cəzanı xatırladı və içində intiqam hissi baş qaldırdı. O, düşmənlərinin izi ilə getdi.

Yeddi çay üzüb, yeddi aşırım aşandan sonra qardaşlarının aulunu gördü., alaçıqlar əvvəlki sırası ilə düzülmüşdülər. O, öz ağ alaçığına yaxınlaşıb qulaq asdı.

– Gözəl mənim olacaq! Yox, mənim! – qardaşlar qışqırırdılar.

Xeymər-ool dözməyib içəri girdi. O, əlində girdə, ağ daşı hazır tutmuşdu. Qardaşlar onu görəndə özlərini elə itirdilər ki, biri-birilərini basa-basa dığırlanıb alaçıqdan çıxdılar. Ay kimi, günəş kimi işıq saçan gözəl qadını Xeymər-oolu görəndə sevincindən qışqırıb onun üstünə qaçdı və ərini qucaqlayıb bağrına basdı.

– Sənsən günahkar, sənsən! – böyük qardaşlar titrəyərək, dişləri əsə-əsə biri-birinə sığındılar.

Onları öldürmək balaca qardaşa qismət olmadı, çünki onlar intiqam hissindən qorxub özləri öldülər.

– Xeymər-ool öz gözəl qadınıyla günün necə keçdiyini, axşamın necə düşdüyünü heç bilmədi də. Yaxşı şeyləri yada salıb güldülər, pis şeyləri xatırlayıb birlikdə ağladılar. Səhəri günü arvadını, nökər-naibini, atlarını və alaçıqlarını götürüb öz xanlığına köçdü.

O, sarayını çölün düz ortasında qurdu. Saysız-hesabsız heyvanlarını yaşıl dağlarda otarıb çox yaşadı və böyük xanlığına özü sahiblik etdi.

## ÇİN SEHİRBAZLIĞI TƏLİMİNİ ALMIŞ KARISIN SƏRGÜZƏŞTLƏRİ

Qulaq asın. Kadın-Hem çayının sahilində bir qoca ilə bir qarı yaşayırdı. Onların bir ağ dəyələri, min dənə boz qoyunu və bir də Karıs adlı səfeh bir oğulları vardı. O, heç vaxt qoyun otarmamışdı. Qoca və qarı sürünü növbə ilə otarırdılar. Bir dəfə qoca qarıya deyir:

– Bizim Karıs çox səfehdir. Biz öləndə o sürünün öhdəsindən gələ bilməyəcək. Neyləyək, deyirlər dünyada çin sehirbazlığı kimi bir təlim var. Əgər bu dərsi axmaq adama keçsən o, normal adam olar, səfehə keçsən ağıllanar. Yazıq oğlumuza bu dərsi keçən olsaydı, o da ağıllanardı. Amma Çin ölkəsi görəsən harada yerləşir?

Ertəsi günü qara atlı bir çinli onların çadırına yaxınlaşdı. Onun qara ipəkdən xələti və aşırma çantası vardı.

– Arzuladığımız adam özü bizim çadıra gəlir!-qocalar bir-birinə sevincək baxıb dedilər. Onlar çinlini ən hörmətli yerdə oturtdular, dadlı-ətirli çay dəmlədilər, qənd və kökə qoydular. Qonaqla nəzakətlə davrandılar.

– Oğlumuz çox səfeh və dəcəldir. Biz istəyirik ki, o elmlə məşğul olsun.

– Oğlunuzun adı nədir?

– Adı Karısdır. Biz onu göz bəbəyi kimi, barmağımızın sümüyü kimi qoruyuruq. O, bizim yeganə balamızdır. Mümkünsə ona çin sehrini elə təlim edin ki, aldığı dərsdən səfehliyi keçib getsin, ağlı başına gəlsin.

– Nə olar, əgər o, oxuyub biliklənmək istəyirsə, qoy oxusun. Mənim üçün isə bir yağlı qoyunu şişə keçirib, bütöv qızardın.



Qoca ən böyük boz qoyunu seçdi, şişə keçirtdi və bütöv qızartdı. Çinli yeyib doydu, qalanını da qara çantasına qoydu. O, üç gün kağız üzərində cizgi cızdı. Dördüncü gün dedi:

– Mən burda həm torpağı cızmışam, həm də sənin yolunu çəkmişəm. Qoca, əlindəki bu kağızla, oğlunla birlikdə cənuba tərəf gedərsiz. Gecə-gündüz düz bir ay yol gedəcəksən. Gəlib dənizə çatacaqsan. Sən dənizin sahilində böyük bir Çin şəhəri görəcəksən. Oğlun bu şəhərdə oxumalıdır. Və çinli yola düşdü. Ayın əvvəlində, aydın bir səhərdə, qoca bir aylıq yol üçün ət götürüb çantasına qoydu. Sonra oğlu ilə birlikdə cənuba tərəf yola düşdülər. Karıs çox şən və sevincək yol gedirdi. Qoca isə cizgiyə baxa-baxa əmin olurdu ki, çinli heç bir səhvə yol vermədən çox düz çəkmişdir. Onlar bir aydan sonra dəniz sahilində olan bir şəhərə çatdılar. Bu dənizin ucu-bucağı görünmürdü. Onlar çinlinin çəkdiyi kimi alt küçə ilə gedirdilər ki, birdən çinlinin özünü gördülər.

– Vaxtında gəlmisən, qoca. Mən sənin oğlunu şagirdliyə götürürəm. Sən bir də bu yerə on ildən sonra qışın orta ayının on beşində gələrsən. Onda oğlunu geri götürərsən, - çinli dedi.

İşlərinin belə müvəffəqiyyətlə alınmasından sevinən qoca evinə qayıtdı. Torpağın cizgilərinə görə o, yolu çox asan tapdı və bir aydan sonra doğma Kadın-Hemdə oldu.

Qoca qarısı ilə hər günü sayır və deyirdilər:

– Üç il gözləmək çox çətindir!

Beləliklə, onlar üç il hər günü birbəbir saydılar. Vaxtın tamamına bir ay qalmış qoca torpağın cizgisini götürüb yola düşdü. O, dənizin sahilindəki şəhərə gəlib çıxdı. Adamlar şəhərdə əvvəlki kimi var-gəl etmirdilər. Şəhər elə boş idi ki, ölü şəhərə oxşayırdı. Nə gözə bir şey dəyirdi, nə də bir yarpaq tərpənirdi. "Görünür, mən yolu azmışam, – qoca fikirləşdi, – bu o şəhər deyil". O, qəflətən çinliyə rast gəldiyi həmən küçəyə çıx-

dı. Birdən şəhərə qaranlıq çökdü, göydən fit səsi gəldi və səs-küy eşidildi. Qoca başını qaldırdı. Göyərçinlərdən ibarət iri bulud kütləsi günəşin qabağını kəsərək aşağı enirdilər. İndi həmin bu şəhərdə göyərçinlər yaşayırlar – o, fikirləşdi. – Mən göyərçinlərin dillərini bilsəydim onlardan soruşardım ki, insanlar hara gediblər?". Qoca təyin olunduğu yerdə nə qədər gözlədisə də heç kim gəlib çıxmadı. Və evə getməyə qərar verdi. Yolda bir göyərçin onu haqladı. O, qocanın başı üstə dövrə vurub ona rahatlıq vermirdi. Yazıq qoca başını fırlatmaqdan yorulub yerə əyləşdi. Göyərçin də onun yanına qondu. Qoca onun başını sığallayıb dedi:

– Görünür, səni özümlə aparmalı olacağam! Birdən göyərçin onun oğluna çevrildi. Elə bu vaxt daha bir göyərçin də uçub gəldi və qocanın çiyninə qondu, atılıb yerə düşdü və çinli müəllimə çevrildi.

– Hə, qoca, oğlunu qəbul elə, – dedi. – Sən harada bu sehri tapa bilərsən ki, insanı quşa çevirsin? Amma sənin oğlun bu sehri bilir. O, istədiyi kimi quşa çevrilir və bütün quşların dilini bilir! Sən şəhərə gəldin və gördün ki, orada bir adam da yoxdur, sənin qanın qaraldı. Sən heç ağlına da gətirə bilməzdin ki, bu şəhərin adamları göyərçinə çevriliblər. Oğlunun çox pis adı var. Bu adla şulbusların qara dəftərinə çox tez düşmək olar. Qoy bundan sonra onun adını İlbiçi-Kara çağırsınlar.

Bunu deyib, çinli göyərçinə çevrildi və uçub getdi. Qoca şimala tərəf yol aldı. Oğlu göyərçinə çevrilib yanı ilə uçdu.

– Nəhayət, o, Kadın-Hemenin sahibi olacaq! – qoca sevinclə fikirləşdi. Və sakitcə oxudu:

Qaya – çaylara uçsa,
Elmi yox edə bilməz
Bürkü dağlar dağıtsa
Oğlumu ala bilməz!



Bir aydan sonra onlar doğma Kadın-Hemedə oldular. Oğlu ata-anasına çin sehrini necə öyrəndiyini danışır, sevinir, fərəhlənirdi. Əvvəlki səfehliyindən əsər-əlamət belə qalmamışdı. Oğlunda əsil kişi düşüncəsi yaranmışdı. O,obalar adladıqca sehirli nəsə edirdi. Qoca qarıya dedi:

– Bax ha, onun köhnə adını ağzına gətirmə. Onu üç dəfə köhnə adıyla çağırsaq, oğlan şulbusların qara dəftərinə düşəcək, – çinli belə dedi.

– Ey ulu göylər! Bəs indi onu necə çağıraq?

– Müəllimi ona İlbiçi-Kara adını verdi.

Bir neçə gündən sonra qoca arvadına dedi:

– İndi oğlumuz alimdir, biz də qocalmışıq. Əgər bir gün ölsək – bu gecədən keçmiş olacaq, əgər sabah ölsək, bu səhər tezdən olacaq. Oğlumuza gərək xörək bişirməyi bacaran bir qız tapaq.

Qoca bir hissəsi at başından olan qızılı külçəni, bir hissəsi canavar başından olan gümüşü külçəni qoltuğuna soxdu. Sarı ipək gidiyini də götürüb oğluna qız axtarmağa getdi. O, Kadın-Heme çayı ilə yuxarı getdi və üç gündən sonra uzaqda bir dövlətli aulu gördü. Aaldan bir az aralıda alaçıq hündürlüyündə kül tökülmüşdü. Aalın mərkəzində isə təpə kimi hündür, dəyirmi ağ saray dururdu. Birdən alaçıqdan yüzlərlə göz qamaşdıran qızlar çıxdılar.

– Onlardan birinə elçi düşsəydim, yaxşı olardı, – qoca fikirləşib, saraya yaxınlaşdı.

– Qoy uğur mənə yol yoldaşı olsun, arzularım yolumla, yolum da arzularımla üst-üstə düşsün, – dedi, – saraya daxil oldu. Onun ilk gördüyü adamlar – ağsaç bir qocayla, ağbirçək bir qarı oldular. O, nəm çəkmiş çubuq kimi əyilib ev sahiblərinə təzim etdi.

– Haradan gəlib, hara gedirsən? – ondan soruşdular.

– Mən qarımla Kadın-Hemdə yaşayıram. Biz tənha oğlumuzu evləndirmək istəyirik.

– Biz ən mötəbər yerdə əyləşib, işləri həll etmirik. Tayqanın ətəklərində əyləşib heyvana güllə atmırıq. Sən yüzlərlə gözəli gördünmü? Özün üçün birini seç.

– Uğur mənə yoldaşdı, yolum arzularımla bir-birinin üstünə düşür, – deyə qoca fikirləşdi və at başlı qızılı canavar başlı gümüşlə birgə ev sahibinə verdi. Qoca qızlara baxdı, onlardan təzə aya və parlaq günəşə bənzəyən bir qız seçib özü ilə Kadın-Hemeyə apardı.

– Mənim arzum həyata keçdi! – deyə qoca şən əhval-ruhiyyədə evlərinə qayıtdı.

Ardına qulaq asın. Qoca oğlunu həmən gözəllə evləndirdi. Toyu dördlükdə qeyd etdilər. Bir neçə gündən sonra qoca eşitdi ki, gözəl gəlin oğlunun çadırında gecələmir. İlbiçi-Kara onların yanına gəlib soruşdu.

– İnsanlar evlənəndə belə olur məgər? Gün təzə çıxanda arvadım yoxa çıxır, gün batanda arvadım – budur ha, peyda olur.

– Biz sənə nə deyə bilərik, oğul? Axı biz savadsız adamlarıq. Sənsə, çin sehrini öyrənib savadlanmış adamsan. Bir sehir elə, bəlkə bir şey öyrənə bildin.

İlbiçi-Kara o saat bir arıquşuna çevrilib Kadın-Həmenın səmaları ilə uçmağa başladı. O, bir ağaca qonub, alçaqdan fit çalırdı. Birdən itmiş arvadını gördü. Ayaqlarını torpağa vurmadan çayın sahiliylə çayın mənbəyinə tərəf uçurdu. İlbiçi-Kara ondan dala qalmadan ardıyca uçdu.

– Arvadı alaçıq hündürlüyündə olan kül təpəsinin yanında durdu, üç dəfə ətrafında qaçıb fırlandı... və qızıl paltarında kül təpəsinə girdi. Qız elə o anda da küldən çıxdı, silkələndi və qırmızı tülkiyə çevrilib, çöl pişiyi kimi çay yuxarı qaçmağa başladı. Mənbəyin ağzında içi mağaradan ibarət olan bir ağ təpə var idi. Yüzlərlə qırmızı tülkülər təpənin yanında oynaşıb yemək axtarırdılar. Bu tülkü də onların yanına qaçdı. Səhərə yaxın tülkülərdən biri sürüdən ayrılıb kül təpəsinə tərəf qaçdı. Özünü külə vurub eşələndi, sirkələndi, qızıl geyimli gözəl qıza çevrildi və çay aşağı qaçmağa başladı.



İlbiçi-Kara ağ təpədəki mağaraya qayıtdı və öz sehiri ilə öyrəndi ki, bura şulbusların obasıdır. O, at başı boyda qırğıya çevrilib evə qayıtdı. Alaçığın qarşısında öz sifətini alıb içəri girdi. Arvadı artıq çay dəmləyib, kökələri hazırlayıb qəndlə birgə stolun üstə yığmışdı.

– Sən hara getmişdin? – qadın soruşdu.

– Məgər elə bir qayda var ki, evli kişinin heç bir yerə getməyə ixtiyarı olmasın? Mən ova getmişdim! Gün təzə çıxanda ilim – ilim itirsən, gün batmağa yaxın peyda olursan! Sən qırmızı tülküsən, o tülkü ki, gecələr insan gözü onu görmür.

– Mən tülküyəmsə, onda sən də çin sehrini öyrənmiş ləkəli itsən, – gözəl qışqırdı və ərini vuran kimi onu sarışın itə çevirdi.

– Avv, avv! – oğlan it kimi hürdü və heç bir söz deyə bilmədi.

Tülkü onun üstünə atıldı ki, boğazını üzsün, amma o, tülkünün əlindən çıxıb meşəyə qaçdı. Durmadan doqquz çayı üzüb, doqquz aşırımı aşdı və nəhayət, yorulub dincəlməyə başladı. Səhər tezdən aşırımdan aşağı boylananda,qarşısında dar və qara Çingə-Kara-Hem çayını gördü. O, çayın sahili ilə üzü aşağı getdi və min ağ qoyunu otaran ağbaş bir qocaya rast gəldi. Qoca dikdə durub hıqqıldayırdı, heyvanlar da hərəsi bir yerə səpələnmişdi. Ilbiçi-Kara sürüyə tərəf qaçdı.

– Bu it hansı dünyadan gəlib? Qoyunları qorxutdu, - deyib qoca qışqırdı və çomağını itə tərəf atdı.

İt kənara tullandı. Qoyunlarsa qayanın dalında gizləndilər.

– Xartıqa, qoyunları qaytar! – qoca çığırdı.

İt qayanın dalına keçib qoyunları qaytardı. "Oho, yəqin bu it hansısa çoxlu qoyunu olan bir bəydən qaçıb, – qoca fikirləşdi. – O qoyunları necə otarmağı yaxşı bilir. Elə, mənə kömək edər. Oğlu olmayana o, oğul olacaq, qızı olmayana qız olacaq. Bu gün mənim bəxtim gətirdi.

Axşam İlbiçi-Kara qoca ilə birgə aala gəldi.

– Qoca, iti çağır! Onu yedizdirmək lazımdır, yoxsa qaçar! – qarı qışqırdı. Qarı cəmə çirkab suyu töküb itin qabağına qoydu. İlbiçi-Kara pəncəsilə onu açırdı.

– Bu nə qəribə itdir, qoca, bir bax, o qab suyunu içmədi!

– O, yəqin dövlətli adamın yanında yaşayıb, insanların yediklərindən yeməyə alışıb.

Qoca öz yeməyini qızıl qaba çəkib itə verdi. İlbiçi-Kara qoca ilə qarının arasında oturub yeməyə başladı. Sonra başını gah qocanın, gah da qarının əli üstə qoydu.

– Bundan sonra bu qızıl boşqab itin boşqabı olacaq – qoca dedi.

İt hər gün qocayla bərabər sürünü otarır, axşamüstü onları mal damına salırdı. O, üç il oğul kimi qocaya kömək elədi.

Ardına qulaq asın. Ağ düzün ortasında Ağ-Sağış adlı bir xan yaşayırdı. Xan ildə bir dəfə evlənirdi. Onun hər il də arvadı ölürdü. Nə xan bir şey başa düşürdü, nə də alimlər baş çıxara bilirdilər. Xanın çobanları Çingə-Kara-Hemedə yaşayan qocanın ağıllı iti barədə sahiblərinə danışdılar.

– Qoy, iti mənim yanıma gətirsinlər, -xan dedi. – Bəlkə o, mənim arvadımı qoruya bildi. Və üç nökərini qocanın yanına göndərdi.

– Biz sənin yanına xanın xahişinə görə, xartığa – itin dalınca gəlmişik.

– Əgər xan əmr edirsə, nəinki sevimli iti, hətta öz başımı da verərəm, – yazıq qoca dedi.



Qoca ilə qarı itə baxanda ağladılar, nökərlərə tərəf dönəndə gülümsündülər.

– O, insanların yediyi yeməkləri yeyir, – qoca dedi. Qoca nökərlərə başa saldı ki, iti necə yedizdirsinlər. Sonra da iti onlara verdi.

– Nədi, qoca itini verməyə ürəyi gəlmirdi? – xan soruşdu.

– O dedi ki, xan əmr edərsə, nəinki iti, başımı da verərəm. O dedi ki, it adamların yediyi yeməklərdən yeyir, – deyə nökərlər cavab verdi və iti necə yedirtməyi xana danışdılar.

– Onların uşağı olmadığı üçün onlar iti belə yedizdiriblər. İt gərək it yeməyi yesin! Ona çirkab suyu verin! – xan dedi.

Cəmdə çirkab suyu gətirdilər. İt yaxınlaşıb qabı aşırdı. Sonra da xanın alaçığına girdi, xanla arvadının arasında əyləşib qızıl qabdan yemək yeməyə başladı.

– Bu gündən etibarən, bu qızıl boşqab itin boşqabı olsun, – xan dedi.

Gecə də, gündüz də xan iti bağlı saxlayırdı. Bir neçə gündən sonra o dedi:

- Onu buraxın, əgər qaçıb Çingə-Kara-Hemeyə, qocanın yanına getsə başını vurun!

Nökərlər iti açıb buraxdılar, amma o heç yerə getmədi. İt insan kimi başını yastığa qoyub yatırdı.

Bir aydan sonra, gecənin bir vədəsində, ildırım çaxdı. Onun səsi gah yuxarı dünyadan, gah da yeddi aşırımın arxasından gəlirdi. Birdən göydən çox iri qızıl ördək hay-harayla yerə, torpağa sarı şığıdı. O, xan alaçığının yanında yerə düşdü və elə o saat da öz qırmızı burnunu xan arvadı yatan keçə alaçığa soxdu. Xan və arvadı qışqırıqdan ayılıb, çarpayıdan yerə düşdülər. Amma Xartığa – it o andaca ördəyin burnunu dişlədi. Xan və arvadı qışqırığa görə yıxılsalar da, bu qışqırıq adi qışqırıq deyildi. İldırıma görə oyansalar da onun adi ildırım olmadığını

hiss etdilər. Səhəri günü hər şey yoluna düşəndə xan sakitcə alaçığından çıxdı və nəhəng, doqquzbuğumlu çox nəhəng ördəyi gördü. Onun boynu beş qarışlıq dişlənmişdi. Xartığa – it isə onun yanında hərəkətsiz uzanmışdı.

"Yəni it də ölüb?" – xan fikirləşdi və itə tərəf əyildi. Itin qarnı yavaş – yavaş tərpənirdi. O, nəfəs alırdı. Xan iti ağ olbuğun üstə qoydu, ona süd içirtdi, ağ dərmanla müalicə etdi. Və it də cana gəldi.

O vaxtdan da xanın arvadını heç bir bəla gözləmədi. "Bundan sonra hakimiyyət bu dördayaqlı itə məxsusdur" – deyə xan fikirləşdi. O, oğluna baxdığı kimi itə baxır, ona nəvaziş göstərirdi.

Tezliklə cır-cındır geymiş sarışın bir qız xanın alaçığına girdi. Onun əlində pələng başlı dəmir əsa var idi. O, bütün günü diqqətlə itə baxırdı. Sonra qız gözünü çəkib dedi:

– Yuxarı dünyadan gələn şulbusu məğlub edən it ola bilməz. Bu, yəqin Kadın-Hemedə yaşayan qocanın oğludur, bu – şulbusların qara kitabına düşmüş, qara qoşunlarına tabe olmuş İlbiçi-Karadır. O, çin sehrinin yalnız üçünü bilir, mənsə-doqquzunu! İlbiçi-Kara, özün ol! Qadın əlindəki pələng başlı əsasını itə vurdu.

İlbiçi-Kara özü oldu. Sonra oğlan və qız iki göyərçinə çevrilib biri-birinin ardınca uçmağa başladılar. Ağ – Sağış xan dedi:

– Qoy, onlar mənim övladlarım olub, yanımda yaşasınlar.

Və onlar xanın yanında yaşamağa başladılar.

İlbiçi-Kara günü-gündən arıqlayıb, saralırdı. Tezliklə, tamam soluxub qurudu.

Xan soruşdu:

– Sənə nə olub? Sən xəstəsən?



– Vətənimi, valideynlərimi yada salanda, nə göyərçin olduğumu, nə də həyatın dadını duymuram.

Xan dedi:

– Valideyndən yaxşı heç nə ola bilməz. Əgər darıxırsansa günü sabah onların yanına gedə bilərsən.

Ertəsi gün xan aşırma sumanın bir gözünü yeməklə, o biri gözünü də tarazlıq yaransın deyə qızılla doldurdu. Səma rəngli atı və xalatı, samur papağı ona verib evlərinə yola saldı.

İlbiçi-Kara doqquz çayı keçib doqquz aşırımı aşdı və nəhayət, doğma Kadın-Hemeni gördü. Qocaların sarı alaçığından qalxan tüstü havada burum-burum burulurdu. İkinci tüstü də onun öz alaçığından qalxırdı. "Mənim atam anam sağdırlar!" – o, sevincək fikirləşdi və atı tələsdirdi. Ağ çadırdan bir gözəl çıxdı.

– Mənim altı il itmiş ərim evə qənimətlə dönür! – Gözəl qaçıb atın yüyənini saxladı. İlbiçi-Kara əsəbiləşdi:

– Əl çək, yaramaz! Yalan yerə demirlər ki, "Çapanın yüyənindən, gedənin balağından sallaşma!"

– Mən əl çəkməyəcəyəm. Axı, mən sənin arvadınam. Sən mənə qənimət gətirmisən.

– Sən qırmızı tülküsən, amma mənə arvad deyilsən!

– Deməli, belə! Əgər mən qırmızı tülküyəmsə, onda sən də boz ququ quşusan! – deyib boz taxta parçası ilə onu vurdu.

İlbiçi-Kara boz ququ quşuna çevrildi. O, budağa qonub aşağı baxdı. Gözəl-şulbu aşırılma sumanı yəhərdən açdı. Onun hər iki gözünə doldurulmuş yeməkləri və qızılı alaçığa daşıdı.

"Ata-anamla görüşüb, söhbətləşmək mənə qismət olmadı! – yazıq İlbiçi-Kara fikirləşdi. – Heç olmasa mahnıma qulaq assınlar!"

Və o, ardıcıl olaraq onların alaçıqlarının başı üstə "ququ" deyib oxudu. Quş elə yanıqlı oxudu ki, bütün ağaclar diksindi

və fidanları çatladı. O, elə kədərlə oxudu ki, torpaq əridi, içindən yaşıl otlar çıxdı.

– Bu quş oxuyandan bəri hər yer çiçəkləyib – valideynləri dedi.

İlbiçi-Kara doqquz çayın üstündən uçub, doqquz aşırımı aşaraq üç il qoyununu otardığı qocanın aulunda oxumağa başladı.

O, Çingə-Kara-Hem çayının sahiliylə üzüaşağı uçub Ağ-Sağış-xanın alaçığına yaxın yerdə bitmiş ağacın budağına qondu.

– Bu quş oxuyanda, ölü canlanır, sönən təzədən alışır! – adamlar bunu deyib, əl-ələ tutaraq ağlaşdılar.

– Əgər bir adam bu quşu öldürsə, onun başını vuracağam! – xan dedi.

Üç gündən sonra əlində pələng başlı əsa tutmuş bir sarı qız xanın alaçığına yaxınlaşdı.

– O, yenə şulbusların qara kitabına düşdü! – qız ququ quşuna baxdı.

Boz ququ torpağa endi. Qız əlindəki dəmir əsanı ona toxundurdu.

– İlbiçi-Kara, əvvəlki adam ol! – dedi.

İlbiçi-Kara özü oldu.

Ququ ququşun nəğməsindən torpaq çiçəkləndi.

– İndi sən onun yerinə oxuyacaqsan, – sarı qız dedi və onu arıquşundan boz ququya çevirdi.

İlbiçi-Kara isə yenidən arıqlayıb qurumağa başladı.

– Sənə nə olub? – xan soruşdu.

– Mən yazıq valideynlərimə çox yaxın idim, amma yenə onları görə bilmədim. Onlara bir kəlmə söz deyə bilmədim.

Ağ-Sağış-xan aşma sumanın bir tərəfinə çoxlu azuqə, tarazlıq üçün o biri tərəfinə qızıl qoydu, qara atı tutdu, İlbiçi-Karaya qara ipəkdən xalat, qara samurdan papaq verib evə yola saldı.

İlbiçi-Kara doqquz çay keçib, doqquz aşırım aşandan sonra doğma Kadın-Hemi gördü. Qocaların sarı alaçığının bacasından tüstü yenədə burulub qalxırdı. Aula yaxınlaşan kimi ağ çadırdan çıxan gözəl onun üstünə qaçdı və özünü sevincək göstərib qışqırdı.

– Bir il səs-səmiri eşidilməyən ərim qənimətlə evə gəlib! – o qaçaraq atın yüyənini tutdu.

İlbiçi-Kara ona necə qələbə çalmaq haqqında fikirləşmək əvəzinə, əsəbi halda qışqırdı.

– Əl çək, lənətə gəlmiş! Sən qızıl xalatlı gözəl deyilsən, sən qırmızı tülküsən!

– Ah, belə de! Əgər mən qırmızı tülküyəmsə, onda sən də qızıl çaydaça-pansan! – gözəl– şulbus qışqırıb taxtası ilə onu vurdu.

İlbiçi-Kara qızıl çaydaçapana çevrildi. O, Ağ-Sağış-xanın yanına uçdu. Çaydaçapanın şirin səsinə qulaq asa-asa ər və arvad günortayacan yatdılar.

– Bu quş, çox gözəl oxuyur! Əgər bir adam onu öldürsə, onun belini qıraram, qoy bu quş əbədi gözəl quş olsun, qoy bizim üçün və gələcək nəsillər üçün əbədi oxusun – xan dedi. Tezliklə dəmir əsalı sarı qız xanın alaçığına yanaşdı.

– O yenə şulbusların dəftərinə düşdü! – qız quşa baxıb dedi.

Quş uçub qıza yaxınlaşdı.

– İlbiçi-Kara, özün ol! – qız dəmir əsa ilə ona toxundu. İlbiçi-Kara gülümsəyərək onun qarşısında dayandı.

Ağ-Sağış-xan onlara alaçıq və heyvan verdi.

– Öz torpağınızın sahibi olun – dedi.

İlbiçi-Kara qızla birgə öz alaçığına getdi.

– Sən kimsən, sənin adın nədir? – oğlan soruşdu.

– Mənim adım onbeş yaşlı Onqa-Darıydır. İlbiçi-Kara de görüm, sən nə fikirləşirsən, niyə qəmlisən?

Kadın-Hemedə mənim valideyinlərim var, yəqin onlar çox qocalıblar. Mən hər gün onlar haqqında fikirləşirəm, nə yeyib, nə də yata bilirəm.

– Ölənləri yad eləmək çox ağırdır, diriləri yad eləməksə ondan da ağırdır. İndi başa düşdüm ki, sən niyə saralmısan. Sən gərək Kadın-Hemeyə gedəsən! - Onqa-Darıy dedi.

İlbiçi-Kara Ağ-Sağış-xana yaxınlaşıb dedi:

– Mən valideynlərimi fikirləşəndə nə yemək, nə də yaşamaq istəyirəm. Harda otururamsa, orda darıxıram, harda durramsa, orda atamı, anamı düşünürəm.

Xan ona yenidən yol tədarükü gördü. Ağ atı yəhərlədi. İlbiçi-Kara yola düşməyə hazırlaşanda onbeş yaşlı Onqa-Darıy qaçaraq yaxınlaşdı, pələng başlı dəmir əsanı ona uzadıb dedi:

– Gözəlçə – Şulbu sənin qabağına gələndə, atın yüyənini tutacaq. Onda sən ona deyərsən: "Sən qırmızı tülkü deyilsən, sən alabəzək inəksən!" – elə o saat da onu bu əsa ilə vur.

İlbiçi-Kara doqquz çayı keçib, doqquz aşırımı aşdı və qocaların çadırından qalxan tüstünü gördü. Gözəlçə onun qarşısına çıxdı.

– Bir ilə yaxın haralardasa itib – batmış ərim qənimətlə evə gəlir! – Dana kimi cəld qaçıb atın yüyənindən yapışdı.

– Sən qırmızı tülkü deyilsən, sən-alabəzək inəksən! – İlbiçi-Kara qışqırdı və pələng başlı əsa ilə onu vurdu.

Gözəl-şulbu alabəzək inəyə dönüb Kadın-Hemeylə üzü yuxarı qaçmağa başladı. İlbiçi-Kara atla çapıb ona çatdı, qocaların çadırına gətirib onu ağaca bağladı. Kəməri üç dəfə dirəyə dolayıb, möhkəm bir düyün vurdu.



Çadıra girib qocaları gördü. Onlar çox gücsüzləmiş, halsız halda gəzişirdilər.

– Mən kiçik olanda siz məni yedizdirdiniz. İndi mənim növbəmdir, mən sizi yedizdirəcəyəm – İlbiçi-Kara dedi.

O böyük bir baltanı götürüb inəyi tikə-tikə doğradı və ətini bütün düzə atdı ki, quşlar doyunca dimdikləyib yesinlər. İnəyin sümüklərini isə ocaqda əritdi. Sonra səma rəngli atının izi ilə onu axtarıb tapdı. Qocaların yerini atın üstündə rahatladı və doqquz çayı, doqquz aşırımı aşıb Ağ-Sağış-xanın yanına gətirdi. Qoca çevrilib son dəfə Kadın-Hemeyə baxdı.

– Əgər kişi doğma torpaqlarını tərk edib hara, hansı torpağa getdiyini yaxşı bilirsə, deməli, o öz torpağından üç dəfə artıq bir yerə gedir. Yox, əgər hara getdiyini bilmirsə, onda cəza kimi üç bədbəxtçiliklə üzləşəcək. – Qoca belə deyib doğma çayı ilə xudahafizləşdi.

İlbiçi-Kara cavab verməyə söz tapmayıb fikirləşdi: "Atam qoca olsa da çox ağıllıdır."

Tezliklə onlar Ağ-Sağış-xanın ölkəsinə gəlib ağ alaçıqlarını qurdular. İlbiçi-Kara atı minib, üzü yuxarı qalxdı. O, Çingə-Kara-Hemeyə, Xartığa-it olub qoyun sürülərini otardığı qocaların yanına gedirdi. Məskənə yetişib, başına gələnləri qocalara danışdı. Yaxşı xatirələri yada salıb güldülər. Pis xatirələrə isə ağladılar! Sonra oğlan onların da alaçığını aparıb, öz valideyinlərinə yaxın yerdə qurdu.

O, gözəl onbeş yaşlı Onqa-Darıyla yaşamağa başladı. Onların ailəsi bütün düşmənlər, bütün şulbuslar üçün əlçatmaz oldu. Onlar birlikdə çox uzun və xoşbaxt bir ailə həyatı yaşadılar.

## MÜDRİK TUTUQUŞU URAN-DOYDU

Qulaq asın. Bu hadisə hələ çox qədim dövrlərdə baş vermişdi. O vaxtlar qoyunun buynuzu çürüyüb yerə tökülər, öküzün buynuzu isə ovulub toza dönərmiş.

Elə həmin vaxtlarda da Sarın-xan adında bir xan yaşayırmış. Onun arvadı xəstələnib yatırmış. Üç il olarmış ki, o, yerindən qalxmırmış.

Bir gün Xan üç çurağacı, münəccimləri və gələcəkdən xəbər verənləri yanına çağırıb onlardan soruşdu.

– Mənim arvadım üç ildir ki, xəstədir. Onun ayağa qalxması üçün nə eləmək lazımdır?

– O, gərək yüz quşun beynini yeyə, – sarı çurağaclar cavab verirlər.

Xan yüz quşun beynini tapmaq üçün başını çox işlədir və bütün xanlığı dolaşıb heç bir yerdə quş ovlayan tapmayır. Günlərin bir günündə, uzaq bir yerdən axan dar çayın sahilində o, bir qocaya rast gəlir. Qoca ömür boyu qundaqlı yay üçün ilgəklər hazırlayırmış. O, elə beləcə də qocalmışdı. Sarın-xan fikirləşdi: "Mənə də elə, beləsi lazımdır. Bu qoca yüz quşu öldürə bilər". Və o, qocaya dedi:

– Qoca, mənim xan – çadırıma, yanıma gələrsən!

Sarın-xan atını çapdı. Qoca da, qorxunu bir təhər unudub onun dalınca getdi. Xan əmr edibsə, ona necə tabe olmayasan?

Adi adamlara hörmət eləmək, xanın qanunlarında yazılmasa da Sarın-xan qapının ağzında bir stul qoyub qocanı orda oturtdu. Bütün ləziz yeməklərdən stolun üstünə düzdürdü.

– Ye, qoca, ye və bil: üç ildir ki, arvadım xəstə düşüb, ayağa qalxmır, alimlər deyirlər ki, ona sənin beynini yedirtmək lazımdır. Çünki sən artıq yüz quşu öldürmüsən. Ye, qoca, yaxşı-yaxşı ye, çünki sən artıq işıqlı dünyada gəzməyəcəksən, öləcəksən, qoca, sonuncu dəfə ye!



Qoca dedi:

– Arvadım da mənimlə bərabər qocalıb. İndi o, acından öləcək. Sizdə bir adam tapılarmı ki, bu yeməklərin hamısını ona aparsın? Heç olmasa ömründə bir dəfə də olsa qoy dadlı yeməklərdən o da doyunca yesin.

Qocanın gözünün yaşı yanağından süzüldü.

– Yaxşı, qoca, sən nə dözülməz, nə darıxdırıcı adamsan! Yaxşı, get, amma üç gündən sonra yüz quşun beynini mənə gətir. Bununla da sən öz beynini yüz quşun beynilə əvəz edərsən.

Qoca sevincək gülümsündü.

– Ey mənim xanım, mən üç günə yüz quşu gətirərəm. Burda çətin bir şey yoxdur. Mən sizə yüz quşu üç gündən də tez çatdıraram.

O, stolun üstündəki dadlı yeməklərin hamısını torbaya doldurub, torbanı kürəyinə atıb, bir təhər özünü evə çatdırdı.

– Hə, qarı, mən xanın yanında oldum. Xan mənim başımı istədi. Amma sənə yazığım gəldiyindən başımı başqa şeylə əvəz elədim. Xanı razı saldım ki, öz başımın yerinə ona yüz quşun başını gətirim. Tez ol gəl, ilgəklərdən toxuyaq.

Qoca qarı əri ilə birgə səhərə kimi beş yüz ilgək toxudular.

Dan yeri ağaranda qoca çaya tərəf getdi. Oradakı qovaq ağacında tutuquşu yuva qurmuşdu. Onlardan biri çox istedadlı və müdrik idi. Adına da Uran-Doydu deyirdilər. Qoca qovaq ağaclarına yaxınlaşanda artıq orda tutuquşuların heç biri qalmamışdı, yem dalınca uçmuşdular.

Qoca ilgək torunu qurdu. " İstirahət vaxtı hamısı burda olacaq", o fikirləşdi.

Tutuquşular axşamüstü qovaq tərəfə uçurdular.

– Dayanın, – istedadlı Uran-Doydu tutuquşu qışqırdı.

– Qovağa qonmaq olmaz, orada şeytan var. Gəlin qayalıqlarda gecələyək.

Və o, tutuquşuları ardınca başqa yurda apardı.

Səhəri günü qoca qarıya dedi:

– Yetmiş bir tutuquşu artıq ilgəkdədir. Gedib onları yığmaq lazımdır.

O, qovaqlara tərəf gəldi, amma ilgəklərdə bir dənə də olsun quş yox idi. Qoca başa düşdü ki, tutuquşular bu gecə yaxınlıqdakı qayalarda gecələyiblər. O, beş yüz ilgəyi yığıb qayada qurdu.

Axşamüstü tutuquşular yemlənib geri qayıdırdılar. İstedadlı Uran-Doydu tutuquşu dedi:

– Bizə burda gecələmək olmaz, şeytan indi də burdadır. Biz bura yox, öz qovaqlarımıza uçacağıq.

Yetmiş tutuquşu bir səslə dedilər:

– İstedadlı tutuquşu, özünü çox öymə! Sən görünür özündən çox razısan! Lovğalanırsan ki, istedadlısan! Sən bizə nə deyirsən? Gah orda şeytan var, gah burada şeytan var! Şeytan necə həm orda, həm burda ola bilər? Şeytan ya ordadır, ya burda! Biz daha yorulmuşuq, daha uçmaq istəmirik, ayaqlarımız donub. Biz elə burda gecələyəcəyik.

Uran-Doydu qovağa tək uçdu. Tezliklə eşitdi ki, bütün tutuquşular ilgəyə düşüblər. Onlar səs salıb qışqırır, çırpınıb canlarını qurtarmağa çalışırdılar. Uran-Doydu fikirləşdi: "Səfehlər bəlaya düşüblər. Onların harayını eşidib necə kömək eləməyim? Və o, qayalara tərəf uçdu.

Tutuquşular qanad çalıb qışqırırdılar:

– Bizi azad elə, Uran-Doydu! Biz tələyə düşdük! Biz məhv olduq! Biz öləcəyik!

– Mən sizə xəbərdarlıq eləmişdim. Siz mənə qulaq asmadınız. Elə ona görə də tələyə düşdünüz. Özünüz ilgəkdən çıxa bilməyəcəksiniz. Sizi ancaq qoca xilas edə bilər. Mənə qulaq asın. Sübh vaxtını gözləyin. Qoca gələndə başınızı yerə qoyun, tərpənməyin, elə bilsin ki, ölmüsünüz. Onda qoca sizin hamınızı qayadan düşürüb bir ilgəkdən azad edib yerə tullayacaq və sayacaq: "Bir, iki, üç, dörd..."



Yerdə qalıb tərpənməyin. O, "yetmiş bir"– deyəndə, bir yerdə mehribancasına uçarıq.

Və Uran-Doydu ən yuxarı ilgəyə girdi. Tutuquşular bütün gecəni böyrü üstə uzanıb qaldılar. Qoca səhər gəlib ilgəkləri yoxladı.

– Aha-a! – qoca sevincək qışqırdı, – əlimə keçdiniz, lənətə gəlmişlər. Baho, siz ölmüsünüz ki!

Fikirləşmədən tutuquşuları ilgəkdən çıxarıb yerə atır və sayırdı. Quşlar da tərpənmirdilər. Qoca nəhayət axırıncı Uran-Doydu tutuquşunu ilgəkdən çıxartdı. əlindən buraxmadan dedi:

– Yetmiş bir!

Və yetmiş ağılsız tutuquşu bir yerdə havaya qalxdı.

– Ay lənətə gəlmişlər! – qoca çığırdı, – məni aldatdılar! Yaxşı, eyib etməz, mən heç olmasa bununla bacararam. Onun gözlərini çıxaracağam!

O, Uran-Doydunu əllərində sıxdı.

– Gözlə, qoca, tələsmə, – tutuquşu danışdı. – Mənim üçün fərqi yoxdur ki, indi ölüm, ya sonra. Amma sən məni indi öldürsən, mən səni sonra öldürəcəyəm. Mən bilirəm ki, sən yüz quşun beynini tapmalısan, vaxt da ki, artıq keçib. Mən bu gün ölsəm, sən də sabah öləcəksən. Amma mən səni xilas edə bilərəm. Elə yerə get ki, orda mənim qədr-qiymətim bilinsin. Sarın-xanın aalından bir az aralıda yaşayan Sarıldıq-cümətin yanına get. Mənim qiymətim – əlli gümüş pula bərabərdir. Sən on gümüş pula yüz quş ala bilərsən, qırxım da özünə saxlayıb varlanarsan.

Qoca cümətin yanına yollandı. Sarıldıq sevinib istedadlı tutuquşunu əlli gümüş pula aldı. O, dedi:

– Mən sənin həyatını xilas elədim, Uran-Doydu.Gəl, bir atanın-ananın oğulları kimi doğma qardaş olaq.

Mən razıyam, – tutuquşu dedi.

– İş dalınca getməliyəm, – cümət dedi. – Mən evdə olmayanda arvadım harasa gedir. Və heç kim bilmir ki, o, hara gedir. Sən qardaş, ondan muğayat ol, qoyma o çadırdan çıxsın.

Sarıldıq-cümət yola düşən kimi, gözəl arvadı geyinib, atını yəhərlədi. Uran-Doydu onun çiyninə qondu və dedi:

– Sən neyləyirsən? Mənim qardaşım, sənin ərin xidmətə getdi. Məgər ərin evdə olmayanda harasa getməyə ixtiyarın var?

– Sən kimsən, nə zəhlətökən quşsan? – gözəl qışqırdı. Bu əlli gümüş pula dəyər deyə, özündən belə çıxır? Mən indi bu lənətə gəmişin başını üzəcəyəm. Atamda əlli gümüş pula dəyən bir cidar var. Onu bu əbləh quşun yerinə ərimə verərəm.

– Nökərlər, tutun onu, sarıyın!

Nökərlər tutuquşunu tutub ayaqlarını sarıdılar. Cümətin arvadı xəncəri qınından çıxarıb əlini qulayladı.

– Ay mənim gəlinim, bir az gözlə, hara tələsirsən?! – tutuquşu qışqırdı. – mən bilməzdim ki, belə əsəbiləşərsən. Mən sənə bir əhvalat danışmaq istəyirəm. Eşitmək istəyirsənsə qulaq as.

– Şiyaan*, – gözəl dedi.

– Şiyaan, – deyib Uran-Doydu nağıla başladı.

"Bu əhvalat çoxdan olmuşdur. Uluq-Kara-Hem çayının sahilində qoca bir ovçu yaşayırdı. Onun bir oğlu var idi. Bu oğlan doqquz dilin doqquzunu da bilirdi. "Oğlum, məni eşit. Mən sabah öləcəyəm. Sənin üçünsə üç dənə qırmızı parlaq pul qoyuram. Sən bu pula bilmədiyin üç xeyirxah sözü almalısan. Bu pulları heç bir vaxt nə qızıla, nə gümüşə, nə gözəl qıza, nə də mal-qaraya dəyişmə. Yalnız bu pulu üç sözə dəyiş. Çünki sən bu sözlərin hesabına insanlara kömək edəcəksən! Qoca səhərə kimi danışdı, sübh tezdən isə həmin pulları keçi damarı ilə iç tərəfdən

*Şiyaan – beləliklə (burada-başlayaq!-mənasında)



oğlanın xələtinə tikdi. Qoca səhər öldü. Oğlan atasını dəfn edib cənuba tərəf yola düçdü. Üç parlaq qırmızı pul xələtin o biri üzündən görünürdü və gecə üç işıq kimi onun yolunu işıqlandırırdı. Çoxları bu işıqları almaq, çoxları onu oğurlamaq istədi. Ancaq oğlan pulları qorumaq üçün çox ayıq-sayıq idi. O, uzun müddət yol getdi, ayın otuz gününü yol qət elədi və nəhayət, elə bir yerə gəlib çıxdı ki, orada nə bir ot bitirdi, nə də bir yaşıllıq vardı. İsti qumdan başqa heç nə yox idi. Sarı qum getdikcə daha artıq qızırdı. Ayağındakı idiklər istidən əyilmişdi, ayaqlarında isə sulu qabarlar əmələ gəlmişdi. Hara baxırsan, – hər yer quru səhra idi, başqa heç bir şey gözə dəymirdi. Oğlan bir gün də yol getdi və nəhayət, bir aal gördü. Bu çox varlı bir çinlinin aalı idi. Çinli üç qırmızı parlaq pulu görən kimi oğlanı qarşılamağa çıxdı və onu hörmətlə evə dəvət elədi. O, qonağını ən hörmətli yerdə əyləşdirib, onu ən ləziz yeməklərə qonaq elədi. Həmişə də mehribancasına gülümsünüb qulluğunda özü durdu. Çinlinin yurtasında (alaçığında) oğlan çox cavan, çox gözəl bir qız gördü.

Çinli dedi: "Mənim əziz qonağım, görürəm, qız sənin xoşuna gəlir. Sən onu məndən ala bilərsən. Əgər sən mənə üç qırmızı pulu versən mən qızı bütün aala birlikdə sənə verə bilərəm. Mən pulları səndən almaq istəyirəm".

– Üç sehirli söz var ki, mən onları bilmirəm, – oğlan dedi. – Yalnız o sözləri eşidib, pulları verə bilərəm. Pulu başqa heç nəyə dəyişmərəm.

Sübh açılana qədər çinli oğlanın zəhləsini tökdü, amma onu yola gətirə bilmədi. Günəş çıxanda isə qışqırdı: "Yolçu nacins! Bütün günü səni yedirtdim! Sənin bilmədiyin birinci söz budur – "Üzəngiyə qalx!" o birilərini mən özüm də bilmirəm. O, oğlanın xələtindən pulun birini qoparıb, yoluna yemək də qoymadan evdən qovdu.

Oğlan cənuba tərəf yoluna davam elədi. Sarı düzdə, sarı səhrada olduğundan da artıq quraqlıq idi. Üç gündən sonra aal göründü. Bu aal varlı bir çinlinin idi. Çinli qırmızı, parlaq pulları görən kimi oğlanı qarşılamağa tələsdi və onu ədəb-ərkanla evinə dəvət etdi. Oğlanı ən mötəbər yerdə əyləşdirdi, onu ən dadlı yeməklərə qonaq etdi, həmişə də gülümsəyərək onun qulluğunda durdu. Yeməkdən sonra çinli dedi: "Mən sənə qara göz, sarışın atımı verərəm, sənə gümüş yəhərimi və tərliyi verərəm, amma bunların əvəzində sən də mənə parlaq qırmızı pulları ver!"

– Mənim bilmədiyim iki xeyirxah söz var, – oğlan cavab verdi. – Mən qırmızı pulları yalnız həmin sözlərə dəyişə bilərəm. O sözləri deyin, pullar da sizin olsun!

Çinli qonağı üçün yumşaq yorğan – döşək açdı, özü də yanında əyləşib səhərə qədər pulları ələ keçirmək üçün oğlanı dilə tutdu. Amma gün çıxanda qışqırdı: "Yolçu nacins! Sənin bilmədiyin sehirli sözlərdən biri budur – söhbətin mahiyyətini bilmədən xasiyyətini göstərmə!" Üçüncü sözü mən özüm də bilmirəm. Ayağı ilə oğlana sıxılıb qırmızı parlaq pulun birini xələtdən qopartdı. Oğlan cənuba tərəf olan yolunu davam elədi. O, yenə iki gün, iki gecə yol gedib, yenə bir çinliyə rast gəldi. Hər şey əvvəlki kimi təkrar olundu. Mehriban ev yiyəsi qonağa qulluq göstərdi və sonra dedi: "Mən sənə gözəl ayaqqabı və paltar verərəm, bir ağ dəvənin apara biləcəyi qədər gümüş verərəm, əvəzində isə sən də qırmızı parlaq pulunu mənə ver". – "Bir sehirli söz var ki, mən onu bilmirəm. Onu mənə de, pulu götür".

Çinli qonağı üçün yumşaq yorğan-döşək açdı. Bütün gecəni qonağını dilə tutdu ki, pulları ona satsın. Səhər isə qışqırdı: "Yolçu nacins! Sənin bilmədiyin söz budur: – "Əmin-amanlıqla yaşayın!" – İndi isə cəhənnəm ol!" Və o, oğlanın xələtindən sonuncu qırmızı pulu qoparıb, özünü isə qovdu.



Oğlan yenə də cənuba tərəf yolunu davam elədi. Ətrafda nə ot, nə su, nə də aal var idi. Yeməyə də heç bir şey yox idi. Oğlan fikirləşdi: "Mənim atam kinli və məkrli adamdır. O, məni məhv elədi. Bu üç söz mənim nəyimə gərəkdir. O, pulların heç olmasa birini gərək mala, heyvana verəydim. İndi acından öləcəyəm. Oğlan torpağı qazıb özünə məzar hazırladı və içinə girib uzandı.

Birdən çoxlu insan səsi eşitdi. Onların ağladığını, ya oxuduğunu ayırd edə bilmədi.

"Mən pul verib aldığım sözlərdən birini bu adamlara verəcəyəm", – oğlan qərar verib ayağa durdu. İnsanlar ağlayırdılar. Oğlan onların qabağına getdi və qışqırdı: "Üzəngiyə qalx! Üzəngiyə qalx!" – bu sözləri eşidən insanlar çox sevindilər. Gülümsünüb oğlanı dövrəyə aldılar. – "Üzəngiyə qalx! Axı, bu sözün mənası – yola hazırlaş! – deməkdir, dedilər. – Bizim xilasımız yoldadır. O da gedəcək. O, bizi xilas edəcək". Oğlana ağ idiklər, ağ ipəkdən xələt, ağ samurdan papaq verdilər. Onu qara gözlü, qırmızı ata oturtdular. Ağ dəvəni ən dadlı müxtəlif yeməklərlə yüklədilər və dedilər: "Bu torpaqda bütün su ehtiyatı quruyub. Adamların yarısı öləcək. Mal-qaranın da yarısı qırılacaq. Təkcə Uspa-dənizin dibi qurumayıb. Çox adamlar su dalınca ora gedib-lər, amma heç biri qayıtmayıb. Təkcə bir nəfər oradan qayıda bilər. O da ki, "Üzəngiyə qalx!" sözünü deyən adamdır. Məhz bu adam yola hazırdır. Odur ki, sən "Uspa-dəniz"ə yola düşməlisən.

Və oğlan yola düzəldi. O, ağ dəvənin daşıdığı yeməklərdən yedi və fikirləşdi: "Bütün bunlara baxmayaraq mənim atam çox kinli adamdır. Bu üç söz mənim nəyimə gərəkdir? Mən bu sözlərlə itib-batacağam. Məgər mən ordan qayıdacağam? Orada bu qədər adam məhv olub! Mən gərək pulu çinlilərdən birinə sataydım". Tezliklə o, yol boyu çoxlu sümüklər gördü. Daha sonra o dağ boyda ağ sümüklər və dağ boyda insan bədəninin

sümüklərini gördü. Bəzi bədənlərdə hələ həyat əlaməti kimi istilik hiss olunurdu, bəzilərində isə barmağın biri tərpənirdi.

Nəhayət, Uspa-dəniz göründü. Amma dəniz elə qurumuşdu ki, dibində qalan suyu parçla götürmək mümkün idi. Oğlan doyunca sudan içdi, sonra atına və dəvəsinə çoxlu su içirtdi. Ancaq bardağı yarısına kimi doldurmamışdı ki, kimsə arxasında durub dedi: "Vaxtdır". O, çevrildi və gördü ki, kimsə qılıncı sıyırıb başının üstündə saxlayıb. – "Dost, nə edirsən? Məğzi bilmədən, xasiyyətini göstərmə", - oğlan pulla aldığı ikinci ifadəni dedi. Həmin adam elə o saat da oğlanı götürüb apardı. Oğlan başını qaldıranda özünü ağ alaçığın qapısında gördü. "İçəri keç". Oğlan içəri keçdi. Onun qarşısında ağlamaqdan gözləri şişmiş işıq saçan bir gözəl qız dururdu. "Əmin-amanlıqla yaşayın" – oğlan sonuncu sirli kəlmələri dedi. Gözəl gülümsünüb oğlanı dadlı yeməklərə qonaq etdi. Bayırda durmuş adam qılıncını qınına qoyub içəri keçdi və soruşdu:

– Arzuları yolu ilə, yolu arzuları ilə tuş gələn xeyirxah hökmdar, sən haradan gəlmisən?

– Mən elə bir yerdən gəlmişəm ki, orada nə ot bitir, nə də su var. Orada hər şey quruyub. Mən insanlara kömək etmək üçün gəlmişəm.

– Uspa-dənizin dərinliyində əbədi bulaq suyu olan ərcan suyu çıxır. Bardağını doldur.

Oğlan yenidən dənizin sahilində, əvvəlki yerində idi.

O, bütün bardaqları ərcan-suyu ilə doldurdu. Bardaqları dəvələrə və atlara yükləyib geri qayıtdı. Tezliklə bu torpaqlara güclü və uzun sürən yağışlar yağdı.

Oğlan xanın aalna yaxınlaşırdı. Xanın qulbeçələrindən biri başını alaçıqdan bayıra çıxarıb dedi:

– "Uspa-dəniz"ə su dalınca gedən oğlan gəlir. Onun bardaqları su ilə doludur. – "Ha-ha-ha! Bu lap axmaqdır ki! – xan



güldü. Ətrafda bu qədər su ola-ola, uzaqdan su gətirir? O, bardaqları dolu gətirib? Onları yerə tökün!" xanın oğlu dəvələrə və atlara tərəf qaçdı, gördü ki, bütün qablar ərcan-suyu ilə doludur. O, bütün suyu yerə tökdü. Ərcan-suyunun töküldüyü yerdən o saat çox nəhəng, sulu meyvələr böyüyüb qalxdı.

Adamlar qaçıb gəldilər. Oğlanın yaxşı paltarını soyundurub, əyninə cındır geyindirdilər və qovdular. O, geriyə-şimala qayıtdı. Dərələrin birində qazayağı otu bitirmiş. Onlar uzun və çox qalın idilər. Oğlan otun qalın gövdəsindən alaçıq düzəldir, köklərini isə yeyirdi. Beləcə də yaşamağa başladı.

Ardına qulaq asın. Böyük hökmdar xanı və oğlunu yanına çağırdı:

– Siz nə etdiniz ki, torpağınızdakı sular yoxa çıxdı? Başınızı üzmək lazımdır.

– Bağışlayın, hökmdar, – xan dedi, biz suyu necə quruda bilərik? Su özü yoxa çıxdı. Burda bir səfil dolaşırdı. O, elə hey deyirdi: "Üzəngiyə qalx!" Onu su üçün Uspa – dənizə göndərdik. O, suyu gətirəndə şiddətli yağış yağdı. Otlar bitdi. İndi yenə də su yoxdur.

– Hanı, hanı o oğlan?!

– Bilmirik.

– Tez axtarıb tapın. Yanıma gətirin. Əgər oğlan burada olmasa başınızı papağınızla, əllərinizi qolunuzla birgə qıracağam! Hökmdar xanın oğlunu qara çadıra salıb, xanı da oğlanın dalınca göndərdi.

Xan otuz nəfər adamla onu axtarmaq üçün çöllərə düşdü, dağlara qalxdı, gəlib dayaz bir dərəyə çatdı. Oğlan dərədə uzanıb qazayağının köklərini yeyirdi.

– Niyə uzanırsan, qalx, səni böyük hökmdar çağırır, – xan şəst ilə səsini qaldırdı.

– Mən onun yanına getməyəcəyəm.

– Özü getmək istəmirsə , onda onu sarıyın!

Oğlan yerindən sıçradı, yerdən qumu götürüb xanın nökərlərinin gözünə atdı. Onlar kor oldular. Xan bir təhər gedib özünü böyük hökmdara çatdırdı və olanları ona danışdı. O zaman hökmdar özü onun yanma gəldi. O, iri, ağ kədəki hörmətlə, iki əlli oğlana sarı uzatdı. Oğlan da ot köklərini hörmətlə hökmdara tərəf uzatdı.

– Mənim hökmdarlıq etdiyim bu dünyada sən daha çox fayda verirsən, – böyük hökmdar dedi.

O, günəş kimi, ay kimi işıq saçan gülümsər qızını oğlana verdi. Xanla oğlunun başını isə vurdu.

Uran-Doydu nağılını bu sözlərlə bitirdi. Gəlin əvvəlcə vurnuxdu, sonra da yola hazırlaşdı.

– Dayanın, getməyin, bir dənə də maraqlı nağıl danışmaq istəyirəm, istedadlı Uran-Doydu tutuquşu dedi və nağıla başladı.

"Bu əhvalat çox qədim dövrlərdə baş verib. Dünyada bir Sarın-xan yaşayırdı. Onun çox şux və vəhşi bir atı var idi. O, bu atı heç tuta bilmirdi.

Günlərin bir günü xan əmr elədi ki, çin sehrini bilən bir adamı axtarıb, tapıb onun yanına gətirsinlər. Belə bir adam gəldi. Xan ona baxıb rişxəndlə gülümsündü.

– Deyirlər, sən sehri yaxşı öyrənmisən? Bir sehrbaza baxın! Ha-ha-ha! Bəs niyə mən sənin sehrini görmürəm? Əgər sən həqiqi sehrbazsansa, elə bu dəqiqə, mənim gözümün qabağında öz sehrini göstər!

– Yaxşı, xan, mən sizə öz sehrimi göstərərəm. Sehri çox göstərim?

– Günorta yeməyinə qədər göstər öz sehrini. Nahara qədər heç bir işim yoxdur. Göstər, mən də görüm.

– O... yox, xan, nahara qədər sehirlərimi göstərsəm, siz dözməzsiniz. Gəlin, belə edək: qızıl piyaləyə qaynar çay tökün



və onu qarşınızdakı stolun üstünə qoyun. Nə qədər ki, çay soyuyur, ondan buxar qalxır, mən sehirlərimi göstərəcəyəm.

Xan razılaşdı. O, qızıl piyaləyə çay süzüb qarşısındakı stolun üstünə qoydu. Sehirbaz diqqətlə xana baxdı. Xan gözlərini yayındırıb çaya baxdı. O, birdən gurultulu hay-küy eşitdi. Məlum oldu ki, nökərlər çox vəhşi, ələkeçməz bir atı gətirmişlər. Uzun illər idi ki, bu atı heç kim tuta bilmirdi. Xan sevindi və sehirbazı unudub, saraydan qaçaraq çıxdı. O, gördüyünə məəttəl qaldı: bütün nökər – naiblər, bütün xalq, hətta onun üç il xəstə yatıb-durmayan arvadı da bu ipə-sapa yatmayan atın dalınca qaçırdılar, Xan da onlara qoşulub qaçmağa başladı. Nəhayət ki, atı dövrəyə alıb tutdular.

– Tez ol, onu min! – arvadı xana dedi.

Xan atı mindi. At götürüldü və xanı cənub tərəfə apardı. Yorğa at yumşaq yerişlə yeriyirdi ki, qamışın kökünü əzməsin. At beləcə gedirdi. O, gəlib təlatümlü dənizin sahilində dayandı. Lakin birdən at şahə qalxıb xanı aşırdı və qaçıb getdi. Xan iki zəif ayaqları üstə tək qaldı.

– Hara gedim? Nə yeyim? O, çox ac idi.

– Dənizdən bir balıq tutsaydım, çox yaxşı olardı, – o, fikirləşdi. Qəfildən qarşısında burunsuz bir qarı peyda oldu.

– Bu torpağın adamları hara yox olub? – xan soruşdu.

– Mən bu torpaqda heç bir xalq haqqında eşitməmişəm.

– Sən harda yaşayırsan, sənin aalın haradadır, sən nə yeyirsən?

– Elə burada yaşayıram, bax, orada da mənim çadırımdır. Çöl siçanlarını tuturam, qazayağını qazıb çıxarıram, bununla da yaşayıram.

– Məgər burda heç at olmur?

– Mən bilmirəm ki, at nə olan şeydir? Siçanları, sünbülqıranları – bilirəm. Amma at haqqında eşitməmişəm.

– Eybi yox, gedək sənin çadırına.

Burunsuz qarı xanı çadırına apardı. Çadır onun xoşuna gəldi. Içəri səliqə ilə yığışdırılmış və tərtəmiz idi. Və Sarın – xan burunsuz qarı ilə evləndi.

Bir ildən sonra qarı olduqca gözəl bir oğlan uşağı doğdu, bir ildən sonra bir oğlan, üçüncü ildən sonra daha bir oğlan da doğdu. Xan və qarı oğullarını çox sevirdilər.

Bir dəfə Sarın – xan sümbülqıranlara ilmə toru qurmaq üçün düzə getdi. Birdən çevriləndə gördü ki, böyük qardaşlar sonbeşiyin əlindən tutub dənizə tərəf getdilər. "Qayıdın! Qayıdın!" – qarı çığırıb onların dalınca qaçdı. Xan da ilmələri atıb onların dalınca qaçdı. Onlar qaçana kimi oğlanlar dənizə çatdılar və dəniz öz dalğalarıyla bir-bir onları ağuşuna aldı. Qarı da uşaqlarını xilas etmək üçün özünü suya atdı, o da qayıtmadı. Xan tamam tək qaldı. O, tənha sahildə bilmirdi ki, nə eləsin, hara getsin, ümumiyyətlə, harasa getməyin mənası var idimi? Gözündən axan yaş onu boğurdu.

– Xan, nə deyirsən, bəlkə bəs edər? – birdən onun başının üstündən səs eşidildi. Xan diksindi. Gözlərini qaldıranda sehirbazı gördü. Məlum oldu ki, o, öz sarayında stolun arxasında əyləşib. Qarşısındakı qızıl piyalədə çay var. Xan çaydan bir udum alıb gördü ki, çay hələ ılıqdır.

– Budur, xan, mən sizə öz sehrimi göstərdim. Qızıl piyalədəki çay hələ soyumayıb. Əgər sehrimi nahara qədər davam elətdirsəydim çox güman ki, siz dözməzdiniz. Siz heç yerinizdən qalxmamışsınız, amma sizə elə gəldi ki, at minib çapmısınız. Gözünüzə görünən təlatümlü dəniz isə qarşınızda duran qızıl piyalədəki çay idi.

İstedadlı tutuquşu Uran-doydu bu sözlərlə nağılını bitirdi. Elə həmin vaxtda da böyük Sarıldıq-Cümət gəlib çıxdı, hiyləgər gözəl də heç yerə gedə bilmədi.



## PƏHLƏVAN TEVENE MEGE VƏ ONUN ATI DEMİR-ŞİLGE

Bu əhvalat çox qədim zamanlarda baş vermişdi. Deyilənlərə görə o vaxtlar dəvənin quyruğu yerə, dağ keçisinin buynuzu isə göyə dəyərmiş. Elə həmin vaxtlarda da Arzılan-Tayqanın şimal aşırımında Tevene-Mege adlı güclü bir pəhləvan yaşarmış, gözləri göl qədər dərin, alnındakı qırışlarsa dağ şırımlarının açdığı cığırlara bənzərmiş.

Tevene-Megenin çox qoca bir anası var idi. Ana ömrünün son günlərini yaşayırmış. Megenin Demir-Şilge adlı bir atı da varmış. Atın qulaqları ağzıaçıq qayçı kimi dik durar, dırnaqları isə yerə dəyəndə qığılcım saçarmış.

Aşırımında müqəddəs ağac bitən Arzılan-Tayqaya cəsur cüssəli Tevene-bahadır yiyəlik edərmiş. Kaçiqa-kaldar adlı it isə çox iri bir sürünü qoruyarmış.

Tevene-Megenin başı göylərə dəyən dir dirəyi varıymış ki, atını o dirəyə bağlarmış.

Tevene-Megenin dağ aşırımına oxşar yəhəri, qızıl yüyəni, hər iki tərəfdən sallanan çox iri suması, yığma mağarı və bütün dünyanı görüb göstərən doqquzqatlı böyüdücü borusu varmış.

Tevene-Megenin sığın dərisindən bir sodakı* varmış ki, onu nə yuxarı dünyanın otuz pəhləvanı, nə də aşağı dünyanın altmış nəhəngi cırıb dağıda bilməzmiş.

Onun çay kimi qıvrılmış qara kamanı, qırmızı tənbəki üçün alabəzək, cingiltili tütün kisəsi var imiş. Başı parlaq dəmirdən, müştüyü isə bahalı daşqaşdan olan qiymətli bir qəlyanı da var imiş.

---

* Sodak- döyüş vaxtı döyüşçülərin xüsusi geyimi - dəridən tikilmiş qısa şalvar və yaxası üst-üstə düşməyən qısa gödəkçə

Tevenenin sehirli bir güzgüsü varmış ki, kimin harada doğulacağını və kimin nə vaxt öləcəyini əvvəlcədən xəbər verərmiş.

Onun sevimli bir qılıncı da varıymış ki, uzunluğu altmış sajına bərabər imiş.

Bahadırın sehrdən də başı çıxırmış. O, bir anın içində gen dünyanı görə bilirmiş.

Tevene sehri nə qədər çox bilsə də, atı özündən qat-qat artıq sehr bilərmiş. Tevenenin ruhu, qəlbi yeddi boz quşun canında imiş. O, bir neçə dəfə ölər, bir neçə dəfə də dirilə bilərmiş. Heç bir yara almadan yüz döyüşdən çıxa bilərmiş. Onun yüz səkkiz sümüyünü sındırsalar belə o, sağ qalmağı bacararmış. Tevene-Mege bax, belə bir igid imiş.

İndi isə diqqətlə qulaq asın. Artıq bir ay olardı ki, Tevene alaçığından çıxmırdı. O, xeyli fikir elədi: «Mənim saysız-hesabsız heyvanlarım Arzılan-tayqanın aşırımında otlayır. Onları vəfalı itim Kaçiqa-kaldar qoruyur. Arvad kimi evdə oturmaq, it kimi evi qorumaq mənə yaraşmaz».

O, doqquzqatlı görücü borunu və qara kamanını götürüb, Demir-Şilge atını hayladı. Bu vaxt atı çəməndə otlayıb güc toplayırdı. Sahibinin hayını eşidən at göyün üst qatından yerə enib polad nallı dörd ayağı üstə durdu.

Tevene aşırıma oxşayan yəhəri atın belinə aşırdı. Atın otuz üç dənə quyruqaltı kəmərini çəkib bərkitdi. Ağzını qızıl yüyənlə yüyənlədi. Sonra cəld bir hərəkətlə atın belinə sıçrayıb tayqanın aşırımını aşdı.

Gəlib mal-qara otarılan yerə çatanda gördü ki, Kaçiqa-kaldar canıdildən sürünü qoruyur. Diqqətlə baxanda gördü ki, itin dırnaqları bir neçə dəfə yeyilib, sümükləri də dərisindən çıxıb.



Tevene daşın üstə əyləşib öz taleyi haqda fikirləşməyə başladı: «Gün gələcək, qoca anam öləcək. Bahadırsa, divar dibində doğulur, qaya dibində ölür. Bu dünyada tək necə yaşayasan? Söz deməyə adam da yoxdur!». Və o, atından soruşdu:

- Görəsən, elə bir qız varmı ki, mənim alaçığıma ev sahibəsi kimi girsin? Qoy cılız olsun, kasıb olsun, amma evimin yiyəsi olsun.

- Ey sahibim, sən bu söhbəti nahaq yerə mənimlə edirsən. Mənim dilim qum kimi qıdır-qıdırdı. Yaxşısı budur ki, gedib ananla danışasan, – Demir-Şilge cavab verdi.

Tevene təzədən fikirləşməyə başladı: "Kişi tək yaşamaq üçün doğulmayıb. Gedib, qoca anamdan soruşum, görüm, mənim taleyim necə olacaq?"

O, tələsik evə qayıdıb atı dirəyə bağladı, yüyəni də üç dəfə hərləyib, möhkəm düyün vurdu. Alaçığa girdi. Anası onu belə görüb soruşdu:

- Oğlum, necə də şən gördüm səni! Nə görüb, nə eşitmisən? Tez ol, tez ol, danış, görüm!

- Ana, mənim alaçığıma onun sahibəsi kimi girəcək gənc bir qız harada var? Qoy, lap cılız olsun, fərq etməz.

- Səninlə bu haqda danışmağa doquz il cürət etmədim. Çünki cavan igidin min arzusu, min fikri olur?! Sən mənim yeganə oğlumsan, mənim Tevenem. Yuxarı dünyanın otuz üç göyündə sənə layiq gözəl qız yoxdur, oğlum. Xoşbəxtlik üçün aşağı dünyaya getsən, orda da sənə layiq qız tapılmayacaq. Amma şimalda Qavındı adlı zəhimli bir xan yaşayır. Onun 18 qızından ən kiçiyi o qədər gözəldir ki, eləsini nə göy qatında, nə də yer qatında tapa bilməzsən. Bu gözəlin adı sadəcə - Terge Karadır.[1] Dünyanın bir çox bahadırları onun uğrunda vuruşublar. Amma atası Qavındı xan çox güclüdür. O, özünü öyən

[1] Terge-Kara – Terge-top (şahmat fiquru) – Qara top

çox oğulların dirsəyini yerə vurub. Çənədən saz oğulların çoxunun ağzını yumub. Heç bilmirəm, onun qabağında duruş gətirə biləcəksən, ya yox.

- Narahat olma, ana, görünür, xoşbəxliyimi şimalda axtarmaq qismətimmiş.

- Sən də mənə görə narahat olma, - anası dedi. Mən son saatımı çoxdan gözləyirəm. Başlıcası odur ki, sən sağ-salamat olasan. Ehtiyatlı ol. Özünə nəzarət elə. Özgə torpağı xoşagəlməz olar. Bil ki, atın biri o birindən cəld və çevik olduğu kimi, adamların da biri o birindən hiyləgər olar.

Və ana oğluna elə yemək hazırlayıb yedirtdi ki, oğlu uzun müddət aclığa dözüb acımasın. Onun sumasına da ehtiyat yemək qoydu.

Tevene canının yerləşdiyi boz quşları anasının hörüklərinə büküb dedi:

- Yolum uğurlu olsa, ana, hörüyünə vurduğum düyünlər daha da bərkiyəcək. Yolum ağır olsa, onda düyünlər boşalacaq.

Sübh tezdən Tevene-Mege çevik atını minib möhtəşəm Qavındı xanın yaşadığı şimala tərəf üz tutdu.

Alçaq dağların ətəyilə, yüksək dağların yamacıyla çapan at qəfildən dayandı, uzağa baxıb dedi:

- Cəngavər olsan da , ağlın yoxdur. Uzaq yola çıxan adam irəli baxmağı bacarmalıdır. Bax, görürsənmi, doqquz çayın bir axarında, doqquz yolun birləşdiyi bir yerdə nəsə qaralır, səncə, bu nə ola bilər?

- Yəqin dağdır, durur.

- Yox, əziz Tevene. Bu topdağıtmaz alaçıqdır, orda xanın gözətçiləri əyləşib.

- Əgər gözətçiləri keçmək mənə nəsib olmasa, onda xanın yanına getməyin də mənası yoxdur, - igid dedi və gülümsünərək atı qamçıladı. Bir anın içində yurtanın yanında oldu.



Altmış sajenlik qılıncını sıyırıb qolayladı və bir dəfəyə yurtanı iki yerə böldü. Yurtadan bir qarı və bir qoca çıxıb mehribanlıqla dedilər:

- Adətən, buradan keçən yolçular içəri buyururlar. Ay gözləri qara-qanlı oğul, sən haradan gəlirsən? – dedilər və qəlyanı ona uzatdılar.

Tevene də öz qiymətli qəlyanını onlara tərəf uzadıb fikirləşdi: «bir ins-cins olmayan yerdə bunlar necə yaşayırlar?

Birdən əvəzsiz at qışqırdı:

- Sən nə çəkirsən? Bu ki, qara zəhərdir?»

Tevene tez özünü atın yanına çatdırdı, çantasından dərman otlarını çıxarıb ağzına atdı. Ağzından və burnundan qara zəhər axmağa başladı.

- Doqquz çayın qarışığında heç də sadə adamlar yaşamırlar – Tevene bu sözləri elə dedi ki, dağlara dəyən əks-səda ildırım kimi şaqqıldadı.

Bahadır bir anın içində Demir-Şilgenin belinə sıçradı. Qızıl örkəni qocanın və qarının üstünə atıb, cilovu elə möhkəm dartdı ki, yüyən atın cəvcələrini qulağının dibinə kimi kəsdi. At irəli sıçrayıb doqquz aşırımı və doqquz çayı bir andaca geridə qoydu.Tevene geri çevrilib baxanda gördü ki, qarının və qocanın yalnız başları qalıb. İki baş dişlərini ağardıb gülümsəyirdi.

At təzədən irəli sıçradı. Çox çayların üstündən uçdu, çox aşırımlar aşdı, nəhayət yoruldu.

Tevene-Mege geri çevriləndə, kinli başlar artıq yox idi. Onlar atın qaynar nalının buxarından ərimişdilər. Tevene də, atı da bərk yorulmuşdular. Onlara yaxşı yemək və istirahət lazım idi. Amma bu ölkənin otu da, suyu da zəhərli idi. Yarpaqları qılınc kimi sərt və isti idi.

Tevene otuz üç qatlı göy-qurşağının üstü ilə yuxarı dünyaya can atırdı ki, doqquz çeşmədən ərcan suyu içsin. Ora ça-

tanda atın başını buraxdı: dəmir atım qoy otlasın, deyə fikirləşdi. Doyunca yedi, doyunca içdi, hətta fikirləşməyi də unutdu. Və məlum oldu ki, o, artıq yarım ildir yollardadır. Bahadır dedi:

- Belə yaramaz. Yalnız irəli getmək lazımdır.

Sehrinin gücüylə o, qocaların Qavında xanın sakitliyini qoruyan şulbuslar olduğunu başa düşdü. «Nə olur-olsun, düşmənin biri azaldı»,- dedi və irəliyə baxdı. Doqquz çayın qovşağında bir çumun başı göylərə dəyirdi. Orda bir ağsaçlı qarı və bir də ağbaş qoca əyləşmişdi. Doqquz yolun ayrıcında doqquz çadır qurulmuşdu. Sarı çadırlarda doqquz sarı gözəl əyləşmişdi. Ondan bir az aralıda qara suyu olan bir dəniz vardı. Dənizin üstü dumanlıydı. Dənizin o tayında torpaq görünürdü. Qavındı xan orada yaşayırdı.

Bahadır Tevene-Mege Demir-Şilge atını minib doqquz rəngli göy qurşağı ilə yuxarı dünyadan aşağı endi.

Bu da göyə baş vuran çuma, - Tevene atdan düşdü. Çumadan çıxan qocalar qonağı mehribanlıqla qarşılayıb dedilər:

- Burdan ötən yolçular, adətən bizə qonaq olurlar...

Lakin Tevene onların sözünü kəsdi:

- Susun, sizi yaxşı tanıyıram. Siz Qavındı xanın ayılarısınız, siz onun keşikçilərisiniz.

Elə o saat da qoca ayıya dönüb yuxarı dünyaya çəkildi. Tevene qəddar kamanını çəkib, oxu buraxdı. Ox ayını yolda haqladı. Qarı-ayı isə yerə girməyə cəhd göstərəndə, müdrik Demir-Şilge onu görüb üstünə cumdu və nalıyla qarını tapdalayıb yox etdi. «Yolumuzdakı bir düşməni də məhv etdik»- cəsur igid fikirləşdi.

Doqquz yolun ayrıcında doqquz alaçıq dururdu. Doqquz gözəl qaça-qaça gəlib dedilər:



- Atını burax, bax, o dağların ətəyində otlasın. Özün də bizimlə göldə çimməyə gedək, həm oynayarıq, həm də söhbət edərik. «Burada pis nə var ki? Oynayarıq, söhbətləşərik», - Bahadır fikirləşdi.

Bahadır onlarla birgə sahilə endi. Müdrik at qışqırdı:

- Sən nə edirsən? Bir dayan! Görünür, həyatını şulbuslara qurban verməyə hazırlaşırsan?

Tevene özünə gəldi. Şulbusları iki böldü, atını minib irəli çapdı.

Bu da qara suyu qaynadan dəniz. Dənizdən burum-burum buxar qalxırdı.

- Ba, bu ki, xanın zəhərli dənizidir! – Bahadır çığırdı.

- O hardan, hardan bildi bunu? – igid dənizin səsini eşitdi.

Və dəniz qurudu. Yox oldu! Tevene qoruqçulara belə qalib gəldi. Ardına qulaq asın.

Tevene atını yaramaz dayçaya, özünü isə pırtlaşıq saçlı oğlan uşağına döndərib xanın torpağına ayaq basdı. Yolüstü qabağına ağ başlı bir ilxıçı çıxdı. O, ağ ilxını otarırdı. Ağ koqerjik* qayışla yəhərə bağlanmışdı.

- Ay qara gözləri qığılcım saçan Bahadır, sən hardan gəlmisən? – qoca oğlandan soruşdu.

- Mən kasıb bir oğlanam. Axtarıram, görüm, harda mənə yemək verən tapılar. Mən eşitmişəm ki, Qavındı xan çox dövlətlidir. Eşitmişəm ki, onun bora-bıdası* boldur, boğa- xoytpağı* da qədərincədir.

---

* Ağ koqerjik – araq çəkmək üçün yastı dəri mehtərə-tuluq – çiyindən asılırdı.

* Bora – bıda

* Boğa – xoytpaq – Hər ikisi – ucuz, kasıb yeməyidir.

Tezliklə, onu yüz dənə göy ilxını otaran yüz ilxıçı qarşıladı. Hərəsi bir tərəfdən soruşdu:

- Ay dəcəl, ay avara, azğın öküz! Söylə görək, bizim tərəflərə niyə gəlmisən?

- Bu necə bitli, necə çirklidir! O buralara hardan gəlib çıxıb?

- O bizim xanı rüsvay edəcək! Onun boynu vurulsun!

Oğlana yazığı gələn də oldu.

- Nə cür desən, insan var, - dedilər.

Tevene onlara dedi:

- Mən kasıb oğlanam. Axtarıram görüm, hardan yemək tapa bilərəm. Eşitmişəm ki, sizin xanın bolluca bora-bıdası, qədərincə boğa-xoytpağı var.

İlxıçılar gülüb, atlarını çapdılar. Tevene də xanın torpağı ilə yoluna davam elədi.

Yeddi sarı qız yeddi min qoyunu, iki oğlan da iki yüz dananı otarırdı. Teveneni dayça ilə görən qızlar göydən yerə enib gülüşdülər. Qızların hörükləri qabağa əyiləndə yerə dəyirdi, geriyə əyiləndə hörükləri dabanlarına çatırdı.

Oğlan tələsik soruşdu:

- Məgər siz yesir uşaqlar görməmisiniz? Mən elə yer axtarıram ki, orda bora-bıdanın, boğa-xoytpağın sayı-hesabı bilinməsin. Yəni sizdə bir quzu balası da tapılmayacaq ki, mənim aclığımı unutdurasınız?

- Sarı oğlanlar hamısını xana xəbər verəcəklər, - qızlar gülməyi kəsib cavab verdilər, - əgər sən doğrudan da belə bədbəxtsənsə, onda sənə kömək edərik. Və qızılar oğlanın qarnını doyurmaq üçün birillik quzu gətirdilər.

Tevene əti qızardıb yeyəndən sonra, xanın yanına yollandı. Atını at saxlanan yerdə lap qıraqda bağladı. Xanın dalında



oğlan uşaqları cürbəcür, müxtəlif oyunlar oynayırdılar. Amma onu görəndə hərəsi bir tərəfə dağıldı. Böyüklər isə çığırdılar:

- Bu nə yaramaz küçükdür?

- Bu bizim dünyanın adamı deyil! Bu, haradan gəlib?

Tevene axırıncı çadıra boylandı. Burada xan üçün araq çəkirdilər. Tevene ovcunu şirnağın altına tutdu. Bir qurtum içib özlüyündə belə fikirləşdi: «Əgər, xanın yemək-içməyinin ən yaxşısını dadmaq mənə nəsib oldusa, deməli, bütün yarışlarda qələbə çalmaq da mənə nəsib olacaq».

Gördüklərinin hamısını atına danışdı.

- Əgər bu axşam burda gecələsək, xata bizdən əl çəkməyəcək, -at cavab verdi.

Tevene atın sözünə baxıb düzə tərəf yollandı. Düzdə xanın aulu yerləşirdi.

Tevene xan aulunun qənşərində özünün böyük, ağ çadırını qurdu. Sonra atını Demir-Şilgeyə, özünü də Tevene-Megeyə döndərib əvvəlki şəklini aldı. Çadırın qabağında yerə dəmir çalıb atını ona bağladı. Yüyəni üç dəfə dayağa dolayıb, möhkəm düyün vurdu. Sonra ağ çadıra keçdi ki, yatıb dincəlsin.

Səhəri günü xanın nökərləri düzdə möcüzə gördülər: nəhəng ağ çadır hündür qar təpəsini xatırladırdı. Çadırın yanında isə görünməmiş bir at dururdu. Atın qulaqları göyə dirənmişdi.

Nökərlər qorxub, xana xəbər apardılar.

Qavındı xan fikirləşib dedi:

- Bu, ya həşəmətli xandır, qonaq gəlib, ya da görünməmiş cəngavərdir. Tez onun yanına gedin və hər şeyi öyrənin.

Nökərlərdən üçü nəhəng çadıra girdi. Ancaq sahibi heç onların üzünə də baxmadı. Nökərlər səhərdən-axşamacan durdular, qorxularından heç gözlərini də qırpmadılar. Sahib də səhərdən yeməyə necə başlamışdısa, axşamacan elə davam elədi. Elə bil, karıydı, ətrafda olanları nə eşitmirdi, nə də görmürdü!

Nökərlər qorxub geri qaçdılar. Axırıncı nökər qaçanda igid başını qaldırdı.

Nökərlər mənzil başına çatana kimi xana bahadırdan danışdılar:

- O, acgözdür, böyük masanı qabağına çəkib əyləşirdi!

- O, doqquz dənə bahalı xalçanın üstündə əyləşib!

- Onun gözləri göl kimi təlatümlüdür!

- Onun əzəmətli alnından onaltı qat şırıma oxşar qırış keçir!

- Biz içəri girəndə o, heç bizə baxmadı da!

- Elə bil kar və kor oturub!

- Suallarımıza heç cavab da vermədi!

- Beləsi bizi heç adam yerinə saymaz!

Qavındı xan səhəri günü üç çinli nökəri və üç cadugəri düzdəki çadıra göndərdi.

- Yer üzündə elə bir insan yoxdur ki, o, nə görməsin, nə də eşitməsin.Əgər o, sizi görməməzliyə vursa, ölənəcən döyün!

Müdrik Demir-Şilge xanın bu sözlərini eşitdi və gəlib Teveneye dedi:

- Tez ol, sol dizini zindana döndər, almacıq sümüyünə və başına da zəhər çək.

Tevene dizini zindana döndərib, almacıq sümüyünə və başına zəhər yaxdı. Üç elçi içəri girdi. Böyük, orta və kiçik elçilər – hər biri tənzim etdi.

Tevene başını qaldırıb heç onlara baxmadı da.

Böyük elçi dedi:

- Mən dəfələrlə pəhləvanlarla, xanlarla danışmışam. Bəs sən niyə susursan, lənətə gəlmiş?

Elçi sağ ayağını qaldırıb var gücüylə igidin sol dizinə vurdu. Amma öz ayağını sındırdı və ulayaraq, axsaya-axsaya geri çəkildi.



- Onun dizi dəmirdəndir! – deyə elçi çığıra-çığıra alaçıqdan çıxıb dedi.

- Mən onun sümüklərini qıraram! – deyib ikinci elçi and içdi və alaçığa girdi. Çatan kimi bahadıra yumruğu ilə elə vurdu ki, yumruğu biləyindən ayrılıb yerə düşdü.

- Onun yanaqları zəhərlidir! – ikinci elçi alaçıqdan çıxıb çığırdı.

- Onun başını qoparıb qoz kimi qıracağam! – deyən üçüncü elçi qışqırdı.

Tevene onun da dişlərini bir-birinə elə sıxdı ki, dişləri töküldü. Elçi nərə çəkib qaçdı.

Ertəsi günü Qavındı xan Şulbu-Sarığı səslədi. Gözəl Şulbu yüz səkkiz sehir bilirdi.

- Müdrik sehirlərinlə cəngavərə və onun atına qələbə çal.

Amma müdrik Demir-Şilge öz sehirlərini gözəlin yollarına döşədi. Beləliklə də onlar məkrli Şulbu-Sarıq üçün əlçatmaz oldular. At Tevene-Megeyə dedi:

- Şulbu-Sarığı qarşılamaq lazımdır. Bax ha, boş yerə söz danışma. Hazırcavab və zirək ol!

Gözəl çadıra çox cəsarətlə daxil oldu. Tevene ona oturmaq üçün qara parlaq olbuğu* göstərdi. Sonra özünün gözəl qəlyanını qıza tərəf uzatdı. Gözəl dedi:

- Bizim adamların qəlyanını çəkəndə elə bilirsən şəkərdi, tüstüsü də adama ləzzət verir. Sizin tütünsə, başqa cürədir, çox qəribə tütündür.

Tevene söz tapmadı, cavab verə bilmədi. At pıçıltıyla dedi:

- "Görürsən, artıq bir cavabı güzəştə getdin. Bərk dur.

*Olbuğ - əyləşmək üçün xalça və ya döşəkcə

Bu vaxt qız özünün 108 sehrindən istifadə elədi. Tevene də buna qarşı 108 sehr işlətdi. Qız 108 dəfə görkəmini dəyişdi. Tevene də min kərə dəyişdi. Beləliklə də, müdrik bahadır Şulbu-Sarıq üçün əlçatmaz oldu. O, özünü Qavındı xana yetirib dedi:

- O, bizim dünyamızın adamı deyil! O, həqiqi cəngavərdir. Onda yüz adamın siması birləşib. O, qara, qəzəbli öküzə oxşayır. Onda min adamın sifəti birləşib. O, qorxmaz, quduzlaşmış öküzə oxşayır. Adam onunla mübahisə eliyə bilmir. O, minlərlə müxtəlif sehir bilir. Amma eyibsiz atı onun özündən də qat-qat artıq bilir. Bu dünyada onun gücünə çatacaq güc yoxdur. Mən indi başa düşdüm: bu möhtəşəm Tevene-Megenin özüdür, möhtəşəm Demir-Şilge atıyla birgə gəlib.

Əsib–coşan Qavındı xan dedi:

- Mən özüm onun yanına gedəcəyəm.

Xan ağ alaçığa daxil olub fikirləşdi: «Bu adam dəyəsini mənim torpağımda qurub. Əgər belədirsə, qoy birinci o danışsın».

Tevene doqquzqatlı olbuğu xanın qabağına qoydu və fikirləşdi: «Xan da olsan, nökər də olsan, mənim qapımı birinci sən açmısansa, birinci də sən danış». Və sakitcə qəlyanını ona tərəf uzatdı. Xan gülümsündü, ağ dişlərini göstərib qəlyanı aldı, çəkdi və əvəzində öz qəlyanını Teveneyə uzatdı.

Xan evə dönüb xeyli fikrə getdi: «Mənim günahımdır, xeyirxahlıqla danışıb, adımı söyləməliyəm». Və xan yenidən Tevenenin yanına yollandı.

Demir-Şilge özünü yetirib dedi:

- İndi xan bizə gələcək. Yaxşı yemək hazırla. Yaxşı da olsa, pis də olsa, ona öz kədiyini* təklif et.

* Kədik – kətil



Xan çox cəsarətsiz halda gəlib dəyəyə daxil oldu. Əl atıb öz kədiyini çıxarmaq istəyəndə Tevene doqquzqatlı qara olbuğu onun qabağına çəkdi. Xan bunu görüb fikirləşdi: "O, çox nəzakətli igiddir, onun çox xeyirxah üzü var..." Bəs onun ürəyindəki nədir? Və dedi:

- Ey mənim təzə, ləyaqətli dostum! Sən uzaqdan gəlmisən. Mənim torpağımda nə axtarırsan? Nə istəsən, verəcəyəm. Söylə!

Tevene cavab verdi:

- Əgər xan mənimlə belə, dostcasına danışırsa, mənim kimi sadə bir insan nə deyə bilər ki?! Mən sənin kiçik qızın Terge-Qara üçün gəlmişəm. Xahiş edurəm, bunu qəbul edin, bu suy – belekdir!* Və sumadan başı canavar başı olan bir parça gümüş və başı at başı olan bir parça qızıl çıxarıb xana tərəf uzatdı.

Xan hədiyyələri qəbul edib, Teveneni evinə dəvət etdi. Birinci xan çıxdı, sonra pəhləvan. Onlar çölü keçib aula tərəf getdilər. Tevene xana baxanda nəzərinə bir şey dəydi: xan donmuş yerlərlə addımlayanda ayağı qara torpağa batır, buzu ərimiş torpaqla yeriyəndə isə dizinə kimi torpağa girir. Bahadır fikirləşdi: "Bəs, mən yeriyəndə necə olur?"

Gördü ki, buzlu yerdə dizinə kimi, buzu ərimiş yerdə sinəsinə kimi torpağa batır.

Onlar xanın qızıl sarayına daxil oldular. Xan bahadıra doqquzqatlı olbuğu verib, qarşısına doqquzayaqlı qara şireni* qoydu. Bahadır əlini ona vurar-vurmaz şire dağım-dağım oldu. O, fikirləşdi ki, "Əgər mən ev yiyəsinin malını sındırdımsa, deməli yerdə oturmalıyam", - odur ki, keçib yerdə oturdu.

* Suy – belek – bahalı toy hediyyesi
* Şiren – balaca kətil

Və xan qonağına çoxlu araq içirtdi. Nökərlərsə, hər gün araq çəkir və hər gün də nəhəng pəhlavana söyürdülər!

- Ay acgöz! Bu, elə bir ucdan yeyir, içir, bir oturuma nə qədər yemək olar? Ona gətirilən yeməkləri və içkini yığsaydılar araqdan dəniz olardı, yeməklərdən – Qandı dağı...

Amma Qavındı xan elə hey araqdan süzürdü, özünü də elə göstərirdi ki, guya, o da içir. Əslində , özü içməməyə çalışırdı.

Birdən Tevene fikirləşdi: "Biz bir ay olar ki, yeyib-içirik. Deməк, atı da bir aydır ki, bağlamışam. Elə o dəqiqə də qalxıb dedi:

- Gedim, atı açım. Demir-Şilge də göy otlardan bir az otlasın. – Tələsik atın yanına qayıtdı.

Qavındı xan onun dalınca baxıb fikirləşdi:

- Görəsən çoxmu sərxoşdur? Baxıb gördü ki, igidin ayaqları iki dəmir sütun dirəyə oxşayır. Tevene yırğalanmırdı. Elə bil o nə yeyib, nə də içmişdi.

Bahadır öz alaçığına girib kitabı vərəqləməyə başladı. Qızıldan olan sehirli kitabı çox tez oxudu. Və əmin oldu ki, xanın dostluq haqqında içdiyi andlar qara yalan imiş. Xan gizlicə yayını tarıma çəkdi. İgidlərinə də əmr etdi ki, hazırlaşsınlar; dünyanın hər yerindən xana kömək üçün bahadırlar çağırıldı. Aşağı dünyadakı ən sərraf oxatan artıq öz zalım, qara yayını kamana qoyub gözləyirdi ki, xan işarə edib, döyüşü başlayanda, o özünün amansız yayını çəkib, cingiltili oxunu buraxsın, Tevenenin ürək, ciyərini deşsin.

Bahadır bir göz qırpımında hündür alaçığı yığıb, onu sumasına qoydu. Sumasını də yəhərə bağladı. Demir-Şilgenin belinə sıçrayıb əziz atına dedi:

- Bu necə ola bilər? Qiymətli toy hədiyyəsini ona gətirdim, qızıl-gümüş hədiyyə elədim, onunla qardaş olmağa hazırlaşdım. O isə mənə sui-qəsd hazırladı. Mən yeyib-içən vaxtı mənim təzə, ən yaxşı dostum oxu mənə tərəf tuşladı, qara yayı tarıma çəkdi".

- Tez ol, ağ qılıncla, ağ dəyəni iki parçala, cəld gözəli alıb yuxarı dünyaya qalxaq. Yoxsa, başını qurban verməli olacaqsan! – Demir-Şilge cavab verdi.

Tevene ağ qılıncla ağ dəyəni iki parçaladı. Gözəl qızı qamarlayıb, yüyəni üzdü. Atın ayaqları yerdən üzüldü və qırğı kimi yuxarı süzdü. Yuxarı dünyaya çatanda o, aşağı-yerə baxdı. Torpaq od tutub yanırdı. Yanğını aşağı dünyanın dəqiq oxatanları öz oxları ilə yaratmışdılar.

- Tez ol, şir başlı üzəngini hazırla ki, onların oxlarını qaytarsın, - Demir-Şilge qışqırdı. – Mən də polad nalımı ox gələn tərəfə düzərəm.

At elə bunu demişdi ki, oxun biri onun polad nalına dəyib cingiltilə yerə qayıtdı.

Nəhayət, Tevene-Mege, müdrik Demir-Şilge və gözəl Terge-Qala yuxarı dünyaya çatdılar. Hamılıqla uzun müddət istirahət etdilər. Birdən Bahadır Arzılan-Tayqanı yada saldı. "Görəsən, xeyirxah qoca anam sağdırmı? Kaçiqa-kaldar itim hanı?

Tevene çadırı yerə qoyub, atı otlamağa buraxdı: qoy müdrik Demir-Şilge təzə güc toplasın. Pəhləvan gözəl qızla evdə tək qaldı. Qız nə yeyir, nə də bir kəlmə söz danışırdı. Tevenenin qanı qaraldı.

Bir dəfə Tevene tayqa ilə yol gedirdi. O, Kaçiqa-kaldarın iyini hiss etdi. Tevene iyə tərəf qaçdı və gördüyünə sevindi: onun Kaçiqa-kaldar iti tarbağan yuvasında uzanmışdı. Tevene iti qucağına alıb ağ çadırına gətirdi. Ancaq it nə yeyir, nə də kəlmə kəsirdi. Elə, hey, ağzına işarə eləyirdi. "Nə sevgilim, nə

də itim mənimlə danışmırlar? Mən tənha adamam!" – igid kədərlə fikirləşdi. Birdən Terge-Qala dedi:

- Bir bax, itin boğazında nəsə qara bir şey var. Elə ona görə də danışa bilmir. Tevene ağıllı itin boğazından qara şeyi çıxartdı. Əvvəlcə it yedi, doydu, sonra danışmağa başladı.

- Amansız Küdün-Xülyük Xüler-Xüren atıyla tayqamıza hücum elədi və doğma aalı çalıb - çapdı. O, qoca ananı da, saysız-hesabsız heyvanı da oğurlayıb apardı. Sənin canını qoruyan sərçələri öldürmək istəyirdi. Odur ki, sərçələri götürüb cənuba qaçdım. Küdün-Xülyük dalımca gəlib məni çox qovdu. Doqquz aşırımı aşıb, doqquz çay keçdim. Hərdən mənə çatan kimi ağ qılıncıyla kürəyimi döyəcləyirdi, tüklərim ürpənir, canımdan üşütmə keçirdi.

Özümü gölə vurdum, balığa çevrildim. O da alabalığa çevrilib məni qovdu. Onda qarğaya çevrilib yuxarı dünyaya qalxdım, o da qartala çevrilib, qanadlarını çala-çala ardımca şütüyürdü. Elə məni tuthatutda, mən torpağa tərəf döndüm, qamışa çevrilib qamışlıqda gizləndim. Küdün-Xülyük iti gözləri ilə məni axtarıb tapdı. Mən Arzılan-Tayqaya, yurdumuza qayıtdım. Bir tərbağan da məni öz yuvasında gizlətdi. Sən də məni elə o yuvada tapdın. Bütün bu əziyyətləri ona görə çəkdik ki, sənin canını qoruyan sərçələri xilas edim. Küdün-Xülyük sərçələri ələ keçirmək üçün ananın hörüklərini, ağarmış saçlarını dibindən qopartmışdı.

- Mən hayıfımı ondan alacağam! – Tevene-Mege dedi. O, mənim ağbirçək, qoca anamı köləyə çevirib! İndi özünü gözlə, qəddar Küdün-Xülyük.

Və o, dişlərini qıcıyıb yola hazırlaşdı.

- Gözəl Terge-Qala, arvadım mənim, ey sadiq köpəyim Kaçiqa-kaldar,mənə qulaq asın. Bu sumadakı ərzağı anam mənim üçün yığıb hazırlamışdı.Buradakı yeməkləri sizə saxlayıram. Bu azuqə sizə yeddi ilə bəs edər. Əgər bu müddətə evə gəlib çıxmasam, bilin ki, ölmüşəm və bir də geri qayıtmayacağam.

O, Demir-Şilge atını hayladı. At bir göz qırpımında onun hüzurunda hazır oldu. İgid pəhləvan yaraqlanıb atını yəhərlədi, amansız yayını götürüb düşmənini axtarmağa getdi. Həyat sənə əzizdirsə,özünü gözlə, Küdün-Xülyük!

Cavan Terge-Qala yeməkləri qorumadı. Azuqəni quşlara, çəyirtkələrə və vəhşi heyvanlara payladı. Üç il tamam olanda artıq yeməyə heç nə qalmamışdı. Qızın qanı çox qaraldı. Qırğıya çevrilib evlərinə uçdu. Bu da doğma yurd. Terge-Qara gördü ki, hər şey olduğu kimi qalıb: on səkkiz alaçıq, yanında da on səkkiz qoyun sürüsü olduğu kimi dururdu.. Qız kəpənəyə döndü, üç gün çiçəkdən-çiçəyə qonub oynadı.

Sonra əvvəlki gözəl Terge-Qalaya çevrilib, sədaqətli ilxıçı Daş-Karanın yanına gəldi.

- Biz səninlə qəzəbli Kavındıdan ayrılıb getməliyik. Onun qoyun sürüsünü də, ilxısını da Arzılan-Tayqaya aparmalıyam. İndi mən orada yaşayıram. Mən Tevene-Megenin arvadıyam. Terge-Qala bunu dedikdən sonra Arzılan-Tayqaya hansı yollarla getməyi çobana başa saldı.

"Bu gün mən qəzəbli Kavındının yanından gedəcəyəm. Bəlkə mən yuxu görürəm" – Daş-Kara fikirləşdi. Gecə düşəndə çoban ağ qoyun sürülərini və bütün ilxını cənuba – Arzılan-Tayqaya tərəf hayladı. Ora çatıb çadırını qurdu, ilxını və sürünü yaşıl aşırıma tərəf buraxdı ki, otlasınlar.

Ardına qulaq asın. Pəhləvan Tevene-Mege düşmənini tapmağa tələsirdi. Nəhayət, o, Küdün-Xülyükün qəlyanından tökülmüş külü gördü. Yerə tökülmüş kül boz qoyun sürüsünə bənzəyirdi. Pəhləvan fikirləşdi ki, bəlkə mən də öz qəlyanımı yerə çırpım?". Bunu deyib qəlyanını yerə çırpdı. Və gördü ki,

onun çubuğundan tökülən kül bir yox, iki boz qoyun sürüsünün yeri qədərdir. Ətrafa nəzər yetirəndə gördü ki, Küdün-Xülyükün qışqırdığı yerlərdə daşlar qırılıb, quma dönüb. Tevene fikirləşdi ki, bəlkə mən də qışqırım. O, qışqırdı və qayalar səsindən titrəyib, sürüşərək üzüaşağı töküldülər.

Tevene yoluna davam etdi. Tezliklə at ayağını yerə dirəyib dayandı və dedi: «Sən xeyirxah igid olsan da, ağlın azdır. Doğrudanmı, biz düşmənin aalına bu sifətdə girəcəyik?».

Tevene Demir-Şilgeni at təzəyinə, özünü isə ceyranotu kökünə döndərib küləyin istiqamətində uçdu. Bir qızıl quyunun yanında dayanıb gözləməyə başladı. Nəhayət ki, qoca anasının quyuya yaxınlaşdığını gördü. Anası arıqlamış, saçı dümağ ağarmış, özü isə taqətdən düşmüşdü. Bir əlində parç, o biri əlində bardaq olan ana birdən dedi:

- Mən qoxu hiss edirəm. Hardasan, hardasan, ay oğul?

Tevene inanılmaz şəkildə əvvəlki pəhləvan Tevene-Megeyə çevrildi. Təzəyi isə ata döndərib, onu mindi və Xürən-Ala-Tayqaya uçdu. Oranın sahibi igidin düşməni qəddar Küdün-Xülyük idi. Tevene-Mege hiddətlə nərildədi:

- Ehe, Küdün-Xülyük, hardasan? Alaçıqdasan, ya torpağın altında? Döyüşə çıx, lənətə gəlmiş!

İgidin səsi güllə kimi vıyıldayıb düşmənin bu qulağından girib, o biri qulağından elə çıxdı ki, bütün alaçıq silkələndi.

- Belə avaranı mən evimə yaxın buraxmaram. Elə bu saat səninlə görüşə çıxaram. Görərik, kim qalib gələcək?

- Nə ilə vuruşacağıq? Dəmirçinin hazırladığı qara dəmirlə, yoxsa ata anamızın bizə verdiyi qırmızı yumruqla? – Tevene-Mege soruşdu.

Küdün-Xülyük cavab verdi ki, həm qara dəmirlə, həm də qırmızı yumruqlarımızla döyüşəcəyik. Bunu deyən kimi onun al yanaqları süd kimi ağardı.



Əvvəlcə onlar oxlarla vuruşmağa qərar verdilər. Küdün-Xülyük səhərdən axşamacan, axşamdan səhərəcən elə hey qışqırırdı:

– "Tevenenin ürəyinə-ciyərinə sancıl!". Bunu deyib oxları atır, oxlar da Tevenenin sinəsinə dəyib yerə tökülürdü. Yerə tökülən oxlar bir neçə yerindən sınırdılar. Pəhləvan onları əvvəlki şəklinə salıb dedi:

– Tör-töküntülərini geri götür, lənətə gəlmiş, sənə lazım olar!- dedi və oxu düşməninə tərəf tolazladı. "Küdün-Xülyükün ürəyinə-ciyərinə sancıl!"- dedi və oxu kamana qoyub atdı. Ox dəlisov, məkrli düşmənin ürəyinə sancılıb kürəyindən çıxdı. Elə çıxan kimi də, o yuxarı dünyaya yol aldı.

Küdün-Xülyük qışqırdı:

- Döyüş üçün paslı dəmir yaramaz. Keçək yumruq döyüşünə! - Bunu deyib yetmiş sığının dərisindən tikilmiş sodakının o yan, bu yanını dartışdırdı.

Bahadırların hərəsi bir tərəfə aralanıb, qartal rəqsini oynamağa başladılar. Onlar oynadıqca yer titrəyirdi. Bu minvalla rəqqaslar oynaya-oynaya üç sarı düzü və üç sarı tayqanı keçdilər. Tevene Küdün-Xülyükün budlarına baxdı: Onlar əsirdilər, qıraqdan baxanda hər iki bud ağ rəngli, uca dağa bənzəyirdi. Küdün-Xülyük də dönüb Tevenenin budlarına baxdı onlar aşa-aşa hərəkət edən iki qonur dağa bənzəyirdi. Pəhləvanlar iki nəhəng qaya, iki böyük dəvə kimi tutuşub dartışır, biri-birilərinə iki vəhşi öküz kimi baxırdılar.

Neçə il keçdiyi məlum deyildi. Qışı qırovundan, yazı şehindən duyurdular. Tevene-Megenin əzələləri sanki qaynayırdı, onlar poladdan da bərk olmuşdular. Küdün-Xülyükün əzələləri isə boşalıb, ərimişdi. Tevene girəvəyə salıb imkan tapan kimi düşmənini əlləri üstünə qaldırdı və onu ən uca ağacların, ən

uca buludların üstündən apararaq elə tulladı ki, göy yarıldı, yer titrədi.

-Heyvanı öldürəndə, onun qanını alırlar. Kişini öldürəndə onun son sözünü eşidirlər. Son sözünü söylə, Küdün-Xülyük.

- Mənim atımı öz atın kimi minərsən. Onu öz atın kimi qoruyarsan!- deyə məğlub pəhləvan dilləndi.

Tevene onun ətini sümüyündən ayırıb hər yerə atdı ki, quşlar yeyib doysunlar. Sümüklərini də ocaqda əridib bütün çölə səpdi ki, torpağa qarışsınlar.

- Daha bir düşmənimi məhv etdim, -Tevene-Mege dedi.- Məni qarət edən Küdün-Xülyükün özü idi, nökərlərinin nə günahı?! Onları öldürməyəcəyəm, Özümə götürəcəyəm.

Nökərlərə də, sürüyə də birlikdə yiyələnən Tevene evə yollandı. Qabaqda anası gedirdi. Yolu yarı eləmişdilər ki, Tevene dedi:

- Qabaqda mən gedəcəyəm. Əgər yolun səmti düz olsa, gecə-gündüz yol gedin. Əgər səmt əyilsə, onda yatıb-dincələrsiniz.

Tevene bunu deyib, doğma tayqaya yol aldı. O, Terge-Qalanı düşünürdü. Elinə-obasına yaxınlaşanda gördü ki, Tayqanın yaşıl aşırımında yad sürüləri otlayır. O, əsəbiləşib qışqırdı:

- Mənim Tayqamı kim zəbt edib? Köçünü ora salmağa kim cürət edib? Belə cəsarətli və güclü kimdi?

Tevenenin səsini eşidən gözəl Terge-Qala ilxıçı Daş-Karanı müqəddəs ağacın budağına çevirdi. Özü isə gözəgörünməz olub Tevenenin gəlişini gözlədi. Pəhləvan ağaca yaxınlaşanda ağacın daha çox qol-budaq atdığını, böyüdüyünü gördü. Və o, belə qərara gəldi: " Əgər bura düşmən gəlmiş olsaydı, o ağacı baltalayardı. Bir halda ki, budaqlar çiçəkləyib, deməli, dostlar gəlib!" və birdən Tevene Terge-Qalanın ətrini hiss etdi.



- Haradasan? Harada gizlənmisən? – pəhləvan onu səslədi.

Terge-Qala öz donuna girdi. Salamlaşıb, olanları danışdı. O, üç il bütün yemək ehtiyatını necə yediyini, əvəzində isə öz heyvanlarını bura necə gətirdiyini bütün təfsilatı ilə danışdı.

- Bax, odur, sürü Arzılan-Tayqanın ətəklərində otlayır. Tevene, sənin qorxundan ilxıçını ağacda gizlətdim ki, sən onu öldürməyəsən.

- Adamı ağacda niyə gizlətmisən?- Tevene dedi. Qamçını ağaca vuran kimi Daş-Kara yerə düşdü.

Bahadır atı buraxdı ki, otlayıb güc toplasın. Tezliklə ölən igidin nökəri, naibi və heyvanları Arzılan-Tayqaya gəlib məskunlaşdılar. Tevene ölən igidin baş hərəmini qoca ilxıçı Daş-Karaya verdi. Xan məmurları ilxıçı, ilxıçıları da məmur vəzifəsinə təyin elədi. Bundan sonra çox rahat bir həyat başladı.

Günlərin bir günü Terge-Qala dedi:

- Əgər mənim atam, qəzəbli Qavındı xan bizim alaçığın ortasından çıxıb, peyda olsa, deməli, bədbəxtçilikdən qaçmaq mümkün olmayacaq. Yox, əgər, o, torpağın üstü ilə gəlsə, onda sən ona qalib gələcəksən.

Tevene təzə yurda köçüb məskən saldı. Qəzəbli Qavındı xan Tevenenin köhnə alaçığının tən ortasından çıxdı. Xan məəttəl qalıb ətrafa boylandı. Amma hər yer bomboş idi. Nə qarıldayan qarğalar, nə də çığırışan sağsağanlar var idi. Elə bu vaxt xanın Qan-Xüren atı dedi:

- Tevene Arzılan-Tayqanın cənub aşırımına köçüb. İndi bahadırı tapıb, onunla vuruşmaq lazımdır.

Qavındı xan bir anın içində Tayqanın aşırımının o tayında, Tevenenin çadırının yanında oldu.

- Tevene, sağsan, ya ölü? Alaçıqdasan, ya torpaqda? Döyüşə çıx, lənətə gəlmiş. O, çadıra tərəf cumdu. – Ölsəm də, qalsam da Terge-Qalanı bir kərə də olsa görməliyəm.

Amma Bahadır onu alaçığa buraxmadı.

- Sarı düzdə görüşərik! – Tevene ona dedi.

Hər iki pəhləvan sarı düzdə qara gödəkçələrini geyib döyüşə hazırlaşdılar. Hərəsi bir tərəfə aralaşıb qartal rəqsini oynamağa başladılar. Onlar oynadıqca yer yürgələnirdi. Tevene-Mege Qavındı xana baxdı. Onun budları iki dağa, kürəyi isə dərin dərəyə bənzəyirdi. «Hə, bu dəfə mənə çox çətin düşmən qismət olub». Onlar iki qaya kimi toqquşdular, iki öküz kimi kəllə-kəlləyə gəldilər. Qavındı xan Teveneni ayağı ilə vurub göyə atmaq istədi. Amma Tevene qırğı kimi cəld idi. O, elə bu vaxt xanın qoltuğunun altından, hərəsi bir qoyuna bərabər olan cəngə-cəngə topaların tökülməyə başladığını gördü.

- Sənə nə oldu, belə? – Tevene soruşdu.

- Kişinin bədəni açılanda belə olur da! İndi özünü gözlə, lənətə gəlmiş!

Tezliklə Tevene-Megenin dərisi təpədən-dırnağadək qıpqırmızı qızardı.

- Sənə nə oldu? Az qala əllərim yanmışdı ?! – Qavındı xan qışqırdı.

- Kişinin qanı qaynayanda belə olur da! İndi özünü gözlə, lənətə gəlmiş! – Tevene bunu deyib, xanı məngənə əllərinə alıb qara buludların üstüylə göyə qaldırdı, ağ buludlarda fırlatdı. Sonra onu elə zərblə yerə çırpdı ki, göydə ildırım çaxdı, ayağı altında yer titrədi.

Tevene nəhəng qəlyanını çıxarıb onu qırmızı tütünlə doldurdu, tələsmədən çəkdi və külünü xanın ağ sinəsinə tökdü.

- Heyvanı kəsəndə - qanını alarlar. Kişini öldürəndə - sözünü eşidərlər! İndi sözünü de, Qavındı xan!



- Sənin yanında üzüm qaradır, mənə nə istəsən eləyə bilərsən. Ancaq çevik Demir-Şilgeni qoruduğun kimi mənim atımı da qoru. Terge-Qalanı qoruduğun kimi qalan on yeddi incə qız balalarımı da qoru.

Tevene xanı tikə-tikə edib torpağa atdı.

«Qoy onu quşlar və qarışqalar yesin!» sümüklərini isə külə döndərdi.

- Daha bir düşmənə qalib gəldim! – Tevene dedi. O, Demir-Şilgenin belinə qalxıb, xanın atını yəhərə bağladı və yola çıxdı. Evə gəlib bir ay, otuz gün yatdı. Az yatmışdı, bilmirəm, birdən ildırım kimi şaqqıldayan bir səs eşitdi.

- Sən sağsan, ya ölü, Tevene? Döyüşə çıx, lənətə gəlmiş!

Qışqıran adam xanın sərrast oxatanı idi. Bu – o adam idi ki, xan Teveneyə araq içirdəndə o, qara yayı çəkib atmaq üçün tarımlayırdı.

Tevene-Mege alaçıqdan qaçaraq çıxıb oxatanın qabağına gəldi. O biri artıq yayı gərib, oxu atmağa hazırlaşırdı ki, gedib Tevenenin ürəyini-ciyərini deşsin.

-Kim birinci olacaq? – xanın oxatanı soruşdu.

- Eybi yox, birinci sən ol! – igid cavab verdi.

Oxatanın oxu Teveneyə dəyib qırağa sıçradı, gedib torpağa batdı. Tevenenin oxu isə oxatanın sinəsinin bu üzündın girib, o biri üzündən çıxaraq, yuxarı dünyaya üz tutdu.

- Daha bir düşməni susdurdum!- igid Tevene dedi.

O, evə qayıtdı və uzunmüddətli, şirin yuxuya getdi.

Və birdən, yuxunun içində kiminsə ciyiltili, uzun səslə onu hayladığını eşitdi:

- Sən hardasan, alaçıqdasan, ya torpağın üstə? Döyüşə çıx, Tevene! Sən nə istəyirsən – qara dəmiri, ya qırmızı yumruğu? Hardasan, lənətə gəlmiş düşmən?

- Belə incə səslə məni haylayan oğul, sən kimsən?

- Mən dünyünın şimalında yaşayan bədbəxt Qavındı xanın oğluyam. Mən, Sayın-Ool-Megeyəm! Yanımdakı da atım Tayqa Saraladır.

- Əlbəttə, oğlum, yumruqla vuruşmaq daha münasibdir.

Sayın-Ool atını buxovlayıb, sodakın bu yanını dartışdırıb düzəltdi. Tevene də sodakını geyindi, amma fikir verdi ki, qara sodak ona çox böyükdür. Məlum oldu ki, o, arıqlayıb, nəhəng bədəni də balacalaşıb.

Hər ikisi iki dəmir qaya parçası kimi əlbəyaxa oldular. Amma neçə il döyüşdükləri məlum deyildi. Artıq dağların yeri düzə, düzlərin yeri isə dənizə çevrilmişdi. Tevene rəqibini qaldırıb göyə atmaq istədi. Amma rəqibi çalağan kimi çox çevik, qırğı kimi çox diribaş idi. Sayin-Ool bir anın içində elə bir hündür yerə qalxdı ki, o yer onun üçün çox münasib idi. Elə o saat da Tevene-Megeneni yerdən qaldırıb, göydə fırlatdı və zərblə yerə çırpdı. Üzünü Teveneyə tutub son sözünü soruşdu:

- Məni Arzılan-Tayqanın aşırımında, şur çiçəkləyən müqəddəs ağacın altında basdırarsan, - Tevene xahiş etdi.

Oğlan altmış sajen dərinliyində yer qazdı. Birdən Tevenenin bədəni iki yerə bölündü. Sayın-Ool bahadırın döşünü qazdığı çalaya atanda, onun ayaqları çalanın o biri tərəfindən çıxdı. Ayaqlarını çalaya atanda döşü çalanın o biri tərəfindən çıxdı. Beləliklə, Tevenenin yüz səkkiz sümüyünün hərəsi bir tərəfə səpələndi. Sayın-Ool onları bir yerə yığmağa çalışdı. «Əgər sümüyün birini yerdə qoyub yığmasam, o, kinli və amansız bir düşmənə çevrilə bilər».

«Sahibim son sümüyünə kimi vuruşur, bəs mən niyə durub baxıram» - Demir-Şilge fikirləşdi. O, dəmir buxovları qırıb düşmənə sarı qaçdı və onu nalıyla elə təpiklədi ki, oğlan iki yerə bölündü. Sayın-Oolun atı Tayqa-Sarala sahibinin yanına gəlib, onun hər iki hissəsini iki dişinə alıb evə tərəf çapdı.Demir-



Şilge onun ardınca çapdı. Amma at artıq çaya çatmışdı. Birdən at balığa çerilib suda onu izləməyə başladı. Tayqa-Sarala quşa çevrilib Sayın-Oolanı evə gətirdi. On yeddi gözəl onu diriltdi.

Ardına qulaq asın. Terge-Qara bir səs eşitdi və qapıdan boylandı. Tevenenin yüz səkkiz sümüyü bir-birinin ardınca sıra ilə alaçığa tərəf gəlirdi. Gözəl xanımı tez onları yığıb alaçığa apardı. Özünü də – başını at başına, gövdəsini çox çevik, boz qırğıya bənzədib yuxarı dünyaya qalxdı. Meşədə tənha qocaya rast gəldi. Xanım qocanın ətini sıyırıb götürdü. Özünü də on beş yaşlı cavan oğlana çevirdi. Sonra evə tərəf dönüb alaçığının yanında yerə endi. Qocanın ətini Tevenenin sümüklərinə bərkitdi. Beləliklə də, Tevene iyirmi beş yaşında pəhləvana döndü.

- Baho, nə çox yatmışam! – deyə Tevene heyrətləndi və sıçrayıb möhkəm ayaqları üstə durdu.

Sayın-Ool Tevene-Megenin yüz səkkiz sümüyünü məhv etmək üçün geri qayıtmışdı. Gəlib gördü ki, Tevene iyirmi beş yaşlı igid pəhləvan olub. Sayın-Ool Tevene Mege ilə tutuşdular. Bu dəfə Tevene qalib gəldi.

O, kinlə Qavındının bütün mal-qarasını, nökər-naibini Arzılan-Tayqaya gətirib, sakit həyat yaşamağa başladı.

Nəhayət, Terge-Qala bir oğlan doğdu. Elə həmin gün sarı madyan da üç dayça doğdu.

Təzə doğulan bu gümüş sinəli oğlan bir gündə bir il kimi böyüyürdü. On səkkiz gündən sonra o, on səkkiz yaşlı igid bir pəhləvana çevrildi. Ova çıxanda canavarların bozunu, samurun qarasını, tülkünün isə qırmızısını vururdu.

Bir gün o, atası ilə anasının söhbətini eşitdi:

- Oğlumuz igid pəhləvan olub. Onun tayı-bərabərini tapmaq mümkün deyil. Cənubda yerlə göyün birləşdiyi yerdə,

Qoşqar-Baştıq xan yaşayır. O, Hörümnük-Ala-Tayqanın* sahibidir. Onun bir qızı var. Adı Uzun-Nazındır. Fikirləşirəm ki, elə o qız bizim oğlumuza yaraşar. Amma onların torpaqları olduqca uzaqdadır, - Terge-Qala belə söylədi.

Gənc oğul içəri girib dedi:

- Elə bir torpaq yoxdur ki, insan ora gedib çıxmasın. Mən bu dəqiqə ora yollanıram.

Atası Tevene-Mege dedi:

- Anadan əmdiyin südün qoxusu heç dodaqlarından qurumayıb da.

Səhəri günü Tevene torpağının bütün müdrik qocalarını və aqil mergenlərini* bir yerə topladı. Amma onların heç biri bahadıra ad verməyə cürət etmədilər. Bu vaxt yığılan adamların içindən bir qoca qarı və bir qoca kişi çıxıb dedi:

- Əgər, bahadıra özünəlayiq ad verməyə heç kimin çürəti çatmırsa, onda, icazə verin, o adı ona biz verək.

- Oğlumuza ləyaqətli bir ad verənə mal-qaramızdan, arımızdan xeyli pay ayıracağıq, - Tevene dedi.

- Əgər onu Dem Teeli, atını da Xan-Şilge adlandırsaq, necə olur?- qocalar təklif etdi.

Oğullarına verilən xeyirxah ada görə ata və ana xeyli sevinib, adqoyan qocalara xeyli ənam verdilər.

- Oğlumun adı var, ancaq Xan-Şilge atı hardan alaq? Axı o, bir-neçə atı minib, hamısının da belini qırıb?

- Bəli, sizin atların içində mənə tab gətirən bir at yoxdur!- Bahadır oğul təsdiqlədi.

Terge-Qala dedi:

---

* Hörümnük - Ala-Tayqa -(Hörüm-bir yığın daş) - daşlı-kəsəkli ala-tayqa

*Mergen – usta bacarıqlı adam, aqil, hədəfə düz vuran atıcı



- Sarı madyanın dayçalarından ən kiçiyi o birilərinə nisbətən tez böyüyür. Əziz balam, düşünürəm ki, bu dayça sənə yarayar.

- Yaşlı atların gücü mənə çatmadısa, bu dayçanın gücü necə çatacaq? – Bahadır oğul gülümsədi. Buna baxmayaraq, örkəni götürüb ilxıya sarı getdi. Örkəni sarı dayçanın belinə atan kimi dayça dərhal qaçmağa başaldı. Doqquz aşırımı aşıb, doqquz çayı keçərək, bahadırı da çəkib ardınca apardı. Sonra başını geri çevirib, dostcasına dedi:

- Görürəm, sən məni sürüb çapa bilərsən.

- Görürəm, sən də mənə duruş gətirə bilərsən,- igid cavab verdi.

Dem-Teeli atasından yəhəri və yüyəni aldı. Əvvəlcə dayçanı rahatladı, sonra da ona Xan-Şilge adını verdi. Dem-Teeli həmişə ilənən, heç vaxt da geyilməyən çəkmələrini və geyim sursatlarını geyəndən sonra həqiqi igidə bənzədi. O, elə bir igidə bənzədi ki, heç bir pəhləvan onunla müqayisə oluna bilməzdi.

Terge-Qala səfərqabağı oğluna dedi:

- Oğul, yad eldə səni üç bədəbxtlik gözləyir. Sənə üç rəngdə ipək gədiklər və üç rəngdə olbuklar verirəm.

Dem-Teeli Xan-Şilge atının belinə sıçrayıb cənuba tərəf yelləndi. At birillik yolu bir aya, bir aylıq yolu bir günə çapdı. Alçaq dağların yalıyla, hündür dağların aşırımıyla yolu başa vururdu ki, birdən dayandı. At uzağa baxıb dedi:

- Baxmayaraq ki, cəsur bahadırsan, ağlın hələ azdır. Uzaq yola çıxan həmişə qabağa baxar. Necə fikirləşirsən, o qaralan qaraltı nədir?

- Yəqin dağdır, - dedi.

- Bu – göylər oğlu, bütün güclülərin güclüsü, möhtəşəm Demir-Megedir..

Qara atlı, qara adam başa düşdü ki, aradan çıxa bilməyəcək. O, dayandı. Elə bu zaman pəhləvan Dem-Teeli özünü yetirdi.

- Mən şimal tərəfdənəm. Arzılan-Tayqada doğulmuşam. Mənim atam Tevene-Megedir, atım isə Demir-Şilgedir. İndi sən cavab ver görüm, kimsən? Haradan gəlib, hara gedirsən?

Amma qara adam susdu.

– Əgər, adını deməsən, məndən asanlıqla ayrıla bilməyəcəksən.

Qara adam adını deməyə qərar verdi. Fikirləşdi ki, adını deməklə Bahadırı qorxuda bilər.

– Mən Demir-Megeyəm, şəffaf səmada yaşayıram. Qayınatam Başdıq xanın yanına getmişdim. İndi evə qayıdıram.

- Sən, xanın qayınatan olduğunu necə deyə bilərsən? Gözəl Uzun-Nazınla mən özüm nişanlanacağam.

Dem-Teeli qışqırıb atını irəli çapdı.

Demir-Mege də xeyli fikirləşib, onun ardınca çapdı.

Bu da Qoşqar Başdıq xanın aalı. Dem-Teeli dayçanı yaramaz ata, özünü isə cır-cındırı axan bir oğlana döndərib, xanın torpağına qədəm basdı. Dayçanı xanın alaçığının yanında bağlayıb, içəri girdi, amma qapıdan deyil, o biri tərəfdən... Xan onu görüb, məəttəl qaldı və qışqırdı:

- Sən leşsən, yoxsa suyun cəngisən? Sən hardan çıxdın? Cavab ver!

Oğlan gözünü qaldırıb xana baxdı, amma bir kəlmə də söz demədi.

- Ona zərdab suyu verib, qovun burdan getsin, cəld olun, tələsin! – xan əsəbiləşdi.

İki qulluqçu zərdab suyu gətirdilər. Oğlan çox böyük bir fincanı bir uduma içdi. O, yenə durduğu yerdə durdu. Onlar bir fincan da gətirdilər. Oğlan bu fincanı da içdi və çıxıb getdi.



Xanın qızını axtara-axtara o bütün alaçıqları gəzdi, amma heç yerdə onu tapmadı. Nəhayət o, tütün qoxulu, uçuq-sökük bir alaçığa girdi. İçəridə bir qarı ilə bir qocanı gördü. İyrənc, sarışın bir qız da onların yanında oturmuşdu. Dem-Teeli eşiyə çıxmaq istədi, amma qoca dilləndi:

- Bizim bu köhnə, cırıq alaçığımıza heç kim girmir. Bir halda ki, gəlmisən, əyləş, qonaq ol, oğul!

Dem-Teeli qocanın verdiyi yeməyə baxdı. Ona elə gəldi ki, xörəyin rəngi hissdən də qaradır. Amma xörəkdən dadanda, gördü ki, o çox dadlıdır. Yedi və yatmaq istədi. Qarı dedi:

- Qızım, görünür, yazıq oğlan uzaq yol gəlib, yorulub. Onun üstünü ört, qoy yatsın.

Dem-Teeli yatmağa hazırlaşanda onun gümüş kəmərli qəlyanı qoltuğundan yerə düşdü. Qız qəlyana çox baxdı, axırda onu yerdən qaldırdı.

Dem-Teeli ayılanda gördü ki, sarı Çirkin qız dünya gözəli bir xanım olub, sifəti də ay kimi işıq saçır. Qonağın ayıldığını görən qız gülümsündü. Onun dişləri bərq vururdu. Qız dedi:

- Bu adi qəlyan deyil və siz də adi insan deyilsiz. Mən Qoşqar- Başdıq xanın qızı Uzun-Nazınam. Mənim üçün yalan olmasın, çox bahadırlar bura gəlib. Amma göyün otuz üç qatından keçib gələn Demir-Megeni görəndə, mən ondan qaçmaq üçün bu cındır alaçıqda gizləndim.

Oğlanı yenidən huş apardı. Ayılanda gördü ki, qızıl sarayda yatır. O gündən üzü nurlu gözəllə qoşa yaşamağa başladı.

Tezliklə xan Dem-Teelini evinə dəvət etdi. Bahadır yaxınlaşıb xanla, arvadı ilə salamlaşdı. Amma diqqətlə baxanda gördü ki, xanın başı qoyun başına oxşayır. Onun yanında oturan igid isə göylərin oğlu, zəhmli, qara pəhləvan Demir-Megedir. Qoşqar-Başdıq xan soruşdu:

- Hardan və nə üçün gəlmisən?

- Mən sənin qızın, gözəl Uzun-Nazının dalınca gəlmişəm, - igid cavab verdi.

- Sən sabah qara qayaya getməlisən,- dombalangöz xan dedi, -oradakı qara daşı yazıb mənə gətirməlisən.

Xan və Demir-Mege belə sözləşmişdilər ki, Dem-Teeli qara qayaya tərəf gələndə, Demir-Mege qara buludu aşağı dartıb çəkər və bulud qara şimşək kimi çaxıb bahadırı qara qaya ilə birgə əridər.

Səhəri günü Dem-Teeli qara qayaya tərəf yola düşdü. O, xeyirxah anasını yada saldı, onun xəbər verdiyi üç fəlakəti xatırladı. O, qara qayanın yanında qara kədəyi çıxarıb, qara olbukun üstündə əyləşdi. Sonra qara qayanın üstündə qara daşa qara yazını yazmağa başladı. Günorta üstü qara bulud onun başı üstündən asıldı. Qara şimşəksə, hay-harayla üzüaşağı çaxmağa başladı. Onlar ətrafda olanları əridirdilər. Ancaq igidə doğru tuşlanan hər nə varsa, hamısı qara kədəkə və qara olbuka dəyib geri sıçrayırdı. Tezliklə qara bulud əridi və hər tərəf işıqlandı. Dem-Teeli qara qayada qara yazını yazıb, qara şimşəyin oxlarını yığıb, xanın hüzuruna gəldi.

- Bu da sizə qara yazı, - bahadır dedi. Sonra əlavə etdi:

- Bizim ölkədə buluddan yağış yağır, amma sizin buludlar qara dəmirlərlə doludur! – bunu deyib, bahadır qara dəmir oxu qaldırıb xanın ayaqları altına atdı.

Demir-Mege gülə-gülə xanın yanına gəlib dedi:

- Lənətə gəlmiş, yəqin qara qaya ilə birgə əridi.

- Sən nə çərənləyirsən? – xan qışqırdı.- Lənətə gəlmiş qara daşı da, qara yazını da, üstəlik sənin şimşək oxlarını da gətirdi və dedi ki, «bizim ölkəmizdə buluddan yağış yağır, amma sizin ölkədə buludlar qara dəmirlərlə doludur». Sabah onu qırmızı qayaya yollayacağam. Sən də ona qırmızı şimşəklər yağdırıb əridərsən.



Səhəri günü Dem-Teeli qırmızı qayaya yollandı. O, xeyirxah anasını xatırladı. Qırmızı kədəki çıxarıb sərdi, qırmızı olbuka əyləşdi ki, qırmızı qayada qırmızı yazını yazsın. Günorta qırmızı bulud onun başı üstündən asıldı, qırmızı şimşəklərsə hay-harayla üzü aşağı töküldü. Onlar ətrafda nə varsa hər şeyi əritdilər. Onların heç biri qırmızı kədəkə və olbuka dəyə bilmədilər. Tezliklə qırmızı bulud əridi və hava açıldı. Dem-Teeli qırmızı qayada qırmızı yazını yazıb, daşı da, qırmızı şimşəyin oxlarını da yığıb xanın yanına gəldi.

- Bu da sizin qırmızı yazı, - bahadır dedi və əlavə etdi:

- Bu gün buludlar qırmızı dəmir oxlarla dolu idi.- O, bir dəstə qırmızı oxu xanın ayaqları altına atıb qızıl saraya, əziz Uzun-Nazının yanına getdi.

Demir-Mege aşağı dünyadan gəlib gülərək dedi:

- Yəqin, lənətə gəlmiş, qırmızı qaya ilə birgə əridi.

- Sən nə çərənləyirsən? - əsəbiləşən xan qışqırdı. – Lənətə gəlmiş qırmızı qayadakı qırmızı yazını da, bir də sənin ildırım oxlarını da gətirdi. O, dedi ki, «bu gün buludlar qırmızı dəmir oxlarla dolu idi».

- Sabah onu ağ qayaya yolla, -kinli pəhləvan məsləhət gördü. – Lənətə gəlmiş ağ ildırıma duruş gətirə bilməyəcək. Çox güman ki, o, sabah ağ ildırıma dözməyib ölümdən yaxa qurtara bilməyəcək.

Səhəri günü Dem-Teeli ağ qayaya tərəf yollandı. O, anasını yad edib, ağ kədəki çıxartdı, ağ olbuka əyləşdi və ağ qayanın üstündə ağ yazını yazmağa başladı. Gün günorta olanda ağ bulud başının üstündən asıldı və ağ ildırımlar hay-harayla onun başına töküldü. Bir anın içində nə varsa, hamısını əritdi. Amma ağ ildırımın tökülən oxları ağ kədəklə, ağ olbuka dəyə bilmədi.

Tezliklə ağ buludlar əridi və ətrafda hər şey nura qərq oldu. Dem-Teeli ağ qayada ağ yazını yazdı, sonra da yazını və ağ ildırımın oxlarını yığıb xana gətirdi.

- Bu da sizə ağ yazı, - bahadır dedi. Və əlavə elədi. – Bizim ölkədə buludlar ağ dolu tökür, amma sizinkilər ağ dəmir. Ölkəniz çox qəribədir. – O, bir dəstə ağ dəmir oxu xanın ayağı altına atıb qızıl saraya yollandı.

Demir-Mege qaçaraq gəlib gülə-gülə dedi:

- Bax, bu dəfə həqiqətən lənətə gəlmiş bahadır ağ qaya ilə birgə əridi.

- Lənətə gəlmişə bu dəfə də heç nə olmamış kimi ağ yazını gətirdi! – Qoşqar-Başdıq qışqırdı. – Sən heç nəyə yaramırsan! Lənətə gəlmişi mən özüm öldürəcəyəm.

O, yazıq oğlanı çağırtdırıb əmr elədi:

- O taydakı qayada bir mağara var, gedib orada oturarsan.

Dem-Teeli mağaraya gəldi. Bir də gördü ki, Qoşqar-Başdıq göy qurşağının üstüylə göyə qalxmağa tələsir. Onda Dem-Teeli qayadan bir parça qoparıb mağaranın girəcəyinə qoydu. Üstünü xələtiylə örtüb, bir az aralıda gizləndi. Qoşqar-Başdıq üçbaşlı ilana dönüb fısıltı ilə üzü aşağı süzdü. Dem-Teeli onun boynuna sıçradı:

- Ay oğul! – Qoşqar-Başdıq yalvarmağa başladı, - səndən xahiş edirəm, heç kimə demə ki, xanın boynuna minmişəm. Səninlə danışanda pis niyyətlə danışmışam, oğul. Səni qara mağaraya göndərib öldürmək istəmişəm. İndi nə istəsən verərəm, təki sən susasan!

Səhəri günü xan Dem-Teelini və Demir-Megeni yanına dəvət elədi.

- Mübahisənizi gücünüzlə həll edin. Əvvəlcə yumruğunuzu sınayın, - Qoşqar-Başğıq dedi.



Bahadırlar şərtləşdilər ki, heç kimi köməyə çağırmasınlar: nə atı, nə atanı, nə də ananı.

Dem-Teeli atını üçqat dəmir örkənlə buxovladı. Mübarizə başladı. Neçə gün vuruşduqları bəlli deyil. Xan hər gün Demir-Megenin gücünü artırırdı.O, bir qoyunu bir topuğ sümüyünə çevirib pəhləvana verirdi ki, yarışı udsun. Uzun-Nazın bundan xəbər tutdu, Dem-Teeliyə kömək eləmək qərarına gəldi. Hər səhər bir öküzü öldürərək onu diz sümüyünə çevirib bahadıra verirdi ki, yarışı udsun.

Nəhayət, Dem-Teeli Demir-Megedən yapışdı. Onu ağ buludların altında fırladıb qara torpağa atdı. Sonra da onun ağ sinəsinin üstündə oturdu, sandıq boyda, yekə qəlyanını çıxarıb qırmızı tütünlə doldurub çəkdi. Elə bu vaxt Demir-Mege qışqırdı.

- Ey göy-ata, ey torpaq-ana, siz hardasız? Məni məğlub etdilər.

Dem-Teeli gülümsünüb dedi:

- Yaxşı kişi andı pozmaz, ölüm gəlsə belə sözündən dönməz. Axı, biz şərt kəsmişdik: köməyə heç kimi çağırmamalı! – Bunu deyib külü düşmənin gözünə tökdü.

Demir-Mege vəhşi bir səslə bağırdı. Dem-Teeli dedi:

- Əgər sən ata-ananı köməyə çağırdınsa, onda mən də Xan-Şilge atımı köməyə çağıracağam, - dedi. Və atını səslədi.

Dem-Teelinin qışqırtısı atın qulağına güllə kimi çatdı, o biri qulağından da güllə kimi çıxdı. At fikirləşdi: «Görünür, sahibimin vəziyyəti çox ağırdır, yəqin bədbəxtliklə üzləşib». Nəhəng at üç dəfə fırlanıb, üç qat çidarı qıraraq pəhləvanların yanına tələsdi.

- Sən niyə qışqırıb məni çağırırsan? Axı, and içmişdin, - deyə at uzaqdan qışqırdı.

Dem-Teeli hər şeyi ona danışdı və ağ kədəyi çıxartdı.

- Göydən gələnlərlə sən vuruş, yerdən gələnlərlə də mən vuruşaram,- Xan-Şilge dedi.

Göy üzünü ağ buludlar bürümüşdü. Ağ ildırımlar hay-harayla aşağı süzürdü. Dem-Teeli bir anın içində kədəki yerə sərdi, ağ olbukun üstə əyləşdi və toxunulmaz oldu. Göy ata səhvən ağ ildırımla oğlu Demir-Megeni deşib keçdi.

Dem-Teeli Qoşqar-Başdıq-xanın yanına gəldi. Əlindəki canavar başlı gümüşü, at başlı qızıl parçasını xana uzadıb dedi:

- Əziz qayınatam, indi icazə ver, çoxdan axtardığımı da mən götürüm.

- Yaxşı atın qaçışına – yerişinə, kürəkəninsə gücünə baxarlar. Bir dəfə aşağı dünyanın sahibi Erlik-Lovun-xan əbədi olan idiklərimi,* qara ipək xalatımı, amansız qara yayımı və iri, qara bıçağımı məndən alıb. Bunların hamısını mənə gətir, əvəzində gözəl qızımı apar!

Dem-Teeli gözəl Uzun-Nazının yanına gəlib hər şeyi ona danışdı.

- Ölməyən canın öləcək, sönməyən çırağın sönəcək, - qız dedi. – Hələ Erlik-Lovun-xanın yanına gedən bir nəfər də sağ-salamat geri qayıtmayıb.

- Bu yolda ölsəm də, mən gedəcəyəm, - bahadır dedi.

Gözəl Uzun-Nazın yol üçün tədarük gördü. Ona bir kisə aşıq, bir kisə vətər-əzələ, bir kisə də qurudulmuş göz verib yola saldı.

Təzə ayın əvvəlində, ayın ilk günündə o, Xan-Şilgeyə minib irəliyə can atdı. Bərk əsən küləyin təsirindən atın yalı bayraq kimi dalğalanırdı.

- Hardasan, aşağı dünya? – bahadır qışqırdı.

---

* İdik - ucu şiş və yuxarı qatlanmış, qalın altlıqlı dəri çəkmə



Nəhayət, möhtəşəm at dayandı. Dem-Teeli boylanıb gördü ki, burda nə işıq saçan qırmızı günəş, nə parlayan sarı ay, nə də bir canlı nəfəs var. Hər tərəf torpaqdır. Soyuq, qara torpaq. Elə bu torpağın özü həm qaranlıq dünya, həm də aşağı dünya idi. Dem-Teeli ətrafa boylandı. Otlar da, meşələr də, sular da – burda hər şey zəhər püskürürdü. Birdən iki lüt oğlan uşağı qışqıraraq peyda oldular:

- İndi bu ağanın və atının sümükləriylə aşıq-aşıq oynayarıq!

Dem-Teeli aşıq dolu torbanı onların qabağına tulladı. Onlar da qışqırıb dedilər:

- Qoy, uğur sizə yar olsun!

Birdən iki sarı qız peyda olub qışqırdı:

- Gəl, ağanın da, atın da əzələlərini dartıb çıxaraq!

Dem-Teeli əzələ dolu torbanı onların qabağına tulladı.

İndi də qızlar qışqırıb dedilər:

- Hələ bu günə kimi heç kim bizə heç nə verməyib. Bu oğlansa bizə gör nə qədər əzələ bağışladı? Uğur sizə yar olsun! Hardansa iki qarğa uçub gəldi və çığırdı:

- Gəl, ağanın da, atın da gözlərini eşib çıxaraq!

Dem-Teeli bir torba qurudulmuş gözü onların qabağına tulladı. Və Erlik-Lovun-xanın sarayı göründü. Bahadır içəri girib dedi:

- Mənim qayınatam Qoşqar-Başdıq xan bir dəfə sənə əbədi olan qara idiklərini, qara ipək xələtini, sərt, qara yayını və çox böyük qara bıçağını verib; İndi mən onların dalınca gəlmişəm. Onları mənə ver!

Erlik-Lovun-Xan sakitcə güldü, amma elə güldü ki, - uzaqda qayalar uçdu. Erlik-Lovun-Xan bərkdən güldü, elə güldü ki, - torpaq çat-çat oldu.

- Hə, - dedi,- bunların hamısını mən ona borcluyam. Mən də onları qaytaracağam. Amma sən atını mənə verməlisən.

Dem-Teeli atını verib getdi. O, elə hey bu yolu getdi, getdi, amma aşağı dünyadan çıxıb canını qurtara bilmədi. Onda bahadır gözünün yaşını silib suyunu yerə tökdü və dedi:

- Əgər at məni düşünürsə, göz yaşım ona toxunacaq.

Göz yaşı atın burnunun üstünə düşdü. Onda Xan-Şilge fikirləşdi: «Sahibimin mənə ehtiyacı var. Elə ona görə də gözünün yaşını yola tökür». At buxovlarını qırıq-qırıq edib göz qırpımında bahadırın qarşısında durdu.

Dem-Teeli tez atın belinə sıçradı. At da onu çox tez bir zamanda Qoşqar-Başğıq xana çatdırdı. Bahadır qışqırdı:

- Erlik-Lovun-xanın verdiyi şeyləri gətirmişəm, buyurun, götürün. İndisə, gözəl qızı verin.

Xan heç nə fikirləşə bilmədi və qızını ona verdi. Dem-Teeli qızı alıb evə yollandı. Ata-anası onları şadyanalıqla qarşıladılar. Sonra bahadır atın başını buraxdı ki, gedib otlasın.

- Qoy gedib otlasın,- dedi. Özü isə dincəlmək üçün uzandı. Amma çox keçmədi ki, Xan-Şilge atı onu oyatdı. Yeri-göyü bir qışqırıq bürümüşdü: - Mən Ağ-bora atımla Ağ-Tayqada yaşayan Avıda-Megeyəm. Tevene-Megenin oğlu Dem-Teeli, sən haradasın? Alaçıqdasan, ya torpaqda? Mən Xüdün-Xülyükün qardaşıyam, gəlmişəm səndən onun intiqamını alım!

Dem-Teeli sıçrayaraq sodakı əyninə keçirib alaçıqdan çıxdı. Çıxan kimi də qartal rəqsinə başladı. Bahadırlar iki qaya kimi tutuşdular. Göyün ulduzları yerə töküldü, yerin tozu göyə qalxdı, sonra da Dem-Teeli Avıda-Megeni var-gücüylə yerə çırpdı.

- Lənətə gəlmiş, son sözünü de!

Avıda-Mege qışqırdı:



- Həyatıma, cavanlığıma yazığın gəlsin, çobanın olmağa razıyam.Gəl, qardaş olaq, mən də sənə qulluq edim. Atam mənə vəsiyyət edib ki, yaxşı adamla dostluq edim!

Dem-Teeli Avıda-Megeyə and içdirib, yatıb-dincəlməyə getdi. Heç doxsan gün yatmamışdı ki, yenə səs eşitdi: – Mən Gök-Tayqada yaşayan Gökedek-Mergenəm. Atım Gök-Boradır. Lənətə gəlmişlər mənim böyük qardaşlarımı öldürüblər. Mən onların intiqamını almağa gəlmişəm.

Dem-Teeli altmış sığın dərisindən hazırlanmış sodakını yenə əyninə geydi. O, Gökedek-Mergeni döyüşdə uddu və onun son sözünü eşitmək istədi. O da and içdi ki, Dem-Teeliyə qulluq edəcək, ona qardaş olacaq. Dem-Teeli də Arzılan-Tayqaya gedib müqəddəs ağacın altında uzanıb yatdı.

O, üç aydan sonra qasırğanı xatırladan vıyıltının səsinə yuxudan ayıldı. Sən demə, ana Terge-Qala ilə gözəl Uzun-Nazın qarğa cildinə girib göydən yerə enirlərmiş.

- Sən çox nahaq yerə düşməninə inanmısan,- dedilər. Sənə and içib, aman istəyən dostların verdikləri andı pozub, bütün adamları da, heyvanları da qaçırtdılar. Atan Tevene-Megenin hər iki gözünə polad iynələri batırıb, onu altmış sajın dərinliyində bir çalaya atdılar, üstünü də qaya parçası ilə örtdülər... Biz qarğaya dönüb özümüzü xilas edə bildik.

Dem-Teeli altmış sajenlik örkəni götürüb atasını xilas etməyə getdi. Sonra da ata-oğul düşmənin izinə düşüb onlara çatdılar, vuruşub bütün heyvan sürülərini geri qaytardılar. Dem-Teeli hər ikisini bir qamçıyla öldürsə də, bir şeyə təəssüflənirdi ki, onların son sözünü eşitmədi. Atasına dedi:

- Mən onların torpağına gedib mal-qaralarını və adamlarını bura gətirəcəyəm.

- Məgər öz malın, heyvanın sənə azlıq eləyir, oğul? Yaxşısı budur, gəl, evimizə qayıdaq - Tevene-Mege dedi.

- Yox, mən gedəcəyəm, - oğlu dedi.

Bir il keçsə də, oğlu hələ geri qayıtmamışdı. Daha dözməyən Uzun-Nazın cadunun köməyilə, gördü ki, Dem-Teeli Megenin arvadı gözəl Maydır-Hüvanın yanına gəlib. O, qadının gözəlliyinə hayıl-mayıl olub, uzun müddətdir ki, onunla yaşayır. Dem-Teeli başı ayılanda Gögedek-Mergenin köçəri düşərgəsinə getdi. Orda da Gögedek-Mergenin gözəl arvadı Çançin-Hüvaya aşiq oldu. O, atasını-anasını, hətta Arzılan-Tayqanı da unutdu.

Terge-Qala da bunların hamısını yatıb sehirli yuxuda gördü.

Gözəl Uzun-Nazın bahadıra əsəbiləşdi, qırğıya çevrilib onun yanına uçdu. Ora çatanda gördü ki, Dem-Teeli bir gözəlin yanından çıxıb o biri gözəlin yanına gedir. O, heç evə dönmək haqqında fikirləşmir də. Onda qız igidin amansız qara yayını oğurlayıb öz cildinə girdi və yayın gərilmiş ipini dartmağa başladı ki, bunların üçünü də birdən nişan alsın. Müdrik at Xan-Şilge bunu başa düşdü və sahibini çağırdı:

- Dem-Teeli dəli olmusan, nədi? Sənin sərt yayın hanı? Sən doğrudan istəyirsən ki, Uzun-Nazın səni öldürsün? – Müdrik at utandığından bilmirdi ki, başını hara soxsun.

Gözəl Uzun-Nazın sakitləşib bahadıra dedi:

- Öz axmaqlığın ucundan Arzılan-Tayqanı unudub, torpaqlarını yadından çıxarmısan. Gah orda, gah burda gəzib əylənirsən. İllərin necə keçdiyini hiss etmirsən. Əgər bu hadisə bir də təkrar olsa, mən səninlə qalmayacağam. – Və o, yenidən qırğıya dönüb evə qayıtdı.

Dem-Teeli yatmışdı-ayıldı. Gözəllərlə bərabər bütün mal-qaranı və adamları öz torpaqlarına gətirdi. Yolu yarı edəndə dedi:



- Mən qabaqda gedəcəyəm. Əgər yol düz olsa, onda gecə-gündüz yol gedərsiz. Yox, əgər yol dönsə, onda yatıb dincələrsiniz.

Və o, doğma Tayqaya tərəf yol aldı. Evə gəlib doğmalarına and içdi, söz verdi ki, bir də belə hərəkətlər etməyəcək.

Ardına qulaq asın. Tevene-Mege artıq qocalmışdı. O, Arzılan-Tayqanın zirvəsinə qalxıb yer hazırladı. Uzanıb, gözlərini əbədilik yumdu. Terge-Qala da fikirləşdi ki, Tevenesiz bu dünyada yaşamağa dəyməz və o, yuxarı dünyaya qalxdı.

Bir dəfə Dem-Teeli ova getmişdi. Gözəl Uzun-Nazın bir oğlan uşağı doğdu. Maydır-Hüva və Çançin-Hüva Uzun-Nazına paxıllıq edirdilər. Elə buna görə də uşağı öldürmək qərarına gəldilər. Onlar qızıl-sinə körpəni oğurlayıb dənizin dibinə atdılar. Sonra da doqquzillik çürümüş it peyinini və doqquz köhnə çəkmənin içini götürüb qarışdırdılar və bu suyu gözəl Uzun-Nazının üstünə tökdülər. Bununla da gözəl Uzun-Nazın sehirlərini itirib səfeh-sərsər bir qadına çevrildi.

Dem-Teeli evə qayıdanda Maydır-Hüva və Çançin-Hüva ona dedilər:

- Sənin arvadın ifritə doğulub. Bu yaxınlarda o, əcayib bir uşaq doğdu. Onda uşağa oxşar bir sifət yox idi. Fikirləşdik ki, bu uşaqdan heç xeyir gəlməyəcək. Ona görə də uşağı götürüb dənizə atdıq. Doğuşdan sonra arvadın da nə kəlmə kəsir, nə adam başa düşür. Bütün günü müqəvva kimi durur.

Dem-Teeli onlara inandı. O, bir kənizlə, bir inəyi arvadına verib onları Arzılan-Tayqada saxladı. Özü isə adamlarını və sürülərini götürüb başqa ölkəyə köçüb getdi.

Günlərin bir günü kənizlərdən biri dənizin üzərində bir şəfəq gördü. Və başa düşdü ki, bu gözəl Uzun-Nazının oğlunun şəfəqidir. O, belə qərara gəldi ki, xanımını Maydir-Hüvanın və Çançin-Hüvanın sehrindən xilas etsin. O, üç gün, üç gecə

Uzun-Nazını doqquz tərəfdən axan doqquz ərcanın suyu ilə yuyub təmizlədi. Nəhayət, gözəlin əvvəlki sehri və əvvəlki gözəlliyi, ağlı özünə qayıtdı. Onlar xoş günləri birgə xatırlayıb, birgə ağladılar.

Gözəl Uzun-Nazın sehrin köməyi ilə öyrəndi ki, Maydır-Hüva ilə Çançin-Hüva onu doqquzillik çürümüş it peyinilə murdarlayıblar. Qızıl-sinə oğlunu isə dənizin dibinə atıblar. Dalay-xan da onun oğlunu öz balası kimi böyüdür.

Gözəl Uzun-Nazın qızıl balığa dönüb Dalay-xanın yanına üzdü və oğlunu geri istədi. Dalay-xan onun oğlunu özünə qaytardı, üstəlik də ona günəş kimi bərq vuran şəffaf bir almaz bağışladı.

Sahilə çıxanda Uzun-Nazın almazı başının altına qoyub yatdı. Ayılanda gördü ki, qızıl sarayda yatır.

Oğlu hər gün ova gedir, hər gün də bir heyvan gətirirdi. Bir gün anası ona qara, sərt bir yay gətirdi. Bu yay onun babası Tevene-Megenin yayı idi. Sonra o, Dalay-xanın yanına gedib ondan xahiş elədi ki, oğluna bahadıra layiq bir ad versin.

- Qoy onu Küçütü-Mergen, atını Xüler-Xüren çağırsınlar, – Dalay dedi.

- Bu çox yaxşı addır, - Uzun-Nazın dedi, - amma Xüler-Xüren atı haradan alım?

- Xüler-Xüren-at yuxarı dünyadadır. Onu güc toplamaq üçün Küçütü-Mergenin babası Tevene-Mege otlağa buraxıb. Bu – Teveneyə qalib gəlmiş Küdün-Xülyükün atıdır.

Küçütü-Merge atı səslədi və at uçaraq, oynaya-oynaya onun yanına gəldi. Oğlan babasının qara və sərt yayını götürüb Arzılan-Tayqaya ova getdi. Onun gözləri gün kimi yanırdı. Atının gözləri günəş kimi işıq saçırdı. Merge Tayqanın zirvəsinə qalxanda Dem-Teeli işıq saçan şüaları görüb fikirləşdi: «Mənim Arzılan-Tayqamda bu üç günəş hardan peyda oldu?».



Və atını Tayqaya çapdı. Məlum oldu ki, hansısa bir oğlan çox qüdrətli bir atın üstündə oturub. Dem-Teeli qışqırdı:

- Adın nədir, cavab ver, lənətə gəlmiş! Hardan gəlmisən, niyə gəlmisən!

Küçütü-Mergen əsəbiləşdi, göylə süzüb onun yanına gəldi, onu yəhərdən salıb yerə sıxdı.

- Burax məni, ölürəm! – bahadır yalvarıb qışqırdı.

Küçütü-Mergen onu buraxıb adını soruşdu.

- Mən Arzılan-Tayqada yaşayan Dem-Teeliyəm. Tevene-Megenin oğluyam. Bəs, sən kimsən?

- Mən də Arzılan-Tayqada yaşayan Dem-Teeli və Uzun-Nazının oğlu Küçütü-Mergenəm. Atım da Xüler-Xürendir.

Dem-Teeli oğluna qulaq asdıqca başa düşdü ki, Maydır-Hüva və Çançin-Hüva nə qədər kinli və məkirli imişlər. O, dişlərini əsəbilikdən o qədər qıcadı ki, az qaldı dişləri ovxalanıb tökülsün. O, atını minib ilxısına tərəf çapdı. İlxıdan yeddi ən iti qaçan, dəlisov atı ayırdı. Maydır-Hüva və Çançin-Hüvanı atlara sarıyıb düzə buraxdı. Sonra doğma Arzılan-Tayqaya üz tutdu. Gözəl Uzun-Nazının qızıl sarayının yanında özünün ağ çadırını qurdu. Xoş günləri xatırlayıb birgə güldülər, pis günləri xatırlayıb birgə ağladılar. Onlar oğulları Küçütü-Mergenin belə güclü olduğuna çox sevindilər. Sevindilər ki, onun tayı-bərabəri nə yuxarı dünyada, nə də aşağı dünyada var. Heç nə fikirləşə bilməyən ata-ana Dalay-xanın yanına getdilər ki, oğullarına yaraşan gəlinin harada yaşadığını desin:

Dalay-xan dedi:

- Uzaq cənubda bir ölkə var ki, orda qızıl günəş heç vaxt gizlənmir. Orada qızılı Aldın-Dalay dənizinin sahilində Us-xan adlı bir nəfər çox xoş həyat sürüb yaşayır. Onun Aldın-Ertine adlı bir qızı var. Mən bu xana toy hədiyyəsi bağışlamışam.

Ardına qulaq asın. Ayın əvvəlində, xoş bir gündə Küçütü-Mergen Xüler-Xüren atını yəhərləyib cənuba tərəf at çapdı. Onun nə qədər at çapdığı bəlli deyil. Bir dəfə o, elə bir ölkəyə gəlib çıxdı ki, burda hörümçəklərin hər biri çadır hündürlüyündə, böcəklərsə öküz boyda idi. Nəhayət, o günəşin heç vaxt gizlənmədiyi bir ölkədə idi. Qızıl dənizin sahilində qızıl saray ucalırdı. Küçütü-Mergen saraya daxil oldu.

- Artıq iki ildir ki, biz səni gözləyirik, - bahadır Us-xan dedi.- Dənizin dibində qızıl qala var. Onu nəhəng, boz öküz qoruyur. Bu da sənə məktub. Onu öküzə göstərərsən.

Bahadır dənizin dibinə enib məktubu öküzə verdi. Öküz onu qalaya buraxdı. Aldın-Ertine də orada oturmuşdu. Qız onu görcək çox sevindi və tez qalxıb yola hazırlaşdı.

Onlar birlikdə Us-xanın yanına gəldilər. Xan onlara saysız-hesabsız mal-qara ayırdı, qızıl sandıqda dəmir döyüşçülər verib onları hörmətlə yola saldı.

Küçütü-Mergen gözəli ilə birdə Arzılan-Tayqaya gəldilər. Burada atası Dem-Teeli və anası Uzun-Nazın yaşayırdı. Onlar doğma torpaqlarında uzun zaman sakit və xoşbəxt bir ömür sürdülər.



## QORXMAZ XAN-XÜLYÜK

Çox qədim zamanlarda Xan-Xülyük adlı xeyirxah bir bahadır yaşayırmış. Xanın obaları o qədər böyük imiş ki, Çanqış-Qaya qalası ilə Çavış-Qaya qalalarının arasınadək böyük bir sahəni tuturmuş. Onun şüşədən qurulmuş, başı göylərə dəyən iki sarayı və çox dözümlü üç atı varmış. Atların adı Uluğ-Biłək, Biçə-Bilək və xan-Şilgi imiş. Aulu bir tərəfdən Aldın-Ala-qartal adlı bir qartal, o biri tərəfdən isə Naçın-Bora-qırğı adlı bir qırğı qoruyarmış. Xan-Xülyük yeddizirvəli tayqasında yeddi ay ov ovlarmış.

Xanın Say-Kuu adlı arvadı və Aldın-Oyuu adlı sevimli kiçik bacısı varmış.

Günlərin bir günü Xan-Xülyük altızirvəlik tayqasında çoxlu heyvan öldürüb evə qayıdırdı. Amma çox yorğun olduğundan bir ay, otuz gün yatıb yuxuya gedir. Az yatır, çox yatır bilinmir, birdən bir qışqırtı eşidilir.

- Əziz qardaşım! Tez ol, qalx! Sənin Xan-Şilge atının yanında nəhəng at ləpiri var. O at sənin Xan-Şilge atından çox böyükdür, - deyə arvadı Say-Kuu qışqırırdı.

- Bu nə ləpirdir? – bacısı Aldın-Oyuu soruşdu.

Xan-Xülyük yerindən sıçradı. Doxsan adamın güclə qaldıra biləcəyi ləyənə su tökdü, yuyundu, yuxusunu qovdu, doqquzqatlı görücü borunu götürüb Bolçaytılıqbora tayqaya dırmaşdı və ətrafı gözdən keçirdi. Nə bir yerdən səs gəlir, nə də bir yerdə bir şey görünürdü. Xan-Xülyük evə dönüb dedi:

- Heç bir yerdə yad izləri görmədim. Yəqin mənim Xan-Şilge atımı minib sürmüsünüz, indi də mənə gülürsünüz.

Özüylə qara yayını, ağ oxunu götürüb ov ovlamaq üçün tayqasına getdi. Birdən altızirvəli tayqanın ətəklərində yekəpər bir bahadırın əyləşdiyini gördü. Bahadır onu gözləyirdi. Onun

ağ xələti gün işığında parıldayırdı. Ağ-Sarıq adlı güclü atı da yanında idi.

- Sən hardan peyda oldun, keçəl porsuq? – Xan-Xülyük çığırdı. – Sən nəsən, çürümüş torpaqsan, ya kiflənmiş su? Sən atlıya-maneəsən, piyadaya-əngəl. Mənə sözün varsa, buyur de!

- Mən qüdrətli Alday-Mergenəm, atım isə Ağ-Sarıqdır. Bura gəlməkdə məqsədim odur ki, Xan-Xülyükün bütün malqarasını, aulunu və biçənəklərini ələ keçirim. Görürəm, sən elə bahadırlar-bahadırı Xan-Xülyükün özüsən. De görüm, nə istəyirsən, dəmirçi-döyən soyuq poladı, yoxsa anadangəlmə möhkəm yumruğu?

- Məndə sənin üçün nəhəng yumruq da var, dəmirçinin düzəltdiyi soyuq dəmir də! – Xan-Xülyük cavab verdi. – Mənim heç böyük qardaşım da yoxdur ki, köməyimə gəlib məni müdafiə edə. Məni müdafiə edəcək bircə Xan-Şilge atım var.

Alday-Merge qışqırdı:

- Ağ-Sarıq atımdan başqa məni də heç kim müdafiə etməyəcək. Ustaların düzəltdiyi silahları bir qırağa qoyaq. Gəl, ata-anamızın verdiyi gücü sınayaq.

O, bunu deyib, Ağ-Sarıq atını dəmir örkənlə sarımağa başladı. Xan-Xülyük də Xan-Şilgeni buxovladı.

Pəhləvanların hərəsi çayın bir üzündə durub, bir-birinə öküz kimi acıqla baxıb çay aşağı qaçdılar. Qaça-qaça qartal rəqsini oynamağa başladılar. Bahadırlar bədən əzələlərini oynadıb, onları açmağa çalışırdılar. Sonra hərəsi bir dağı qamarladı. Bədənləri toqquşmasın deyə, dağı çəkib qırağa qoydular. Yer əsdi, göy titrədi. Sonra sarı düzün ortasında igidlər tutuşdular. Sarı düz də titrədi. Onlar altmış gün-iki ay, doxsan gün-üç ay güləşdilər. Xan-Xülyük gördü ki, Alday-Mergenin qoltuğundan dağ boyda köpük qaynayır.

- Sənə nə oldu? – Xan-Xülyük soruşdu.



- Bu o deməkdir ki, mənim bahadır bədənim qızışdı, lənətə gəlmiş, indi özünü gözlə!

Xan-Xülyük qırğı kimi, şahin kimi iti idi. Alday-Mergenin bədəni qızışanda yalın əllə onun bədəninə toxunmaq mümkün deyildi. Xan-Xülyük tərliyini cırıb əllərinə sarıdı.

Xan-Şilge-at gördü ki, yiyəsinin vəziyyəti ağırdır. Odur ki, üzünü göylərə tərəf tutub bərkdən tüpürdü. Elə o saat da dolu qarışıq yağış yağmağa başladı. Yağan yağış Alday-Mergenin istisini soyutdu. Alday-Mergenin istisi soyuduqca Xan-Xülyükün canı qızırdı. Birdən o, dəmir kimi möhkəm əlləri ilə Alday-Mergeni qaldırıb göydə elə fırlatdı ki, yerə çırpanda bircə dəfə hıqqıldadı.

- Heyvanı öldürəndə canını alırlar, insanı öldürəndə sözünü! Alday-Mergen, sözünü de!- Xan Xülyük-dedi.

- Mənə rəhmin gəlsin, Xan-Xülyük. Bir atadan olan qardaşlar kimi, atın iki qulağı kimi, madyanın qoşa əmcəyi kimi qardaş olaq! Mən atının nalını, oxunun ucunu, tüfənginin ağzını yalamağa hazıram, - Alday-Mergen uzanmış halda and içirdi.

Xan-Xülyük onu qaldırıb dedi:

- Mənim mehtərim olarsan, qardaş! Övyür* böyüklükdə boz ilxıma, Karqı* böyüklükdə qara ilxıma qulluq edərsən. Get mənim aalıma.

Xan bunu deyib yeddizirvəlik tayqasına yollandı. Doyunca ov edib çantasını doldurdu və evə qayıtdı. Gördü ki, sevimli kiçik bacısı Aldın-Oyuu ağrıdan göyərib, ikiqat olub xəstə yatır.

- Aldın-Oyu göy xəstəliyinə tutulub,- bahadırın arvadı Say-Kuu dedi. Əgər bacının ölməyini istəmirsənsə, onda Göy gölünün sahibi olan göy öküzün ürəyini ona gətirməlisən. Qızı ancaq bu xilas edə bilər. Xan-Xülyük. Xan-Şilge atını minib,

---

*Övyür və Karqı – coğrafi adlardır

Göy- gölə tərəf qaçdı. O, yol boyu yüz adamın oxuduğu bir səslə uzun bir mahnı oxudu. Xan-Şilge atı alçaq dağların təpəsi ilə, uca daşların zirvəsi ilə qaçırdı. Bədbəxtlikdən, bahadır yol boyu hərəsi bir erkək boyda olan daşları tapdayır və ağrıdan çığırırdı. Çığırdıqca səsindən at boyda daşlar ovxalanıb dağılırdı.

O, qəfildən qara bir alaçıq gördü. İçəri girdi və gözəl Aldın-Hüvanı* ay kimi, günəş kimi işıq saçan gördü. Onun yanında isə anası oturmuşdu.

- Oğul, hardan gəlib, hara gedirsən? – qarı soruşdu.

- Mənim bircə bacım göy xəstəliyinə tutulub. İndi mən göy gölün sahibi, göy öküzün ürəyini gətirməyə gedirəm.

- Göy gölün sahibi olan göy öküz qüdrətli məxluqdur, - qarı dedi. – O, hamını öldürür. Onun bir buynuzu o qədər qaynardır ki, əlinlə tutsan qaynayarsan. O biri buynuzu o qədər soyuqdur ki, əlinlə tutsan, donarsan, qolun qopub yerə düşər. Bu ağ kədiyi al, bununla soyuq buynuzu tutarsan, bu sarı kədiyi də al, bununla isti buynuzu tutarsan.

Səhəri günü gözəl Aldın-Hüva və anası Xan-Xülyükü yola saldılar. O, boz qırğıya çevrilib tezliklə Göy gölə çatdı. Böyüklüyü sıra dağlara oxşayan Göy öküz gölün sahilində uzanmışdı. Xan-Xülyük milçəyə çevrilib gah onun gözünün bir küncünə, gah da buynuzunun o biri küncünə qonurdu. Xan-Xülyük yenə əvvəlki görkəmini alıb sarı kədiklə öküzün qaynar buynuzundan, ağ kədiklə də soyuq buynuzundan yapışıb, onları kökünə kimi torpağa batırdı.

- Bu necə bir gücdür ki, mənim buynuzlarımı yerə çaxdı? – öküz nərildədi. Mənə yalnız Xan-Xülyük və onun Xan-Şilge atı qələbə çala bilər! Sən niyə burdasan Xan-Xülyük?

---

*Aldın Hüva – Aldın – qızıl, Hüva – monqolalrda hüvay-gözəl deməkdir, (yəni qızıl tək sarışın, gözəl qız)



- Mənim gözlərimin bəbəyi kimi, barmaqlarımın sümüyü kimi qoruduğum kiçik bacım ölüm yatağındadır. Mənə sənin ürəyin lazımdır. Yalnız sənin ürəyin onu xilas edə bilər.

- Qoy olsun, götür mənim ürəyimi. O, sol tərəfdədir, - göy öküz dedi.

Bahadır öküzün ürəyini dartıb çıxartdı, yerini dərman otları ilə sağaltdı.

- Dost olaq, göy öküz, - deyib öküzün buynuzlarını torpaqdan çıxartdı.

Öküz quyruğundan bir çəngə yun qoparıb bahadıra:

- Mən öləndə yun qaralacaq, - dedi.

Xan-Xülyük öküzə qara oxunu verdi.

- Nə qədər sağam, bu ox çubuq kimi əyilib düzəlcək. Nə vaxt ölsəm, o, quruyacaq, -dedi.

Xan-Xülyük geri qayıdanda qara alaçığa girdi. Gözəl tez alaçıqdan çıxdı, günü və ayı paltarının qolunda gizlətdi, sonra geri qayıdıb dedi:

- Çöl yaman qaranlıqdır. Yol getmək olmaz. Burada qalın, gecələyin.

Xan-Xülyük qara alaçıqda gecələdi. O, yatan vaxtı gözəl qız onun çantasından göy öküzün ürəyini çıxarıb, yerinə adi inəyin ürəyini qoydu. Səhəri günü heç bir şeydən şübhələnməyən bahadır yoluna davam elədi.

O, öz auluna çatan kimi sevincək inəyin ürəyini sevimli bacısına verdi. O da tez sağalıb ayağa durdu və getdi.

Xan-Xülyükə nə var? O, boş yerə evdə oturmazdı. Odur ki, qalxıb yeddizirvəli tayqaya ov ovlamağa getdi. Bu vaxt onun arvadı Say-Kuu, bacısı Aldın-Oyuu və əhdi-peyman bağladığı qardaşlığı bahadır Alday-Mergen çox fikirləşdilər ki, onu hara göndərək ki, bir də geri qayıtmasın.

- Onu ağzı zəhər, qırmızı tülkünün yanına yollamaq lazımdır, - Alday-Mergen dedi. – Onun üst dişlərindən otuz qurumuş insan, alt dişlərindən isə altmış qurumuş insan sallanıb. Bu tülküdən xilas olmaq çox çətindir...

Xan-Xülyük ovdan qayıdanda gördü ki, sevimli bacısı Aldın-Oyuu xəstə yatır, qan kimi qızarıb qıvrılır.

- Aldın-Oyuu qırmızı (məxmərək) xəstəliyinə tutulub, - arvadı Say-Kuu dedi. – Əgər onun ölümünü istəmirsənsə, onda qızılı-qırmızı tayqanın arxasında yaşayan qırmızı tülkünün ürəyini gətirməlisən. Yalnız bu ürək ona kömək edib, ölümdən qurtarar!

Xan-Xülyük yorulmaz Xan-Şilge atını minib qızılı-qırmızı tayqaya yola düşdü. Yol üstü qara çadıra baş çəkdi. O, çay içib, gözəllə xeyli söhbət elədi. Amma qoca qarı çölə çıxıb günəşi və ayı paltarının qolunda gizlətdi və Xan-Xülyükə dedi:

- Çöl çox qaranlıqdır. Sən gərək burda gecələyəsən.

Səhər Xan-Xülyük dedi:

- Mənim kiçik yeganə bacım qırmızı xəstəliyə düçar olub. Mən qırmızı tülkünün ürəyini axtarıb tapmağa gedirəm. Deyirlər o, qızılı-qırmızı tayqanın o biri tərəfindədir.

- Oho... bu tülkü çox qorxunc, zəhərli heyvandır. O insanı özünə yaxın buraxmır, - qarı dedi.

- Kimdirsə, səni birbaşa ölümə göndərib.

- Anasından doğulan insan, öz sözündən dönməz, - Xan-Xülyük dedi və yola çıxdı.

O, altı zirvəli qızılı-qırmızı tayqaya qalxıb təəssüf hissi keçirdi və fikrə getdi. «Doğrudanmı mən başımı burda qurban verməliyəm?» O, qəflətən qırmızı tülkünü gördü. Onun quyruğu qayada, gövdəsi yastı dağda, sifəti isə daş yığmağının içində, siçan axtarışında idi. Xan-Xülyük milçəyə çevrilib tülküyə yaxın uçdu, altmış sajenlik cildəni çıxarıb tülkünün boynuna atdı. O, həqiqi cildinə girib heyvanı dalınca sürüdü.



- Mənə rəhmin gəlsin. Xan-Xülyük,- tülkü çığırdı, - Gəl dost olaq!

- Mənim yeganə kiçik bacım qırmızı xəstəliyinə tutulub. Mənə sənin ürəyin lazımdır, qırmızı tülkü.

- Ürəyimi götür, amma öldürmə, həyatımı mənə qaytar!

Bahadır ürəyi çıxarıb, yaranı məlhəm otlarıyla sağaltdı.

- Mən sənin dostun olmağa razıyam, qırmızı tülkü, - o, dedi.

Tülkü ürəyinin qənşərində bitən yundan bir cəngə qoparıb bahadıra verdi..

- Nə qədər sağam, yunum daha da ağaracaq. Mən öləndə isə o, quruyacaq.

Yolüstü bahadır qara çadıra baş çəkdi. Qarı onun çantasındakı qırmızı tülkünün ürəyini boz qoyunun ürəyilə dəyişdi.

Xan-Xülyük evə dönüb gördü ki, əziz bacısının vəziyyəti pisləşib. O, boz qoyunun ürəyini bacısına verən kimi bacısı sağaldı, ayağa qalxdı və getdi.

Cəsur Xan-Xülyük altızirvəli tayqaya ov ovlamağa getdi. Evə qayıdanda gördü ki, sevimli bacısı bal kimi sapsarı saralıb xəstə yatır.

- Aldın- Oyuu sarılıq xəstəliyinə tutulub, - arvadı Say-Kuu dedi. – Əgər bacının ölməyini istəmirsənsə, onda yeddi oğlanın qoruduğu, yeddi çayın qovşağında olan mis daşı gətirməlisən.

Xan-Xülyük yeddi çayın qovşağına yol aldı. Yolüstü qara çadıra baş çəkdi.

- İndi hara gedirsən? – qarı soruşdu.

- İndi bacım sarılıq xəstəliyinə tutulub. Yeddi oğlanın qoruduğu yeddi çayın qovşağında olan mis daşı gətirməyə gedirəm.

- A... bu oğlanlara yaxınlaşmaq mümkün deyil. İnsan yatanda qoltuğunun qoxusunu uzaqdan duyurlar, insan yeyəndə ətin iyini hiss edirlər, - onlar belə şulbuslardır! – Gözəl Aldın-

Hüva dedi:- Mən onlara məktub yazaram. Və o, bir sajenlik boyu olan sarı məktubu bahadıra verdi.

Xan-Xülyük yeddi çayın qovşağına gəldi. Yeddi oğlan onun qarşısına atıldı. Bahadır məktubu onlara tərəf tulladı. Oğlanlar məktubu oxuyub başa düşdülər ki, qarşılarında onların kürəkənləri durub. Onlar sevinib atıldılar və qışqırdılar:

- Mən mis daşı kürəkənə verəcəyəm!

- Yox, mən!

Onlar yeddi dənə mis daşı bahadır üçün gətirdilər.

Yolüstü bahadır qara çadıra baş çəkdi. Aldın-Hüva mis daşları adi daşlara dəyişdi.

Xan-xülyük evə gəldi. Mis daşın qırıntılarını yemək üşün sevimli bacısına verdi. Qız da tez sağalıb qalxdı və harasa getdi.

Cəsur Xan-Xülyük yeddizirvəlik tayqaya ova getdi. Arvadı onun bacısını yenə sapsarı rənglə boyadı. Bahadır evə dönəndə gördü ki, bacısı əvvəlki kimi sapsarı saralıb uzanır və hıqqıldayır.

- Dünyanın axırında yaşayan Erji-Serji başkının müqəddəs qızıl kitabını gətirmək lazımdır. Bəlkə bu kitab sənin bacına kömək ola, - Say-Kuu dedi.

Xan-Xülyük dünyanın axırına getmək üçün yola düşdü. Yolüstü qara çadıra baş çəkdi.

- İndi hara gedirsən?

- Mənim bacım hələ də xəstədir. Erji-Serji başkının müqəddəs qızıl kitabının dalınca gedirəm.

Gözəl qız yenə bir məktub yazdı,

- Bunu müdrik başkıya verərsən, - dedi.

Xan-Xülyük torpağın sonuna gəldi, müdrik başkının auluna çatdı. Onu balaca oğlan uşaqları əhatə etdi.

- Siz kimsiniz? – bahadır soruşdu.



- Biz Erji-Serji başkının şagirdləriyik, - oğlanlar cavab verdilər.

- Bu məktubu ona çatdırın,- bahadır dedi.

Oğlanlar qaçdılar.

- Yeganə qızımın alaçığının sahibi gəlib! – müdrik başkı qışqırdı. – Onu bura dəvət edin.

Xan-Xülyük gəlib bərkdən qışqırdı. Onun qışqırtısından ağaclar çat verib, odunlar alışdılar.

- Mən tələsirəm, müqəddəs qızıl kitabı tez mənə verin, - dedi.

- Tez olun, qızıl kitabı tez çıxarın, yoxsa başım bu saat çatlayar! – başqı şagirdlərə dedi.

Şagirdlər kitabı çıxartdılar. Xan-Xülyük kitabı götürüb evə tərəf çapdı. At alçaq dağların beli ilə, yüksək dağların üstü ilə çapırdı. Yenə gəlib qara çadırın yanında durdular. Gözəl Aldın-Hüva müqəddəs kitabı yenə dəyişdi.

Bahadır evlərinə gəldi. Arvadı onu uzaqdan görüb dedi:

- Xan-Xülyük gəlir. Onu nə qədər öldürmək istəsək də o, ölmür.

Xan-Xülyük kitabı bacısına göstərdi. Oda durub getdi.

Bahadır yenə ova getdi. Qayıdanda gördü ki, bacısı qoz ağacının qabığı kimi ağappaq uzanıb.

- Aldın-Oyuu ağ xəstəliyinə tutulub, - arvadı Say-Kuu dedi.

- Mehriban bacımı necə sağaltmaq olar? - Xan-Xülyük soruşdu.

- Bir dəfə anam da bu cür xəstələnəndə, mənim xeyirxah atam ona Şərqdə yerləşən Sarı gölün sahilində otlayan ağ dəvənin südündən gətirmişdi. Bəlkə o süddən olsa, bacın da içib sağalar.

Xan-Xülyük yorulub usanmayan Xan-Şilge atını minib Sarı gölə üz tutdu. Yol üstü qara çadıra girib gözəl qızla söhbətləşdi.

- Sən hara tələsirsən? Dayan, bir az əyləş! – Aldın-Hüva ondan xahiş etdi.

- Yeganə bacım Aldın-Oyuu ağappaq ağarıb! Əgər bu gün ölsə, yəqin axşama ölər, yox, əgər sabah ölsə - onda ola bilsin ki, səhər tezdən öləcək! Mən ağ dəvənin südünü almağa tələsirəm. O da sarı gölün sahilində otlayır.

- Əgər sən ora getsən ölməli olmasan da öləcəksən, sönməyən ocağın sönəcək. Getmə, Xan-Xülyük!

Amma bahadır onun sözünə qulaq asmadı, üzünü günçıxana tutub yola düşdü. İgid sarı aşırıma qalxıb Sarı gölü gördü. Gölün qırağında dəmir qovaq ağacı dururdu. Üç dəvə balası qovağın budağında otururdu. Aşağı qatda oturan dəvə ağlayırdı, ortada əyləşən boğaz mahnıları oxuyurdu, amma yuxarıda oturan isə çox uzun-qəmli mahnı oxuyurdu.

Bahadır onlardan soruşdu:

- Siz niyə ağlayırsınız, niyə qəmli oxuyursunuz?

- Bu göldə üçbaşlı ilan yaşayır – onlar cavab verdilər. Günorta sudan çıxır. O, bu gün lap aşağıda oturanı, sabah-boğaz mahnısını oxuyanı, o biri gün isə qəmli mahnı oxuyanı yeyəcək.

Bizim ata-anamız otlamaq üçün tayqanın günçıxan tərəfinə gediblər. Bizi isə müdafiə etməyə bir adam da yoxdur. Xan-Xülyük möhkəm qara kamanının yayını dartıb qara oxu göla tərəf tutdu və oturub gözlədi. İlanın başları suyun üzündə görünən kimi bahadır oxu atdı və ox hər üç ilan başını bir dəfəyə üzüb keçdi. Ox süzüb gölün o bir sahilinə çatmamış Xan-Şilge at şahin məharətilə oxa çatıb dişlərilə onu tutdu.

Dəvə balaları və Xan-Xülyük dost oldular. O da gəlişinin səbəbini onlara danışdı.

- Bizim valideyinlərimiz – çox əzəmətli, həm də olduqca qorxulu heyvanlardır, - dəvə balaları dedilər. Onlar mənzil başına bir gün qalanda belə yatan adamın qoltuqaltı qoxusunu, yemək yeyən adamın yediyi ətin iyini uzaqdan duyurlar. Onlara yaxınlaşmaq qətiyyən olmaz. Biz südü əmərik, onu ağzımızda saxlayarıq. Sənsə, hələlik gizlən, tayqanın arxasına-günbatan tərəfə get. Valideynləri görünən dağın arxasında itənə kimi sən onların gözünə görünmə.

Xan-Xülyük qərbə gedib ən uca dağın təpəsinə qalxdı. Səhəri günü düz günortaçağı o biri tərəfdəki dağın arxasından dəvə balalarının valideynləri göründü – nəhəng ağ dəvə və nəhəng maya. Onların üst dodaqları göydə buludların, alt dodaqları isə yerdə torpağın tozunu qovurdu. Onların nəfəsi tufana bənzəyirdi. Ağ dəvə və maya yaxınlaşıb balalarını səslədilər.

- Bizim gölün suyu niyə qırmızı olub? Burda müharibə olub? Siz necə sağ qalmısınız? – onlar soruşdular.

- Biz heş nə görməmişik, yalnız ildırım səsi eşitdik və ilanın başları dibindən ayrıldı, sonra da çöl qızardı, - balaları cavab verdilər.

Lakin dəvə və maya onlara inanmayıb bütün düzü, çölü qaçaraq Xan-Xülyükün izini izləyib, axtarmağa başladılar. Əvvəlcə maya dəvə balalarını yedirdizdi. Sonra nəhəng ağ dəvələr getdilər. Onların hörgücləri dağın arxasında itən kimi bahadır dağdan aşağı endi. Dəvə balaları üç bardağı südlə doldurdular, amma süddən yenə də qaldı.

- Südün qalanını sən iç, akıy* Xan-Xülyük! Əlinin barmaqları daha güclü, sənin həyatın daha uzunömürlü olacaq! – dedilər.

Xan-Xülyük dəvə südünü içib evə yola düşdü. Birdən o, geri çevrilib gördü ki, uzaqdan iyi duyan dəvə onun dalınca qaçaraq elə gəlirdi ki, ayağının tozu lap ərşə qalxırdı. Bu zaman Xan-Şilge at tüpürdü, Xan-Xülyük isə fit verdi, bundan sonra

* Akıy - qardaş, yaşlı kişilərə müraciət forması

külək tufan qopardı, qar şurqan* başlandı. Dəvə yoluna davam edə bilmədiyi üçün geri qayıtdı.

Bahadır qara alaçığa gəlib çatdı. Aldın-Hüva onu təbəssümlə qarşıladı. Yedizdirib yatızdırdı. O, nə qədər ki, yatırdı, qız südü dəyişib bardaqlara inək südü tökdü.

Xan-Xülyük evə gəlib inək südünü bacısına içirtdi, o da dərhal sağalıb qalxdı və getdi.

Bahadır ova getdi. Qayıdanda gördü ki, əziz bacısı qapqara qaralıb, qıvrılaraq yatır, sanki qup-quru quruyub.

- Aldın-Oyuu qara xəstəliyə düçar olub, - arvadı Say-Kuu dedi.- Anam da bir dəfə belə xəstələmişdi. Onda mənim xeyirxah atam onun üçün yeddi qara köpüyü gətirmişdi. Bu köpüklər Xindiktik* gölündə biri-birini qovan dalğaların üzündən götürülmüşdü. Bu köpükləri tapıb gətirsəydin, bəlkə onda bacın sağalıb qalxardı.

Xan-Xülyük yorulmaq bilməyən Xan-Şilge atını minib çapdı. O, alçaq dağların ətəklərini, uca dağların zirvələrini addım-addım gəzdi. Yol üstü qara çadıra baş çəkdi.

- Sən hara tələsirsən? – Aldın-Hüva soruşdu.

- Mən Xindiktik gölünə gedirəm. Bacımı sağaltmaq üçün mənə bu gölün doqquz qara köpüyü lazımdır.

- Sən çox xeyirxah insan olsan da, ağlın heç nəyə yaramır. Axı, düşmənlərin səni əsil ölümə göndərirlər! Sən onların məkirlərini necə başa düşmürsən? Bu dəfə sən ən uzağa, ən dəhşətli, qorxulu bir yerə gedirsən. Ölməz olsan belə öləcəksən, düşmənlərin də sənin sümüyünü sayacaqlar.

Lakin Xan-Xülyük heç nəyə qulaq asmadı.

---

* Qar - şurqan – qar tufanı

* Xindiktik – hərfi mənada göbək deməkdir. Tən ortasında ada yerləşən gölü belə adlandırırdılar. Bu göl Qərbi Tuva və Bay – Tayqada var.



- Mənim gözümün bəbəyi kimi, barmaqlarımın sümüyü kimi qoruduğum əziz bacım ölümlə yanaşı yatır! Mən bu mənzərəyə oturub sakit necə baxa bilərəm?

Aldın-Hüva tək oturub göz yaşı axıtdı. Bahadırın nə qədər yol getdiyi, nə qədər vaxtın keçdiyi bəlli deyildi. O, qışı qırovundan, yayı isə şehindən duyurdu. Nəhayət, o, qara tayqanın dikinə qalxdı və uzaqdan qara gölü gördü. «Görəsən, bacım sağdırmı? Bu gölə gedib çata biləcəyəm, ya yox?» - Xan-Xülyük kədərlə fikirləşdi. Və yoluna davam elədi. Nəhayət, o, Xindiktik gölünə gəlib çatdı. Bir neçə dənə nəhəng Kedr ağacını dibindən qoparıb bərə hazırladı və onu minib gölün tən ortasına yaxınlaşdı. Nə qədər üzdüyü bəlli deyildi. Bu da- yeddi qara köpük. O, köpüyün hər birini ayrı-ayrı yeddi bardağa yığıb geri üzdü. Çox uzun müddət üzdü, bərə tab gətirməyib çürüdü və dağıldı, Xan-Xülyük gah atıyla, gah özü üzərək bir təhər sahilə çıxdı. O, baxıb gördü ki, Xan-Şilge atı elə yorulub ki, əcəli yaxında, ölümü başının üstündədir. Tez özünü tayqaya verib meşənin bütün məlhəm otlarını yığaraq atına yedizdirdi və onu sakit buraxıb istirahət etməyə imkan verdi. Özü isə xalatının ətəklərini belinə sancıb yəhərini yüyənini və yeddi qara bardağı əlinə alıb evinə yollandı. Az getdi, çox getdi, bilinmədi, amma yorğunluq onu əldən saldı. O, yəhərini çox da hündür olmayan ağacın başından asdı. Amma bahadır o qədər çox yol gəlmişdi ki, ayaqlarında heç ət qalmamışdı; o elə yorulmuşdu ki, bədənində də heç ət qalmamışdı. Əlindəki yeddi qara bardağı isə Aldın-Hüvenin, o gözəl qızın qaldığı qara çadırın yanında yerə qoydu. Bundan sonra var-gücünü toplayıb öz auluna tərəf süründü.

Dan yeri ağaranda arvadı Say-Kuu onu gördü.

- Heç bir zaman qocalmayan, ölməz Xan-Xülyükün sümükləri sürünə-sürünə gəlir! – arvadı qışqırdı. – Alday-Mergen, sən hardasan? İndi sən onu məğlub edə bilərsən. Ağ öküzü

kəs, dərisini soy, Xan-Xülyükün sümüklərini ona bük və altmış sajenlik – dərənin dibinə at!

Alday-Mergen Xan-Xülyükü doğradı, onu dəriyə büküb tikdi və dərin dərəyə tulladı. Bahadırın kəsilmiş barmağını isə arabaya qoyub sakit dənizə apardı və suya atdı. O, Xan-Xülyükün bütün aalını qabağına qatıb apardı. Aal bom-boş boşaldı. Orda nə bir qarğa qaldı ki, qarıldasın, nə bir sağsağan qaldı ki, qışqırsın.

Göy öküz, qırmızı tülkü, yeddi şülbüs-oğlanlar, üç dəvə balası və gözəl Aldın-Hüve Xan-Xülyükün onlara verdiyi əşyalardan onun öldüyünü anladılar. Onlar bahadırın qaldığı aula tərəf qaçdılar. Amma orda heç kim yox idi. Hər yerdə hündür otlar bitmişdi.

Yeddi şulbus-oğlanların birincisi qulağını torpağa qoyub ən uzaq məsafədən gələn səsləri eşidə bilirdi, ikincisi yeddi il əvvəl buradan getmiş qarışqanın izi ilə getməyi bacarırdı, üçüncüsü dənizin dibində balığın izi ilə üzməyi bacarırdı, dördüncüsü elə güclü idi ki, dağı yerindən qaldırırdı, beşincisi bir anın içərisində nişan alıb hədəfi vurmağı bacarırdı, altıncısı torpağın üstündə gəzən hörümçəyin izi ilə getməyi, yeddincisi isə dənizin bütün suyunu içməyi bacarırdı!

Birinci şulbus-oğlan qulaqlarını torpağa qoyub qulaq asmağa başladı:

- Xan-Xülyük haradasa torpağın ən dərin yerində tərpənir, - dedi.

İkinci oğlan 60 sajen dərinliyində bir dərənin kənarına gəldi. Dərənin üzü Bolçaytılık-Bora* təpəsiylə örtülmüşdü.

- Xan-Xülyükün sümükləri təpənin altındadır.

Bundan sonra onlar təpəni hər tərəfdən qazdılar, kəməndi aşağı atdılar, onun o biri ucunu göy öküzün buynuzlarına bağladılar və öküz təpəni dartıb qopartdı. Pəhləvan dərəyə endi və Xan-Xüyükün sümüklərini yuxarı qaldırdı.

Gözəl Aldın-Hüva qorxunun nə olduğunu bilməyən bahadırın bacısı Aldın-Oyuya apardığı sehirli dərmanları əbəs yerə gizlətməmişdi. O, indi də həmin dərmanlarla Xan-Xülyükün özünü müalicə etməyə başladı. Qumun üstündə gəzən hörümçəyin izi ilə getməyi bacaran oğlan bahadırın izinə düşüb getdi və yeddi qara bardaqdakı yedi köpüyü tapdı. Xan-Xülyük onları gözəl Aldın-Hüvanın qara çadırının yaxınlığında qoymuşdu. Aldın-Hüva qara köpükləri bahadırın yaralarına sürtdü və o, nəfəs almağa başladı. O, nəfəs alsa da, danışa bilmirdi. Uzaqdan-uzağa gələn, istənilən səsləri eşidə bilən oğlan bahadırın sümüklərini bir-bir sayıb gördü ki, onun sağ şəhadət barmağı çatmır. Yeddi il əvvəl bir yerdən keçmiş qarışqanın izi ilə getməyi bacaran oğlan və dənizin dibində balığın izi iə üzən oğlan biri-birinə qoşulub Xan-Xülyükün barmağını axtarmağa getdilər. İz onları Sakit dənizə gətirib çıxartdı. Balığın izi ilə üzməyi bacaran oğlan balığa çevrilib üzməyə başladı. Üzdükcə bütün balıqlardan soruşdu, amma bir balıq da bu haqda heç nə bilmədi. Oğlanın qanı qaraldı. Birdən o gördü ki, iki nəhəng, qocaman alabalıq boğaz mahnısı oxuya-oxuya dənizin üzü ilə üzürlər.

- Xan-Xülyükün düşmənləri onun şəhadət barmağını hara atıblar? Bəlkə siz bu haqda bir şey bilirsiz, ya eşitmisiz? – oğlan onlardan soruşdu.

- Nə vaxtsa Qara-Hem çayının mənbəyi tərəfdə suya bir ağ qaya düşüb. İndi isə onun yanında bir balıq qışlayır. Bəlkə Xan-Xülyükün barmağı elə həmin qayadır? – deyə balıqlar cavab verdilər.

Oğlan Qara-Hemin mənbəyinə tərəf üzdü və gördü ki, bu elə bahadırın barmağıdır. O, Xan-Xülyükün auluna qayıdıb dedi:

- Mən bahadırın barmağını tapmışam, barmaq dənizin dibində, Qara-Hemin mənbəyilə yanaşıdır.

---

* Bolçaytılık – yer, təpə ; bora – boz, yəni boz təpə;

Qüvvətli oğlanla, dənizin suyunu içməyi bacaran oğlan Qara-hemin mənbəyinə tərəf getdilər. Dənizin suyunu içməyi bacaran oğlan dənizin suyunu içdi və suyun dibindəki nəhəng ağ barmaq göründü. Qüvvətli oğlan onu götürüb kürəyinə aşıraraq aula apardı. Dənizin suyunu içən oğlan, suyu geri buraxdı. Barmağı gətirib bahadırın əlinə birləşdirdilər. Amma Xan-Xülyük hələ də nə tərpənir, nə də dinirdi.

- Mən hələ bir dəfə də olsun, bahadırın üstündən addımlamamışam, - Aldın-Hüve dedi. O, əlindəki qızıl qırmancı üç dəfə yellətdi və üç dəfə Xan-Xülyükün üstündən aşıb keçdi.

- Deyəsən, mən lap çox yatmışam, - Bahadır dedi və ayağa durdu. Dostları yaxşı günləri xatırlayıb güldülər, pis günləri xatırlayıb ağladılar.

- Mənim cəsur Xan-Şilge atım sağdırmı? – bahadır soruşdu. – Bəlkə o ölüb? Əgər bu belədirsə, söyləyin, kimin elə bir sehri var ki, onu diriltsin?

Uzaqdan gələn səsləri eşidən oğlan qulağını yerə qoyub dinşədi və dedi:

- Xan-Şilge at sağdır. Onun yüyənində gümüşlə bəzədilmiş zınqırov var. O, bura tələsərək çapır.

Tezliklə Xan-Xülyükün dostları onun cəsur atını bahadıra gətirdilər.

- Dostum, düşmənlərinlə mübarizə aparmaqda biz sənə kömək etmək istəyirik. O düşmənlər ki, səni uçuruma atıb, heyvan sürülərini sürüb aparmışlar, -dedilər.

- Yox dostlar, - bahadır dedi, - Mən ölü idim, siz məni xilas etdiniz, diriltdiniz, mənim sönmüş alovumu yenidən yandırdınız. Çox sağ olun! Siz həqiqi dostluğun nə demək olduğunu bilirsiniz. Düşmənlərimlə isə mən özüm bacararam.

Dostlar dağıldılar. Bahadır çox bərk olan kamanını bir az da dartdı – gücünü sınadı və gördü ki, əvvəlkindən də çox güclüdür. Onun Xan-Şilge atı isə elə istirahət edib ki, olduqca sağlam və yağlı olub, dayça kimi qıvrılırdı. Xan-Xülyük Xan-Şilgeni minib ot tayasının dikinə doğru getdi və elə şeylər haqqında fikirləşməyə başladı ki, əvvəllər bu haqda heç bir vaxt fikirləşməmişdi. Və o, düşməni – soyğunçu Alday-Mergenin izi ilə getdi. O, aula girdi və böyük ağ alaçığa daxil oldu. Alday-Mergen sandıqların arxasından qorxa-qorxa boylanırdı. Onun əli-ayağı əsim-əsim əsirdi.

- Sən nə istəyirsən – polad dəmiri, ya yağı yumruğu? Səninlə nə edim, ay lənətə gəlmiş?

- Xan-Xülyük, sənə cavab verməyə sözüm yoxdur. Əzəmətli ölməz Xan-Xülyük, mənimlə nə istəyirsən elə!

Xan-Xülyük bahadır Alday-Mergeni yaxalayıb elə silkələdi və sonra da onu yerə elə çırpdı ki, inəyin çeynəməsi üçün bir dənə sümüyü də qalmadı. Hətta yerə bir damla qan belə düşmədi ki, heç olmasa tülkü onu yalaya bilsin.

Və o, qonşu alaçığa arvadı Say-Kuunun yanına getdi.

- Sən nə istəyirsən? Yeddi ağ qılınc, yoxsa yeddi cavan madyan?

- Yeddi cavan madyan yaxşıdır – arvadı Say-Kuu dedi. – Hər necə olsa heyvandır!

Xan-Xülyük onu yeddi cavan madyana bağlayıb düzə buraxdı.

Sonra ayıdıb öz mal-qarasını köhnə otlaqlarına, doğma Çanqıs-Xaya və Çavıs-Xaya qayalarının yanına buraxdı. O, gözəl Aldın-Hüvaya evləndi və bütün dostlarını toyuna dəvət etdi.

Bahadır təpənin başında öz alaçığını qurdu, düzənlikdə isə sürünü otardı.

Cavanlar cavanı, qocalar qocası, bahadırlar bahadırı qorxmaz Xan-Xülyük həyatda hamıyla əmin-amanlıqla yaşadı. Nə qədər ki, yaşayırdı, yarğanlar uzandıqca uzanır, dərələr getdikcə dərinləşirdi.

## AĞ – TÜN MÜƏLLİM

Şimalda, Çingə-Kara-Hemanın girəcəyində, Ağanaq adlı bir qoca qarısıyla yaşayırdı. Onların yetmiş sarı keçisi və iki fili, bir də Ağ-Tün adlı doqquz elmi bilən bir oğlu var idi.

Cənubda, Kara-Dalay*dənizinin sahilində Karatı-xan adlı bir nəfər yaşayırdı. Onun da tək yeganə bir oğlu var idi. Karatı-xan Ağ-Tünün elmi barəsində xəbər tutanda Ağanağa əmr etdi ki, köçüb Kara-Dalayın sahillərində məskunlaşsınlar.

– Sən mənim ilxılarımı otaracaqsan, sənin qarın isə inəklərimi sağacaq. Oğlun da mənim oğluma elm öyrədəcək! – Karatı-xan dedi.

Ağanaq evə qayıdanda oğlu soruşdu:

– Xan sənə nə dedi?

– O əmr elədi ki, onun yaşadığı aula köçək, – qoca cavab verdi.

– Əgər xan deyirsə, adi insan onun sözündən çıxmamalıdır. Köçmək lazımdır, ata.

Qoca var – yoxunu fillərin belinə yüklədi, sarı keçiləri də qabağına qatıb Kara-Dalayın sahilinə köçdü.

Onların xana neçə il qulluq etdikləri bilinmir. Ağ-Tün nə bilirdisə, hamısını xan oğluna öyrətmişdi. Nəzakətli şagird də doqquz elmin hamısına yiyələnmişdi. Günlərin bir günü xan arvadı xana dedi:

– Ağ-Tündən canımızı qurtarmağın vaxtı yetişib. O, hər şeyi bilir və hər şeyə də qadirdir. Bilmək olmaz ki, o, bizim oğlumuza neyləyə bilər. Bu gün bir qoyunu kəsək, onları yedirək, Ağ-Tünə də içki içirib öldürək!

– Yaxşı, mən onu öldürərəm! – xan dedi.

* Kara Dalay – Qara dəniz.



Xanın oğlu bu söhbəti eşitdi. Tez qaçıb müəlliminə xəbər verdi:

– Atam bu axşam sizə araq içirib, yatan yerdə öldürmək istəyir! – Və o, eşitdiyi söhbəti təfsilatı ilə müəlliminə danışdı.

– Yaxşı, hazırlaş, bu axşam ikimiz də birlikdə qaçarıq, – Ağ-Tün cavab verdi. Axşam xan boz qoyunu kəsdi və qoca Ağanaqla oğlu Ağ-Tünü evinə qonaq çağırdı. Amma nə Ağ-Tün, nə də xan oğlu ət yeməyindən yemədilər, araqdan da içmədilər. Onlar yatmağa getsələr də yatmadılar, səhərəcən söhbət etdilər. Xan və arvadı Ağ-Tünün yuxuya getməyini gözləyə bilmədilər və yatıb yuxuladılar. Onda oğlanlar qalxıb, ətin qalanını çantalarına doldurub yola çıxdılar.

Onlar çox yol getdilər. İdikləri deşildi, ayaqlarında döyənək əmələ gəldi. Nəhayət, uzun bir çayın sahili ilə yol gedib, ucu-bucağı görünməyən bir düzə gəlib çıxdılar. Onlar bir neçə nəfərin nə üstəsə dalaşdıqlarını gördülər. Onların hər biri nəyisə özünə tərəf çəkirdi.

– Siz nə üstə mübahisə edirsiz? – Ağ-Tün soruşdu.

– Biz sehirli papağa görə mübahisə edirik. Onun sahibini təyin edə bilmirik.

– Bu ki, çox sadədir! – Ağ-Tün dedi. – Gedin o təpənin yanına, mənsə papağı saxlayım. Kim birinci gəlib çatsa, o da papağın sahibi olacaq.

Adamlar təpəyə sarı qaçdılar. Ağ-Tün sehirli papağı başına qoyub, xan oğlunun əlindən tutaraq, görünməz olub keçdilər. Onlar az getdilər, çox getdilər, düzləri keçib bir aşırıma çatdılar. Burda da adamlar nə üstə isə mübahisə edib dalaşırdılar.

– Siz nə üstə dalaşırsız? – Ağ-Tün soruşdu.

– Biz qara idiklərin üstə dalaşırıq. Adam onu geyəndə havada uçur. Biz sehirli idiklərin sahibini təyin edə bilmirik.

– Bu ki, çox sadədir! – Ağ-Tün dedi. – Hamınız o daşın yanına gedin, mənsə onları əlimdə saxlamışam. Kim birinci gəlib çatsa, o da idiklərin sahibi olacaq.

Adamlar daşa tərəf qaçdılar. Oğlanların hərəsi idiklərin bir tayını geyib aşırımın o biri tərəfinə uçdular. Adamlar daşlara çatıb geri çevriləndə, aşırımda bir adam da yox idi. "Sənsən günahkar! Yox, hər şeyin günahı səndədir!" – adamlar çığırıb dalaşmağa davam edirdilər.

Bir dəfə oğlanlar yuxudan ayılanda günəş təzə çıxırdı. Onlar yanlarında, qızıl atın üstündə, qızıl idikləri geymiş bir qoca gördülər.

– Mən rəm atmaq üçün saxladığım qızıl aşıqları itirmişəm, uşaqlar, onları bir axtarın, – qoca dedi.

Uşaqlar axtarıb qızıl aşıqları tapdılar və qocaya qaytardılar. Qoca dedi:

– Bizim xanlığımızda xan yoxdur. Oturun qızıl ata, sizi qızıl saraya aparım.

Oğlanlar qızıl ata mindilər. Qoca da onları qızıl saraya gətirdi. Sarayda gözəl bir qız əyləşmişdi. Qızın üzü günəş kimi işıq saçır, boynunun ardı isə ay kimi bərq vururdu. Oğlanlar öyrənib bildilər ki, bu qızın artıq doxsan əri olub. Doxsan xan bu ölkəni idarə edib, fəqət hamısı da tezliklə ölmüşlər. Ağ-Tün dedi:

– Mən kasıb bir çobanın oğluyam, dostum isə xan oğludur. İzin verin ölkənizi xan kimi o idarə etsin.

Adamlar razılaşdılar. Karatı-xanın oğlu böyük bir torpağın xanı oldu və o, böyük bir qonaqlıq verdi.

Gecə ziyafət qurtarandan sonra Ağ-Tün fikrə getdi: "Bu gözəlin ərləri niyə ölürlərmiş?" Birdən gördü ki, alnında tək gözü olan qaşqasında xalı olan bir atlı yuxarı dünyadan quzğun kimi aşağı enir. Atın ayaqları torpağa dəyər – dəyməz qara adam gözəli qamarlayıb ata mindirdi və onunla birgə yuxarı



dünyaya üz tutdu. Ağ-Tün sehirli papağı başına qoydu, sehirliuçan idikləri ayağına geydi və onların dalınca yuxarı qalxdı. Onlar yuxarı dünyada nəhəng mağarın ağzında atdan düşdülər.

– Təzə xan necə adamdır? – təkgöz qara atlı soruşdu.

– Belə də... adi, yaramaz bir oğlandır. Sabah onunla şahmat oynayacağam, görüm, bu necə adamdır, - gözəl cavab verdi.

– Amma onun Ağ-Tün adlı bir müəllimi var. Onu hələm-hələm tanımaq olmur, - qız əsəbi cavab verdi.

Səhəri günü müəllim xandan soruşdu:

– Nə öyrənə bildin?

– Heç nə öyrənmədim. Yaxşı yatıb dincəldim, - o biri cavab verdi.

– Mənsə müəyyən etdim ki, sənin xanımın yuxarı dünyadan olan qara, təkgöz şulbusla tanışdılar. Elə buna görə də bu torpağın bütün xanları ölmüşlər. Bu gün xan arvadı sənə şahmat oynamağı təklif edəcək. Mən sehirli papağı geyib arxanda duracağam, sənə kömək edəcəyəm.

Tezliklə xan və arvadı şahmat stolunun arxasına keçdilər. Ağ-Tün şahmat oyununda xana kömək edir, xan arvadına isə mane olurdu. Cavan xan oyunda gözəli üç dəfə uddu. Üç dəfə piyada ilə mat verdi! Oyunu bitirib, oxumağa başladı.

Qara şulbus yuxuma girdi,
Qara, təkgöz, keçəl atda.

– Bütün bunlar çox qəribədir! – gözəl içini çəkdi, sıçrayıb qalxaraq qaçdı.

O biri günü gecə qara təkgöz şulbus qara qaşqalı atında uçub gələrək, qızı oyatdı və onlar uçdular. Ağ-Tün onların dalınca uçdu. Hər ikisi yenə də həmin mağarın qarşısında dayandılar.

– Nə oldu, xanla şahmat oynadınmı?

– Oynadım. Bu oğlan piyada ilə üç dəfə məni mat qoydu. Üstəlik çox qəribə bir mahnı da oxudu: təkgöz qara şulbus haqda.

– Nə zəhərli oğlandır! Elə günü sabah gecə qara iynə ilə enli alnını deşəcə-yəm. Onu yanında yatırd ki, mən bacadan vura bilim, - şulbus dedi.

Təzə xanın xanlığı idarə etməsindən artıq iki gün keçirdi. Xan deyirdi:

– Xanın bura gəlməyindən iki gün keçir, sanki iki il keçib.

Səhəri gün Ağ-Tün dostundan soruşdu:

– Təzə nə xəbər var, nə yox. Bir şey öyrənə bildinmi?

– Heç nə öyrənə bilmədim. Amma yaxşı yatdım.

– Dostum, sən heç nəyi görmürsən. Bu gün araqdan çox içmə. Axşam özünün mis çaydanında sarı tünd çay dəmlətdir, ağzını da möhkəm bağla. Polad boşqaba da qənd qoy, çarpayının yanında uzan. Qalan şeylərə mən əncam çəkərəm.

Xan axşam arvadına dedi:

– Mənim mis çaydanımda tünd çay dəmlə, ağzını da möhkəm ört. Yanma da polad boşqabda qənd qoy. Bu da mənim adətimdir! – Özü isə çarpayının yanında uzandı.

Gecəyarısı şimşək çaxdı. Ağ-Tün bacadan baxıb gördü ki, təkgöz qara şulbus atla göydən enib. O, alaçığın başı üstdən asılaraq xanın başını nişan alıb. Bir an da keçsə idi, o, xanın başını qara iynə ilə deşəcəkdi. Ağ-Tün çaydanı götürüb dostunun başı üstdən asdı. İynə çaydanı deşib içindəki qaynar suda əridi.

Səhəri günü gecə şulbus yenə uçub gəldi, yenə gözəli götürüb yuxarı dünyaya apardı. Ağ-Tün də onların dalınca tələsdi. Yenə həmin mağarın qarşısında dayandılar.

–Bu necə adamdır. Pəhləvan daş olub yatırdı. Mənim iynəm onu deşə bilmədi! – qara şulbus çığırdı. Sabah xana deyərsən: "Odu müqəddəs sayacağıq". Mən qırğıya dönəcəyəm, başınızın üstündə fit çalacağam. Onda sən də xana deyərsən ki, "Xan, bir çıx gör, bu nə səsdir?" o, çıxıb yuxarı baxanda, mən də onu oxla boğazından vuraram!"



Səhəri günü Ağ-Tün dostundan soruşdu:

– Təzə nə öyrənə bildin?

– Heç bir şey.

– Qulaq as: bu axşam arvadın səndən xahiş edəcək ki, odu müqəddəs sayıb onun başına fırlanasan. Sən də razılaş. Ocağın başından asılmış böyük qazana yağı töküb əritdir və onun ətrafında fırlan. Arvadın alaçıqdan çıxmağı xahiş etsə - çıxma!

Axşam xan arvadına dedi:

– Bu gün odu müqəddəs biləcəyik.

Cavan xan yağı əridib böyük qazana tökdürdü – başladı ətrafında fırlanmağa. Qəflətən alaçığın başı üstündən qırğının səsi gəldi:

– Xan, bax gör bu nə səsdir? – arvad dedi.

– Axı, sən odu müqəddəs tutursan, quşu yox! – Mənsə gözətçi iti deyiləm ki, hər kəsə görə eşiyə çıxam! – xan qışqırdı, barmağı ilə arvadının başına bir çırtma vurdu.

Bu vaxt qırğı quşu alaçığın damına qonub bacadan içəri baxdı. Ağ-Tün onu tutub yağ qaynayan qazana atdı. Qırğı yağın içindən çıxıb alaçıqdan uçdu.

Bu gecə qaşqalı qara at şulbussuz – tək gəldi. Gözəl qız atı minib yuxarı dünyaya qalxdı. Ağ-Tün də onunla birgə yuxarı qalxdı. Təkgöz qara şulbus aram addımlarla mağara tərəf gedirdi. O, bütün yanmışdı.

– Sən məni məhv elədin – dedi. Sonra dizi üstə çöküb öldü.

Ağ-tün fikirləşdi: "Artıq mənim dostumu heç bir təhlükə gözləmir. İndi o, xanlığı rahat idarə edə bilər. Atamın-anamın yanına evə qayıtmaq vaxtıdır".

O, səhər xana dedi:

– Mən sənə nə lazım idisə, hamısını elədim. İndi mən evə getməliyəm, atamın-anamın yanına. Sehirli və uçan idikləri özümə saxlayıram.

Xan dedi:

– Mən razıyam. Qoy sehirli papaq və sehirli idiklər səndə qalsın.

Təzə ay doğanda, təzə günün ərəfəsində xan öz müəllimini yola saldı.

Ağ-Tün evə çatanda gördü ki, Karatı-xan atasının qolunu sındırıb, anasının da gözlərini kor edib. Yetmiş sarı keçini də aparıb öz sürüsünə qatıb. Oğlan xanın yanına qaçdı.

– Xanlığı namus və ədalətlə idarə etməkdənsə onun qayda-qanunlarına riayət etmədən siz qanunları pozub günahsız insanlara işgəncə verirsiniz! – deyə Ağ-tün qışqırdı.

O, elə hirslənib, dişlərini elə qıcadı ki, az qaldı dişləri kökündən ovxalanıb tökülsün! Onda Ağ-Tün əlinin içi ilə xanın yanağına elə bir sillə vurdu ki, xanın başı qırılıb yerə düşərək torpaqda diyirlənməyə başladı.

Ağ-Tün xanın arvadının yanına gəldi.

– Nə istəyirsən, de, - ət və canı, yoxsa dörd mahir atı?

– Dörd mahir atı – xan arvadı dedi.

Ağ-Tün dörd mahir atı gətirib, arvadı dörd atın quyruğuna bağlayıb onları çölə tərəf mahmızladı.

O, sonra müqəddəs Arzaytı dağına gedib məlhəm üçün əm-sağaan* dərman otlarının köklərini qazıb çıxartdı və ata – anasını müalicə etdi. Atasının qolu işlədi, anasın gözləri gördü.

Xeyirxah alim olan Ağ-Tün öz valideynləri ilə xoşbaxt və uzun ömür yaşadı. Onlar yaşadıqca yarğanlar bir az uzandı, dərələr bir az da dərinləşdilər.

---

* əm – sağaan-məlhəm üçün bitki kökü



## XEYMƏR-OOL VƏ ÖKÜZ BOYDA CANAVAR

Çox uzaq keçmişdə Qartıkan-xan adlı bir şəxs yaşayırmış. Onun üç oğlu və iti ayaqlı, bərk qaçan yeddi atı varmış. Bir gecə hansısa yırtıcı atlardan birinin belini parçalamışdı. Səhər atın leşini tapdılar. O biri gün daha bir at ölmüşdü. Neyləmək? Axşam böyük qardaşlar atlara qarovul durdular. Amma gecəyarısı onlar yatdılar. Üçüncü at da öldü. O zaman xan dedi:

– Qalan atlara sizin kiçik qardaşınız gözətçilik edəcək. Bəlkə o, bu işin öhdəsindən yaxşı gələ bildi.

Xanın kiçik oğlu Xeymər-ool atları qorumağa getdi. O, yuxusuzluqla çox mübarizə apardı. Buna baxmayaraq o da mürgülədi. Elə bu vaxt haradansa səs gəldi. Xeymər-ool dik atıldı və səs gələn tərəfə qaçdı. O, çox böyük bir quşu gördü. Quş, caynaqlarını atın belinə batırmışdı. Xeymər-ool quşa yaxınlaşıb onun qanadlarından yapışdı. O, çırpınıb xilas oldu və uçdu. Oğlanın əlində quşun qızıl lələyi qaldı. O, səhər lələyi atasına göstərdi.

– A... bu ki, Şimalda yaşayan Aldın-xanın qızıl quşunun lələyidir, – Qartıkan-xan dedi. – Mənim böyük oğullarım, siz gərək şimala uçasınız. Bu quşu mənə gətirəsiniz!

Xan oğlanlarına paltar, silah-yaraq verib onları uzaq səfərə yola saldı.

Onların getdiyi gündən doxsan gün – üç ay keçdi. Qartıkan-xanın qanı qaraldı, kədərə batdı. Kiçik oğlu atasına yaxınlaşıb dedi:

– Kədərlənmə, ata, mən Aldın-xanın qızıl quşunu sənə gətirərəm. Bircə sən məni burax.

Qartıkan-xan çox fikirləşəndən sonra kiçik oğlunu şimala yola saldı.

Xeymər-ool elə hey yol getdi, getdi və qəfildən qarşısına öküz boyda bir canavar çıxdı.

– Atını mənə ver, yeyim! – canavar dedi.

– Al, ye! – Xeymər-ool dedi.

Oğlanın gözü baxa-baxa canavar atı bütöv ötürdü. Və soruşdu:

– Sən hara gedirsən?

– Aldın xanın qızıl quşu atamın atlarını öldürürdü. Qardaşlarım o quşu tutmağa gediblər. Artıq üç aydır ki, onlardan bir xəbər yoxdur. İndi onların izi ilə gedirəm. Mən o quşun yuvasını balaları ilə birgə atama gətirəcəyəm!

– Belimə min, səni Aldın-xanın yanına aparım, – canavar dedi.

Xeymər-ool canavarın belinə mindi və onlar şimala tərəf yol aldılar. Bu da Aldın-xanın aalı.

– Hava qaralan kimi gedərsən, – canavar dedi, – amma təkcə qızıl quşu tutarsan. Əgər quşun balalarını və yuvasını götürsən, gözətçilər eşidib səni tutarlar.

Gecə Xeymər-ool xan-aalına daxil oldu. O, həmin saatda da qızıl quşu gördü. "Əgər mən quşu yuvası və balaları ilə götürsəm, heç bir şey olmaz, – deyə o, fikirləşdi və yuvanı qaldıranda zəng çalındı, qarovulçular qalxdılar, oğlanı tutdular və səhər xanın yanına gətirdilər.

– Mən özüm qızıl quşu yuvası və talaları ilə birgə sənə verərəm. Ancaq bir şərtlə ki, sən də Ay-xanın qızıl atını mənə gətirəsən.

Qəmgin Xeymər-ool canavarın yanına gəldi.

– Mən gərək Ay-xanın qızıl atını ona gətirəm, – dedi. – Yalnız onda o qızıl quşu yuvası və balaları ilə mənə verəcək.

– Bu o qədər də çətin məsələ deyil. Min belimə.

Xeymər-ool canavarın belinə mindi və onlar Ay-xanın aalına tərəf yola düşdülər.

– Hava qaralan kimi gedərsən, – canavar dedi, – amma atı noxtasından tutub gətir. Alaçığın divarından asılmış yüyənə əlini vurmayasan, əl vursan gözətçilər eşidib səni tutacaqlar.



Xeymər-ool gecə xan aalına daxil oldu. Qızıl atı o saat gördü. O, atı noxtasından tutub apardı. Çox sakitlik idi. O, birdən divardan asılmış gümüşlə işlənmiş yüyəni gördü. "Birini götürsəm, heç nə olmaz", – o, fikirləşdi. O, yüyəni götürən kimi zəng çalındı, gözətçilər diksinib qalxdılar. Oğlanı tutub xanın yanına gətirdilər.

– Sən mənim qızıl atımı oğurlamaq istəyirdin, – xan dedi. Mən səni bağışlayaram. Əvəzində sən mənə Hüyün-xanın qızıl qızını gətirməlisən. Bax, onda bu üç qızıl atı yüyənləri və noxtaları ilə birlikdə sənə verərəm.

Xeymər-ool göz yaşı içində canavarın yanına qayıtdı.

– Nə olub?, – canavar soruşdu.

– Mən Hüyün-xanın qızıl qızını ona gətirməliyəm.

– Bu, elə də çətin iş deyil. Belimə min!

Xeymər-ool canavarın belinə mindi və onlar Hüyün-xanın aalına tərəf çapdılar. Aal qaranlıq meşənin yanında yerləşirdi.

– Meşəyə gir, – canavar dedi, – qışqıra-qışqıra meşəyə qaç, ağ dovşanı meşədən çıxart.

Xeymər-ool meşəyə girdi. Tezliklə meşədən bir dovşan çıxdı. Canavar dovşanı qulaqlayıb oğlanı çağırdı.

– Dovşanı götürüb qızıl sapla bağla və onu qızıl qızın alaçığının ətrafına hərləyə-hərləyə gəzdir. Elə et ki, qız meşənin qırağına gəlsin.

Xeymər-ool ağ dovşanı qızıl qızın alaçığına yaxın gətirdi. Hamı bu gözəl heyvana heyranlıqla tamaşa edirdilər. Tezliklə alaçığın sahibəsi də eşiyə çıxdı.

– Dovşanı mənə ver, mən onunla oynamaq istəyirəm, – qız xahiş etdi.

– Əgər sizə dovşan lazımdırsa, onda gedək, mən onu sizin üçün tutaram. O biri meşədə bunlardan çoxdur. Və o, dovşanla bərabər o biri meşəyə tərəf qaçdı.

Qızıl qız da onun dalınca qaçdı. Kənizləri də qızın dalınca tələsdilər. Meşənin kənarında öküz boyda bir canavar onların qarşısına çıxdı. Kənizlər geri qayıtdılar.

– Tez ol, belimə qalx! – canavar qızıl qıza dedi.

– Yox, qalxmıram. Kim canavarın belində yol gedir?

– Əgər qalxmasan, onda səni udacağam, – canavar qızıl qıza dedi və ağzını açdı.

Qız canavarın açıq ağzına baxıb, onun belinə mindi. Xeymər-ool qızın arxasında oturdu. Onlar çapdılar. Canavar Ay-xanın aalından bir az aralıda dayandı, ovsunun köməyilə qızıl qızın cildinə girdi. Xeymər - oolla birgə xanın yanına getdi. Qıza isə belə dedi:

– Əgər qaçsan gəlib səni haqlayıb, diri-diri udacağam.

Ay-xan Xeymər-oolu qızıl qızla görüb sevindi və onları gülər üzlə qarşıladı.

– Al, götür, – dedi, – üç qızıl at, onların noxtası və yüyəni bütövlükdə səníndir. Sən onları qazandın, – Ay - xan dedi.

Xeymər-ool atları götürüb qızıl qızın qaldığı yerə çapdı. Qızı da götürüb Aldın-xanın yanına getdilər.

Bu işlərdən çox sevinən Ay-xan isə qızıl-qızla tək qaldı. Lakin o, qızın əlini əlinə almaq istəyəndə qız öküz boyda boz qurda çevrildi. Ay-xan yıxıldı və bayıldı. Canavar isə saraydan çıxıb dostuna çatmağa tələsdi.

Tezliklə Aldın-xanın aalı göründü. Canavar qızıl qıza dedi:

–Sən qızıl atların yanında qal, biz isə Xeymərlə xanın yanına gedək. – Bunu deyib, canavar üç qızıl ata çevrildi.

Xan Xeymər-oolu və qızıl atları qarşıladı.

– Al, – xan dedi, – bu qızıl quşu da, yuvasını və balalrını da sənə verirəm. Sən onları qazandın.

Xeymər-ool evə yola düşdü. O, əlində qızıl quşu tutub, qızıl qızla qızıl ata minib yol gedirdi.



Aldın-xanın ilxıçıları atları çaya apardılar. Atlar biri – birinə dayaqlanıb sudan içməyə başladılar. Onlar birdən öküz boyda boz qurda çevrildilər. İlxıçıların hərəsi bir tərəfə üz tutdu. Canavar isə çay yuxarı qaçıb özünü dostlarına çatdırdı.

– Mən acından ölürdüm. Sənsə öz tək atını mənə verdin. Fikirləşirəm ki, mən artıq sənin borcundan çıxdım. Əlvida! – və canavar bunu deyib gözdən itdi.

Xeymər-oolun qanı qaraldı. O, sədaqətli dostundan ayrıldığına görə pərişan olmuşdu. Onlar çayın sahilində gecələməli oldular. Elə bu vaxt onun böyük qardaşları evə qayıdırdılar. Onlar qızıl qızı, üç qızıl atı və qızıl quşu gördülər. Kiçik qardaş onların saçdığı işıqda rahatca uyuyurdu.

– Oho! – dedilər. – Bizim səfeh qardaşımız təkbaşına bu qədər qənimət əldə edib. Amma biz isə ikilikdə heç nə tapıb apara bilmirik. Atamız nə deyəcək? – Onlar məsləhətləşib kiçik qardaşı öldürdülər. Bütün qəniməti ələ keçirib evə yollandılar.

Həmin gecə canavar yuxuya gedə bilmədi. Dostunun başına hadisə gəldiyini başa düşdü. Səhər tezdən o, dostundan ayrıldığı yerə gedib gördü ki, dostu ölmüşdür. Nə qız, nə at, nə də qızıl quş yox idi. Canavar məlhəm otlarını Xeymər-oolun ağzına doldurdu.

– Dur, dostum, qalx! – o, mehriban bir səslə dedi.

Xeymər-ool qalxdı.

Canavar Qartığan-xanın aalına tərəf qaçdı. Böyük qardaşlar kiçik qardşı görəndə qorxdular. Qaçmaq istəyəndə ayaqları yerimədi.

Canavar hər şeyi Qartığan-xana danışdı. Xan qəzəblənib böyük oğlanlarının başını vurdu. Kiçik oğlu Xeymər-oolu isə qızıl qızla evləndirib öz yerinə xan seçdi.

## QOCA VƏ QUZĞUN XAN

Hələ çox-çox qədim vaxtlarda, keçinin buynuzu göylərə bənd olanda, dəvənin qısa quyruğu yerlə sürünəndə Qurtu-Düzəktər adlı bir qoca yaşayardı. O, bütün ömrü boyu tətrik quşlarına cələ qurmaqla məşğul olurdu. Ömrü boyu dadlı-dadlı tətrik əti yemişdi.

Bir dəfə onun çələsinə bir quşğun düşmüşdü.

– Aha, lənətə gəlmiş! Mənim tətriklərimi yeyib, onların yerində oturmusan? İndi payını alarsan! – Qoca onu öldürmək istəyirdi ki, quş birdən insan kimi dil açdı:

– Qurtu-Düzəktər, məni öldürmə! Yaxşısı budur, gəl dost olaq. Mən sənə nə istəsən verərəm. İnsana nə lazımdırsa hər şeyi verərəm. Mən Küskün-xanam, quzğun-xan. Şimalda yaşayıram.

Qoca quzğunu cələdən azad elədi. Küskün-xan onun xanlığına necə gəlməyi qocaya başa saldı. And içdi ki, qoca üçün heç nəyi əsirgəməyəcək, sonra da uçdu.

Qurtu-Düzəktər evə gəlib, hər şeyi qarısına danışdı. Səhəri günü dostu – quzğun-xanın yanına qonaq getdi. Qoca yolüstü köhnə bir dəyəyə rast gəldi. Dəyədəki qoca ilə qarı qazanda ilanla qurbağanı qaynadırdılar. Onlar ilanın və qurbağanın ətindən qocaya da verdilər, sonra soruşdular:

– Sən kimsən, hara gedirsən?

– Mən Qurtu-Düzəktərəm, – qoca cavab verdi. – Şimalda yaşayan dostum Küskün-xana qonaq gedirəm. Mən onu cələdən azad etdim, o da əvəzində mənə hər şeyi verəcəyini vəd etdi.

– Sən ondan nə alacaqsan? – onlar sordu.

– Nə versə, götürəcəyəm, – qoca cavab verdi.

– Xanın verdiyi adama xeyir gətirmir. Sən Küskün-xanın yanına gələndə o, deyəcək: "Dost, mən sənə mal-qaramdan bir qədər heyvan, varidatımdan isə bir qədər varidat verirəm." Sənsə cavab ver: "Mənə sənin mal-qarandan heyvan, varidatından isə varidat lazım deyil. Yaxşısı budur, sən mənə taxta ilə çəlləyi ver". Bu çəllək adi çəllək deyil. "Xoytpak" deyib, taxta ilə çəlləyi qarışdırsan xoytpak, "itpək" desən – itpək hazır olacaq.

Qurtu-Düzəktər verdikləri məsləhət üçün qocalara minnətdarlıq edib, şimala tərəf yola düşdü. Gəlib Küskün-xanın ağ alaçığına çatdı və içəri keçdi. Xan onu qarşılayıb ən hörmətli yerdə oturtdu.

Onlar yağlı ətdən yeyib, ətirli tünd çaydan içib bütün gecəni söhbət etdilər. Səhər quzğun xan dedi:

– Dostum, sənə mal-qaramdan çoxlu heyvan, varidatımdan isə çoxlu varidat verəcəyəm.

– Mənə sənin nə mal-qaran, nə də dövlətin lazım deyil, – qoca dedi, – Yaxşısı budur, mənə taxta ilə çəlləyi ver.

Küskün-xan çəlləyə baxıb-ağladı, dostuna baxıb-gülümsündü. Çəlləyi dostuna verdi.

Qurtu-Düzəktər çəlləyi götürüb qocaların ilan və qurbağa bişirdikləri köhnə dəyəyə gəldi.

– Qoy xoytpak hazır olsun! – qoca dedi və çəlləyi taxta ilə qarışdırdı.

Çəllək ağzınacan doldu. Qocalar xoytpağı tökməyə əlavə qab tapmadılar.

Qurtu-Düzəktər evə gəldi.

– Ay səni qoca səfeh! – qarı qışqırdı. – Xandan boş çəllək gətirmisən. Bizim südümüz var ki, onu dolduraq? Geri qayıt, yemək və içmək xahiş elə.

Onda qoca dedi:

– Qoy xoytpak hazır olsun! Taxta ilə çəlləyi qarışdırdı. Çəllək ağzınacan doldu. Qarı məəttəl qaldı, sevindi, amma təəssfləndi: yeməyi boşaltmağa qab tapılmadı.

Üç gündən sonra Karatı-xanın ilxıçıları onlara gəldi. Qarı dedi:

– İndi sizə xoytpak verəcəyəm. İlxıçılar məəttəl qaldılar. Fikirləşdilər ki, "Qocaların mal-qarası yoxdur, Qurtu-Düzəktər nə ovlayırsa, onu da bişirib yeyirlər. Bunlar xoytpakı haradan alırlar?". Qarı boş çəlləyi götürüb "xotypak" dedi və taxtanı çəlləyə salıb qarışdırdı. Çəllək doldu. İlxıçılar daha çox məətəl qaldılar. Yeyib, içdilər və özlərini xana çatdırmağa tələsdilər ki, sehirli çəllək haqqında ona danışsınlar.

Xan ordusunu yığıb qocaların evinə gəldi ki, çəlləyi onlardan alsın. Qoca və qarı qəmə batdılar.

Qurtu-Düzəktər yenə dostu – Küskün xanın yanına getdi. Yol üstü qurbağa ilə ilan bişirən qocaların komasına baş çəkdi.

– İndi hara gedirsən? – onlar soruşdu.

– Yenə Küskün-xanın yanına gedirəm, – qoca cavab verdi.

– Ondan bu dəfə nə xahiş edəcəksən? – onlar soruşdular.

– Nə versə, götürəcəyəm, – qoca cavab verdi.

– Xeyir, hər verdiyini götürmə, yalnız dəmir dirəyə bağlanmış ala atı götür. Bu madyan adi at deyil. Onu sağmağa başla və de ki, "kökə və qənd". Kökə və qənd dərhal hazır olacaq.

Qurtu-Düzəktər məsləhətə görə qocalara minnətdarlıq edib, yoluna davam elədi. Küskün-xan onu yenə mötəbər yerdə oturtdu və ona yağlı ətlə, tünd çay verdi. Səhəri günü ona mal-qarasından heyvan, var-dövlətindən də dövlət ayırıb qocaya təklif etdi.

– Yox, – qoca dedi, – yaxşısı budur, sən mənə dəmir dirəyə bağladığın ala madyanı ver.

Küskün - xan madyana baxıb ağladı, dostuna baxıb gülümsündü. Və madyanı ona verdi.

Qurtu-Düzəktər köhnə dəyəyə gəldi.

– Kökə və qənd hazır olsun! – dedi və madyanı sağmağa başladı.



Torba kökə və qəndlə doldu. Yazıq qocalar heç bilmirdilər ki, bunların yerdə qalanını hara qoysunlar.

Qurtu-Düzəktər evlərinə gəldi.

– Ay səfeh! – qarı qışqırdı. – gedib xandan madyan alıb gətirmisən! Bu madyan sənin nəyinə gərəkdir? Məgər sənin dayçan var?

Onda qoca dedi:

– Kökə və qənd hazır olsun! – Və madyanı sağmağa başladı.

Torba qənd və kökə ilə doldu. Qarı təəccübləndi, sevindi və bikefləndi. Evdə qalan ehtiyatı qoymağa heç nə yox idi.

Üç gündən sonra Karatı-xanın ilxıçıları onlara gəldi. Qarı madyanı sağıb, onları qənd və kökələrə qonaq elədi. Ertəsi günü Karatı-xan ordusu ilə gəlib, madyanı apardı. Qocalar yenə qəm-qüssəyə batdılar.

Qurtu-Düzəktər yenə də dostu Küskün – xanın yanına yollandı. Yolüstü qurbağa ilə ilan bişirən qocaların komasına baş çəkdi:

– İndi xandan nə alacaqsan? – onlar soruşdu.

– Nə versə onu da götürəcəyəm, – qoca dedi.

– Yox, hər verdiyini götürmə. Xanın qızıl toxmağını götür.

Qurtu-Düzəktər Küskün-xanın yanına gəldi. Quzğun-xan yenə də onu ən hörmətli yerdə əyləşirdi. Onu yağlı ət yeməklərinə və tünd çaya qonaq etdi və səhərə kimi onunla söhbətləşdi. Səhər isə qonağından soruşdu:

– Sən məndən bu dəfə nə istəyirsən?

– Mənə qızıl toxmağını ver, – Qurtu-Düzəktər dedi.

Küskün - xan toxmağa baxıb ağladı, dostuna baxıb gülümsündü. Və toxmağı qonağına verdi.

Qurtu-Düzəktər köhnə dəyəyə gəldi və soruşdu:

– Bu toxmaq mənim nəyimə gərəkdir? Mənim heç dərim də yoxdur ki, onu toxmaqla döyəcləyəm.

Yazıq qocalar dedilər:

– Dəyədən çıx, əlindəki toxmağı başının üstündə hərlə və qışqır: "Maral və cüyür, ölün!"

Qurtu-Düzəktər dəyədən çıxıb toxmağı başı üstə hərlədi və qışqırdı: "Maral və cüyür, ölün!" – bir maral və bir cüyür leşi dəyənin yanına düşdü.

Yazıq qocalar sevindilər ki, bir müddət onların çoxlu ətləri olacaq.

Qurtu-Düzəktər evə gəldi.

– Ay səfeh! – qoca dedi. – Bu toxmaq sənin nəyinə gərəkdir? Sənin dərin var ki, onu bu toxmaqla aşılayasan?

Onda qoca toxmağı hərləyib qışqırdı:

– Maral və cüyür, ölün!

Ölmüş maral və cüyür onun ayaqları altına düşdü.

Qarı sevindi ki, bu qədər ət ehtiyatları var.

Üç gündən sonra xanın ilxıçıları onlara qonaq gəldi. Qarı öyünməkdən özünü saxlaya bilmədi, qızıl toxmağı və onun fərasətini nümayiş elədi.

Səhəri günü Karatı - xan ordusu ilə gəldi, dəyəyə keçdi və qocaların üstünə qışqırdı:

– Qızıl toxmağı verin!

– Səbr edin, xan, o, burda deyil, indi gətirərəm! – Qurtu-Düzəktər dedi. O, dəyədən, toxmağı hərlədi və qışqırdı:

– Xanın ordusu, ölün!

Xanın ordusu bütünlüklə yerə yıxılıb öldülər.

– Məni bağışla! – xan qışqırıb dəyədən çölə çıxdı.

– Yaxşı qoca, dedi, – sən yaşayacaqsan, ancaq mənə, odun gətirəcəksən. Arvadın isə mənə hər gün çay hazırlayacaq.

O, özünün ala atını, Qurtu-Düzəktərin taxta çəlləyini xandan geri alıb qarısı ilə birgə bolluq və əmin-amanlıq içərisində yaşamağa başladı.



## BUMBAADAY QOCA

Bu əhvalat çox qədim zamanlarda baş vermişdi. O vaxtlar öküzlərin buynuzu çürüyüb yerə düşər, enli nə varsa küləklərə qarışıb göydə uçar, girdə olanlar isə yerlə diyirlənərdi. Bax, belə vaxtlarda Qara-Hem çayının sahilində Bumbaaday qoca adlı bir şəxs yaşayırdı. O min qara qoyunu otarırdı. Qocanın iki atı vardı: biri xeyirxah boz Eki-Bora at, o biri zəif Baqay-Bora at idi.

Bir gün qoca öz sürüsünün yanına gəldi. Gördü ki, bir qoyun iki bala verib. Qoca sevinib dəyəyə qayıtdı ki, quzuları gətirmək üçün dəyədən keçəni götürsün. Sürüyə qayıdanda gördü ki, iki qara qarğa ağ quzuların gözlərini eşir. Qoca əsəbiləşdi. O, xeyirxah boz atı Eki-Boranı mindi, qarğaları qamçı ilə üç dəfə Boyçaytılıq-Bora-təpəciyinin başına fırlatdı. Sonra onları tutub, kor etdi və buraxdı.

İki qara qarğa göyə qalxıb səma-xanın yanına uçdular, hönkürərək dedilər:

– Qara qoyunları otaran Bumbaaday qoca bizi tutub kor elədi və buraxdı.

– Bu nə qəddar qocadır?! – xan bağırdı. – Mənim sadiq dostlarımı, mənim qara qarğalarımı kor etmək?! Haydı mənim boz canavarlarım, Bumbaadayın yanına qaçın, onun xeyirxah boz atı Eki-Boranı kəsib yeyin.

İki canavar qocanın yanına qaçdı. Yazıq Bumbaaday qoca sudura baxıb hər şeyi gördü və tez xeyirxah atı Eki-Boranın yerinə, zəif boz atı Baqay-Boranı bağladı. Eki-Boranı isə bir ovuc təzəyə çevirib qırağa qoydu. Qoca səhər ayılanda dəyədən çölə çıxdı və gördü ki, canavarlar Baqay-Boranın qalan ətini yeyirlər. Qoca Eki-Boranı əvvəlki halına gətirib qalxdı və ca-

navarları qamçı ilə Boyçaytılıq-Bora-təpəciyinin ətrafında üç dəfə hərləyib boz dərilərini soydu və buraxdı.

Canavarlar sevimli xanın yanına gəlib ağladılar:

– Qara qoyunları otaran qoca Bumbaaday bizi tutub boz dərilərimizi soyub buraxdı.

– Baho, bu nə zalım qocadır! Mənim sevimli göygöz canavarlarımın dərisini soymaq?! Haydı, mənim cəsur nökərlərim, mənim sadiq xəbərçilərim, qaçın Bumbaadayın yanına, onun özünü öldürün!

İki nəfər gözqoyanlar qocanın yanına qaçdılar. Yazıq Bumbaaday sudura baxıb, hər şeyi öyrəndi. Dəyənin bütün dəlmə-deşiklərini bağlayıb uzanıb yatdı.

Gözqoyanlar dəyəyə yaxınlaşdılar. İçərini görmək üçün nə bir deşik, nə də bir kəsik yeri var idi. Onlar dəyəni dağıtmağa başladılar bə bütün gecəni dağıtdılar. Səhər qoca qalxdı, özünün xeyirxah boz atı olan Eki-Boranın belinə sıçradı və gözqoyanları qamçı ilə Boyçaytılıq-Bora-təpəciyinin ətrafında üç dəfə dolandırdı. Sonra onları tutub, kor elədi, qollarını qırıb, buraxdı.

Gözqoyanlar xanın yanına gəlib ağlayaraq dedilər:

– Qara qoyunları otaran qoca Bumbaaday bizi tutub kor elədi, qolumuzu qırıb, buraxdı.

– Bu qoca görünməmiş zalımdır! Mənim sadiq nökərlərimi kor edib, qolunu qırmaq?! Haydı, mənim nəhəng əjdahalarım, Bumbaadayın yanına uçun, sarı, iti ildırımlarla dəyəni də, qocanı da bir yerdə yandırın!

İki əjdaha qocanın yanına uçdu. Yazıq Bumbaaday sudura baxdı, hər şeyi öyrənib bildi. O, öz dəyəsini Boyçaytılıq-Bora təpəsinin zirvəsinə qaldırdı, təpədən isə xırda daşları daşıyıb dəyənin yerinə yığdı.

Tezliklə qara buludlar göründü, yağış yağmağa başladı. Göy guruldadı və buludlardan sarı ildırımlar tökülməyə başladı.



Onların hamısı dəyənin yerindəki daşlara dəyirdi. Nəhayət, qoca əsəbiləşdi. Eki-Boranın belinə sıçradı və əjdahaları kainat boyu qamçı ilə qovub qamçıladı, sonra onların hər ikisini tutub dərilərini soydu ki, əjdahalar uça bilməsin. Onlar xanın yanına getdilər. Hönkürüb dedilər:

– Qara qoyun sürüsünü otaran qoca Bumbaaday bizi tutdu, dərimizi soyub buraxdı.

Qocanın yanına göndərməyə bir kəsi tapmayan xan, özü onun yanına getdi.

– Bumbaaday, de görüm, məni iki qara qarğamı niyə kor elədin? – xan soruşdu.

– Onlar mənim iki quzumun gözlərini niyə dəlib kor elədilər? – qoca soruşdu.

– Cavab ver, görüm, mənim iki mavigözlü canavarlarımın dərisini niyə soydun? – xan soruşdu.

– Onlar niyə Baqay-Boranı yedilər? Axı, sən əmr eləmişdin ki, onlar Eki-Boranı yesinlər! – qoca dedi.

– Sən niyə xəbərçilərimi və gözqoyanlarımı kor edib, qollarını sındırdın? – xan soruşdu.

– Onlar niyə mənim dəyəmi uçurdular? Axı, xan, sən məni öldürməyi əmr eləmişdin? – qoca gülümsündü.

– Sən niyə iki nəhəng əjdahamın dərisini soydun? – xan soruşdu.

– Onlar bir yığın daşı niyə ildırıma tutmuşdular?Axı, sən əmr etmişdin ki, onlar mənim dəyəmi uçursunlar?! – qoca dedi.

– Hə, sən demə hər şeydə lənətə gəlmişlər özləri günahkar imişlər.

Bundan sonra o, yola düşüb getdi. Qoca qara qoyun sürüsünü otarıb sakit həyat sürdü.

# BALDIR-BEJEEK

Qulaq asın. Çox qədim zamanlarda, geniş düzdə, ağ qayanın yanında Baldır-Bejeek adlı bir oğlan iki böyük qardaşı ilə birgə yaşayırdı. Onların nə ataları, nə də anaları vardı.

Böyük qardaşları olan Aldın-Bijeeçi və Monqun-Bijeeçi gün ərzində heç bir işlə məşğul olmur, bütün günü elə hey şahmat oyunu oynayırdılar.

Yazıq Baldır-Bejeek təkbaşına min qoyunu və min atı otarırdı. Böyük qardaşlar hər gün ya bir qoyunu, ya da bir atı kəsib yeyirdilər. Onlar günlərlə yağlı ət yeyirdilər. Nəhayət, kiçik qardaş cəmi on atı və on qoyunu otarmağa başladı.

– Dayan, – böyük qardaş qışqırdı, – əvvəlcə iki gümrah atı və iki yağlı qoyunu tut, saxla. Atları bağla, qoy dincəlsinlər, qoyunları isə kəs və bişir. Biz uzaq torpaqlara gedirik. Sənsə qal, istədiyin kimi yaşa: istəsən ya qoyun və at sürülərini çoxalt, istəsən də onları kəs ye, sonra da aalbaaal gəz, özün bilərsən.

Yazıq Baldır - Bejeek bütün günü ağladı. Oğlan ona görə ağlayırdı ki, böyük qardaşlarında insaf adlı şey qalmamışdı, onu çöllü-biyabanda tək atıb gedirdilər. O, axşam üçün iki yağlı qoyunu kəsib bişirdi.

Səhər tezdən qardaşlar ona heç nə demədən qərbə tərəf üs tutdular.

Yazıq balaca nə etməliydi? Bu səfər darı kəpəyi yeyib, qara çaydan içdi və malı-heyvanı düzün ortasına çıxardı. O, ağ qayanın yanında əyləşib qardaşları haqqında fikirləşməyə başladı. Yenə bütün günü ağladı. Üçüncü günü də eyni vəziyyətdə keçirdi. Qəflətən o əyləşdiyi daşın altından ağ atlı, ağ saqqallı bir kişi çıxdı.

– Oğlum, sən niyə üç gündür ki, ağlıyırsan? Mən Ağ-Mergendəyəm, özüm də aşağı dünyada yaşayıram. Kimi istəsəm



ona kömək edirəm, kimə yazığım gəlsə ona xeyirxahlıq edirəm, – qoca dedi.

– Böyük qardaşlarım məni bu boş obada tək qoyub getdilər. Bir neçə qoyunu və bir neçə atı otarıb, çox şey haqqında düşünürəm. Fikirdən sinəm göz yaşı ilə dolur. Elə ona görə də ağlayıram.

– Onda bir az gözlə, – qoca bunu deyib, daşın altına girdi. O, əlində bir qızıl kitabla geri döndü.

– Bu kitabda hər şey aydın yazılıb: hansı tərəfə getmək, hara getmək. – Kitabı oğlana təqdim etdi.

Baldır-Bejeek sevincindən bilmədi nə desin.

– Bu da sənə qara idiklər, bu qara ipəkdən xələt və bu da qara samurdan papaq, – deyə qoca davam etdi.

– Bunları geyib adam içinə çıxarsan. Bu da sənə tünd-kəhər at. Əgər uzağa səfər eləmək fikrin olsa, bu daşın yanına gəlib deyərsən: "Enli qaya, açıl, mən heyvanları içəri salım!" – Qaya aralanacaq, sən heyvanları gizlədib, istədiyin yerə gedə bilərsən. – Bunu deyib qoca gözdən itdi.

Baldır-Beejek evdə qızıl kitabı açıb öyrəndi ki, onun böyük qardaşları yuxarı dünyaya gedirlər. Orda doqquz ölkədən doqquz igid yığışıb, aralarında Kurbustu-xanın gözəl qızı Otağşık-Qara uğrunda yarış keçirəcəklər.

Səhər tezdən Baldır-Bejeek öz qoyun və atlarını ağ qayaya gətirdi, onları içəri salıb rahatladı, tünd kəhər atı minib qardaşlarının izi ilə getdi. Onun atı bir aylıq yolu yarım günə qət edirdi, bir günlük yolu isə bir qəlyanın çəkilməsinə sərf olunan vaxta gedirdi. Oğlan tezliklə böyük qardaşlarını gördü. O, əvvəlki görkəmini alıb, sarı keçədən üst geyimi olan cındır paltarlı oğlana döndü, atını isə əldən düşmüş, tükü tökülmüş kəhərə döndərdi. Yalnız bundan sonra yaxınlaşıb qardaşlarına salam verdi. Onların heç dodağı da tərpənmədi. Birlikdə ocaq qıra-

ğında oturub, ət yeyirdilər. Əllərindən iri damlalarla yağ süzülürdü. Onlar tikəni tikə dalınca yeyirdilər. Kiçik qardaşa isə bir tikə də olsun, ət təklif etmədilər.

Qardaşlar düzlə altmış gün – iki ay, doxsan gün – üç ay yol getdilər. Nəhayət, qara qayadan bir az aralıda başı səmaya dirənmiş dəmir qovaq ağacı gördülər. Baldır-Bejeek qızıl kitaba baxıb öyrəndi ki, dəmir qovaq – yuxarı dünyaya gedən yoldur. Qara qayanın yanında iki lama oturub, yuxarı dünyaya gedənlərə buraxılış vəsiqələri verirdilər. Bu qeyd vəsiqəsi olmadan yuxarı dünyaya gedənin ya papağı ilə birgə başını vurar, ya da əllərini qolları ilə birgə vurardılar. Böyük qardaşlar Baldır-Bejeekin yanından şən-əhvalla keçib getdilər. Onlar qeydiyyat kağızını almışdılar. Yazıq oğlan da lamalara yaxınlaşıb dedi:

– Üç il olar ki, bizim xanın dəvəsi itib. Mən onu hər yerdə axtarmışam. Yuxarı dünyaya qalxmaq üçün mənə də bir icazə kağızı verin, dəvəni orda da axtarmaq istəyirəm.

– Nə danışırsan, oğlan dəli olmusan. İçi sarı ot, çölü-qara yun olan mundar heyvan. – Sən yuxarı dünyada nə axtarmaq niyyətindəsən? Biz sənə heç nə verməyəcəyik! – lamalar dedilər.

Elə bunu deşimdilər ki, Baldır-Bejeek hər iki lamanı tutub baş-başa vurdu.

– Atlının yolunda maneəyə dönməyin! – dedi və hər iki lamanın birini gün çıxana, o birini də gün batana tərəf atdı.

O, lamaların qeyd kağızlarına baxdı və birini götürüb ata mindi, yuxarı dünyaya qalxdı. Yuxarı dünya ilə getdi, getdi və böyük bir şəhərə daxil oldu. Onun mərkəzində başı göylərə dəyən qızıl qüllə, qızıl saray dururdu.

Baldır-Bejeek atını qızıl dirəyə bağlayıb saraya girdi. Dördayaqlı qara şirədə xan əyləşmişdi. Qırx nəfər onun üçün boğazlarında mahnı oxuyurdular.

– Salam, xan! – iki dizi üstə çökən Baldır-Bejeek dedi.



– Sən niyə burdasan? Hardan gəlib, hara gedirsən? – xan soruşdu.

– Xan, sizin işıqlı dünyanızda bir qara dəvə itib. Mən onu hər yerdə axtarmışam. Bəlkə o, bura, sizin torpağa gəlib?

– Səfeh, yəni sən doğurdan fikirləşmisən ki, bu haqda məndən – xanın özündən soruşa bilərsən? Mal-qaranı otarmaq, mal-qaranı axtarmaq – sadə adamların işidir. Mən hardan bilim ki, burda sənin qara dəvən var, ya yox?! – xan əsəbi qışqırdı.

– Mən elə bilirdim ki, malını tanımayan sahib yoxdur, – oğlan dedi və eşiyə çıxdı.

O, ən axırıncı, qara, cırıq dəyəyə girdi. Orda bir qoca əyləşmişdi. Onun ağzı dəvə dərisi ilə bağlanmışdı. Qoca ağzına işarə elədi. Baldır-Bejeek də dərini qopartdı.

– Sən hara gedirsən, oğlum? – qoca soruşdu.

– Bizim xanın dəvəsi itib. Mən də onu axtarıram.

– Mən görürəm ki, sən – şən adamsan. Sən saysız insanların xarakterlərini özündə cəm etmisən. Sənin kimi adamlar belə deyirlər: "Qalxmış əli aşağı salmaram, görən gözümü heç vaxt qıymaram!" – sən beləsən, oğlum. Doqquz istiqamətdən, doqquz dəliqanlı bir araya toplaşıb ki, Qurbustu-xanın gözəl qızı Otakşin-Qara uğrunda mübarizə aparsınlar. Fəqət onlar gözəl qıza uzaqdan tamaşa edirlər. Onlar üç sınaqdan keçməkdən qorxurlar. Əgər sən xeyirxah pəhləvansansa – sən onun sahibi olacaqsan, yox, əgər zəifsənsə, onda-başını itirəcəksən, – qoca dedi.

– Əgər mənim kimi bir oğlan ağ dünyadan sürüşüb itsə, onu heç kim görməyəcək. Mən ölümdən qorxmuram, mən gedəcəyəm, – Baldır - Bejeek dedi.

Və o, gözəlin oturduğu qalaya yollandı. Əvvəlcə mühafizə – əsgərləri onun yolunu kəsdilər. O, qırmızı yumruqlarının hesabına özünə yol açaraq mühafizəçilərdən yan ötdü. Sonra onun üstünə Eger və Qezer adlı itlər hücum etdilər. Oğlan onları də-

mir qovağa çırpdı. Onda oğlana qarşı vuruş üçün iki ən güclü pəhləvanlar – Kan-Mege və Demir-Mege meydana atıldılar.

– Polad onu tökənə, dəmir onu vurana tabe olur, – oğlan bunu deyib onların hərəsini bir tərəfə tulladı.

Qızıl qalanın qapıları onun üzünə açıq idi. O, içəri girdi və ay kimi, gün kimi işıq saçan gözəli nazik tül pərdənin arxasında gördü. Oğlanları görən kimi o, özünü sobaya atdı. "Buna nə oldu?" – Baldır-Bejeek fikirləşdi və sobaya tərəf boylandı. Bu vaxt qız sobanın dəmkeşindən uçub getmək istədi. Oğlan yayı hazırladı.

– Əgər onun qəlbi və fikri mənimlədirsə, onda qoy mənim oxum onun idiklərini deşsin, yox, əgər onun qəlbi və fikri məndən uzaqlaşırsa, onda qoy mənim oxum dərisini deşsin! – oğlan dedi və oxu yaydan buraxdı.

Ox idikləri deşdi. Gözəl aşağı enəndə, oğlan onun ayaqlarını yerə dəyməyə qoymayıb havada tutdu.

– Sən məndən niyə qaçırsan? Məgər sən ətdən, sümükdən və əzələdən ibarət adi insan görməmisən? – oğlan soruşdu.

– Mən ona görə qaçırdım ki, tezliklə mənim dostum olacaq insanın sehrinin və biliyinin nə dərəcədə çox olduğunu bilmək istəyirdim. Sabah yarışlar başlayacaq. Ağ-Tayqada bizim aalın qarşısında gördüklərin – Qalçaa-Qara-Dalay dənizidir. Bu dənizin suyu Xan-Xətəri quşunun göz yaşları ilə qarışıb. Dənizin o biri sahilində saysız-hesabsız at ilxıları otlayır. Hər il orda minlərlə dayçalar doğulur. Bu dayçaları Xan-Xətəri quşu yeyir. Onu öldürən adam bu yarışın qalibi olacaq, – gözəl dedi.

Oğlan xanın aalına yola düşdü. Qızıl dayaqdan yazılı fərman asılmışdı: "Bütün igidlər, pəhləvanlar və bütün xan əhli – hamı dənizin sahilindəki üç ağacın yanına toplaşsınlar".

Baldır - Beejek dənizin sahilinə gəldi. Xalq bütünlüklə orada idi. Ağacın altında iki katib oturmuşdu. Oğlan diqqətlə onlara baxıb böyük qardaşları Aldın-Beejeki və Monqun-Beejeki tanıdı.



Onlar doqquz müxtəlif ölkədən gəlmiş doqquz igidin siyahısını tutmuşdular. Təlatümlü, zəhərli dənizi keçə bilməyənləri siyahıdan silirdilər. Baldır-Bejeek görürdü ki, nə piyadalar, nə də atlılar güclü dalğalara tab gətirməyib batırdılar. Birdən kimsə qışqırdı:

– Daha siyahıda heç kim qalmadı!

Baldır-Bejeek xana yaxınlaşıb dedi:

– Mənim adım siyahıda yoxdur. Bəlkə, dənizdən keçib-getməyə siz mənə icazə verəsiniz?

– Yazıq Baldır-Bejeek! – o, dedi. – Sənin ölməyindən, ya sağ qalmağından – nə çay dayazlaşacaq, nə də insanlar azalacaq. Getmək istəyirsən? Get!

Oğlan ata yaxınlaşdı.

– Mənim quyruğumdan iki tük qoparıb təlatümlü dənizin o biri tərəfinə at.

Baldır-Bejeek tükləri o biri tərəfə atıb onun üstü ilə təlatümlü dənizin o biri tərəfinə keçdi. Başını qaldıranda qarşısında ucu-bucağı görünməyən sarı düzdə minlərlə qara at ilxısı otarırdı. İlxı o qədər ehtiyatla yeriyirdi ki, ayaqları ilə otu əzməkdən ehtiyat edirdilər. Qəflətən hava qaraldı, külək vıyıldadı, yağış yağmağa başladı. Göylərin zirvəsində altıbaşlı Xan-xərəti quşunun qızıl lələkləri işıldadı və daş kimi ilxının üstə düşdü. O, polad caynaqları ilə dayçaları qamarlayıb yuxarı qalxdı. Baldır-Bejeek oxu götürüb nişan aldı.

– Bu quşun altı boynunun hamısını kəs! – deyib oxu yayından atdı.

Xan-xərətinin altı başı onun ayaqları altına düşdü.

Oğlan xələtini açıb sərdi və qorxunc quşun caynaqlarından xilas olub aşağı tökülən dayçaları xələti ilə tutdu. Bütün dayçalar sağ qaldı. Onlar sevinərək kişnəyirdilər.

Baldır-Bejeek çevrilib arxaya baxdı: zəhərli dəniz qaynayıb buxarlanırdı. Nəhəng quşun cəsədi dənizin tən ortasına düş-

müşdü. O, getdikcə kiçilir, meyvə tumundan da xırda görünürdü. Tezliklə dəniz tamam qurudu.

Oğlan xan aalına qayıtdı. O, əvvəlki görkəmində deyil, qiyafəsini tamam dəyişmiş şəkildə qayıtmışdı. Oğlan min igidin müsbət simasını özündə cəmləşdirmiş min qəhrəmanın içində birinciliyi əldə etmiş igidin şəklində qayıtmışdı! Xan öz heyvanlarından çoxlu heyvan, varidatından varidat ayırıb, böyük qızını alaçıqla birgə ona verdi. Böyük qardaşlar alaçığın yanında durmuşdular. Baldır-Bejeek dedi:

– Siz məni pis vaxtda atdınız, yaxşı vaxtda isə yanıma gəldiniz. Amma mən sizə qarşı kin saxlamıram. Mənim varımı-dövlətimi və qızıl alaçığımı götürün. Bu torpaqda qalın, yaşayın. Mənsə doğma torpağıma qayıdacağam. Mən yola düşəndə, geri qayıdacağıma söz vermişəm.

O, gözəli də tünd rəngli ala atının tərkinə oturtdu, yerə – işıqlı dünyaya qayıtdı. Tezliklə o, öz köhnə biçənəyi olan yerlərə gəldi, ağ qayaya yaxınlaşdı və dedi:

– Geniş, enli qaya, açıl, mən öz heyvanlarımı götürüm.

Qaya açıldı. Səkkiz qoyun və səkkiz at saysız-hesabsız dərəcədə çoxalmışdı. Heyvanlar səs-küylə qayanın içindən çıxdılar. Baldır - Bejeek dedi:

– Ağsaqqal, Ağ-Mörgendey ata, ağ daşdan çıx!

Qoca çıxdı. Baldır-Bejeek bütün sərgüzəştləri olduğu kimi ona danışdı. Həmçinin onunla yol yoldaşı olan müvəffəqiyyətdən və arzularının həyata keçməsindən də söhbət etdi.

– Gəlininizi qəbul edin, – bununla oğlan söhbətini bitirdi və qocaya təzim etdi.

Köhnə yurd yerində öz aalını qurdu. Bütün dərələr və düzlər onun heyvanları ilə doldu. İgid oğlan öz gözəli ilə çox xoşbəxt və uzun ömür sürdü.



# DEER-MÖGE VƏ ALTIBAŞLI MANQIS KOLÇAA MÖRGEN

Qızıl-Hem çayının sahilində bir qoca ilə bir qarı yaşayırdı. Onların yeganə bir oğlu, bir Sarı-madyanı və bir arıq dayçası var idi.

Tezliklə oğul bu arıq dayça ilə ova getməyə başladı. Bir gün o, qayada iki qartal tutdu. Oğlan onları evə gətirdi.

– Ata, bu qartallara qulluq etməkdə mənə kömək et, - oğlan xahiş etdi.

Qoca çox sevindi: "Deməli, oğlum yaxşı ovçu olacaq", – deyə fikirləşdi. Və oğlu üçün möhkəm yay düzəltdi.

Tezliklə oğlan hədəfi səhv etmədən vurmağı öyrəndi. Qartallar da böyüdü və qüdrətli berkuta çevrildilər. Kiçik ovçu atasının qulaqlarına dinclik vermirdi: "Mənə iki dənə ov iti bağışla" – deyib dururdu.

Qızıl-Həm çayının yuxarı hissəsində qocanın könhə dostu – qoca ovçu yaşayırdı. Ata onun yanına gəlib dedi:

– Oğlum qulaqlarıma rahatlıq vermir. Ona iki ov iti lazımdır. İtlərindən heç olmazsa birini ona ver.

– Mənim itlərim torpağın altını da eşidirlər. Onlar oğluna sədaqətlə qulluq edəcəklər. Əgər oğlun itlərin xətrinə dəysə onlar qayıdıb yanıma gələcəklər. – Qoca ovçu sözünü deyib ona iki it verdi.

Oğlan iki berkut və iki itlə ova getməyə başladı. O, tezliklə heyvanların dilini başa düşdü.

Bir dəfə o tək ova çıxmışdı. Evə qayıdanda gördü ki, onun alaçığı harasa köçüb. Oğlan alaçığın durduğu yeri diqqətlə nəzərdən keçirdi. Anasının yatdığı yerdə iynələr və daraq qırıntıları var idi. Atasının yatdığı yerdə isə bülöv vardı. Oğlan bu əşyaları yerdən qaldırıb, ocaq yerinə baxdı. Birdən kül tər-

pəndi. Oğlan qorxub dayçanın yanına qaçaraq onun belinə sıçradı. Elə o anda da külün içindən parlaq, iti baltalı altıbaşlı manqıç sıçrayıb çıxdı. Manqıs bir anda dayçanın dörd ayağının dördünü də üzdü. Oğlan yıxıldı.

– Alınmaz qalaya çevril! – Oğlan bülövə dəyib onu torpağın üstünə atdı. Bülöv alınmaz qalaya çevrildi.

Altıbaşlı manqıç qayanı aşana qədər oğlan uzağa getməyə macal tapdı. Amma düz sahədə manqız balaca ovçunu haqladı. Az qalmışdı ki, onu tutsun.

– Keçilməz cəngəlliyə dön! – oğlan bunu deyib daraq qırıntılarını arxasına tulladı. Qırıntılar keçilməz cəngəlliyə çevrildi.

Altıbaşlı manqıç cəngəlliyi keçənədək, oğlan bir aylıq yolu qət etdi. Nəhayət, o yoruldu və gölün kənarında uzanıb yatdı. Ayılanda manqıçı çox yaxında gördü. Balaca oçvu qorxdu, anasının iynəsini yerə atıb qışqırdı:

– Dəmir qovaca dön!

İynə dəmir qovağa döndü. Oğlan ağacın başına çox tez dırmaşdı. Manqıç iti baltasıyla ağacı baltalamağa başladı. Balaca ovçu itləri və berkutları haqqında fikirləşdi. O, fikirləşdi ki, əgər onlar burda olsaydılar, məni xilas edərdilər.

Altıbaşlı manqıç gecə və gündüz, istirahətsiz elə hey ağacı yarırdı. Nəhayət, ağac-dəmir ağac olduğundan manqısın baltası davam gətirə bilməyib kənara düşdü. Manqıs yorulub yatdı. Gölün içindən bir qara qurbağa çıxdı. O, ağacın başındakı oğlana baxıb soruşdu:

– Oğlan sən niyə orda oturursan?

– Bu qorxunc manqıs məni bura dırmaşdırıb, – cavan ovçu cavab verdi.

Qara qurbağa ehtiyatla manqısa yaxınlaşdı, baltanı götürüb gölə atdı. Manqıs o saat ayıldı və suya qaçdı. Qarnı üstə



uzanıb, altı ağzı ilə eyni zamanda su içməyə başladı. Tezliklə gölün bütün suyunu içib qurutdu və baltasını gördü. Onu götürdü və ağzındakı suyu geri töküb, yenidən ağacı baltalamağa başladı. Nə qədər baltalayırdısa, dəmir ağac eləcə bütöv qalırdı, bir barmaq da qopara bilmirdi.

Bir dəfə bir qırmızı tülkü qovağa yaxınlaşdı.

– Mən qanla qidalanıram, – tülkü oğlana baxıb dedi. – Ətinə dəymərəm qanını bircə dəfə dilimlə yalasam bəsimdir. Üzünü manqısa tutub dedi:

– Gəlin sizə kömək edim, baltalayaq, – dedi.

Manqıs əllərinə baxdı. Əlləri qabar olmuşdu.

– Al, baltala, və - manqıs baltanı tülkiyə verdi.

Amma bic tülkü manqıs ona baxanda, baltanı iti tərəfiylə, üzünü çevirəndə isə baltanın arxasıyla ağaca vururdu. Manqıs yuxuya getdi. Tülkü baltanı götürb iti tərəfini daşa vurdu. Balta korşalaşdı, tülkü onu gölə atıb qaçdı.

Manqıs ayılanda nə baltanı, nə də tülkünü gördü. Gölün suyunu bir də içdi və birdən baltanı tapdı və onu daşa sürtüb itiləmək istədi.

Aylarla illərlə itilədi və yenə də ağacı baltaladı.

Ağacın üzərindən iki qarğa uçurdu.

– Ey, qarğalar, – oğlan qışqırdı, – Mənim iki berkutuma deyin ki, göl kənarındakı dəmir qovağın başında oturmuşam. Qoy gəlib məni xilas etsinlər!

Altıbaşlı manqıs elə hey ağacı kəsir və kəsirdi. Birdən ildırım elə çaxdı ki, elə bil göy yarıldı, tufan başladı. Tufandan sonra isə iki nəhəng berkut uçub gəldi. Onlar qovağın zirvəsinə qonub yumşaq qanadlarını gen açdılar. Oğlan qanadların üstə uzandı və berkutlar onu apardılar. Onlar uçduğu müddətdə oğlan xeyli yatdı. Quşlar tezliklə aala çatıb aşağı endilər. Oğlan alaçığa qaçdı. Atası suduru oxuyurdu.

– Siz niyə məni burda qoyub başqa yerə köçmüsünüz? Oğlan soruşdu.

Atası suduru kənara qoydu.

– Bu sənin itlərinin hökmü idi, – onlar cavab verdilər. – İtlər dedilər ki, tezliklə bizim yurda düşmən olan altıbaşlı manqıs Kalçaa Mörgen gələcək. O, torpağın altından çıxıb bizim hamımızı öldürəcək. İtlər bizi təhlükəsiz yerə apardılar, berkutlar da alaçığımızı söküb gətirdilər. Bizim sarışın madyan doğmalı idi. Biz onu mağara aparıb yerini gizlətdik. Sonra oğlan da onlara öz sərgüzəştlərindən danışdı.

– Sən doğru danışırsan, – ata dedi. – Bu müqəddəs kitabın səhifələrində mən altıbaşlı Kalçaa-Mörgeni görürəm. Sən böyüyüb, pəhlivan olmusan. Bundan sonra qoy sənin adın Deer-Möge olsun. Sənin düşmənin sağdır. Çətin mübarizədə sən ona qalib gəlməlisən. Ona məğlub olma.

Deer-Möge itləri çağırdı.

– Qulağınızı torpağa qoyub qulaq asın, – o dedi, – öyrənin, görün manqıs Kalçaa-Mörgen nə işlə məşğuldur?

– Manqıs hal-hazırda yeraltı xanın qızı Çər-Aldıxanla evlənmək üçün mübarizə aparanlarla yarışa hazırlaşır, – itlər cavab verdi.

Deer-Möge itin dediklərini atasına söylədi.

– Mağaraya get, – ata dedi. – Bəlkə sarı madyan balalayıb? Yəhərimi və yüyənimi mağarada gizlətmişəm. Xeyirxah at, yəhər və yüyən yaxşı kişiyə həmişə lazımdır.

Deer-Möge mağaraya qaçdı. Madyanın yanında bir dayça fınxırırdı. Bahadır onu yəhərləyib belinə sıçradı. Dayça çapdı. Onun çox iti çapmasından dağlar düzə, düz-dağa dönürdü. Bahadırın paltar və ayaqqabıları geyilməkdən köhnəlmişdi, içi od tutub yanırdı. O, dözməyib qışqırdı:



– Öldürmək istəyirsən – tez öldür! Bağışlamaq istəyirsənsə – dayan!

Dayça dayanıb dedi:

– Sən mənim sahibim ola bilərsən, mən də sənin atın olmağa hazıram.

Onlar sarı madyanın yanına qayıtdılar. Deer-Möge ona dedi:

– Bir əlçim də olsa, yaşıl otdan ye. Bir qurtum da olsa, təmiz sudan iç. – Bunu deyib oğlan evə qayıtdı.

Atası qara yayını və iti oxunu oğluna verdi. Deer-Möge itlərini və berkutlarını götürüb yola düşdü.

– Əgər atı çapmağa gücüm çatmasa, yıxılmağa başlasam kürəyimdəki əti didərsiz. Əgər at yerişini azaltsa, onun da kürəyindəki əti didərsiz, – berkuta dedi və irəli çapdı.

Bir azdan at dayandı və dedi:

– Cəsur bahadır olsan da sənin ağlın azdır. Məgər aala bu sifətdə girmək olar?

Deer-Möge fikirləşib belə qərara gəldi ki, at düz fikirləşir. Oğlan özünü sarı keçə kürklü bir oğlan uşağına, atını axsaq ata, itləri-siqana, berkutları-boz arıquşuna döndərdi. Oğlan aşırımı aşağı aşanda atın üstə əlyəşirdi, aşırımla üzüyuxarı qalxanda isə atı yüyənindən tutub dartırdı.

Nəhayət, Ala-Tayqanın zirvəsinə qalxdı. Al-əlvan tayqanın uca nöqtəsindən aşağı baxdı. Görünən sarı düzdə yürgələnə-yürgələnə nəsə yırğalanırdı. Bəlkə bunlar adamlardır, gəzirlər? Sarı düzdə adamların sayını bilmək qeyri mümkün idi. Yaxınlaşıb gördü ki, bunlar insanlar və atlardır. Atın sayı-hesabı yox idi. İnsanların ucu-bucağı görünmürdü. Bu başdan baxanda o başdakı adamlar görünmürdülər.

Sarı kürklü oğlan ağsaqqal qocadan soruşdu:

– Adamlar bura niyə yığılıblar?

– Sabah yarışlar başlayır, – qoca cavab verdi. – Beş ölkədən beş igid, on ölkədən on dəliqanlı, məğlubedilməz bahadır Ay-Möge, qorxmaz bahadır Çər-Möge və altıbaşlı manqıs Kalçaa-Mörgen gəlib.

Elə bu vaxt Çər-Aldı-xan hamıdan ucaya qalxıb dedi:

– Sabah tezdən kimin mahir ovçu olduğunu, hansı elmlərə və sehrlərə mailik olduğunu görəcəyik. Atanda elə atmaq lazımdır ki, ox tülkü pəncəsinin deşiyindən keçib, böyük gümüşü iynənin dəliyindən keçib, bir yığın odunu vurub yandırsın. Sonra ox aşırımın üzərindən uçanda, onu tutub mənə gətirsin. Kim bu şərtlərə əməl etsə, o da qalib sayılacaq.

Səhəri günü bütün bahadırlar yarış keçirilən yerə toplaşdılar.

Burda gümüşlə bəzədilmiş nəhəng bir kaman var idi. Atıcıların əksəriyyəti kamana təzim edib keçirdilər.

Beş müxtəlif tərəfdən gələn beş igid oxu atdılar. On ölkədən gəlmiş on dəliqanlı da oxu atdı. Oxların yarısı gedib heç tülkünün pəncəsinə çatmadı, başqa yarısının oxu isə tülkünün pəncəsinin yanından ötüb keçdi.

Oxu Ay-Möge atdı. Onun oxu tülkünün pəncəsindəki dəlikdən keçdi, böyük gümüşü iynənin dəliyindən keçərək yüz öküzün belində gətirilmiş bir yığın odunun üstünə düşdü, amma nə odunu deşdi, nə də yandırdı.

Oxu Çər-Möge atdı. Onun oxu tülkünün pəncəsindəki dəlikdən keçdi, böyük gümüşü iynənin dəliyindən keçərək, yüz öküzün belində gətirilmiş bir yığın odunu deşib yandırdı, dəmir kojeenin başına dəydi, amma onu cırmadı, yalnız sıyırıb keçdi.

Nəhayət, oxu altıbaşlı manqıs Kalçaa-Mörgen atdı. Onun oxu tülkünün pəncəsindəki dəlikdən keçdi, böyük gümüşü iynənin dəliyindən keçərək yüz öküzün belində gətirilmiş, bir yığın odunu dəldi və yandırı, dəmir kojeenin başına dəyib onu tikə-tikə etdi. Amma ox aşırımın üstündən süzəndə Kalçaa-Mörgen onu tuta bilmədi.



Nəhəng kamana ən axırıncı yanaşan sarı keçi kürkü geymiş oğlan oldu. Kalçaa-Mörgen çığırdı:

– Kamana təzim et və keç!

Amma oğlan təzim etmədi. O, yayı dartıb oxu buraxdı. Onun oxu tülkünün pəncəsindəki dəlikdən keçdi, böyük gümüşü iynənin dəliyindən keçərək, yüz öküzün belində gətirilmiş bir yığın odunu dəldi və yandırdı, dəmir kojeenin başına dəyib onu tikə-tikə etdi. Sonra ox aşırımın üstündən süzəndə berkutlar onu tutub sahibinə gətirdilər. Elə bu vaxt Deer-Möge əvvəlki simasını aldı. Bütün bahadırlar ağappaq ağardılar. Çər-Aldı-xan dedi:

– Sən bu günün qalibisən. Sabah cıdırdır.

Deer-Möge atının yanına gəldi. At dedi:

– Məni elə möhkəm bağla ki, nal kimi bərk olmağım üçün tab gətirə bilim. Sabah səninlə yerlə göyün qovuşduğu yerə uçacağıq.

Deer-Möge atı bağlayıb, düzün tən ortasında ocağı qaladı. Səhər tezdən günəşin ilk şüalarından nəhəng daşların beli parlayanda o, yuxudan ayıldı və gördü ki, bütün atlılar və onların nökərləri çoxdan atlanıblar. Deer-Möge tez atlanıb çölün üstündən uçub getdi. O, yerlə göyün qovuşduğu yerə gəlib çatdı və geri qayıtdı. Yerdə qalan atlılar hələ yolu yarı etməmişdilər. O, aala qayıdanda bahadırlar özlərini döyərək qışqırıb onu söyürdülər.

Çər-Aldı-xan dedi:

– Sən iki dəfə qələbə çaldın. Sabah – güləşmədir.

Deer-Möge xandan bir qoyun alıb, onu bişirdi, yeyib doyandan sonra berkutları və itini yedirtdi. Səhəri günü sarı düzün bu başından o başına kimi gedərək qartal rəqsini oynamağa

başladı. Altıbaşlı manqıs Kalçaa-Mörgen də qartal rəqsini oynaya-oynaya ona tərəf hərəkət edirdi. Onlar biri-birinə qızmış öküzlər kimi kəc baxıb tutaşdılar. Deer-Möge düşmənini yerdən ayırıb başı üstə qaldırdı və buludların altında onu elə fırladaraq yerə atdı ki, qara torpaq diksindi, buludlar isə çat-çat olub çatladı.

Onda Çər-Aldı-xan boz ayını gətirtdi. Ayı bahadırı torpağa tərəf əyməyə başladı. Bahadırı yıxmağa az qalmışdı. Elə bu vaxt iki burkut uçaraq gəlib Deer-Mögenin kürəyindən hərəsi bir tikə ət qopartdı. Bahadır əsəbiləşib ayını yerə çırpdı. Sonra Çər-Aldı-xanın yanına gəlib dedi:

– Mən yarışların üçünü də uddum. Qızını verirsən – ver, vermirsən – mən gedirəm.

Xan öz dövlətindən, malından mal-dövlət, mal-qarasından xeyli mal-qara və çox iri dəyirmi alaçığı da onlara pay verib yola saldı. Deer-Möge doğma Qızıl-Hem çayının sahilinə, qoca ata-anasının yanına köçüb var-dövlət içində sakit həyat yaşadı. O, nə qədər ki, sağ idi, dərələr daha da dərinləşir, yarğanlar isə daha da uzanırdı.



## ÖSKÜS-OOL VƏ KARATI-XAN

Nə vaxtsa yer üzündə Öskus-ool* adlı bir oğlan yaşayırdı. Onun nə atası, nə də anası vardı. Elə hey aaları dolaşar, nə versələr onu da yeyərdi. Bir gün o, Qaratı-xanın yanına gəldi.

– Sən kimsən? – Qaratı-xan soruşdu. – Hara gedirsən?

– Mən Öskus-oolam, – oğlan cavab verdi, – elə yer axtarıram ki, orada qış vaxtı doyunca bora-bıda, yay vaxtı da bora-xoytpak olsun.

– Qoy olsun, burada bora-bıda da, bora-xoytpak da var. Burada qal. Bu da sənə yetmiş sarı keçi, onları otar. Amma bax ha, onları yalnız dağda otar, düzə buraxma!

Ertəsi günü Öskus-ool sarı keçiləri dağlara apardı. Amma keçilər dağda qalmayıb düzə qaçırdılar. Öskus-ool qaçmaqdan yoruldu, ancaq keçiləri dağa qova bilmədi.

– Mən məhv oldum! – yazıq oğlan göz yaşı içində dedi. – Xan başımı papağımla birgə üzəcək, əllərimi qollarımla birgə vuracaq!

Qəflətən, yox yerdən, kəmərinə kimi ağsaqqalı olan, ağbaşlı bir qoca peyda oldu.

– Öskus-ool, sən niyə ağlayırsan?

– Bilirsən, Qaratı-xan mənə əmr elədi ki, sarı keçiləri yalnız dağda otarım, keçilər də elə hey düzə qaçırlar.

– Ağlamaq üçün bu səbəb deyil, onları dağa tərəf apar, düzə qaçsalar de: "Sarı keçilər, taktaqalday! Qara torpağa taktaqalday!" – Qoca bunu deyib gözdən itdi.

Öskus-ool keçilərin ardınca qaçdı və qışqırdı:

– Sarı keçilər, taktaqalday! Qara torpağa taktaqalday!

---

* Öskus – ool – yetim oğlan

Birdən yetmiş keçinin hamısı torpağa elə batdı ki, bəzilərinin buynuzu torpaqdan görünür, bəzilərininkinin isə buynuzları da heç görünmürdü.

– Bu nə yaramaz qocadır! Lənətə gəlmiş! Çürük ox! Qaçan dəvə! Yəqin bu elə şeytanın özüdür! Elə o, özü mənim başımı papağımla birgə aparacaq! – yazıq oğlan çığırdı və qısa çubuqla keçilərini qazıb torpaqdan çıxarmağa başladı.

Birdən ağbaşlı qoca yenidən peyda oldu.

– Sən niyə qışqırırsan, Öskus-ool?

– Sən mənim başımı aparmağa gəlmiş şeytansan! Bütün keçilər sənə görə itdi. İndi onları torpaqdan necə çıxaracağam?

– Eh, qışqırmaq üçün bu səbəb deyil, Sən de: "Sarı keçilər, bodara!" Qara Torpaqdan bodara!" – Və qoca gözdən itdi.

Öskus-ool qışqırdı:

– Sarı keçilər, bodara! Qara torpaqdan bodara!

Bütün keçilər torpaqdan sıçrayıb çıxdılar və dağlara tərəf qaçdılar. Öskus-ool axşam keçiləri yerlərinə salıb xanın yurtasına keçdi. Ora-bura baxıb gördü ki, alaçığın içi xanın nökərnaibləri tərəfindən tutulub, uzanmağa da yer yoxdur.

– Öskus-ool sən niyə yatmırsan? – xan arvadı soruşdu.

– Hər yer tutulub, yatmağa yer yoxdur.

– Onda torpağın üstə uzan.

Yazıq oğlan torpağın üstə uzandı. Və dedi:

– Xan və xan arvadı, taktaçalday! Çarpayıya taktaçalday!

Səhər hamı yerindən qalxdı, amma xanla arvadı çarpayıdan ayrıla bilmədilər, elə bil, yerlərinə yayılmışdılar.

– Alim lamaları tez bura çağırın! – xan qışqırdı. Yalnız o bizi xilas edə bilər!

Ən vacib lama gəldi. O, uzun zaman suduru vərəqlədi və əl zınqırovunu çaldı. Öskus-ool ona qulluq edir və gülümsüyürdü. Lama qərara gəldi ki: "Yəqin Öskus-ool nəsə bilir". Sakitcə soruşdu:



– Oğlan, de görüm, xanı və arvadını xilas etmək üçün neyləmək lazımdır?

– Eh, orda nə var ki, bu çox sadə bir işdir, – Öskus-ool cavab verdi, – bax, o qara öküzün quyruğundan tutub, dua oxumaq lazımdır.

Lama qara öküzün dalınca qaçdı, quyruğundan tutub durdu. Öskus-ool dedi:

– Piyli lama taktaçalday! Qara öküzə taktaçalday!

Öküz düzə sarı qaçdı, lamanı da özüylə sürüdü. Lama qışqırdı:

– Bütün bunların səbəkarı Öskus-ooldur! Günahkar o, özüdür!

– Öskus-oolu tutun! – xan nökərlərə əmr elədi.

– Xanın nökərləri, taktaçalday! Qara torpağa taktaçalday! – Öskus-ool tez dedi.

Nökərlər oğlanı tutmağa macal tapmamış torpağa yapışdılar. Aalda hər şey donub qaldı. Öskus-ool xan yurtasına* daxil olub doqquzqatlı olbukun üstə əyləşdi, dadlı xan yeməklərindən yeməyə başladı.

– Bizə rəhmin gəlsin, Öskus-ool, bizi azad elə, Öskus-ool! – xan yalvardı. – Mən sənə öz kiçik qızımı verərəm, mal-heyvanımdan da, varidatımdan da sənə pay verərəm. Sənə doqquz atla dövrələnməyən dəyə quraram.

Öskus-ool xana inanıb sakitcə dedi:

– Xan, xan arvadı və nökərlər, bodara! Çarpayıdan da, torpaqdan da bodara!

Elə o saat aalda hər şey hərəkətə gəldi, hamı bir-birinə dəydi.

– Müqəddəs ağ öküzü kəsin! – xan əmr elədi.

* Yurta-üstü dəri ilə örtülmüş iri dəyə, alaçıq

Ösküs-ool aalın içində o yan, bu yana qaçaraq sevinir və qışqırırdı:

– Mən müqəddəs ağ öküzün ətini yeyəcəyəm!

Öküzün ağ dərisini soydular, sonra yazıq oğlanı tutdular, dəriyə tikib, çaya atdılar.

Ösküs-ool çox üzdü. Nəhayət, tora düşdü. Qoca balıqçı toru çəkib çıxartdı, dərini kəsdi, oğlanı görüb qışqırdı:

– Lənətə gəlmiş, bu kimdir? Hardansan? Balıq tutmağa mənə niyə mane olursan?

– Hirslənmə qoca. Gözü olana məni göstərmə, qulağı olana mənim haqqımda heç nə demə. Mən sənə yağlı, boz bir qoyunu gətirərəm.

Və Ösküs-ool Qarıtı-xanın aalına yollandı. Aala çatıb gördü ki, aal yoxdur, o, təzə yurd yerinə köçüb. Oğlan onların izinə düşüb getdi. Yeddi çayı üzüb, yeddi aşırımı aşaraq xan aalını tapdı. Gecə gizlincə ağ yurtaya, yaxınlaşdı və sakit dedi:

– Xan və arvadı taktaçalday! Çarpayıya taktaçalday!

Sonra ən yaxşı quyruqlu qoyunu seçib qocanın yanına apardı.

Səhər xan və arvadı ayıldılar, amma çarpayıdan qopa bilmədilər. Xan yuxarı dünyadan gələcəyi xəbər verən otuz bilicini, aşağı dünyadan altmış münəccimi dəvət etdi. Onlar çox fikirləşdilər, nəhayət dedilər:

– Xan, siz özünüzü müdafiə etmək üçün nəyisə öküz dərisinə büküb çay aşağı axıtmısınız. Bax, elə o da, sizə kömək edə bilər. Onsuz keçinə bilməyəcəksiniz.

Xan başa düşdü ki, Ösküs-oolu axtarıb tapmaq lazımdır. Xan əmr elədi ki, tabeliyində olan hər kəsi bir yerə yığsınlar. Yığılanların sayı itin tükündən çox idi.

– Ösküs-oolu hər yerdə axtarın! Onu bura gətirin! Yalnız o, bizi müalicə edə bilər! – xan dedi.



Ölkənin hər yerinə çaparlar göndərildi. Yetmiş gün axtardılar. Nəhayət, nökərlərdən ikisi yazıq oğlanı qoca balıqçının dəyəsində tapdılar.

– Xan sizi öz yanına dəvət edir, – nökərin yaşca böyüyü dedi.

– Xana çatdırın: mən daha ona inanmıram, – Ösküs-ool dedi.

İşi belə görən nökərlərdən böyüyü atını çapıb, xana xəbər apardı. Nökər oğlana göz olmaq üçün dəyədə qaldı.

– Biz Ösküs-oolu tapdıq. Amma o, gəlmir. Dedi ki, daha sizə inanmır. Xan hirsini içində boğub dedi: – Qara gözlü sarı atı kazak arabasını qoş. Müxtəlif dadlı yeməkləri – altıboğazlı qara koqerjiki, ağ pəncəli qara samuru da arabaya qoyun! Bunların hamısını Ösküs-oola aparın, xahiş edin ki, gəlsin.

Nökərlər Ösküs-oolun yanına gəlib, xanın hədiyyələrini hörmətlə ona çatdırdılar. Qoca balıqçı arvadı ilə yeyib-içib kef elədi.

– Nə olsun, xanın vicdanını bir də yoxlayaram, – dedi və yazıq oğlan nökərlərə qoşulub getdi.

Xan çarpayıda uzanmışdı. O, zəif səslə dedi:

– Məni xilas elə, Ösküs-ool. Mən qızımı, varımı, mal-qaramı, doqquz atın quca bilmədiyi ağ yurtanı sənə verəcəyəm. Mənə inan, mən and içirəm ki, sənin oxunun iti ucunu yalayacağam.

Ösküs-ool dedi:

– Sən indi gördün ki, mən məğlubedilməzəm? Sən mənə nə edə bilərsən? Və sakitcə əlavə etdi: xan və arvadı, bodara! Çarpayıdan bodara!

Xan bu dəfə verdiyi vədə əməl etdi. Tezliklə Ösküs-ool xanlığı idarə etməyə başladı. O, çox uzun və xoşbəxt bir həyat yaşadı.

## ÖSKKÜS Oll VƏ AY KİMİ, GÜNƏŞ KİMİ İŞIQ SAÇAN GÖZƏL

Nə vaxtsa Öskiis-Ool adlı bir nəfər yaşayırmış. O, Qaratı-xanın ilxısını otarırdı. Bir dəfə yazıq oğlan düzdə, bir alabəzək madyan tapır. Bu madyanın nə qulağı, nə də quyruğu var idi.

"Tapıntı-həmişə tapıntıdır, - Öskiis-Ool fikirləşdi. – Əgər mən madyanı xana aparsam, o, məni mükafatlandırar."

– Bu nədir, sən mənə gətirmisən, səfeh? – Qaratı-xan güldü. – Bunun heç heyvana oxşarı yoxdur! Sən, ya onu düzə burax, ya da özünə saxla. Sən onu qazanmısan.

Yazıq oğlan atı xan ilxısına qatdı. Doqquz il boyu ilxını otardı. Bu alabəzək madyan doqquz sarışın dayça doğdu. Dayçalar böyüyüb, çox gözəl, qamətli, şux, itiqaçan ata döndülər.

Bir dəfə Qaratı-xan cümətə dedi:

– Get, Öskiis-Oolun otardığı ilxını say.

Cümət atları saymağa gedəndə gördü ki, Öskiis-Oolun alabəzək atı və onun arxasınca gəzən doqquz itiqaçan, şux, sarışın atlar da ilxının içərisindədir. Cümət qayıdıb xana dedi:

– İlxınız sağ-salamat bütov haldadır, çoxlu balalama olub, atlar şux, itiqaçandır, – dedi. – Amma hamısından qəşəngi – Öskiis-Oolun alabəzək madyanının dünyaya gətirdiyi doqquz sarışın atlardır.

– Öskiis-Oolu öldürmək lazımdır. Onun atlarını əlindən alın! – xan dedi. – Qoy, bu gün mənim yanıma gəlsin!

Xan ən etibarlı nökərini çağırıb ona dedi:

– Bu gecə Öskiis-Oolu öldürərsən.

Öskiis-Ool tezliklə gəldi. O, xan alaçığının yanında, at-saxlanan yerdə atını bağlarkən, danaları otaran bir qoca Öskiis-Oola yaxınlaşıb sakitcə dedi:

– Xan səni öldürmək istəyir. Onun alaçığında yatma.



Öskiis-Ool qocaya minnətdarlıq edib ağ alaçığa girdi. Xana təzim edib qapıya yaxın əyləşdi.

– Sənin saxladığın ilxı artıb, çoxalıb, – xan dedi, – Öskiis-Ool, sən yaxşı zəhmət çəkmisən, bir gün də dincəlməlisən. İndi istirahət et. Bu axşam mənim alaçığımda yatacaqsan. Doyunca ye, yat.

– Bütün bu illəri mən fikirləşmişəm: "Bir gün gələcək ki, çəkdiyim bu əziyyətlərə görə xan mənə minnətdarlıq edib məni mükafatlandıracaq." Nəhayət, həmin xoşbəxt gün gəlib yetişdi. Sağ olun, xan, – yazıq oğlan cavab verdi – Amma qara köhlənin başçılıq etiyi ilxı Arzaytını çoxdan keçib. Mən onları qaytarıb sizin nökərlərə təhvil verim, sonra istirahət edərəm.

O, alaçıqdan çıxıb, atın belinə sıçradı və ilxıya tərəf çapdı. Öskiis-Ool gecə çox ehtiyatla xanın alaçığına qayıtdı. O, doqquz noxtalanmış atı və onun alabəzək atının dalınca gəzən doqquz sarışın atı tutub, onlardan birinin belinə sıçradı. Yerdə qalanını də arxasınca apardı. Ayrılıq məqamında madyana dedi:

– Torpağın otunu ye, yerin suyunu iç. Azadlıqda yaşa!

O, bunu deyib cənuba tərəf üz tutdu. Gecə düşdü. Öskiis-Ool çöldə gecələməli oldu. Səhər duranda gördü ki, atlarından birini canavar yeyib. "Eybi yoxdur, – Yazıq oğlan fikirləşdi. – Mənim daha səkkiz atım varikən mənə nə ola bilər?" O, canavarı axtarmayıb yoluna davam etdi. Daha yeddi gün keçdi. Canavar daha yeddi atı yedi. Oğlanın yəhərləyib mindiyi tək bir atı qaldı. "Xeyir, daha bəsdir, axırıncı atımı mən heç kimə vermərəm! O, məni harasa gətirib çıxarmalıdır."

Öskiis-Ool gecə yatanda atı qulağına bağladı. Səhər tezdən ayılanda gördü ki, canavar atın qalan hissəsini yeyir. Heyvan başını atın döşünə soxub, onun içalatını yeyirdi. Öskiis-Ool kamanı götürüb oxu çəkdi və canavarı atın döşünə tərəf sıxışdırdı.

– Məni öldürmə, Össküs-Ool" – canavar bunu deyib, insana çevrildi.

– Mən xanam, şimalda vuruşmuşam. Mənim bütün döyüşçülərimi öldürüblər. Bundan sonra mən canavara çevrilmişəm. Yalnız bu yolla öz həyatımı xilas edə bilmişəm. Sən doqquz gün deyil, doqquz ay yol gəlmisən. Mən doqquz atı doqquz aya yemişəm. Mənim aalım lap yaxında bax, o dağın arxasındadır. Gəl, sənə öz mal-qaramdan xeyli heyvan, varidatımdan isə xeyli dövlət verim.

Öskük-Ool xana and içdirəndən sonra yəhəri kürəyinə alıb onun arxasınca getdi. Aşırımdan xanın aalı göründü. Oğlan ağ alaçığa girdi. Xan ona doqquz qatlı olbuğu verdi ki, əyləşsin və bundan sonra birlikdə kef məclisinə başladılar. Öskük-Ool yeyib doyandan sonra Balayatılı-Bora-təpəsinə çıxdı. Orda ağsaqqal bir qoca danaları otarırdı. Yazıq oğlan yadına saldı ki, eynilə belə bir çoban Qaratı-xanın aalında onu ölümdən xilas etmişdi.

– Salam, akıy, – oğlan dedi.

– Salam, cavan oğlan. Sənin adın-ləqəbin nədir, sənin aalın – otlaqların harasındadır?

– Mən – Öskük-Oolam, Qaratı xanın ilxıçısıyam, Qara-Hemdə yaşayıram. Xan mənim doqquz sarışın atımı əlimdən alıb, özümü də öldürmək istəyirdi. Mən öz xanımın əlindən qaçmışam. Amma nə qədər ki, mən yol gəlirdim, bu vaxt ərzində sənin də xanın mənim bütün atlarımı yedi. – Bunun əvəzində mənə çoxlu mal qara və dövlət verəcəyinə söz verib.

– O şeyləri ki, xan özü verir, onlar insana heç bir xeyir gətirmir. Sən ona de ki: "Mənə var-dövlətin lazım deyil. Yaxşısı budur ki, sən üç dənə darı, üç dənə şüvül, bir qızıl sandıq və sənin ayağın altda bağlanmış sarışın, tüklü itini mənə verəsən.

Xan darını, şüvülü və sandığı oğlana verdi. Sonra itə baxıb – ağladı, oğlana baxıb gülümsündü.



– Əgər iti verirsənsə ver, vermirsənsə – de! – Öskük-Ool onu tələsdirdi.

Xan ürəksiz iti açıb oğlana verdi. Öskük-Ool danaları otaran qocanın yanına gəldi.

– Qoca, deyəsən, sən ağlını itirmisən! Sən mənə nəyi məsləhət görmüsən? Mən atlarıma görə xandan o qədər malqara və dövlət ala bilərdim ki! Amma gör nə aldım.

– Yox, oğlum, mən sənə hər şeydən çox lazım olan şeyləri məsləhət görmüşəm. Sən çölə get. Üç darını dünyanın üç səmtinə səpərsən, üç şüvəli torpağa basdırarsan, sandığı açarsan, iti ayağına bağlarsan, sonra yatarsan. Amma səhər ayılanda bizdən varlı kimin olduğunu görərsən.

Öskük-Ool geri qayıtdı. Nəhayət, gəlib Qara-Hemə, doğma çaya çatdı. Üç darını dünyanın üç səmtinə səpdi, üç şüvəli yerə sancdı, qızıl sandığın ağzını açdı, iti ayağına bağlayıb yatmağa hazırlaşdı. Səhər ayılanda özünü doqquz atın əhatəyə ala bilməyəcəyi dairəvi alaçıqda gördü. Ayın və günəşin şəfəqləritək işıq saçan gözəl bir qız çay dəmləyirdi. "Bu, həqiqətdir, yoxsa yuxu?" – oğlan fikirləşib ayağa durdu. Onun yanında qara idiklər və qara ipəkdən xələt var idi.

Oğlan əynini geyinib alaçıqdan çölə çıxdı. Günəş çıxan tərəfdən gümüş yəhərlə yəhərlənmiş hündür, ala-bəzək bir at tunc dirəyə bağlanıb durmuşdu. Öskük-Ool alaçığa qayıtdı, gözəl yox idi. "Bu qız necə oldu?" O çoxlu dadlı yeməkləri gördü və əyləşib yedi. Gümüş dombadan tünd çay süzüb fikirləşirdi: "Bu gözəl hara yox ola bilər?" o, təzədən eşiyə çıxdı, alabəzək atına minib cənuba tərəf çapdı. Orda böyük bir ilxı otarılırdı. "Bu, yəqin mənim ilxılarımdır," – Öskük-Ool qərara aldı və birdən yenə də gözəli gördü. O, iki gümüş dolçada su daşıyırdı. Oğlan atın başını döndərib onun dalınca getdi və alaçığa girdi. Yemək hazır idi, amma qız yox idi. "Bu nə qəribə gözəl

qızdır, – oğlan fikirləşdi, – o, harada gizlənir? Gərək ona nəzarət edəm !" – dedi və atını meşəyə tərəf çapdı. Meşəyə gəlib atını ağaca bağlayıb, sakitcə alaçığa tərəf getdi. Keçəni barmağı ilə deşib içəri baxdı. O, qəflətən gördü ki, sarı itin dərisindən bir gözəl çıxdı, dolçanı götürüb, su gətirməyə getdi. Östüs-Ool qaçaraq alaçığa girdi, boş dərini götürüb, onu ocağa atdı...

Elə bu vaxt gözəl qız qayıtdı və qışqırdı:

– Sən neylədin Öskus-Ool! Bu dəridə gizlənib, özümü pis gözlərdən qoruyurdum. Bundan sonra bizim bir yerdə olmağımız mümkün deyil!

Bu vaxt onların alaçığının yanından Qaratı-xanın nökərləri keçirdi. Onlar xanın yanına gəlib dedilər:

– Qara-həmin sahilində ağ alaçıq durur. Öskus-Ool gözəl bir qızla həmin alaçıqda yaşayır. Qız günəş kimi, ay kimi işıq saçır.

Səhəri günü xan adamlarını Öskus-Oolun dalınca göndərdi. Yazıq oğlan xanın yanına gəldi.

– Salam, Öskus-Ool. Sən demə biz səninlə qonşu imişik, qonşularsa mütləq yarışmalıdır. Gəl, səninlə yarışaq.

– Nə olar, gəl, yarışaq, xan! – oğlan cavab verdi.

– Gəl üç dəfə gizlənək. Mən səni tapsam, arvadını alacağam, əgər sən məni tapsan, arvadımı alarsan. Mən sabah gizlənəcəyəm, sənsə məni axtaracaqsan, – xan dedi.

Yazıq oğlan evə döndü.

– Nə olub, Öskus-Ool, sən niyə qəmlisən? – gözəl qız soruşdu.

Öskus-Ool xanın fikirləşdiyi oyunları qıza danışdı.

– Sabah mən axtaracağam, xan isə gizlənəcək.

– Sən xanı harda axtarmaq istəyirsən? – gözəl qız soruşdu.

– Alaçığa baxacağam, sürünün içində axataracağam, – Öskus-Ool cavab verdi.



– Xeyirxah kişi olsan da , ağlın çox dayazdır, Öskus-Ool. Sabah ortadakı ağ alaçığa girərsən, xan arvadı orda tikiş tikəcək. Onun yanında üç qara samurun üç papağını görəcəksən. Sən ortadakı papağı götürüb soruşarsan: "Siz bunu satarsınızmı?" – və papağa tikilmiş rəngli lenti qoparарsan.

Səhər Öskus-Ool xan aalına yola düşdü. O, ortadakı ağ alaçığa yaxınlaşdı, ancaq qoca qışqırdı:

– Bura olmaz! – və oğlanı itələdi.

– Qapının ağzında durmaq kişiyə yaraşmaz! – Öskus-Ool deyib, qapını kənara çəkdi və alaçığa girdi.

Xan arvadı tikiş tikirdi. Sandığın üstündə üç samur papağı vardı. Öskus-Ool ortadakı papağı götürdü, üstündəki lenti qıraraq soruşdu:

– Bu papağı mənə satarsınızmı?

– Oy! Öskus-Ool! Sən mənim qulaqlarımı üzürsən! – çığırtı eşidildi.

Və papağın əvəzinə xan peyda oldu.

– Sabah mən səni axtaracağam! -xan dedi və qulaqlarını tutdu.

Səhəri günü qız oğlanı bir iynəyə döndərib tikməyə başladı.

Xan bütün döyüşçülərini, nökərlərini və bütün camaatını bir yerə yığdı. Onlar dünyanın bütün ağaclarını birbəbir axtardılar və qışqırdılar:

– Öskus-Ool, sən burdasan?

Axşamüstü xan gözəl qızın yanına gəlib dedi:

– Mən onu tapa bilmədim.

– Deməli, bacarmadınız? – xanın gözünün qabağında iynəyə çırtma vurdu.

Öskus-Ool gülümsünərək ayağa durdu.

– Sabah gəl, məni axtarıb tapacaqsan, – qanı qaralmış xan dedi və eşiyə çıxdı.

– Sən xanı harda axtaracaqsan? – qız soruşdu.

– Mən xanın bütün igidlərini qıracağam, bir igidsə qışqıracaq ki: "Mən xanam!"

– Xeyirxah kişi olsan da, ağlın azdır, Ösküs-Ool. Get dik qayaya, orda üç dənə topulqa kolu görəcəksən. Ortadakı kolu qopart və de: "Bu topulqadan qamçı üçün yaxşı çilik alınar". Və çiliyi bıçaqla yonmağa başla.

Ösküs-Ool səhər boz qayaya gəldi. Orda üç topulqa gördü. Ortadakı topulqanı qopartdı və dedi: "Bu topulqadan qamçı üçün yaxşı çilik alınar" – çiliyi yonmağa başladı.

– Oy! Ösküs-Ool! Sən mənim burnumu az qala qoparacaqdın! – çığırtı eşidildi.

Və topulqanın yerində xan peyda oldu.

– Sabah mən səni axtaracağam! – xan kinlə dedi, əli ilə burnunu tutdu.

Ertəsi günü qız oğlanı oymağa çevirib barmağına taxıb tikməyə başladı.

Xan öz adamları ilə bütün ağacları birbəbir axtarıb hər yarpağın altına baxdılar. Axırda yenə alaçığa gəldilər.

– Mən onu tapa bilmirəm! – xan dedi.

– Deməli, bacarmırsız? – və gözəl qız xanın burnunun ucunda oymağa bir çırtma vurdu.

Ösküs-Ool yerdən qalxdı və güldü.

– Sabah məni axırıncı dəfə axtaracaqsan! – xan deyindi və eşiyə çıxdı.

– Sən xanı harda axtaracaqsan? – qız soruşdu.

– Boz qayadakı bütün ağacları doğrayacağam, – Ösküs-Ool cavab verdi.

– Xeyirxah kişi olsan da ağlın heç yoxdur, Ösküs-Ool. Sabah xan aalına girəndə qarşına inək sürüsü çıxacaq. Onların içində əyribuynuzlu boz öküz olacaq. Onun buynuzlarından tutub başını geri fırla.



Səhər Ösküs-Ool xan aalına girəndə sürünü gördü. O, boz öküzün buynuzlarından yapışıb geri fırlamağa başladı.

– Oy! Ösküs-Ool! Sən başımı az qala qırmışdın! – Öküz qışqırdı və xana çevrildi.

– Sabahsa mən səni mütləq tapacaqsan! – Əli ilə boynunu tutmuş xanın səsi xırıldadı.

Ösküs-Ool evə gəldi.

– Sən harda gizlənəcəksən? – arvadı ondan soruşdu.

– Mən bilmirəm. Sən məni gizlət, – Ösküs-Ool dedi.

Ertəsi günü qız onu közərən kömürə döndərib ocağa atdı.

Xan öz nökərləri ilə dünyanın bütün ağaclarını axtarıb yenidən ağ alaçığa gəldi.

– Mən onu tapa bilmədim! – o, dedi.

– Deməli, bacarmırsız? – Qız ocaqdan qızarmış kömürü kənara çıxartdı.

Ösküs-Ool gülərək ayağa qalxdı.

– Xan sağ olsun, mən üç dəfə uddum. Amma sənin arvadın mənə lazım deyil.

Xan yola düşüb getdi. O, fikirləşdi: "Mən uduzdum. Amma mən bir də oynayıb udacağam. Mən ona qeyri-mümkün olan bir şeyi yerinə yetirməyi tapşıracağam. Və Ösküs-Oolun dalınca adam göndərdi.

Yazıq oğlan gəldi.

– Qulaq as, Ösküs-Ool, nə vaxtsa mənim babam Arzaytıda ova çıxarkən hansı heyvanınsa qarnında onun üstü kəsik oxu qalıb. Onu tap və mənə gətir, – xan dedi.

Yazıq oğlan göz yaşı içində evə gəlib, xanın verdiyi əmri arvadına danışdı.

– Eh, bu ağlamaq üçün bəhanə ola bilməz, – qız dedi. – Arzaytının aşırımında iki dağ keçisi buynuzları ilə biri-birinə ilişib durublar. Sən onları aralasan onlar da sənə kömək edərlər.

Öskus-Ool Arzaytıya getdi. O, biri-birinə ilişmiş keçiləri tapdı və onları araladı.

– Sən nə qədər də xeyirxahsan! – onlar dedilər. – Qoy sənin arzuların yolunla, yolun isə arzularınla üst-üstə düşsün! Sən nə axtarırsan?

– Nə vaxtsa Qaratı-xanın babası buralarda ova çıxarmış. Ov vaxtı oxunun biri hansısa heyvanın bədənində qalıb. Mən onu tapıb, xana aparmalıyam, – Öskus-Ool cavab verdi.

– Sabah günorta bu yerə gələrsən, – keçilər bunu deyib, hərəsi bir səmtə yollandı.

Səhər günorta Öskus-Ool təyin olunmuş yerə gəldi: burda tayqanın bütün heyvanları yığılmışdı. Hətta yetim dovşan da qaçaraq gəldi. Keçilər aşırımın yuxarısından aşağıya qədər, aşağıdan da yuxarıya qədər birbəbir bütün heyvanlardan üstü kəsik oxu soruşdular, amma heç biri bu ox haqqında heç nə bilmirdi. Nəhayət, dərədən bir gözü kor olan nəhəng, qoca bir maral qalxdı.

– Siz niyə hamılıqla bura yığılmısınız? Əgər baxsam – günaha batmaram, əgər eşitsəm – kölə olmaram, – dedi.

Ona başı kəsik ox haqqında danışdılar.

– Bir dəfə mən cavan olanda yaşıl talada istirahət edirdim. Qaratı-xanın babası arxadan yaxınlaşıb məni kürəyimdən vurdu, – maral dedi. – Mən qaçdım. Ox isə əyri ağacın budağına ilişib içində qaldı. Keçən il ordan keçəndə mən o oxu orda gördüm.

Öskus-Ool, maral və iki keçi əyri ağacın yanına gedib oxu tapdılar. Yazıq oğlan oxu xana aparıb verdi. Özü isə alaçığa qayıtdı.

Xanın nökərləri yenidən onun yanına gəlib, Qaratı-xanın onu çağırdığını dedilər.

– Nə vaxtsa babam balıq tutanda, iri bir alabalığ dörddişli çəngəli onun əlindən qopararaq aparıb, – Xan dedi. – Həmən dörd dişli çəngəli axtar, tap, mənə gətir!



Yazıq oğlan göz yaşı içində evə gəlib, xanın yeni qanunu haqqında danışdı.

– Eh, bu ağlamaq üçün bəhanə ola bilməz, – gözəl qız dedi. Nəsə fikirləşərik. Doğrudanmı sənin heç bir sehrin, heç bir elmin yoxdur?

– Məndə elm hardan olsun? Məndə sehir hardan olsun?

Arvadı Öskus-Oolu dənizin sahilinə gətirib, onu qızılı-alabəzək harius balığına çevirdi və dedi:

– Dənizin dibinə en. Orada quru qurbağaları ilə tutaşmış iki zərif len balığını görəcəksən. Onları biri-birindən elə ehtiyatla ayır ki, balıqları incitməyəsən. Sonra onlar sənə kömək edəcəklər.

Öskus-Ool len balığlarını tapdı, onları ehtiyatla aralaşdırdı.

– Sən nə qədər xeyirxahsan! – onlar dedi. – Qoy sənin arzuların yolunla, yolun isə arzularınla üst-üstə düşsün! Sən nə axtarırsan?

– Nə vaxtsa iri alabalıq Qaratı-xanın babasının dörddişli çəngəlini əlindən qoparıb alıb. Mən onu tapıb xana aparmalıyam, – Öskus-Ool cavab verdi.

– Sabah günorta bu yerə gələrsən, – len balıqları bunu deyib, hərəsi bir səmtə üzdü.

Səhəri günü təyin olunmuş yerə gəldi. Orda bu dənizin bütün balıqları yığılmışdılar. Hətta, yetim-qumlıca da üzüb gəlmişdi. Aşağıdan yuxarı, yuxarıdan aşağı bütün balıqlardan sorğu-sual edildi, amma dörddişli çəngəli görən deyən olmadı. Elə bu vaxt dənizin dibindən qəlsəmələri iki bölünmüş çox iri qoca alabalıq yuxarı qalxdı.

– Siz niyə hamılıqla bura yığışmısınız? Əgər baxıb-görsəm günaha batmaram, əgər eşitsəm – köləyə çevrilmərəm, – dedi.

Dörddişli çəngəl haqqında ona məlumat verdilər.

– Bir dəfə mən, cavan olanda, böyük burulğanda oynayırdım. Qaratı-xanın babası mənə arxa tərəfdən yaxınlaşıb dörddişli çəngəli kürəyimə sancdı-alabalıq dedi. – Mən diksindim, irəli atılıb, çəngəli çıxartmağa çalışdım. Sonra o, boz qayaya ilişib kürəyimdən çıxdı. Keçən il ordan keçəndə həmin çəngəli qayanın altında gördüm.

Ösküs-Ool, alabalıq və len balıqları boz qayaya tərəf üzdülər və çəngəli tapdılar. Yazıq oğlan çəngəli xana aparıb verdi, sonra öz alaçığına döndü.

Xanın nökəri yenidən çaparaq gəlib dedi: Qaratı-xan səni çağırır.

– Səninlə danışmaq məni boğaza yığıb, Ösküs-Ool!

İndi də səninlə vuruşacağam! Hazırlaş! Sənə üç gün vaxt verirəm! – xan qışqırdı.

Yazıq oğlan göz yaşı içində evə döndü və dedi:

– Xan mənə müharibə elan etdi.

– Bu xan nə qəzəbli adamlar! – Gözəl qız ucadan səsləndi. – Ösküs-Ool, get, ilxını bura gətir.

Ösküs-Ool ilxını alaçığın yanına gətirdi. Şux qamətli, qara gözlü sarı at gözəlin yanına qaçıb dayandı. Qız onu yəhərlədi və dedi:

– Ösküs-Ool, qalx atın belinə. Gözlərini sıx və yəhərin böyürlərindən ayağınla möhkəm yapış. Hara gedəcəyini at özü yaxşı bilir. O, dəmir qovaq ağacının yanında dayanacaq. Atı ağaca bağla, ağ alaçığa gir. Orda mənim atamla-anam yaşayır. Bu məktubu onlara ver. Onlar məktubu oxuyub, sandıqdan qızıl mücrü çıxaracaqlar. Onu alıb, tez özünü bura çatdır. Səni qonaq eləmək istəyəcəklər – etiraz elə, yubanma.

Ösküs-Ool hər şeyi qız deyən kimi elədi. Qocalar ona qızıl mücrünü verdilər.



– Oğlum, yola çıxırsan, bir stəkan çay iç! – onlar təklif etdilər.

– İçə bilmərəm, vaxtım yoxdur, tələsirəm, – Ösküs-Ool dedi və geri döndü. Evə gəlib yatdı.

Səhər tezdən hay-küy səsi eşitdi. Alaçıqdan çıxıb gözünə inanmadı: Qaratı-xanın döyüşçüləri artıq bir cərgə düzülmüşdülər! Yazıq oğlan qorxu içində arvadının yanına gəldi.

– Hələ tezdir, Ösküs-Ool, get, yat, – gözəl qız dedi.

Amma səs-küy getdikcə artırdı. Ösküs-Ool yenə qaçıb eşiyə çıxdı. Qaratı-xanın döyüşçüləri artıq yaxınlaşıb iki cərgə durmuşdular. Yazıq oğlan tamam qorxdu.

– Hələ tezdir, Ösküs-Ool get, yat, – gözəl dedi.

Səs-küy tamam yaxından gəldi. Qaratı-xanın döyüşçüləri artıq yaxın idi. Onlar alaçığın ətrafında dayanmışdılar.

– Hə, indi vaxtdır, Ösküs-Ool, – gözəl dedi və qızıl mücrənin qapağını qaldırdı.

Mücrənin içindən dəmir toppuzlu dəmir adamlar sıçradılar.

– Biz nə etməliyik? – onlar qışqırdı.

– Qaratı-xanın ordusunu məhv edin, onun özünü və arvadını yanıma gətirin! – gözəl dedi.

Dəmir döyüşçülər xanın döyüşçülərinin öhdəsindən çox tez gəldilər və xanla arvadını gözəlin yanına gətirdilər. Sonra kiçilib qızıl mücrəyə doldular.

Xan – Ösküs-Oolun odun yaranı, arvadı isə xörək qazanına baxan oldular.

Ösküs-Ool və onun ayla günəşin şüaları tək işıq saçan gözəl arvadı uzun və xoşbəxt ömür sürdülər. Nə qədər ki, onlar sağ idi, dərələr daha da uzanır, daha da dərinləşirdi.

## ÖSKÜS-OOL VƏ QURBUSTU-XANIN QIZI

Lap qədim zamanlarda Süt-Göl göl deyil – gölməçə, Sümbər-Ula dağ deyil-təpəcik olanda, dağ keçisinin buynuzu səmaya dəyəndə, dəvənin quyruğu yerlə sürünəndə yer üzündə Öskus-Ool adlı bir oğlan yaşayırdı. O, həmişə ac və cırcındır içində gəzirdi. Qışı da, yayı da keçədən-küçədən geyib, keçi dərisindən papaq qoyardı. Öskus-Oolun üç yaşı olanda oğlanın atası ölmüşdü, anası öləndə isə onun beş yaşı var idi. Nə ondan əvvəl doğulmuş qardaşı, nə də ondan sonra doğulmuş bacısı yox idi. O, tək-tənha yaşayırdı. Yay vaxtı siçan və sünbülqıran tutub yeyir, qış vaxtı isə adamlardan yeməklərin artığını alıb yeyirdi.

Bir dəfə o, fikirləşdi: "Hara gedim ki, orda yemək çox, adamlar isə xeyirxah olsunlar?" və o şimala üz qoydu. Az getdi, çox getdi, nəhayət gəlib çox böyük bir çayın sahilində varlı bir aal gördü. Aalın tən ortasında ağ alaçıq dururdu. O, elə iri idi ki, onu doqquz atla da əhatə eləmək mümkün deyildi. Oğlan alaçığı çox çətinliklə açıb içəri keçdi. Dördkünc səkkizayaqlı qara şirədə xan, doqquzqatlı olbukda da arvadı əyləşmişdilər.

– Salam, xan və xan arvadı, – Öskus-Ool salam verib torpağa qədər əyilərək təzim etdi.

Xan gözünün ucu ilə ona baxıb, dodaqlarını tərpətmədən, ağızucu soruşdu:

– Sənin adın-ləqəbin nədir? Sənin aalın-vətənin hardadır, hardan gəlib, hara gedirsən, ay çürümüş leş?

– Mən kasıb, ac bir yetiməm. Adım Öskus-Ooldur. Yay gələndə yeməyə – boja-xoytpak, qış gələndə yeməyə bora-bıda axtarıram, – Öskus-Ool cavab verdi.

– Qoy olsun. Əgər belədirsə, səni bir işin dalınca göndərə bilərəm. Gedərsən, lənətə gəlmiş? – xan soruşdu.



– Əgər xan göndərirsə, adi adamın getməməyi mümkündürmü? Xan sağ olsun, mən razıyam, – Öskus-Ool dedi.

– Yaxşı, lənətə gəlmiş, it ləyəninə qab suyu töküb içərsən. İçib doyandan sonra mənim zəmimə gedərsən. Orda mənim altı növ darım yetişib. Nə qədər ki, ay işıq saçır, darının hamısını yığarsan. Nə ay çıxmamış işə başlama, nə də ay batandan sonra işini davam eləmə! Bu müddətə darını yığıb qurtarsan əvəzində ət yeməyi və pal-paltar alacaqsan. Çatdırmasan, qamçılanacaqsan! – və xan orağı Öskus-oola verdi.

Yazıq oğlan çölə getdi. Oturub ayın çıxmağını gözlədi. Nəhayət, tayqanın baş ucundan ay diyirlənib göründü. Öskus-ool işləməyə başladı. Oğlan darının beş növünü yığmışdı ki, ay tayqanın o biri tərəfinə doğru aşmağa başladı.

– Dayan, mənim ayım, gözlə, darını yığıb qurtarmağa mənə imkan ver! – yazıq oğlan qışqırdı.

Amma ay gizləndi. Öskus-ool xanın yanına gəldi.

– Mən darının yalnız beş növünü yığa bildim. Ay gizləndi. Darının altıncı növünü yığa bilmədim, – yazıq oğlan dedi.

– Deməli, yığmamısan? Onda, al, gəldi payını! – və xan yazıq oğlanı qamçı ilə döydü. – Hara istəyirsən get, lənətə gəlmiş!

Heç bir vaxt ağlamayan Öskus-ool zəmi ilə addımlayaraq ağladı. O, fikirləşdi: "Əgər mən xanın iti kimi qəzəbli olan adamın darısını yığmasaydım, sünbülqıran axtarıb-tapıb yeyərdim, tox olardım. Məni də heç kim döyməzdi." Yorğun oğlan sünbülqıran axtarmağa başladı. Axtara-axtara üzü şimala tərəf hərəkət etməyə başladı.

Nəhayət, gəlib Uluq-Qara-Hem çayının mənsəbinə çatdı. Sahildə varlı bir aal yerləşirdi. Aalın ortasında ağ alaçıq qurulmuşdu ki, onu doqquz atla belə əhatə etmək qeyri-mümkün idi. Oğlan çox çətinliklə qapını açıb alaçığa keçdi. Doqquzqatlı olbukda xan, dördqatlıda isə xan arvadı əyləşmişdi.

– Salam olsun xan və xan arvadı, – Öskus-ool torpağa qədər əyilib təzim etdi.

Xan deməк olar ki, dodaqlarını tərpətmədən soruşdu:

– Sənin adın-ləqəbin nədir? Sənin aalın-vətənin hardadır? Hardan gəlib, hara gedirsən, ay çürümüş leş, turşumuş sirkə?

– Mən kasıb Öskus-oolam. Yayda yeməyə boja-xoytpak, qışda yeməyə bora-bıda axtarıram, – Öskus-ool cavab verdi.

– Əgər belədirsə, səni iş görməyə göndərəcəyəm. Gedərsən lənətə gəlmiş?

– Xan iş buyurursa, adi adamın getməməyi mümkündürmü? Mən razıyam, xan, – Öskus-ool cavab verdi.

– Elədirsə, get mənim altı növ darımı biç. Nə qədər ki, günəş işıq saçır, sən zəmini biç günəş çıxmamış işə başlama, günəş batandan sonra da davam eləmə. Vaxtında yığıb qurtara bilsən, ət və paltar alacaqsan. Çatdırmasan, qamçılanacaqsan!

Xan nökərlərə tapşırdı ki, onun üçün it ləyəninə qab suyu töksünlər. Yazıq oğlan suyu içdi və orağı götürüb zəmiyə getdi. Oturub günəşin çıxmasını gözlədi. Nəhayət, günəş tayqanın baş ucundan göründü. Öskus-ool işinə başladı. Oğlan darının beş növünü yığmışdı ki, günəş tayqanın o biri tərəfində batmağa başladı.

– Dayan, mənim günəşim, gözlə, məhsulu yığıb qurtarmağa mənə imkan ver! – yazıq oğlan qışqırdı.

Amma günəş batdı. Öskus-ool xanın yanına gəldi.

– Mən darının yalnız beş növünü yığa bildim. Günəş batdı. Nə qədər qışqırdımsa, o eşitmədi. Altıncı növ darını yığa bilmədim, – yazıq oğlan dedi.

– Deməli yığmamısan? Elə isə heç nə almayacaqsan! Qazandığını al! – və xan yazıq oğlanı qamçıladı. – Hara istəyirsən get, lənətə gəlmiş!

Öskus-ool düzlə ağlaya-ağlaya gedirdi. "Niyə xanların yanına getdim? – deyə fikirləşdi. – Yaxşısı budur gedib balıqla



sünbülqıran tutardım, yeyib doyardım". O, xeyli yol gedib yaşıl tayqanın yuxarı başına gəlib çatdı. Tayqanın o biri tərəfində sarı düzün ortasında su bərq vururdu. "Tezliklə suya çata bilsəydim. Heç olmasa doyunca balıq yeyərdim", – oğlan fikirləşdi. Sarı kürkü köhnəlib idiklərinin üzü isə cırılmışdı. Bir təhər özünü suya çatdırdı və gördü ki, bu – Qızıl göldür. "Nəhayət, indi doyunca balıq yeyib doyaram, özümə gələrəm, – o, fikirləşdi, yoxsa, çox zəifləmişəm". Birdən o, quş qanadlarının səsini və insan danışığı eşitdi. "Belə ucqar, xəlvəti yerdə bu səslər hardan gəlir?" O, qamışlığın içində gizləndi və gördü ki, yuxarı dünyadan üç qu quşu aşağı – yerə enir. Belə ki, onlar sahilə endilər. Birdən əyinlərindəki tük paltarlarını soyundular və Öskus-ool üç gözəl qız gördü. Onlar ay və günün özü kimi işıq saçırdılar. Gözəllər qızıl gölə çimməyə qaçdılar. Heyrətə gəlmiş oğlan gizləndiyi yerdən sıçrayıb çıxdı və ən kiçik gözəlin qu quşu palarını götürüb gizlətdi.

Gözəllər tezliklə sudan çıxdılar. Böyük qızlar tük paltarlarını əyinlərinə geydilər, o dəqiqədə qu quşlarına dönüb göyə qalxdılar. Kiçik qız isə sahilboyu o yan-bu yana qaçsa da paltarını tapa bilmirdi. O, otların üstə əyləşib ağlamağa başladı.

"Bu nədir? – Öskus-ool fikirləşdi, deməli, qız mənim hərəkətimə görə bacılarından ayrılıb qaldı? Onu tək qoymaq olmaz! O, qamışlıqdan çıxdı, əlindəki qu quşunun qanadlarını qıza uzadıb dedi:

– Gözəl qız, bu da sənin paltarın, amma ağlama! Mən onu gizlətmişdim – sənə baxmaq istəyirdim... Tez ol, geyin, tez uç, bacılarına çat.

– Siz məni məhv etdin, Öskus-ool! – gözəl qız dedi. – Sən niyə paltarımı əlinə aldın? İndi mən neyləyim? Yuxarı dünyanın əşrəfi Qurbustu-xan mənim atamdır. İndi o, öz alaçığının qapısını mənim üzümə açmayacaq və deyəcək: "Səndən işıqlı dünyanın

adamının ətri gəlir". Qızıl gölün hakimi Uzutu-xan, Su xanı – mənim əmimdir. O da məni öz alaçığına buraxmayacaq. O da deyəcək ki, "səndən işıqlı dünyanın adamının ətri gəlir", indi mən neyləyim, hara gedim? Qız acı göz yaşları tökdü.

– Gör mən neyləmişəm? – Öskus-ool içini çəkdi. Bu hərəkətinə görə qanı elə qaraldı ki, ömür boyu onun belə qanı qaralmamışdı. Oğlan sonra dedi:

– Gəl, mənlə gedək. Əgər ölmək lazım gələrsə – birlikdə ölərik, yox, əgər yaşamaq lazım gələrsə onda birlikdə yaşayarıq?

– Mən razıyam, – qız dedi və onlar cənuba getdilər. Balıq tutub, sünbülqıran ovlayıb yedilər – beləcə də yaşadılar.

Nəhayət, onlar Qaratı-xanın aalına gəlib çıxdılar. Aal Uluq-Qara-Tayqanın aşağı ucunda yerləşirdi. Xanın mal-qarası başından aşır, var-dövləti çiynindən uca idi.

– Gəl xan aalının yanında yaşayaq, – qız Öskus-oola dedi. Xan nə desə, mən onu yerinə yetirərəm. Onda xan da bizə bir az qara ciyər, bir az vurulmuş heyvanların ətindən və sağılan keçi südündən verər.

Onlar ağcaqayın ağacının qabığından bir dəyə tikdilər. Səhərisi günü də Öskus-ool xanın yanına getdi.

– Niyə gəlmisən, Öskus-ool? – xan soruşdu.

– Mən gəlmişəm ki, sizdən ötrü nəsə bir iş görüm, əvəzində sizdən qara ciyər, vurulmuş heyvanların ətindən və sağılan keçi südündən xahiş edim.

– Yox, oğlan, sən heç nə almayacaqsan. Bizim ölkədə çoxdandır ki, yağışlar yağmır, ot göyərmir, bitmir, heyvanlar da ki, hamısı arıqdır. Arıq heyvanınsa qara ciyəri ələ gəlməz, arıq keçi də süd verməz. Elə elə ki, yağış yağsın, otlar göyərib adam başından yuxarı qalxsın, bax, onda mən səni ətlə və çiyinin bərabəri başqa mal-dövlətlə təmin edərəm.



Öskus-ool dəyəsinə qayıtdı və hər şey haqqında gözələ danışdı.

– Neyləyim? Məgər mən yağışı yağdıra bilərəm? – deyib sözünü qurtardı.

– Qəm eləmə, Öskus-ool! Mən yağışı yağdıraram. Get xana de: "Sizin torpaqda yağış olacaq, amma mənə ağ qoyunun yunundan və bir də qırmızı ipək parça ver".

Öskus-ool xanın yanına getdi və qızın öyrətdiyi kimi dedi. Xan məəttəl qalsa da yun və ipəyi ona verdi. Qız barmağı ilə ipəyin üstündə nəsə yazdı. Yunu isə əyirib sap hazırladı. O, səhər qu quşu paltarını əyninə geyib yuxarı dünyaya tərəf uçdu. Ora çatan kimi yun sapla qırmızı ipəyi ağcaqayın ağacına bağladı. Sonra da torpağına, öz dəyəsinə qayıtdı.

Göyü buludlar bürüdü və yağış tökdü. O, fasiləsiz üç gün yağdı, sonra ara vermədən altı gün, sonra yorulmadan doqquz gün, daha sonra fasiləsiz otuz gün yağdı. Cəmisi altmış gün-iki ay durmadan yağış yağdı. Ağaclar yarpaqladı, çox hündür canlı, kökü sulu otlar qalxmağa başladı. Qaratı-xanın heyvanları özlərini bu otlara vurub, içində itdilər. Nəhayət, xan gördü ki, bir az yağış yağsa, heyvanların yarısı suda boğulacaq bir az da yağsa, mal-dövlətin yarısını su aparacaq. Qorxmuş xan öz sadiq nökərlərindən Bulağacı-xaa və Çeçen-xaanı Öskus-oolun yanına göndərdi.

– Ona de ki, yağışı tezliklə saxlasın! Bəsdir! Mənim heyvanım batır, dövlətimi su aparır! – xan çığırdı.

Nökərlər Öskus-oolun yanına çapıb getdilər. Heç dəyəyə girmədən qışqırdılar.

– Xan əmr elədi ki, sən yağışını kəsəsən! –Və geri çapdılar.

Gözəl qız yuxarı dünyaya uçdu. Ağcaqayın ağacından qırmızı ipəyi açdı və yağış kəsdi. Səma aydınlaşdı, otlar günəşin şüaları altında par-par parıldadı. Öskus-ool xanın yanına yollandı.

– Xan, siz mənə mükafat boyun olmuşdunuz, indi mən həmin mükafatı almağa gəlmişəm.

– Ösküs-ool, bu çox yaxşı oldu ki, sən yağışı yağdırıb, otu göyərdə bildin! Gəl, otur, birlikdə yeyib-içək!

Xan və Ösküs-ooll çox tez sərxoş oldular. Xan dedi:

– Sən də sərxoşsan, mən də sərxoşam. Yatmaq lazımdır. Səhər hədiyyələrini alarsan. Harda yatmaq istəyirsən, mənim evimdə, yoxsa öz dəyəndə?

– Öz dəyəmə getsəm yaxşıdır, – Ösküs-ool dedi.

Səhəri günü o, yenə gəldi, xan isə çay içirdi.

– Nə üçün gəlmisən, Ösküs-ool? – xan soruşdu.

– Mükafat üçün, – yazıq oğlan cavab verdi.

– Hansı mükafat üçün? Sənin kimi davakara mükafat vermək? – xan qışqırdı.

– Hə, hə, – sıçrayıb ortaya çıxan Çeçen-xaa nökər dedi, – dünən bu oğlan içib qışqırır və söyüş söyürdü.

– Bu lənətə gəlmiş nə deyirdi? – xan soruşdu.

– O, deyirdi: "Əgər xanın şəffav şüşədən sarayı yoxdursa, mən onu heç xan saymıram!" – Çeçen-xaa dedi.

– Aha, deməli, belə lənətə gəlmiş?! Sən məni xan hesab eləmirsən? Onda mənim üçün şüşədən olan sarayı əldə elə! Əldə eləməsən – boynunu sındıraram. Get, mənim şüşə sarayım olmayana qədər sən heç nə ala bilməyəcəksən! – xan dedi. Ösküs-ool gözyaşı içində evə qayıdıb, hər şeyi gözəl qıza danışdı.

– Ümumiyyətlə bu dünyada şüşədən tikilmiş saray varmı?

– Mən nəinki görməmişəm, hətta bu haqda heç eşitməmişəm də, – Ösküs-ool cavab verdi.

– Belə bir saray deyəsən, aşağı dünyada, – Qızıl gölün sahibi, mənim əmim – Uzutu-xanda var. Sən gərək onun yanına gedəsən. Amma o da sənin boynunu sındıra bilər, – qız cavab verdi.



– Əgər belədirsə, yaxşısı budur, qoy sənin əmin – Uzutu-xan mənim boynumu sındırsın, nəinki Qaratı-xan! Belə yalançıya yol verməram ki, mənə əlini vursun!

– Onda Qaratı-xanın yanına get və ondan altı sarı qoyunun yununu və bir tikə sarı ipək parça xahiş elə, – qız dedi.

Ösküs-ool xanın yanına gəldi.

– Mən sizə şəffaf şüşədən saray əldə edə bilərəm, ancaq mənə altı sarı qoyunun yununu və bir tikə sarı ipək parça verin.

Xan məəttəl qaldı, əmr etdi ki, sarı qoyunun yununu qırxsınlar. Ösküs-ool yunu və ipəyi götürüb öz dəyəsinə gəldi. Gözəl qız ipəyin üstə nəsə yazdı, yunu isə sapa çevirdi. Qız sapı ipəyə dolayıb Ösküs-oola verdi.

– Qızıl gölün sahilində, biz səninlə görüşdüyümüz yerə get. İpəyi gölə at, amma sapın o biri ucunu möhkəm tut. İpək gölün dibinə çatanda deyərsən: "Uzutu-xan, mənim aşağı dünyadakı əmim, lütfkarklıq edib şəffaf şüşədən olan sarayınızı mənə hədiyyə edin! Əgər sap dartılsa, onu ehtiyatla yuxarı çəkərsən. Bu saray çox yüngüldür. Sən onu çiyninə alıb Qaratıxana apararsan.

Ösküs-ool Qızıl gölə getdi. O, ipəyi gölə atıb qışqırdı: "Uzutu-xan, mənim aşağı dünyadakı əmim, lütfkarlıq edib şəffaf şüşədən olan sarayınızı mənə hədiyyə edin!" Birdən sap cingiltilə dartındı. Oğlan ehtiyatla onu çəkdi və gölün üzündə şəffaf şüşədən ibarət bir saray üzməyə başladı. Günəşin şüaları onun divarlarına dəyəndə göy qurşağına çevrildilər. Ösküs-ool sarayı ehtiyatla sahilə tərəf çəkdi, onu çiyninə alıb, Qaratı-xanın yanına getdi. Bu gözəl, qeyri-adi saraya tamaşa etmək üçün xanın bütün döyüşçüləri, nökər-naibləri və bütün tabeliyində olanların hamısı aala toplaşdı.

Xan sevincək dedi:

– Mən indi böyük bir bayram təşkil edəcəyəm, ayləş, Öskūs-ool mənimlə iç. – O, Öskūs-oolun qabağına ət qoyub, araq süzdü.

Xan və Öskūs-ool çox tez sərxoş oldular. Xan dedi: – Sən də sərxoşsan, mən də sərxoşam. Yatmaq lazımdır. Səhər mükafatını alarsan. Harda yatmaq istəyirsən, mənim yanımda, yoxsa öz dəyəndə?

– Öz dəyəmə gedəcəyəm, – Öskūs-ool dedi.

Səhər o, gələndə, xan çay içirdi.

– Nə üçün gəlmisən, Öskūs-ool, – xan soruşdu.

– Mükafat üçün, – yazıq oğlan cavab verdi.

– Nə mükafat? Sənin kimi qışqırıqçıya mükafat? – xan qışqırdı.

– Bəli, bəli, – sıçrayıb ortaya çıxmış Bulağaçı-xaa nökər danışdı, – bu oğlan dünən içib, hamını söydü və hamıya qışqırdı.

– Lənətə gəlmiş bu adam nə deyirdi? – xan soruşdu.

– O, deyirdi ki, "Əgər xanın Kalçaa-Dalay dənizi kimi coşub kükrəyən döyüşçüləri yoxdursa, mən onu heç xan hesab etmirəm!" – Bulaqaçı-xaa dedi.

– Belə de, lənətə gəlmiş! Sən məni xan hesab etmirsən? Onda Kalçaa-Dalay dənizi kimi coşub-kükrəyən döyüşçüləri mənim üçün əldə elə. Əgər əldə edə bilməsən, – boynunu qıracağam! Get, get, bu döyüşçülər məndə olmayanacan, sənə heç nə verən deyiləm! – xan dedi.

Öskūs-ool göz yaşı içində evə döndü və hər şeyi gözəl qıza danışdı.

– Bu dünyada Kalçaa-Dalay dənizi kimi coşub-kükrəyən döyüşçülər varmı? – Qız soruşdu.

– Mən nəinki onları görməmişəm, onlar haqqında heç eşitməmişəm də, – Öskūs-ool cavab verdi.



– Bəlkə də döyüşçülər var. Onlar deyəsən, yuxarı dünyada, – mənim atam Qurqustu-xanda var. Sən gərək onun yanına gedəsən. Amma o da sənin boynunu sındıra bilər, – qız dedi

– Qoy olsun, əgər iş o yerə qalsa, yaxşısı budur boynumu sənin atan Qurqustu-xan sındırsın. Nəinki Qaratı-xan! Bu yalançıya icazə verməərəm ki, mənə toxunsun! – Öskūs-ool qışqırdı.

– Elə isə sən mənim libasımda yuxarı dünyaya qalxacaqsan. Sən orda bir tərəfdə yeddi ağ alaçıq, o biri tərəfdə isə doqquz ağ alaçıq görəcəksən. Onların arxasında qırıq qara alaçıq var. Elə onun içinə girərsən. Orada bir qoca qarı görəcəksən. Onun saçının arasından saman görünür. Ona heç nə demə. O, özü dünyada hər şeyi bilir və dünyada hamını tanıyır. O, səni də tanıyır. Qarı sənə çay təklif edəcək – içərsən. Sənə qənd və kökə təklif edəcək – yeyərsən. Xan səni çağırmamış onun yanına getməzsən, – gözəl qız dedi.

Öskūs-ool qu geyimini geyib, yuxarı dünyaya üz tutdu. O, ağ alaçıqların yanından ötüb, birbaşa cırıq qara dəyəyə girdi.

– Mənim oğlum, Öskūs-ool, keç, ayləş, – qarı dedi. Qarı çay dəmlədi, kökə və qənd gətirdi.

Öskūs-ool yeyib içməyə başladı. Birdən bir gözəl qız içəri girdi.

– Sən kimsən, sənin adın, ləqəbin nədir, sənin aal-biçənəklərin haradadır, hardan gəlib, hara gedirsən? – qız soruşdu.

– Mən Öskūs-oolam. Özüm də işıqlı dünyada ayın və günəşin özü kimi işıq saçan, üzü nurlu gözəllə yaşayıram. Qəzəbli Qaratı-xan məni bir neçə dəfə aldadıb, indi mən də qayınatam Qurqustu-xanın döyüşçülərini, Kalçaa-dalay dənizi kimi coşub-kükrəyən döyüşçülərini mənimlə getmək üçün dəvət eləməyə gəlmişəm.

– Nəhayət ki, qız tapıldı! O, çoxdan itib, biz isə onu heç cür tapa bilmirdik. Axı, sən mənim qızımla yaşayırsan! – Gözəl

həyəcanla dedi. – Sağ ol, oğlum, yaxşı xəbər üçün sağ ol! – O, dəyədən qaçaraq çıxıb, gözü yaşla dolu Qurqustu-xana xəbər apardı.

Xan ondan soruşdu:

– Sən niyə ağlayırsan?

Arvadı cavab vermədi.

– Əgər məndən qorxursansa, onda mənim qara kamanımı, mənim sarı odlu oxlarımı, qılıncımı və bıçağımı dəmir alaçıqda gizlət, – Qurqustu-xan dedi.

Arvadı bütün silahları gizlədib xandan soruşdu:

– Sən necə fikirləşirsən, bizim kiçik qızımız, gözlərimizin işığı, barmaqlarımızın sümüyü indi haradadır?

– Harada olacaq? Yəqin buludların üstündə bacıları ilə oynayır, – xan cavab verdi.

– Xeyir, o, çoxdan işıqlı dünyada, tozağacından qayrılmış dəyədə Öskus-ool ilə yaşayır. Öskus-ool indi duadadır.

– Onu bura çağırın! – xan əmr etdi.

Öskus-ool gəldi.

– Hanı mənim qara kamanım və sarı odlu oxlarım? Mən onu vurub deşəcəyəm. Hanı mənim polad xəncərim? Mən onu tikə-tikə doğrayacağam! – Qurqustu-xan qışqırdı.

O, ətrafında oxu, kamanı və xəncəri axtarıb tapmadı. Tezliklə sakitləşib Öskus-ooldan soruşdu:

– Sən niyə bura gəlmisən?

Qəzəbli Qaratı-xan məni bir neçə dəfə aldadıb və mən də gəlmişəm ki, əziz qayınata, sizin döyüşçülərinizi Kalçaa-Dalay kimi coşub-kükrəyən döyüşçülərinizi ora dəvət edim.

Qurqustu-xan fikirləşib dedi:

– Bu döyüşçülər qızıl sandıqda qorunub saxlanır. Bu sandığı da Ayla Günəş qoruyur. Ay Monqun-Tayqada* istirahət

* Ay Monqun-Tayqa – Gümüş Tayqa



edir, günəş isə Aldın-Tayqada* gecələyir. Get onların yanma və sandığı xahiş elə. Əgər verməsələr – onları qızıl örkənlə mənim yanıma gətir.

Öskus-ool Monqun-Tayqaya gəldi.

– Ehey, Ay, – o qışqırdı, – mənim qayınatam Qurqustu-xanın qızıl sandığını mənə ver!

– O məndə deyil, mən heç nə bilmirəm! – ay cavab verdi.

Öskus-ool Aldın-Tayqa tərəfə döndü.

– Ehey, Günəş, – o qışqırdı, – qayınatam Qurqustu-xanın qızıl sandığını mənə ver!

– O məndə deyil, mən heç nə bilmirəm! – günəş cavab verdi.

Onda Öskus-ool qızıl örkəni onların üstünə atıb çəkdi, ikisini də sürüyüb dağlar, aşırımlar aşaraq Qurqustu-xanın yanına gətirdi. Onları atbağlanan yerə bağlayıb, xanın alaçığına keçdi.

– Nə oldu? – xan soruşdu, – onlar sənə qızıl sandığı verdilər?

– Xeyir, xan, vermədilər. Mən onları sizin yanınıza gətirmişəm.

Qurqustu-xan çıxıb gördü ki, Öskus-ool onları dalıyca elə sürüyüb ki, ayın yarısı sıyrılıb, günəş isə sürtünmədən elə qızarıb ki, qaynayır.

– Lənətə gəlmiş, niyə onları belə kobud şəkildə çəkib gətirmisən? Sən niyə mənim ayımın yarısını silmisən və mənim günəşimi elə qızdırmısan ki, qıpqırmızıdır? – xan soruşdu.

– Bir dəfə işıqlı dünyada – Öskus-ool cavab verdi, – Erəlçin-xan üçün mən altı növ darı yığırdım. Nə qədər ki, ay işıq saçırdı, mən onları yığıb qurtarmalı idim. Onların yalnız, beş növünü yığmışdım ki, ay gizləndi. Mən də buna görə ona cəza verdim.

* Aldın-Tayqa – Qızıl Tayqa

– Yaxşı, bəs günəş sənə nə eləyib? – xan soruşdu.

– Bir dəfə həmən Xaralcı-xanın altı növ darısını yığırdım. Mən gərək günəş batana qədər işimi görüb qurtaraydım. Mən beş növ darını yığmışdım ki, günəş gizləndi. Mən ona qışqırdım ki, gözləsin, o, isə batdı. Odur ki, onu da cəzalandırdım.

– Günəş və ay, deyin görüm, Öskus-ool düz deyir? – xan soruşdu.

– Bəli, bunların hamısı olmuşdu. O, bizə qışqırdı, – günəş və ay cavab verdi.

Xan onlardan qızıl sandığı alıb, özlərini isə səmada gəzməyə buraxdı.

– Mənim dəyədə yaşayan kiçik qızım onlarla neyləməyi yaxşı bilir – xan dedi və sandığı Öskus-oola verdi.

Öskus-ool qu geyimini geyib evə qayıtdı. Gözəl qız soruşdu:

– Sandığı ehtiyatla götür ki, ağzı açılmasın. Onu Qaratı-xana verib deyərsən: "Bu da Kalçaa-Dalay dənizi kimi coşub-kükrəyən döyüşçülər." Elə o dəqiqə də evə qayıt.

Öskus-ool Qaratı-xanın aalına gəldi. Aalın yanında xanın döyüşçüləri durmuşdular. Onların başında isə Buğa-Qara-atlarda* doqquz Dəmir-Qara-pəhləvan* durmuşdu. Hamı durub xanın yeni Kalçaa-Dalay dənizi kimi coşub-kükrəyən döyüşçülərinə tamaşa etmək istəyirdi. Öskus-ool acgöz xana sandığı verib, o dəqiqə evə yollandı. Yarı yolda çevrilib Qaratı-xanın aalına baxdı: orada qaranlıq gecə idi, hər tərəfdən tüstü sürünürdü.

Bir gündən sonra hər yer apaydın idi. Gözəl qız dedi:

– Öskus-ool bir get, Qara-Hemdən keç, bax, gör, orada dəmir atlarda dəmir adamlar çapmırlar ki. Onları görən kimi

*Buğa-Kara-atlar – Qara öküz atlar
*Dəmir Kara-pəhləvan-azəri dilində-dəmir qara atlar



qışqır: "Kalçaa-Dalay dənizi kimi coşub-kükrəyən döyüşçülər, evə qayıdın!"

Öskus-ool çayla Üzü aşağı getməyə başladı. Xan aalının yerində ağzı açıq qızıl sandıq dururdu. Tezliklə o, dəmir atlıları gördü. Oğlan qışqırdı:

– "Kalçaa-Dalay dənizi kimi coşub-kükrəyən döyüşçülər, evə qayıdın".

Dəmir döyüşçülər dəmir milçəklərə dönüb qızıl sandığa doldular. Öskus-ool sandığın ağzını bağlayan kimi gördü ki, Buğa-Qara-atlardakı doqquz Dəmir-Qara-pəhləvanın və Qaratı-xanın döyüşçüləri bir nəfər kimi hamısı məhv olub.

Öskus-ool özü üçün ağ alaçıq qurdu.Qaratı-xanın tabeliyində olanları başına topladı və möhtəşəm bir kef məclisi qurdu. O, ayın, günün işığı kimi şəfəq saçan gözəli ilə xoşbəxt və uzun ömür yaşadı. Onlar yaşadıqca dərələr uzanır, yarğanlarsa bir az da dərinləşirdi.

# İKİ QARDAŞIN SÖHBƏTİNİ EŞİDƏN ÖSKÜS-OOL

Lap qədim zamanlarda, hələ Çingiz-dünyanın təməlini qoyduğu dövrdə, hələ dünyanın təzə-təzə hərəkətə gəldiyi bir vaxtda, Östüs-Ool adlı bir bəy çobanı var idi. Bir dəfə o, quyu kənarında yeddi balaca çiçəyə rast gəldi. "Görəsən mən də haçansa bu çiçəklər kimi gözəl ola biləcəyəmmi?" – yazıq oğlan fikirləşdi. Qərara aldı ki, dünyanı dolaşıb xoşbəxtliyini axtarsın. O, gülləri dərib, qoynunda gizlətdi, xələtinin balaqlarını belinə sancdı və şimala tərəf getdi.

Nə qədər yol getdiyi məlum olmasada, axırda gəlib bir meşəyə çatdı. Meşə sanki yuxuya dalmışdı. Gecə düşdü. Öskus-Ool ağacların ən iri gövdəsini seçib, altında yatdı. Uzanaraq doğma torpaqlarının çiçəklərini ürəyinə sıxır və fikir edirdi. Birdən şimaldan və cənubdan iki müdrik qarğa uçaraq oğlan yatan ağacın budağına qondular. Onun başı üstə durub söhbət elədilər. Öskus-Ool ona məlum olmayan dili başa düşdüyü üçün məəttəl qalmışdı. O ürəyində fikirləşdi: "Çox güman ki, mən dərdiyim çiçəklər heç də adi çiçəklər deyil". Quşlarsa danışırdılar...

–Bu gün sən nədən belə razısan? Yəqin doyunca yemək yemisən? Harda belə kef eləmisən? – birinci qarğa dostundan soruşdu.

–Təpənin o üzünə tərəf uçurdum, – ikinci qarğa cavab verdi, – orda Qaratı-xan yaşayır. Onun gözəl qızı xəstələnib: qəzəbli mis hörümçək, qızın qulağına girib. Lamalar qızı müalicə etməyə səy göstəriblər. Onlar böyük döl bağlamaq gecəsi* təşkil ediblər və xəmirdən hissə-hissə ətrafa atırdılar. Heç bir vaxt doyunca yemək yemədiyimdən bugün o xəmirdən doyunca yeyib doymuşam. İndi də sevinirəm. Gəl sabah ora birlikdə gedək. Lamalar yenə havaya xəmir atacaqlar. Onlar hörümçəyi necə çıxarmağın yolunu bilmirlər axı... bu isə çox sadədir, bunun üçün...

– Sakit danış! – birinci qarğa onun sözünü kəsdi. Belə hündürdən danışma, yoxsa, kimsə eşidə bilər?

– Canavardan başqa bizi kim eşidə bilər? Dostum, narahat olma! Qulaq as: qoyunun quyruğunu bişirib onu qızın qulağına yaxınlaşdırmaq lazımdır. Hörümçək iyi hiss edib eşiyə çıxacaq.

Səhər tezdən Öskus-Ool Qaratı-xanın yanına getdi. Günortaya yaxın aala çatdı və gördü ki; samanlar təbili vururlar, lamalar isə döl bağlamaq kimi xüsusi bir mərasim təşkil ediblər.

Aalı səs-küy başına götürüb, heç kim heç kimi eşitmirdi.

"Nahaq yerə əziyyət çəkirsiz", – Öskus-Ool xeyli fikirləşdi və xan alaçığına tərəf addımladı. Amma nökərlər onun ayağına vurub geri qaytardılar.

– Hara soxulursan, yaramaz, burda sənə nə lazımdır? – onlar qışqırdılar.

– Bəlkə mən lazımlı adamam, bəlkə mən xan qızını müalicə edə biləcəyəm, amma siz məni itələyib qovursuz! – oğlan yerdən qalxaraq dedi.

O, geri dönüb burdan uzaqlaşmaq istədi, amma ağ alaçıqdan Qaratı-xanın özü çıxdı və qışqırdı:

– Onu niyə itələdiniz? Bəlkə elə doğrudan da o mənim qızımı sağalda biləcək? Qaytarın onu!

Öskus-Ool alaçığa girdi.

– Mənim yeganə qızım! Budur, görürsən, o nə haldadır? – xan dedi.

Öskus-Ool qıza baxdı. O, sayaqlayırdı. Başının yarısı dəhşətli dərəcədə şişmişdi.

* Döl bağlamaq gecəsi-Allaha dua etməklə ona minnətdarlıqlarını bildirmək deməkdir.

– Mən dünyanın dörd tərəfindən ən bilici, alim lamaları bura dəvət etmişəm – xan sözünə davam etdi.

– Mən lama deyiləm, mən sadə adamam, – Öskïs-Ool dedi. – Amma sizin qızı mən müalicə edə bilərəm. Əvvəllər mənim atam buynuzsuz qara qoyunun döşünü yeyib, sonra ağ belin üstünə baxardı və təxmin eləyərdi ki, bu adamın harası ağrayıb və onu necə müalicə etmək olar. Mən də həmin ağ belin köməyilə baxıb xəstəliyi təyin edə bilərəm.

Qaratı-xan əmr elədi ki, təcili buynuzsuz qara qoyunu kəssinlər. Tezliklə qoyunu bişirdilər və hər şeyin yolunu bilən oğlan üçün gətirdilər. Öskïs-Ool doyunca yeyəndən sonra, beli təmizləyib, onu diqqətlə nəzərdən keçirməyə başladı.

– Hər şey aydındır, – o, dedi, – indi mən bilirəm ki, gözəl qızı necə müalicə eləmək lazımdır. Mənə qoyunun quyruğunu verin, mən onu ocaqda qızartmalıyam.

Nökərlər quyruğu gətirdilər. Öskïs-Ool onu qızardıb xan qızının qulağına yaxınlaşdırdı. Oğlan qızardılmış quyruğu gah qızın qulağına yaxınlaşdırır, gah da uzaqlaşdırırdı. Birdən qızın qulağından böyük mis hörümçək sürünə-sürünə eşiyə çıxdı. Lamalar bir-birinin üzünə baxdılar və dinməz-söyləməz xan alaçığından çıxdılar. Xan Öskïs-Oolun qarşısında dizi üstə çöküb ona sitayiş eləməyə başladı.

– Yeddi gün lamalar və şamanlar heç nə edə bilmədilər, amma sən hörümçəyi o saat qova bildin, – xan dedi. – Mən sənə varımdan-var, mal-qaramdan mal-qara hədiyyə verəcəyəm.

– Mənə nə var-dövlət, nə də heyvan lazım deyil, mən aaları gəzən sadə bir insanam, – Öskïs-Ool cavab verdisə də bir gözü gözəldə qalmışdı.

Birdən qız elə gülümsündü ki, ətrafda hər şey nura qərq oldu, sanki günəş doğdu. Qız dedi:



– Əgər atam və anam etiraz etmirsə, Öskïs-Ool mənim ərim olsun, axı, məni o xilas etdi!

Xan fikrə getdi və qərara aldı! Əgər qızım bunu istəyirsə, qoy belə olsun. Xan əmr etdi ki, cavanlar üçün böyük bir ağ alaçıq qurulsun, elə böyük alaçıq ki, onu nə yetmiş, nə də doxsan at dövrəyə ala bilməsin. Və böyük ziyafət təşkil etdi ki, bura bütün xanın əyalı və camaatı toplandı. Adamlar dedilər:

– Bir halda ki, Öskïs-Ool xanın kürəkəni oldu, onda qoy o, hakim olsun.

Və Öskïs-Ool hakim təyin edildi. O, həmişə həqiqətin və yalanın harda olduğunu düzgün bilib, namusla və doğru yolla mühakimə edirdi.

# TAYQANIN MAHNILARINI OXUYAN ÖSKÜS-OOL

Çox qədim zamanlarda Karqıra-Kərənqıtı-Tayqanın aşırımında Çələldəy adlı yetmiş yaşlı bir qoca yaşayırdı. Onun altmış yaşlı qoca bir qarısı var idi. Qocaların nə mal-qarası, nə də uşağı yox idi.

Təsadüfən qarı bir oğlan uşağı doğdu. İki aydan sonra qarı öldü. Daha altı ay keçəndən sonra isə qoca da öldü. Oğlan beşikdə tamam tək qaldı. "Anam yoxdur ki, məni yedizdirsin, atam yoxdur ki, məni qucağına götürsün", – o, fikirləşdi və beşikdən iməkləyib çıxdı. Sonra dəyədən çıxdı və Ağ-Sara atı gördü. At doxsan sajenlik örkən ilə bağlanmışdı. Oğlan bir-təhər ata yaxınlaşıb soruşdu:

– Mənim atam, anam necə olub?

– Onlar ölüblər, – at cavab verdi. – Sən özün özünü böyüdüb, tərbiyə etməlisən. Mənim quyruğumdan bir neçə tükü çək-çıxart, ondan ip hazırla və ipin başını ilmə elə. Buralarda xırda heyvanlar olur, ciyildəyib, sonra da yuvalarına qaçıb gizlənirlər. Sən onları bu ilmə ilə tutmalısan. Əti qızartmalısan, dərisindən idik tikməlisən. Dəyədə alışqan olmalıdır, onun köməyilə ocaq qalamalısan. Məni isə burax. Mən azad, sərbəst otlamalıyam. Nəyi başa düşməsən yanıma gəlib, soruşa bilərsən.

Oğlan tükdən ilmə düzəldib siçan və sünbülqıranları tutmağa başladı. O, tutduğu heyvanların ətini qızardıb yeyir və çox tez böyüyürdü. Bir dəfə o, atın yanına gəlib soruşdu:

– Bu nə heyvandır belə, özü dumağ, həm də qaçanda ilmə toxuyurmuş kimi qaçır? Onu yemək olarmı?

– Bu dovşandır – Ağ-Sara cavab verdi, – onun əti dadlıdır, dovşan ətinin şorbası çox həlimli olur.

– Dovşanı necə öldürmək olar? – oğlan soruşdu.



– Onu kamandan atılan oxla vururlar. Sənin atanın kamanı da, oxu da var idi. Get, onları axtar, tap.

Oğlan kamanla oxu axtarıb tapdı və başladı dovşanları ovlamağa. O, dovşan ətindən yedikcə sürətlə böyüyürdü. Tezliklə bir də atın yanına gəldi.

– Bu nə heyvandır ki, iki uzun ayaqları və ağ quyruğu var, özü elə – "Oq-Oq!" qışqırır? – oğlan atdan soruşdu.

– Bu cüyürdür, – Ağ-Sara vacab verdi. – Bax, onun əti doğrudan ləzzətlidir. Onu öldürməyə çalış.

Oğlan cüyür ovlamağa başladı. Böyüyüb əsil güclü və dözümlü ovçu oldu. O, ata-anasının onun üçün qoyduğu paltarları geyib, Ağ-Sara atı minərək, tayqanın bütün dağlarını və aşırımlarını gəzib ov ovladı.

Karqıra-Kələnqıtı-tayqanın aşağı ucunda Bəy-xan yaşayırdı. Onun yeddi oğlu və yeddi qızı vardı. Yeddi oğul tayqaya gedib ov ovlayırdı, yeddi qız isə qoz-fındıq və giləmeyvə yığırdı.

Bir dəfə xanın yeddi oğlu nökərlərlə birgə Karqıra-Kələnqıtı-tayqanın yamacında ov ovlamağa getdilər. Nə qədər gəzdilərsə ov vura bilmədilər. Hər dəfə nişan alanda,cəld, çevik və sərrast bir atıcı, sarı-səmənd atında onları qabaqlayırdı.

Onlar atıcıya yaxınlaşıb soruşdular:

– Sən kimsən? Sənin adın-ləqəbin nədir, aalın-biçənəyin harada yerləşir?

– Mən Öskүs-Oolam. Özüm də Karqıra-Kələnqıtı-tayqada yaşayıram. Bəs siz kimsiniz?

– Biz tayqanın ətəklərində yaşayan Bəy-xanın oğullarıyıq. Biz çoxdan ovçuluq edirik, amma heç nə vura bilmirik, – ovçular dedilər.

– Ovçuların bir məqsədi olur. Gəlin birlikdə ov edək, – Öskүs-Ool təklif eti.

Qardaşlar razılaşdılar. Bütün günü birlikdə ov etdilər. Öskūs-Ool maral-cüyürü ovlayıb, qənimətı qardaşlara verirdi.

Bəy-xan oğullarının maral və cüyür ovlayıb gətirdiklərini görən Ağ-Sara at təəccübləndi və onları tərifləməyə başladı.

Bir dəfə xanın yeddi qızı qulluqçuları ilə meyvə və giləmeyvə yığmağa-getdilər. Onlar meşədə çox zərif səslər eşitdilər. Kimsə igildə* nazik simi barmaqları ilə səsləndirərək çalıb, boğazında mahnılar oxuyurdu. Mahnılar elə gözəl ifa olunurdu ki, qızlar meyvə yığmağı unudub, səs gələn tərəfə getdilər.

Onlar otların üstə əyləşən gözəl bir oğlanı gördülər. Onun yanında isə sarı-səmənd at otlayırdı.

– Sən kimsən, sənin adın-ləqəbin nədir, aalın-biçənəklərin haradadır? – onlar soruşdular.

– Mən Öskūs-Oolam. Karqıra-Kələnqıtı-tayqada yaşayıram. Bəs siz kimsiniz?

– Biz də Bəy-xanın qızlarıyıq, özümüz də bu tayqanın ətəklərində yaşayırıq. Biz giləmeyvə və qoz yığırıq.

Qızlar Öskūs-Ooldan xahiş etdilər ki, onlar üçün igildə daha bir mahnı çalıb-oxusun. Oğlan da oxudu, sonra isə qızlara giləmeyvədən yığmağa kömək etdi.

Ardına qulaq asın. Xanın oğulları tayqanın ətəklərinə ov ovlamağa gələndə gördülər ki, Öskūs-Ool onların yerinə ovu ovlayıb. Xan qızları tayqanın ətəklərinə gələndə gördülər ki, Öskūs-Ool onların yerinə giləmeyvələri toplayıb, üstəlik onlar üçün boğazında mahnılar da oxuyurdu.

Tezliklə xanın çobanları və nökərləri dağın ətəyinə gəlməyə başladılar. Hamı tayqa quşlarının cəh-cəhini, fitini, sidr ağacının zirvəsində vıyıldayan tayqa küləyinin səsini əks etdirən gözəl mahnıları eşitmək istəyirdi.

---

* İgil – Qu tükündən düzəldilmiş iki simli-mizrablı musiqi aləti.



Bir dəfə xan fikirləşdi: "Bu nə deməkdir? Hər səhər uşaqlar da, çobanlar da nökərlər də – hamılıqla Karqıra-Kələnqıtı-tayqaya axışırdılar. Axşama yaxın isə evə qayıdırdılar. Bunlar ora gedib nə iş görürlər?" – deyə fikirləşib birbəbir hamını sorğu-sual etdi.

– Biz Öskūs-Oolu dinləyirik, o tayqanın mahnılarını oxuyur, – çoban cavab verdi.

– Biz Öskūs-Oolu dinləyirik, o, tayqanın mahnılarını oxuyur. – qızları cavab verdi. Əvəzində isə gətirdiyimiz giləmeyvə və qozları Öskūs-Ool bizim yerimizə yığır.

– Biz isə ət və heyvan dəriləri gətiririk, onları da bizim üçün Öskūs-Ool ovlayıb yığır, – oğulları cavab verdi.

Xan fikirləşdi: "Nə vaxtsa tayqanın ətəklərində bir qoca ilə bir qarı yaşayırdı. Onların Ağ-Sara adlı bir atları var idi. Qocanın yetmiş, qarının isə altmış yaşı olanda, onların bir oğlu oldu. Iki aydan sonra qarı, daha altı aydan sonra isə qoca öldü. Doğrudanmı, Öskūs-Ool sağ-salamat qalıb? Bəs o, necə sağ qalıb?... İndi də o, hamıdan yaxşı ovçuluq edib, gözəl tayqa mahnıları oxuyur!" və xanı qara qibtə hissə bürüdü.

– Neyləmək, – Xan dedi, – əgər bu Öskūs-Ool münasib çalıb, gözəl tayqa mahnıları oxuyursa, onu bura gətirin.

Nökərlər Öskūs-Oolun yanına qaçdılar.

– Bəy-xan sənin gəlməyini əmr elədi! – onlar dedi.

– Adi adam xan çağıranda getməyə bilməz, – oğlan cavab verdi. O, Ağ-Sara atı minib xanın yanına yollandı.

– Xan, salam, xanım salam, – o, dedi.

– Sənin adın-ləqəbin nədir, sənin aalın-biçənəyin haradadır? – xan soruşdu.

– Mən Öskūs-Oolam. Özüm də Karqıra-Kələnqıtı-tayqada yaşayıram.

– Yaxşı, igildə necə çalırsan? Necə oxuyursan? Biz səni eşitmək istəyirik, – xan dedi.

– Mən yalnız ürəyim istəyəndə çalıb-oxuyuram, – oğlan cavab verdi.

– Elə bu saat həm çal, həm də oxu, – xan xahiş elədisə də, yaxşı mahnı, yaxşı musiqi eşidəcəyinə inanmırdı.

Öskus-Ool oxudu. Onun boğazından Karqıra-Kələnqıtı-tayqanın bütün quşlarının səsi eşidilirdi. Ona elə gəlirdi ki, sidr ağacının zirvəsində tayqanın küləyi ilişib qalıb. Biçənəklərin üstündən uçan qarğa və sığırçınlar susmuşdular. Qadınlar ağlayır, kişilər isə tərpənməyə qorxurdular. Xan və xanımı sanki yuxuda idilər. Otuz gün-bir ay, altmış gün iki ay, doxsan gün-üç ay Öskus-Oolun cingiltili səsi yaşıl tayqanın üzərindən kəsilmədi.

Boğaz kəlmələrinə xanın bütün əyaləti toplaşmışdı. Və xan dedi:

– Mən gözəl kiçik qızımı Öskus-Oola verirəm! Ayın əvvəlində, yaxşı günlərin birində toy məclisi keçirərik.

O, qızı üçün ağ alaçıq, öz heyvanlarından ayrılmış ağ heyvanlar və dövlətindən də müəyyən qədər dövlət ayırıb qızına verdi.

Doxsan gün-üç ay-hamı yeyib-içib, kef elədi. Onlar doxsan gün-üç ay Öskus-Oolun oxuduğu mahnılardan, çaldığı musiqidən feyziyab oldular. Sonra Öskus-Ool arvadını, malını-dövlətini, alaçığını götürüb Karqıra-Kələnqıtı-tayqaya, ata-anasının yaşadığı yerlərə köçdü. O, mala-heyvana qulluq edib, bütün günü tayqa mahnıları oxuyar, külək də onun səsini dağlara, vadilərə, ölkələrin hər yerinə yayardı.

Nə qədər ki, Öskus-Ool öz gözəl arvadı ilə birlikdə yaşayırdı, dərələr daha da dərinləşir, yarğanlar isə daha da uzanırdı.



## BALIQÇI ÖSKUS-OOL

Bu hadisə hələ qədim zamanlarda baş vermişdi. Qara-Hemin zirvəsində Qaratı-xan, aşağı ucunda isə lama iki rahib şagirdi ilə birlikdə yaşayırdı. Axar çayın ortasında isə qara şam ağacının qabığından özünə dəyə tikmiş kasıb balıqçı Öskus-Ool yaşayırdı. Onun çox böyük qara, bəd bir iti var idi.

Lama hər gün fikirləşirdi: “Qaratı-xanın gözəl təbəssümlü qızını özünə arvad etmək üçün nə fikirləşmək olar? Onu necə çağırmaq olar? Elçiliyə getmək olmaz. Qanun yol vermir. Xanı aldatmaq lazımdır. Bəs necə aldadasan?” Nəhayət fikirləşib tapdı. O, Qaratı-xanın evinə gəldi. Onlar içməyə başlayanda xana bildirmədən onun arağına zəhərli otlardan hazırlanmış tozu səpdi. Tez-tələsik evə qayıtdı ki, xan onsuz xəstələnsin.

O, evə təzə çatmışdı ki, xanın nökərləri çapıb gəldilər.

– Tələsin, hörmətli lama, tez atınızı minin! Xan ağır xəstələnib! – dedilər.

– İndi dərmanlarımı götürüm, gedərik, – lama dedi və rahiblərinin yanına qaçdı.

– Mənim sadiq rahiblərim! – dedi. – Mən xanın yanına gedirəm. Qara-Hem çayı ilə üzünə dəri çəkilmiş iri bir sandığı üzü aşağı axıdacağam. Çayın sahilində durun və gözdə-qulaqda olun ki, onu gözdən qaçırmayasınız.

Bu sandığı tutun və mənim alaçığıma gətirin. Amma onu mənsiz açmayın!

Lama sözünü deyib, xan nökərləri ilə birlikdə getdi. O, xəstə xanın yanına gəlib, fal sümüklərini atmağa başladı.

– Xan sağ olsun, sizdə ağır, qorxulu bir xəstəlik var, – o, dedi. – Çox tezliklə siz öləcəksiniz. Aşağı dünyanın ərlikləri artıq bu haqda bilirlər və sizi qarşılamağa hazırdırlar... Amma sizin yerinizə aşağı dünyaya başqa adamı da göndərə bilərik.

Bu adam yalnız sizin kiçik qızınız ola bilər. Onu sandığa otuzdurub, üstünə dəri çəkmək və Qara-Hem ilə üzü aşağı axıtmaq lazımdır.

– Sən nə danışırsan, nə danışırsan hörmətli lama! Mən yeganə tək qızımı suya ata bilmərəm. Əgər ölmək lazımdırsa, onda qoy mən ölüm, mən axı, qocayam, – xan dedi.

Lama zəhərli tozdan bir az da əlavə etdi, – xanın vəziyyəti bir az da ağırlaşdı. Özü isə getməyə hazırlaşdı.

– Dayan-dayan! – xan qışqırdı, – mən daha dözmürəm. Ağrılar çox güclüdür. Həyat isə çox əzizdir, – of, necə də əzizdir! Mən razıyam. Qızımı aşağı dünyaya göndər. Amma məni bu ağrıdan qurtar! Mən, mən yaşamalıyam. O, yox. Axı, o, məndən sonra belə mötəbər yerdə əyləşə bilməz, – xanlığı idarə edə bilməz, ədaləti bərpa edə bilməz, o, tayqadakı vəhşi heyvanları ovlaya bilməz... Oh, məni xilas elə!

Lama yatmış xanqızını, İnci saçan gözəli iri sandığa qoyub, sandığın üstünü ipək dərisi ilə çəkdi və onu Qara-Hemlə üzü aşağı axıtdı. Xanın içkisinə zəhəri məhv edən başqa bir dərman töküb, evə yollandı. Xan tezliklə sağaldı.

Öskus-Ool adəti üzrə balıqçılıq edirdi. Onun yanında bəd xasiyyətli, iri iti dururdu. O, günorta üstü çayda axan iri sandığı gördü. Uzun bir taxta ilə onu sahilə çəkdi. Sandığı kasıb dəyəsinə gətirib açdı.... və orda gözəl bir qızı gördü. Qız günəş kimi, ay kimi işıq saçırdı. Oğlan ehtiyatla qızı sandıqdan çıxartdı və onun yerinə öz bəd, iri itini qoydu. Sandığı bağlayıb, dərini üstünə çəkdi və Qara-Hem çayı ilə axıtdı.

Lamanın rahibləri gözlərini sudan çəkmədən çaya baxırdılar, – sandığı gözləyirdilər. Nəhayət, onlar sandığı gördülər: üzür, üzür! Özlərini suya atıb, sandığı sahilə çıxartdılar və aparıb lamanın alaçığına qoydular.



Tezliklə lamanın özü də gəlib çıxdı. O, çox sevinirdi, həyəcanlı və sərxoş idi.

– Hə mənim sadiq rahiblərim, mənim suya buraxdığım sandığı tuta bildinizmi? Deyə o, soruşdu.

– Bəli, başçı, – dedilər.

– Bəs o, hanı? – lama soruşdu.

– Sizin alaçıqdadır, başçı, – onlar cavab verdilər.

– Lap yaxşı, lap yaxşı! Qulaq asın: bu gecə mən sirli ibadətlə məşğul olacağam. İbadət vaxtı heç kim məni görməməlidir. Mənim qışqırığımı, fəryadımı eşitsəniz belə, alaçığıma girməyin, o zaman mən burqanla* danışacağam. Siz məni başa düşdünüz? – lama soruşdu.

– Bəli, başçı – rahiblər cavab verdilər.

Lama alaçığa girdi. Səbirsizliklə sandığı açdı. Oradan iri, bəd bir it sıçrayıb onun üstünə atıldı. Lama qışqırdı, inildədi və köməyə çağırdı. Amma rahiblər başa düşürdülər ki, lama nə qədər qışqırsa da, içəri keçmək olmaz. Səhər rahiblər ət və kökə gətirdilər. Lamanın yerində əti sümürülmüş sümükləri gördülər.

Balıqçı Öskus-Ool isə günəş kimi işıq saçan qızın gözəlliyinə elə hey baxır, baxır, amma baxmaqdan doymurdu. O, hətta balıq tutmaq üçün heç çaya da getmirdi.

– Sənə nə olub? Deyilənlərə görə, sən əvvəllər işləyərdin, balıq tutardın. İndi niyə evdə oturursan? Bəs biz nə yeyəcəyik? – gözəl soruşdu.

– Sənin gözəlliyin məni məftun edib, gözümü səndən çəkə bilmirəm, səndən ayrıla bilmirəm, – Öskus-Ool cavab verdi.

– Onda mən öz rəsmimi çəkəcəyəm. Əksimə baxıb, balıq tutarsan, – qız dedi.

---

* burqan – Allahın təsviri

Öskus-Ool yenidən balıq tutmağa getdi. Hər dəfə də qızın rəsmini özü ilə aparırdı. Əvvəlkindən qat-qat artıq balıq tutmağa başladı.

Amma bir dəfə qəfil əsən güclü külək qızın şəklini onun əlindən qoparıb səmti bilinməyən tərəfə apardı. Balıqçı nə qədər axtardısa – onu heç yerdə tapmadı.

Ağlaya-ağlaya evə qayıtdı.

– Nə olub, Öskus-Ool? Sən niyə belə qəmlisən? – gözəl qız soruşdu.

– Ona görə qəmliyəm ki, külək sənin rəsmini əlimdən alıb səmti bilinməyən tərəfə apardı – Öskus-Ool cavab verdi.

Gözəl qız qəmginləşdi.

– Sən ölməsən də, indi öləcəksən, sönməyən ocağın isə indi sönəcək, – qız dedi.

Şəkil isə küləyə qoşulub çox uçdu və qonşu xanın aalına düşdü. Onu tapan xanın çuğulçusu qaçıb özünü xana çatdırdı.

– Oho, yer üzündə gör necə gözəl qız yaşayır! Mən onunla evlənirəm! – xan dedi.

O, döyüşçülərini toplayıb gözəl qızı axtarmağa getdi. Döyüşçülər tezliklə Öskus-Oolun dəyəsini tapdılar. Xan işıq saçan qızı götürüb, dəyəni dağıtdı, Öskus-Oolu isə qovdu.

Yazıq Öskus-Ool ağlayıb Qara-Hem çayının sahili ilə üzü yuxarı getməyə başladı.

O, Qaratı-xanın aalına gəldi və xanın qoyunlarını otarmaq üçün çobanlıq etməyə başladı. Düz üç il qoyunları otardı. Zəhmət haqqı üçün buynuzsuz boz öküzü, ayı dərisindən olan kürkü və canavar dərisindən tikilmiş papağı xahiş elədi. O, kürkü geyib, papağı başına qoyub, öküzü minib arvadını axtarmağa getdi.



Onun arvadının – İşıq saçan gözəlin isə bu üç ildə bir dəfə də olsun üzü gülmədi. Xan nə qədər səy göstərdisə də onun ürəyini aça bilmədi. Hətta qızın heç dodağı da qaçmadı.

Birdən qız ayı dərisindən kürk geymiş, başına canavar dərisindən papaq qoymuş, buynuzsuz boz öküzdə yol gələn bir nəfəri gördü. Qız elə sevinclə, ürəkdən güldü ki, bu gülüşü ondan üç ildə nə xan, nə də onun çuğulçusu heç bir vaxt eşitməmişdilər.

– Sən üç ildə bir dəfə də gülümsəmədin, heç dodağın da qaçmadı. İndi nə oldu ki, bu arıq, kasıb oğlanı buynuzsuz öküzün belində görəndə belə sevindin, belə ürəkdən güldün? – xan soruşdu.

– Necə gülməyim? – Onun elə gülməli kürkü, papağı və gülməli öküzü var ki! – gözəl qız cavab verdi.

– Yaxşı, birdən mən də beləcə bəzənib, bu cür buynuzsuz öküzü minib getsəm, sən ürəkdən gülərsənmi? – xan soruşdu.

– O... xan, əgər siz belə geyinsəniz, mən daha çox gülərəm! – qız cavab verdi.

Xan qaçıb Öskus-Ooldan kürkü və papaqlarını dəyişməyi xahiş etdi. Sonra boz öküzü minib çölə tərəf getdi ki, qəfildən qayıdanda gözəl qızı güldürsün. Qız isə tələsik Öskus-Oolu alaçığa çağırdı və onu xanın yatağına saldı. Sonra döyüşçüləri çağırıb dedi:

– Bizim xan ağır xəstələnib. Onun həyatı bir tükdən asılıdır. Çöldə, buynuzsuz öküzün üstündə, ayı kürkündə, canavar papağında bir şeytan gəzir. Xanı xəstələndirən də həmin şeytandır. Siz gərək həmin şeytanı öldürəsiniz. O, yenə buralarda görünərək sizi aldatmaq istəyəcək. "Mən sizin xanam! Mən sizin xanam!" – deyəcək. Amma siz şeytana inanmayın. Xan burda, alaçıqda yatır. O, xəstədir.

Gözəl qız döyüşçülərini ətrafına düzdü. Döyüşçülər gördülər ki, kimsə buynuzsuz boz öküzün üstündə aala tərəf gəlir.

– Baxın, görün, bu necə geyinib?

– Onun ayı dərisindən kürkü və canavar dərisindən papağı var.

– Bu,şeytandır, şeytandır! – bütün döyüşçülər qışqırdılar. – O, xanı öldürmək üçün bura gəlir!

Döyüşçülər onun qabağına yüyürüb, atmağa başladılar.

– Dayanın! Mən sizin xanam! Mən sizin xanam! – xan qışqırdı.

– Yox, sən bizi aldadırsan, sən-şeytansan! – döyüşçülər qışqırdılar.

Və onlar paltarını dəyişmiş xanı öldürdülər.

Öskus-Ool da İşıq saçan gözəllə uzun və xoşbaxt ömür sürdü.



# ÜÇ ELMƏ YİYƏLƏNMİŞ ÖSKÜS-OOL

Nə vaxtsa bir qoca yaşayırmış. Onun bir oğlu, otuz atı, otuz inəyi və otuz keçisi var idi. Tezliklə, qoca rəhmətə getdi. Öskus-Ool tamam tək qaldı. "Mənim nə qardaşım, nə bacım var, – deyə fikirləşirdi. – Bu mal-heyvan mənim kimi tək adamın nəyinə lazımdır? Yaxşısı budur, üç növ heyvanı üç elmə dəyişim."

O, heyvanları şimala tərəf apardı. Nəhayət üç alaçıq gördü. Oğlan onlardan birinə daxil oldu. Oradakı adamlar şahmat oyunu oynayırdılar.

– Sən hardan gəlmisən? Nə axtarırsan? – ondan soruşdular.

– Mən cənubdan gəlmişəm. Valideyinlərim ölüb. Onlar mənim üçün üç növ mal-heyvan qoyublar. Mən həmin malı-heyvanı üç elmə dəyişmək istəyirəm. Mənə şahmat oynamağı öyrədin, mən də otuz keçini sizə verərəm, – Öskus-ool dedi. Oyuncular razılaşdılar. Oğlandan otuz keçini alıb, ona bir aya şahmat oynamağı öyrətdilər. Öskus-Ool şahmat oyununu müəllimlərindən də gözəl oynamağa başladı. "Bir elmi öyrənməyə nail oldum, – o, fikirləşdi. Qaldı-ikisi." Oğlan müəllimləri ilə sağollaşıb, qalan heyvanları şimal tərəfə apardı.

Tezliklə o, bir alaçığa gəlib çatdı. Alaçıqdakı üç nəfər biri-birilərinə çin gözübağlıcasını göstərirdilər.

– Sən hardan gəlirsən? Nə axtarırsan? – ondan soruşdular.

– Mən cənubdan gəlmişəm. Valideynlərim ölüb. Onlar mənim üçün üç növ mal-heyvan qoyublar. Mən də həmin malı-heyvanı üç elmə dəyişmək istədim. Bir elmə artıq yiyələnmişəm. Mənə öz gözübağlayıcınızın sirrini öyrədin, – sizə də otuz inək verərəm, – Öskus-Ool dedi.

Oyunçular razılaşdılar: oğlandan otuz inəyi alıb bir aya ona öz sənətlərini öyrətdilər. Ösküs-Oolun göstərdiyi gözbağlayıcılar müəllimlərinin göstərdiyi gözbağlayıcılardan çox çətin idi. "İki elmə yiyələndim, – o, fikirləşdi, – Qaldı biri." O, müəllimləri ilə sağollaşıb, atları şimala tərəf apardı.

Yenə bir alaçığa rast gəldi. İçəridə üç nəfər əyləşib sayırdı. Ösküs-Ool keçi və inəklərini iki elmə dəyişdiyini onlara danışdı. İndi o, şahmat oynamağı və gözübağlıca göstərməyin sirrlərini bilirdi.

– Mənə saymağı öyrədin – sizə iyirmi doqquz atı hədiyyə edərəm.

Alimlər razılaşdılar, ondan iyirmidoqquz atı alıb, bir aya ona saymağı öyrətdilər. O, müəllimlərindən heç də pis saymırdı.

"Mən üç elmə mükəmməl nail oldum, – o, fikirləşdi. İndi aalba-aal getmək olar." Və o, tək qalmış atını minib yola düşdü.

Ösküs-Ool eşitdi ki, Qaratı-xan şahmat oyunu oynayır. Özü də oyunçunun başından. Belə ki, ona uduzan adam başını qurban verməlidir. Amma xanı üç dəfə ardıcıl udan adam, özü xan olacaq. "Nə qardaşım, nə də bacım var, – Ösküs-Ool fikirləşdi. – Mən dünyada tək oğlanam. Ölsəm də, ağlayanım olmayacaq. Gedim, qaratı-xanla yarışım."

O, xanın aalından bir az aralıda, aşırımda çoxlu vurulmuş insan başları gördü. Onlar bütün cığır boyu ağaclarda saçlarından asılmışdılar. Ösküs-Ool başları saydı. Düz doxsan-doqquz baş idi. "Xanın başı ilə birgə yüz olacaq", – o, fikiləşdi və irəli addımladı.

– Sən hardan gəlmisən? Ay qərib, sənə nə lazımdır? – Qaratı-xan ondan soruşdu.

– Mən görünən dağın o biri üzündən gəlmişəm. Sizinlə şahmat oynamaq fikrindəyəm. Eşitdiyimə görə sizin xanlığı udmaq olar, – Ösküs-Ool dedi.



– Ha, ha, ha! – xan güldü. Dağı aşıb gələndə aşırımda gözünə bir şey dəydimi?

– Mən çoxlu kəllə gördüm.

– Əlbəttə, get, onları say, gör nə qədərdir, ondan sonra səninlə oyun oynayarıq, – xan dedi.

– Mən onları saydım. Doxsan doqquz kəllə idi. Sizin başınızla yüz olacaq.

Xan sadə oğlanın sayı bilməsinə məəttəl qaldı və əyləşib oyunu oynadı. Tezliklə hiss elədi ki, uduzur.

– Ehe, oğlan, dayan görüm, şahmat çətin oyundur, gərək çox fikirləşəsən. Amma adam, yemək-içmək istəyir. Gəl, istirahət edək, bir az çörək yeyək, – xan dedi.

Xanın arvadı onlara iki qızıl boşqabda yemək gətirdi. Ösküs-Ool başa düşdü ki, xanın qabağındakı yemək adamın gözünə işıq gətirir və beynini təzələyir. Amma onun qarşısındakı yemək isə adamın gözünü pərdələyir, beynini dumanlandırır. Sehrbazlığı əbəs yerə öyrənməmişdi ki? Xan gözünü qırpınca oğlan boşqabların yerini dəyişdi. Xan heç nə hiss etmədi.

Onlar yeməkdən sonra oyuna davam etdilər. Bir neçə gedişdən sonra xan uduzdu.

– Bir dəfə uddum, qaldı iki oyun, – Ösküs-Ool sakitcə dedi.

Xan ona qəzəblə baxdı, sonra oyunu təzədən davam etdirdi. Ösküs-Ool yenə onu üstələdi, xan yenə qışqırdı:

– Xanım, gücümüzü artırmaq üçün dadlı yemək gətir!

Onların qarşısında yenə iki qızıl boşqab dururdu. Zirənk oğlan yenə onların yerini dəyişdi.

Yeməkdən sonra oyunu davam etdirdilər. Xanın gözləri dumanlandı. Bilmədi ki, neyləsin. Tez bir vaxtda uduzdu.

– Sizin bircə dəfə uduzmağınınz qalır, – Ösküs-Ool dedi.

Xan qorxu içində ona baxdı və onlar axırıncı oyunu oynamağa başladılar. İlk gedişdən sonra xan başa düşdü ki, o, uduzur. O, yenə əmr elədi ki, yemək gətirsinlər. Öskus-Ool yenə boşqabların yerini dəyişdi. Xan elə təzə yemişdi ki, gözləri qaraldı, fiqurlar atılıb düşdü. Üç gediş gedəndən sonra uduzdu.

– Hə, nə oldu, xan, hər üç oyunu mən uddum. Aşırımda doxsan doqquz kəllə asılıb. Sizin başınız yüz olacaq!

– Ah, Öskus-Ool, mənə rəhmin gəlsin! Bütün qızıl və gümüşlərimi, bütün mal-qaramı və nökərlərimi götür, xan ol, amma başımı vurma! – xan yalvardı.

– Sizdən əvvəlki doxsan doqquz oyunçu da şərti pozmamışdı. Onlar oyunu başlarının kəsilməsindən oynadılar və uduzdular. Indi də hesablaşmaq üçün növbə sizindir! – Öskus-Ool dedi və Qaratı-xanı aşırıma apardı. Elə orada xanın başını vurdu və o gündən o torpaqlarda heç kim başını qurban verib oyun oynamadı.

Üç elmə yiylənmiş Öskus-Ool isə xanlığı idarə etməyə başladı.



## AĞ-SAL QOCA VƏ CÜMƏT

Nə vaxtsa yer üzündə ağsaçlı, Ağ-sal adlı bir qoca yaşayırdı. Qonşu aalda da çox qəzəbli bir Cümət yaşayırdı. O, insanları ələ salmaqdan zövq alırdı. Onun aalına kim gəlirdisə o, hamıya tapmaca-bağlama deyirmiş. O, tapmacanı tapmayanları ağır qamçı ilə döyürmüş.

– Kim tapmacanı tapsa o özü məni qamçılayacaq! – cümət şən halda deyirdi.

Amma heç kim bu cür müdrik, tapmacaları tapa bilmədiyi üçün qamçılanırdı. Hamının içində yalnız Ağ-sal qoca çox dünyagörüşlü, müdrik bir insan idi. O, sadə insanları müdafiə edib Cüməti cəzalandırmaq fikrində idi. Qoca qonşu aala gedib, birbaşa yaramazın alaçığına girdi.

– Qoca, məgər sən mənim qayda-qanunlarımı bilmirsən? Kim gəlirsə, mənim tapmaca-bağlamalarımın cavabını tapmalıdır. Əgər tapsan, sən məni qamçı ilə döyəcəksən. Tapmasan, özün qamçıya dözməli olacaqsan!

– Mən sənin tapmaca-məsələni eşidirəm və sənə dərs verməyə gəlmişəm, quldur! – Ağ-sal, ağbaş qoca çox cəsarətlə dedi.

– Belə de! Sən deməli, belə imişsən. Onda, özünü gözlə. Bax, o dağı görürsən? Dağın zirvəsində ağ-atlı durur. Get, ondan soruş ki, o, nə vaxt və haradan gəlib, nə vaxt və hara getməyə hazırlaşır, – Cümət dedi.

– Yaxşı, hər şeyi öyrənərəm, – qoca dedi.

Və qoca dağa tərəf getdi. Dağın başında isə heç nə yox idi. Zirvədə qar bərq vururdu. Qoca bir daşın üstə əyləşdi, bir çubuq çəkdi və Cümətin alaçığına qayıtdı. Alaçığın yanında adamlar yığılmışdı. Hamı nə olacağını gözləyirdi. Cümət əlində öz sevimli qamçısı ilə içəridən çıxdı.

– Nə oldu, atlını sual-cavab edə bildin?

– Bəli etdim, – qoca cavab verdi.
– O, sənə hər şeyi dedi? – Cümət soruşdu.
– Bəli, hər şeyi dedi, – qoca cavab verdi.
Birdən Cümət qorxdu və sakit səslə soruşdu:
– Bəs, o, nə dedi?
– Ağ atlı oğlan dedi ki, o yuxarı dünyadan – payızdan gəlib, baharda aşağı dünyaya getməyə hazırlaşır, – qoca cavab verdi.

Hamı qocanın müdrik cavabını başa düşdü. Və Cümətə tərəf addımladı. Cümət alaçığa qaçdı. Amma adamlar onu dartıb bayıra çıxartdılar. Qoca ağır qamçını götürüb yaramaz canini yaxşı döydü. Onun işgəncə verdiyi bütün kasıbların hayıfını ondan aldı.

Elə o gündən də Cümət tapmaca deməyi tərgitdi.



## BACARIQLI USTA – ŞEVER-ÇEÇEN

Çox qədim vaxtlarda mahir bir usta-qiz yaşayırdı. Onu Şevel-Çeçen çağırırdılar. Onun nə heyvanı, nə əri, nə də uşaqları var idi. O, aalları gəzib, bəylər üçün idiklər, xələtlər və papaqlar tikirdi.

Günlərin bir günü Şuujən-xan adlı bir nəfər öz uşaqlarına görünməmiş gözəl ayaqqabı və paltarlar tikdirmək fikrinə düşür.

– Ey, Bızaakay-Taraakay! – o, nökəri çağırdı, –Atı yəhərlə, dünyanın dörd tərəfinə çap, amma bacarıqlı usta Şevel-Çeçeni tap və mənim yanıma gətir.

Qoca Bızaakay-Taraakay aalları çox gəzdi, hamıdan soruşdu və nəhayət, Şevel-Çeçeni tapdı.

– Xan sizi çağırır, – qoca dedi.

– Əgər xan çağırırsa, sadə adam da getmirsə, onda onun başını üzərlər, – qız dedi və atı minib yola çıxdı.

"Mənim ki, günahım yoxdur, xan məni niyə çağırır? – qız qorxu içində fikirləşdi. – Görəsən o, mənə nə edəcək?"

– Salam, xan, – alaçığa girən qız dedi.

– Niyə gəlmisən, – Şuujən-xan soruşdu.

– Qoca dediki, siz məni çağırtdırmısınız, – qız cavab verdi.

– Bəli, mən sənin nə dərəcədə məharətli olduğunu görmək istəyirəm. Sən qara idiklər, qara ipəkdən xələtlər və qara samurdan papaqlar tikəcəksən! – Xan ona dəri, ipək və xəz verib işə başlamasını dedi.

Görkəmli usta Şevel-Çeçen olduqca gözəl xələtlər, papaqlar və idiklər tikdi, amma elə tikdi ki, tikişlərinin yeri də bilinmədi. Sonra o, parçaların qalın kəsiklərindən də idiklər, xələtlər və papaqlar tikib onları torbada gizlətdi. Mahir tikişçinin çox ustalıqla, zərif işləmələrlə işləyib və cəld tərpənməsi xanın çox xoşuna gəldi.

– Sən mənim qulluqçum olacaqsan, – xan dedi. Gedib su gətirəcəksən, odun daşıyacaqsan, ocaq qalayıb, yemək bişirəcəksən, dərilər aşılayıb paltarlar tikəcəksən.

Şevel-Çeçen fasiləsiz olaraq yeddi il xanın yanında çalışdı. Tezliklə o, hamilə oldu, artıq ağır işləri görə bilmirdi. Bir dəfə xan arvadı onu gördü və qışqırdı:

– Ay hiyləgər! Evimizə yetim, kasıb sifətində gəldin. Yedin, içdin, harınladın, indi də heç nə eləmək istəmirsən?

– Neyləmək olar, – Şevel-Çeçen cavab verdi. Bu da bizim qadın taleyimizə düşən yükdür. Mən ağırlaşdıqca ağır yükün altına girə bilmirəm.

– Bu nacinsi burdan elə yerə rədd eləmək, qovmaq lazımdır ki, o yerə insan ayağı dəyməmiş olsun! – xan dedi. – O, mənim aalımı rüsvay elədi.

– Yaxşı, mən gedərəm, – Şevel-Çeçen cavab verdi. – Bəs yeddi illik əməyimin əvəzində siz mənə nə verəcəksiniz, xan?

– Sənə nə verəcəyəm? Ha, ha, ha!...yeddi ildə burda yeyib-içdiklərin sənə azlıq edir? Ey, qoca Bızaakay-Taraakay, – xereejoku* (bu yaramaz arvadı) elə tənha, kimsəsiz yerə apararsan ki, ora insan ayağı dəyməmiş olsun. Bunu orda atıb gələrsən!

Qoca yol üçün yemək ehtiyatı götürüb onu atın tərkinə bağladı. O biri ata da Şevel-Çeçeni mindirdi və onlar şimala üz tutdular. Çox yol getdilər, nəhayət, Çingə-Qara-Hemdə qərar tutdular. Orda çoxlu göbələk, giləmeyvə və maarin kökü* bitirdi. Qoca bir neçə ağacı doğrayıb çum tikdi, Şevel-Çeçenə polad bıçaq, qara yəhər, yüyən və tərlik verdi.

– Qoy sənin oğlun olsun! – dedi və xudahafizləşib getdi.

– Qoy mənim oğlum da nə vaxtsa sizə yardımçı olsun! – yazıq xan qulluqçusu qocanın ardınca qışqırdı.

---

* Xereejok-yaramaz arvad

*Maarin kökü –xörəkdə işlədilən ədviyyat kökü



O, tezliklə bir oğlan doğdu. Oğlan elə tez böyüyürdü ki, bir gündən sonra bir yaşında, iki gündən sonra-iki yaşında oldu. Bir neçə gündən sonra o, anasına yeməli bitki köklərini qazıb çıxartmaqda kömək eləməyə başladı.

Bir gün Şevel-Çeçen Çinge-Qara-Hemdə kiminsə yaşayıb-yaşamadığını öyrənmək qərarına gəldi. O, dağın başına qalxdı və uzaqda atılmış köçəbələri (oba) gördü. Orda nəsə tərpənib-titrəyirdi.

Şevel-Çeçen ora gəldi və arıq, səmənd dayçanı gördü. Dayça çox zəif idi. Atın belini qarğa və sağsağanlar dimdikləmişdilər. Şevel-Çeçen quşları qovub, dayçanı evə apardı. Onun belini tayqanın məlhəm otları ilə sağaltdı, yedirtdi və böyütdü. Dayça böyüyüb gözəl səmənd ata çevrildi.

Şevel-Çeçenin oğlu isə çox nəhəng bir pəhləvana döndü. Anasının onun üçün hazırladığı kamandan atdığı oxlarla o, maral-cüyür ovlayırdı. Bir dəfə oğlan anasının yanına gəlib soruşdu.

– Meşədə gəzən buynuzsuz, boz və tüklü heyvanın adı nədir?

– Ay oğul, ora getmə! O heyvanın gəzdiyi yerlərə insanlar getməsə yaxşıdır. O, çox güclüdür və səni öldürə bilər, – anası dedi.

– Məgər o, güclüdür? O, nərildədi, dal ayaqları üstə qalxdı və üstümə gəldi. Mənsə onu qulaqlarından silkələdim və kənara atdım. Heyvan da qorxub qaçdı, – bahadır cavab verdi.

– Oğlum, sən artıq böyümüsən. Sənə əsil silah lazımdır, – anası dedi.

Ana amansız yay, kaman düzəltmək üçün hansı ağacların kəsilməsini oğluna göstərdi və ona kömək elədi. Sonra tikə parçalardan tikib saxladığı qara idikləri, qara ipəkdən olan xələti və qara samurdan olan papağı oğluna verdi. Bunların hamısı oğlana çox vaxtında və yerində verildi. O, geyinib əsil bahadıra oxşadı. Bahadır anasının əzabla böyütdüyü səməndər atını

yəhərlədi, kamanı və oxu götürüb yəhərə qalxmaq istədi, amma at dedi:

– Doğulan gündən məni heç kim minməyib. Heç kim ağzıma dəmir soxmayıb, döşümə döşlük taxmayıb, quyruğumun altına quşluq qoşmayıb. Yəqin mənim qıdığım tutacaq, mən də atılıb-düşəcəyəm, dal ayaqlarım üstə qalxacağam. Ona görə də sən yayı, kamanı, oxu yerə qoy ki, sənə mane olmasın. Silahsız getməyi sına.

Bahadır kamanı atıb, oxu torpağa sancdı, xələtinin uclarını qatlayıb atı mindi.

– Hə, necədir, möhkəm tutmusan? – at soruşdu.

– Möhkəm tutmuşam, – bahadır cavab verdi.

At elə çapdı ki, bahadırın gözündən qığılcımlar sıçradı. Dağlar-düzə, düzlər də dağa çevrildi. Ulduzlar göydən yerə səpələnir, yerin tozu isə ərşə qalxırdı. Bahadır qışı qırovundan, yayı isə şehindən duyurdu. Nəhayət o, dözməyib qışqırdı:

– Əgər öldürmək istəyirsən, tez öldür! Yox əgər, əfv edirsənsə – dayan!

At dedi:

–Sənin mənə rəhmin gəlməsin, bir az ürəkli vur. Yandan məni elə vur ki, qabırğalarım çıxıb işıldasın, axı, sən atanı yox, atını vurursan. Yüyəni elə çək ki, ağzım qulağımın dibinə kimi cırılsın.

At dayanıb dedi:

– Sən mənim ağam ola bilərsən, mən də sənin atın olmağa razıyam.

Bahadır atdan enəndə gördü ki, bud əti sümükdən qopub və dizindən aşağı ayağına dolanıb, bazu əti isə sümükdən ayrılıb dirsəyindən aşağı dolanıb. O, tayqanın dərman otları ilə özünü müalicə edti. Otlar səhərə qədər öz təsirini göstərəcəkdi. Sonra da əlvan rəngarəng çiçəklərdən dərman kimi istifadə edib müalicəni davam elətdirdi. Bu növ müalicə də yaraları axşama qədər sağaldırdı. Tam sağalıb evə qayıtdı.



O, atı minib yaxşı ov ovlamağa nail oldu və evə daha çox ət gətirməyə başladı. Bir dəfə bahadır ova çıxanda cənubdan yeddi qaz uçub gəldi və qışqırdı:

– Sən hardasan, Eker-ool*? Alaçıqdasan, ya yoldasan? – Onlar alaçığın üzərində bir neçə dəfə fırlanıb, uçub getdilər.

"Bunlara nə olub belə? – Şevel-Çeçen fikirləşdi. – Axı, mən hələ oğluma ad verməmişəm. Axşam bu quşlar haqqında oğluma xəbər verərəm". Amma axşam oğlu evə qayıdanda o, bu söhbəti unutdu. Səhəri günü quşlar yenə uçub gəldilər. Ana yenə söhbəti unutdu. Bunlar üçüncü günü yenə uçub gəldilər. "Bax, bu gün mən söhbət etməyi unutmayacağam", – Şevel-Çeçen fikirləşdi və qulağından kömür asdı. Oğlu evə gəldi.

– Nə olub, ana, kömür sırğa asmaq nəyinə gərəkdir?

– Yaddaşım üçün asmışam, oğul. Artıq üç gündür ki, cənubdan yeddi qaz gəlib səni soruşur. Sabah ova getmə.

Səhər quşlar yenə uçub gəldilər və qışqırdılar:

– Sən hardasan, Eker-ool? Sən alaçıqdasan, ya yolda?

– Mən alaçıqdayam! – oğlan cavab verdi.

O, alaçıqdan çıxanda qazlar artıq uzaqda idilər. Oğlan atın belinə sıçradı, onları haylayıb qışqırdı:

– Ey mənim oxum, onların hər üçünü vur! – tətiyi çəkdi.

Elə bu vaxt birinci qaz torpağa sarı yol alıb yerə endi və gözəl bir qıza çevrildi.

– Siz kimsiniz, hardan gəlmisiniz, niyə quş kimi uçursunuz? – oğlan soruşdu.

– Biz Küskün-Kücürə-xanın qızlarıyıq, cənubda yaşayırıq. Atamız bizə quş libası geyindirib ki, biz azad uça bilək, özümüzə ürəyimizə yatan xeyirxah igidlər tapaq. Biz dünyanı dolaşdıq. Bacılarım özlərinə adaxlı tapdılar. Mənimsə gözüm

---

* Eker-Ool-xeyirxah igid

səni tutub, səndən xoşum gəlir. Ona görə də uçub gəldik ki, səninlə söhbət edək.

Oğlan evə qayıtdı.

– Nə oldu qazları haylaya bildin? – ana soruşdu.

– Onlar qaz deyil. Onlar Küskün-Kücürə-xanın yeddi qızlarıdır. Mən bu qızların ən kiçiyi ilə evlənirəm. İndi onun dalınca gedib, onu bura gətirəcəyəm.

– Nə olsun, oğlum, get. Samurun ən qarasını, canavarın ən bozunu, tülkünün ən qırmızısını və dələnin ən ağını xana hədiyyə ver.

Oğlan tayqaya gedib, samurun ən qarasını, canavarın ən bozunu, tülkünün ən qırmızısını və dələnin ən ağını vurdu. Sonra çoxlu ov ovlayıb, anası üçün çoxlu yemək ehtiyatı hazırladı və yola hazırlaşdı.

– Qoy səni Eker-ool və atını isə Eer-Sarığ-at çağırsınlar, – ana xeyir-duasını verdi.

Bahadır cənuba yola düşdü. Bir aylıq yolu o, bir günə qət edib tezliklə Küskün-Kücürə-xanın aalına gəlib çatdı. Xanın çadırının qarşısında yeddi ağ çadır qurulmuşdu. Eker-ool atını aparıb ən axırıncı çadırın kənarında bağladı. Və özü içəri girdi. Bir tərəfdə on beş oğlan igeldə çalır, o biri tərəfdə on beş qız mahnı oxuyurdu. Onların arxasında dayanmış on beş qız xomusda çalır, on beş oğlan isə boğaz mahnısını ifa edirdi. Gözəl qız oğlanı qarşıladı, ona olbuğu təklif etdi,onu ət yeməyinə, çaya, qəndə və kökəyə qonaq etdi.

Səhəri günü bahadır xanın yanına gedib bahalı dəriləri ona təqdim etdi.

– Əyləş, əyləş, kürəkən, qonaq ol!– xan dedi və doqquz buludun içində olan növbənöv yeməkləri onun qarşısına qoydu.

Səhəri gün xan öz kürəkənlərinin ağlını və şücaətlərini yoxlamaq məqsədilə onları toplayıb dedi:



– Şil-Tayqada yaşayan Dəmir-Ala maralı* mənim üçün öldürün. Onun dərisi və buynuzları mənə çox lazımdır. Kim maralı birinci öldürsə, o da arvadını heyvanları, nökər-naibini, birinci götürüb evinə qayıdacaq.

Kürəkənlər yola hazırlaşmağa başladılar. Onlar atlarının daha dözümlü, daha möhkəm olması üçün otlaqda saxladılar ki, təzə ayın ilk günündə onları minib Şil-Tayqaya getsinlər.

– Xanın əmri nə idi? – gözəl qız Eker-ool evə qayıdanda soruşdu.

– O, əmr elədi ki, Şil-Tayqada yaşayan Dəmir-Ala-maralı vuraq.

– Şil-Tayqaya qalxa biləcək elə bir atın olduğunu heç ağlına da gətirmə. Dəmir-Ala-maralı vuracaq adamın tapılmağına da heç inanma! Qoca ananın evdə səni gözlədiyini xana niyə demədin? Sənin evə tez qayıtmalı olduğunu niyə söyləmədin? Xana de ki, sən getməyəcəksən, – gözəl qız xahiş etdi.

– Əgər bir kişi bir heyvanı öldürə bilmirsə, o kişi arvad ala bilərmi? Əgər bir at tayqaya qalxa bilmirsə, o at kişinin nəyinə gərəkdir? Mən getməyə bilmərəm! –Eker-Ool dedi.

Ayın ilk günündə, günün başlanğıcında yeddi kürəkən yay və oxlarını götürüb Şil-Tayqaya yola düşdülər. Nə qədər yol getdikləri məlum deyil. Altı kürəkənin atı yoruldu, əldən düşdü, Eer-Sarın nəinki yoruldu, hətta bir az da piyləndi. Kürəkənlər qəmgin idilər, başlarını sallayıb yol gedirdilər, amma Eker-Ool isə gülə-gülə, mahnı oxuya-oxuya yol gedirdi. Bu da Şil-Tayqa. Kürəkənlər ocaq qalayıb, istirahət etməyə başladılar.

– Tayqanın o biri tərəfinə gedək, Dəmir-Ala-maralın iyini axtaraq, – Eker-ool dedi.

---

* Demir-Ala-maral-Dəmir-Əbləq-Ala maral.

– Yox, biz gedə bilmərik, bizim atlarımız yorulub, ayaqlarının nalı da yeyilib. Elə biz özümüz də yorulmuşuq. Fikirləşirik ki, aala necə qayıdacağıq.

– Onda siz burda istirahət edin, mən gedim, maralı axtarım.

Eker-ool Şil-Tayqaya gedib çıxdı. O, çox nəhəng dəmir maralı gördü.

– Ey mənim oxum, Dəmir-Ala-maralın ürək-ciyərini deşib keç! – igid oğlan dedi və tətiyi çəkdi.

Ox heyvanın keçəl qoltuğuna dəydi, onu deşib, o biri tərəfdən çıxdı. Maral üzüaşağı elə qaçdı ki, yer titrədi. O, Tayqanın ayağına çatanda yıxıldı. Eker-ool xanın kürəkənlərinin yanına gəlib dedi:

– Mən o maralı öldürdüm. Maral bu yaxınlıqda yerdədir, gedək, birlikdə dərisini soyaq.

Xanın kürəkənləri bu heybətli vəhşi heyvana uzaqdan baxıb, tir-tir əsməyə başladılar, qaçıb uzaqlaşdılar. Eker-ool özü heyvanın dərisini soydu, buynuzlarını kəsdi və dedi:

– Heyvanın ətini atlara yükləyin, evə gedək.

– Yox, yaxşısı budur, bu əti burda yeyək, istirahət edək, güc toplayaq. Sənsə qabaqca get, – xanın kürəkənləri dedilər.

Eker-ool tək getdi. O, Dəmir-Ala-maralın dərisini və buynuzlarını xana təqdim etdi. Xalq bahadıra məftunluqla baxırdı.

– Bəs mənim o biri kürəkənlərim hanı? – xan soruşdu.

– Onlar çox yorulmuşdular. Atlarının nalı da yeyilib. Onlar Şil-Tayqada istirahət edirlər, – Eker-ool cavab verdi.

– Yer üzündə mənim kürəkənim kimi qoçaq, cəsarətli bir adam ola bilməz! Şil-Tayqaya nə qədər igid gedibsə də, heç kim Dəmir-Ala-maralı öldürə bilməyib! Mənim kürəkənimin bayramını qeyd edəcəyik! – xan dedi.

Bayramdan sonra Eker-ool xanın yanına gəldi.

– Mənim qoca anam boş aalda tək yaşayır. O, kasıbdır. Mən evə, onun yanına getməliyəm.



– Mənim sürülərimdən istədiyin qədər heyvan, var-dövlətimdən də xeyli dövlət götürə bilərsən, – xan dedi.

Verilmiş payları doqquz dəvəyə yükləyib, yola çıxdılar. Yarı yolda Eker-ool qabağa geti ki, köçü üçün yer hazırlasın.

– Yol nə qədər düz olsa, siz o yolu yaxşı gedəcəksiz, əgər yol burulsa, onda qalıb gecələyin, – dedi.

Evə gələndə başına gələn bütün sərgüzəştləri anasına danışdı. Tezliklə onun aalı gəlib çıxdı. O, əhalisinə harada yaşayacağını, harada heyvan saxlayacaqlarını onlara göstərib, hər şeyi başa saldı. Bir dəfə o, anasından soruşdu: "Necə olub ki, anam insanlardan aralı düşüb (belə ucqar, uzaq bir yerdə) tək yaşayıb?"

O, anasının alaçığına gəlib soruşdu:

– Ana, mənim atam haradadır? Necə olub ki, sən dostsuz, mal-qarasız burda tək-tənha yaşamısan?

– Hə oğlum, mən sənə hər şeyi danışmalıyam, – ana cavab verdi. – Mən yetiməm. Mənim nə qohumum, nə də mal-qaram olub. Mən aalları gəzib, paltar tikmişəm. Çox yaxşı tikdiyimdən məni Şevel-Çeçen çağırırdılar. Bir dəfə Şujən-xanın mənim tikdiyim paltarlardan xoşu gəldi və o, məni özünə qulluqçu götürdü. Mən onun yanında yeddi il işlədim. Mən hamilə olanda o, məni ən ucqar yerə köçürməyi əmr elədi. Danaları otaran Bızaakay-Taraakay çoban məni bura gətirib, bir alaçıq tikdi, mənə polad bıçaq verdi. Onu da sən gəzdirirsən. Sənin atan yoxdur. əgər kiməsə ata demək istəsən Bızaakay-Taraakay qocaya ata deyə bilərsən. Mən onunla xudahafizləşəndə ona dedim:"Mənim oğlum nə vaxtsa sizə kömək edəcək",

Eker-ool xalqının başçısını, qırmızı tülkü dərisindən papaq geyən ağsaqqal Qızıl-Çirtağı yanına dəvət etdi:

– Qızıl-Çirtağ, elə bir iş yoxdur ki, sən onun öhdəsindən gəlməyəsən. Sənin Qızıl-Şəkər atının ayağı dəyməyən ölkə yoxdur. Get, Şuujən-xanın yanına, soruş, gör, o, niyə mənim

hamilə anamı yeddi il işlədib pulunu vermədən, evdən qovub? Niyə onu insan ayağı dəyməyən bir yerə aparılmasını əmr edib? Ona de ki, əgər mənimlə vuruşmaq istəyirsə, qoy hazırlaşsın! Üç gündən sonra mən gəlib ondan intiqamımı alacağam.

Qoca Qızıl-Çırtağ Şuujən-xanın yanına gəldi.

– Sən kimsən, kimin nökərisən? – xan soruşdu.

– Məni bahadır Eker-ool göndərib. – Və qoca öz sahibinin bütün sifarişini xana çatdırdı.

Xanın qanı qaraldı. O həyəcanlandı və fikrə getdi.

– Bəli, bu mənim səhvimdir, – dedi. – Eker-ool bahadır gələndə mən onunla danışmayacağam.

Qoca getdi. Xan bütün cümətləri bir yerə yığıb dedi:

– Nə vaxtsa mən hamilə Şevel-Çeçeni qovmuşam. Amma o, ölməyib. İndi onun oğlu Eker-Ool üç gündən sonra bura gəlib məndən intiqam alacaq. Ordunu yığın. Biz ilan deyilik ki, uzanan yerdə ölək! Biz ayaq üstə vuruşub öləcəyik!

– Yox, – cümətlər dedilər, –biz ölmək istəmirik.

– Amma biz Eker-Oola qalib gələ bilməyəcəyik. Xan, məgər siz eşitməmisiniz ki, o cənubda yaşayan Küskün-Kücürə-xanın kiçik qızıyla evlənib. Məgər eşitməmisiniz ki, o, Şil-Tayqada yaşayan Dəmir-Ala maralı öldürüb? Bir də siz necə xansınız ki, hamilə qadını cinayətkar kimi tayqanın xəlvəti yerinə sürgün etmisiz? Əgər o burda yaşasaydı oğlu sizin bahadır, sizin köməkçiniz olardı. Sizlə nə edəcəyini Eker-Ool özü bilər. Amma biz döyüşməyəcəyik!

Qoca Qızıl-Çırtağ Eker-Oolun yanına qayıtdı.

– Xan nə dedi? – bahadır soruşdu

– Xan dedi ki, o, səhv edib. O səninlə danışmaq istəyir, – Qızıl-Çırtağ cavab verdi.

Xan oturub əsirdi.

– İtlər kimə hürür? – o qorxu içində soruşdu.



– Foval ağacı kimi qəddi-qamətli dağ boyda nəhəng bir igid bizə sarı at çapır, – çuğulçu xəbər verdi. – İtlər quyruqları üstə oturub hürürlər.

Bu sözü eşitcək, xan sandığa girib gizləndi. Eker-Ool qapını qamçı ilə açıb dedi:

– Cavanlar böyüyürlər, qocalar qocalırlar,amma qisas heç bir vaxt qocalmır! Mən sizi xəbərdar eləmişdim, xan. Siz görüşə necə hazırlaşmısınız? Sizin döyüşçülər hanı?

– Ah Eker – Ool, məni əhv et! – xan sandıqdan çıxa-çıxa yalvardı.

Eker-Ool xanın bütün cümətlərini qaçırtdı.

– Siz deyin görüm, bu xanla nə edim?! – o, qışqırdı.

– Xan səhf edəndə, onun başını vururlar! – cümətlər bir səslə dedilər.

– Yox, başını vurmayacağıq, – Eker-Ool dedi. – Biz onu arvadı ilə birgə heç kimin yaşamadığı bir yerə göndərəcəyik.

Xanı arvadı ilə birlikdə dəvəyə mindirib uzaq tayqaya yola saldılar. Qoca Bızaakay-Taraakay xan oldu – bunu Eker-Ool belə qərara aldı. Xan oğluna isə Bızaakayen adını verib, onu dana otarmağa yolladı. Xan qızları qulluqçu oldular. Eker-Ool böyük xan üçün ziyafət verdi. Məclis üçün arağın ən tündünü, yeməyin isə ən dadlısını təşkil elədi.

Sonra evə dönüb, atı otlamağa göndərdi.

– Əbədi bulağın soyuq suyundan iç, doğma tayqanın ətəklərindən ən yaşıl otları otla. Güc topla.

Özü isə ən möhkəm, diş batmaz bir bahadır oldu. Nə aşağı dünyanın ərlikləri, nə də yuxarı dünyanın odlu oxları onun heç vecinə deyildi. O, çox xoşbəxt və uzun bir ömür yaşadı. Nə qədər ki, o yaşayırdı, yarğanlar bir az da uzanır, dərələr isə bir qədər də dərinləşirdi.

## ÜÇ QARDAŞ

Nə vaxtsa yer üzündə üç qardaş yaşayırdı. Onların aman-zaman bir atları var idi. Bir dəfə qardaşlar yuxudan qalxanda kiçik qardaş dedi:

– Bizim atı oğurlayıblar.

Ortancıl qardaş dedi:

– Tez olun onun iziylə gedək.

Böyük qardaş dedi:

– Tələsmək lazım deyil. Gəlin əvvəlcə çay dəmləyək, içək və fikirləşək.

Onlar çay dəmləyib, içdilər və fikirləşdilər.

– Bizim atı çayın o biri sahilinə aparıblar, – böyük qardaş dedi.

– Bizim atı çayın o biri sahilindəki alaçıqdan olan adam aparıb, – ortancıl qardaş dedi.

– Bizim atı aparan adamın adı Oodeçikdir, – kiçik qardaş dedi.

Onlar üçlükdə Oodeçikin yanına getdilər.

– Sən bizim atımızı oğurlamısan. Qaytar onu! – qardaşlar dedi.

– Siz necə sübut edə bilərsiz ki, atı mən oğurlamışam? Sizin şahidiniz hanı?

– Bizim şahidimiz yoxdur, bunu biz özümüz başa düşdük, – qardaşlar cavab verdi.

– Əgər siz belə fərasətli, diribaşsınız, diqqətli müşahidəçisinizsə, onda gəlin, mən bir şeyi gizlədim, siz isə onu tapın.

Qardaşlar alaçıqdan çıxdılar. Oodeçik hörümçəyi tutub altında gizlətdi.

– Gəlin! – deyə qışqırdı.

Qardaşlar gəldilər.



– Siz xalçanın altında nəsə gizlətmisiniz, – böyük qardaş dedi.

– Nəsə uzun barmaqlıdır, – ortancıl qardaş dedi.

– Bu hörümçəkdir! – kiçik qardaş dedi.

– Mən sizə inanmıram. Siz yəqin baxırdınız. Gəlin təzədən başlayaq. Düzə çıxın, bir az uzağa gedin, – Oodeçik dedi.

Qardaşlar alaçıqdan çox uzaqlaşdılar. Oodeçik sandıqda bir itburnunun meyvəsini gizlətdi.

– Bura gəlin! – o, qardaşları səslədi.

Qardaşlar içəri daxil oldular.

– Siz sandıqda nəsə gizlətmisiniz, – böyük qardaş dedi.

– Nəsə giləmeyvədir, – ortancıl qardaş dedi.

– Bu itburnudur, – kiçik qardaş dedi.

Oodeçik belə qərara gəldi ki, bu qardaşlar nəsə qeyri-adi adamlardır, onlardan küsmək olmaz. Oğurladığı atı gətirdi. Qardaşların üçü də atı minib çölə tərəf getdilər. Çayın sahilində bir iz gördülər.

– Arabanın təkəri sınıb, – böyük qardaş dedi.

– Onların dəvəsi kor, atın isə quyruğu qısadır, – ortancıl qardaş dedi.

– Sahibin bir qızı var, arvadı isə hamilədir, – kiçik qardaş dedi.

Tezliklə onlar köçərilərə çatdılar. Sahib dala qaldı. Qardaşlar ona yanaşdılar.

– Sənin arabanın təkəri sınıb, dəvən kordur, bir qızın var, arvadın isə hamilədir, – onlar dedilər.

Sahib məəttəl qaldı.

– Dediklərinizin hamısı düzdür, – o, dedi. – Siz haradan bildiniz?

– Biz izə baxdıq, – qardaşlar cavab verdilər.

Sahib onları çaya dəvət etdi. Qardaşlar yollarına davam elədilər. Gəlib xan aalına çatdılar. Onlar xanın alaçığına girdilər.

– Siz kimsiniz, harda yaşayırsız? – xan soruşdu.

– Bizim aalımız yoxdur, –böyük qardaş cavab verdi.

– Biz tək bir atımızla ölkələr dolaşırıq, – ortancıl qardaş dedi.

– Sizin aalı görüb, gecələmək üçün bura döndük, – kiçik qardaş dedi.

– Bizim yanımızda boş alaçıq var, – xan dedi. – Orda çörək yeyib gecələyə bilərsiz.

Qardaşlar alaçığa gəldilər. Onlara ət və araq verdilər. Xan öz qulluqçusunu onların alaçığına göndərib, qardaşların nə haqda danışacaqlarını öyrənib bilmək istədi.

– Siz elə bilirsiz, bizi xan qəbul etdi? Xeyir, biz adi adama baş əydik, böyük qardaş dedi.

– Siz elə bilirsiz, bizə araq verdilər? Xeyir, biz su içdik, – ortancıl qardaş dedi.

– Siz elə bilirsiz, bizə qoyun əti yedirtdilər? Xeyir, yediyimiz it əti idi, – kiçik qardaş dedi

Çuğulçu qaçıb xana xəbər apardı.

– Ac, yalavac səfillər! – xan qışqırdı. – Onlar ölümün pəncəsində idilər, mən onları yedirtdim, içirtdim, indi də onlar mənim təamlarımı ələ salır, məni də adi insan adlandırırlar! Əmr edərəm, onların başı vurulsun! – Sonra o, nə fikirləşdisə əvvəlcə anasından həqiqəti öyrənmək qərarına gəldi: bəlkə qardaşlar haqlıdırlar.

O, anasının yanına gəldi.

– Ana, axı, bu qardaşlar xana təzim etdilər, amma deyirlər ki, adi, sadə adama təzim ediblər. Onlar niyə belə dedilər?



– Xan, mənim ərim uzun müddətə tayqaya gedib. Sənin atan sadə insandır. Onlar ona görə belə deyiblər, – ana cavab verdi.

– Axı, mən onlara qoyun əti vermişdim. Onlar deyir ki, ət it ətidir. Onlar niyə belə deyirlər?

– Keçən ilin yazında o quzunun anası ölmüşdü. Onu itin yanına buraxdıq, it də onu əmizdirdi. Dünən kəsilən quzu itin əmizdirdiyi həmin quzu idi. Onlar ona görə belə deyiblər.

– Axı, onların içdiyi araq idi! Amma deyirlər ki, su idi. Onlar niyə belə deyirlər?

– Qardaşlara verdiyimiz arağı qışda qaynadıblar. Həmin qaba da buz qoymuşdular. Buz də arağa qarışıb deyə, onlar belə deyiblər.

Xan məəttəl qaldı və dedi:

– Bunlar adi qardaşlar deyillər. Bu qardaşlar, həqiqəti görməyi bacaran qardaşlardır.

Xan əmr etdi ki, onları layiqincə qonaq etsinlər və hörmətlə yola salsınlar. Qardaşlar üçlükdə bir atı minib çölə tərəf getdilər ki, səyahətlərini davam etdirsinlər

## KOOLU-SƏNDƏK

Çox qədim zamanlarda Koolu-Səndək adlı bir oğlan yaşayırdı. Bir dəfə o, fikirləşdiki, artıq xanın yanına getmək vaxtıdır, özünü ona təqdim edib tanıtmaq lazımdır. O, qısa ayaqlı, yeganə boz atını minib, Ay-xanın alaçığına tərəf gəldi. İçəri girib, ədəblə salamlaşdı və ocağın kənarında əyləşdi.

– Sən kimsən, niyə gəlmisən? – xan soruşdu.

– Mən Koolu-Səndəyəm. Fikirləşdim ki, xanın təbəəsi özünü ona təqdim etməlidir.

– Düzdür, düzdür, – xan dedi və ət dolu sinini onun qabağına çəkdi.

Koolu-Səndək yeməyə başladı. Ona iri bir sümük düşdü. Sümüyü götürüb əlində o tərəf, bu tərəfinə baxdı və narahat halda ətrafa boylandı.

– Sən nə axtarırsan? – xan soruşdu.

– Mən elə bir şey axtarıram ki, bu sümüyü onun üstündə sındıra bilim, – oğlan cavab verdi.

Xan sandıqdan əlli lanlıq gümüş, böyük bir pul çıxartdı.

– Al, sümüyün altına qoy!

Koolu-Səndək pulu götürüb, yenə ətrafa boylandı.

– İndi nə axtarırsan? – xan soruşdu.

– İndi də sümüyü nə ilə sındıracağımı axtarıram, – oğlan cavab verdi.

Xan sandığa girib, bir dənə də həmin puldan götürüb, oğlana atdı.

– Al, vur, sınsın!

Koolu-Səndək sümüyü sındırdı, iliyi sorub uddu, hər iki gümüşü pulu qoltuğuna qoyub, sağollaşdı və yoluna davam elədi. Xan söz də deməyə vaxt tapmadı. O, hirslənib nökəri çağırdı.



– Mən Koolu-Səndəyə yüz gümüş lan verdim ki, sümüyü sındıra bilsin, amma pulları qoltuğuna qoyub getdi. Qaç onun dalınca, pulları geri al!

Nökər Koolu-Səndəyi evində tapdı.

– Bizim xan sənə yüz lan pul verib. Mən onun dalınca gəlmişəm!

– Xan verdiyini geri almamalıdır. Sözlərimi beləcə də xana çatdır, – oğlan dedi.

Nökər evə qayıdıb Koolu-Səndəyin sözlərini Ay-xana çatdırdı. Xan fikrə getdi. "Onu nədəsə günahlandırmaq, sonra da başını vurub, pulları geri götürmək lazımdır. Amma onu nədə günahlandırım?" – xan bütün gecəni fikir elədi. Səhər tezdən qışqırdı:

– Qoy on nəfər rəis və on nəfər məmur yanıma gəlsin!

On rəis gəldi. On nəfər məmur da qaçaraq gəldi! – xan dedi:

– Mən Koolu-Səndəyi nədəsə suçlamalı və onun başını vurmalıyam. On nəfər rəis. On dənə eyni tütün qutusu götürün və onları eyni vaxtda Koolu-Səndəyə tərəf uzadın. Diqqət yetirin ki, qutuları qaytaranda o, heç birini səhv salmasın. Əgər qutuların yeri səhv düşsə – başını vurun! On nəfər məmur! Koolu-Səndək gələndə on ədəd eyni qəlyanı çəkin və onunu da eyni vaxtda Koolu-Səndəyə tərəf uzadın. O, qəlyanları çəkib qaytaranda, fikir verin ki, heç birinin yerini səhv salmasın! Əgər səhv salsa-başını vurun! Və bir də! At bağlanan yerə qoyun peyini töküb, üstünü su ilə doldurun. Koolu-Səndək atını bağlayanda, ona göz qoyun, əgər oğlan sürüşsə, onda oğlanı günahlandırın ki, o, xana yox, dirəyə baş əyib. Onun başını vurun! Əgər o, hər hadisədən canını salamat qurtarsa, qəfildən piyaləni qaynar çayla doldurub, əlinə verin. Əgər piyalədən bir

damla da olsun çay yerə dağılsa, onu xana hörmətsizlikdə günahlandırın və başını vurun!

Səhəri günü iki nökər Koolu-Səndəyin ardınca getdi. İki nəfər at bağlanan yeri doldurdu. On rəis hazırlaşırdı. On məmur da qəlyanları çəkirdilər.

Yolda nökərlər oğlana dedilər:

– Sən gərək, xanın at bağlanan yerində dayanasan.

Koolu-Səndək atdan düşüb onu tez bağladı. Arxaya addımlayanda, az qaldı səndirləsin. Gülə-gülə dedi:

– Az qalmışdı səndirləyəm, az qalmışdı xanın yerinə dirəyə salam verəm!

O, xanın alaçığına girib dedi:

– Salam, xan! Salam on rəis, salam on məmur.

Elə bu anda on rəis on tütünü ona tərəf uzatdı. Koolu-Səndək onları alıb, qoxulayıb geri qaytardı. Bu vaxt məmurlar ona on qəlyan verdilər. Oğlan növbə ilə hər qəlyanı sinəsinə çəkib, hörmətlə-izzətlə geri qaytardı. O, gözünü qırpmağa vaxt tapmamış, arxadan kimsə yaxınlaşdı, içi ağzına kimi qaynar çayla dolu piyaləni ona tərəf uzatdı. Koolu-Səndək qoltuğundan bir təsbeh çıxarıb ovcuna qoydu, piyaləni isə təsbehin üstünə qoyub rahat çayını içdi. Sonra alaçıqdan çıxıb qısa ayaqlı boz atını minib evinə getdi.

– O, heç nəyi səhv salmadığı üçün onu günahkar bilmədik, – on rəis xana dedi.

– O, səhvə yol vermədi, biz də onu heç nədə suçlaya bilmədik, – xanın on məmuru dedi.

– Bu necə lənətə gəlmişdir? – xan bağırdı, – eyib etməz. Sabah mən böyük xana – günəş xanı–Xyun-xana təqdim olunmalıyam. Bu oğlanı özümlə aparacağam. Onu yolda yəqin ki, nədəsə günahlandıra bilərəm!

Ertəsi günü nökər Koolu-Səndəyi xanın yanına gətirdi.



– Mən böyük Xyun-xana təqdim olunmağa gedirəm, – Ay-xan dedi. – Sən mənimlə gedəcəksən. – O, başı qotazlı hündür papağını başına qoydu, atını minib cənuba tərəf yol aldı.

Koolu-Səndək xanın ardınca tələsdi. Onlar sarı enli çöllə yol gedirdilər. Külək əsirdi. Əsən külək süpürgə kollarını qovaraq çöl boyu diyirlədirdi.

– Oğlan, get, soruş gör, onlar hardan gəlib, hara diyirlənirlər? – xan dedi, özü isə fikirləşdi: "Əgər o, desə ki, bu şeytanın-papağıdır, mən onun başını vuracağam".

Koolu-Səndək gah bu kolun, gah da o kolun dalınca qaçdı.

Geri qayıdanda o, dedi:

– Onlar mənə belə cavab verdilər: "Biz baharın orta ayında torpaqdan çıxmışıq, amma payızın orta ayında torpaqdan ayrılmışıq. İndi isə yarğana tələsirik, çünki bütün qardaşlarımız orada cəmləşəcək".

Xan dilini dişlədi. Yollarına davam etdilər. Xan dağın başında ağ qarı gördü.

– Oğlan, get, soruş gör, dağın başında duran ağ atlı haradan gəlib, hara gedir? – xan dedi, özü isə fikirləşdi: "Əgər o, desə ki, bu qardır, mən onun başını vuracağam".

Koolu-Səndək dağa tərəf getdi. O, dağın ətəklərində xeyli durdu. Qayıdanda isə dedi:

– Ağ atlı mənə dedi: "Mən bir vaxtlar, payızın orta aylarında yuxarı dünyadan gəlmişəm, baharın orta ayında isə aşağı dünyaya gedəcəyəm",

Xan yenə də dilini dişlədi. Yollarına davam etdilər. Qarşıdan zil qara ayğırda qara ipəkdən xələt geymiş qara bir adam onlara tərəf çapırdı. Ay-xan atdan sıçrayıb düşdü, qara adama təzim etdi, yanına qaçıb onunla söhbətləşdi.

Koolu-Səndək atın üstə qaldı. Qara adam Koolu-Səndəyə baxdı.

– Bu nə təhər itdir ki, yanında gəzdirirsən? – deyə o, Ay-xana qışqırdı və atının başını döndərib çaparaq getdi.

Ay-xan oğlanla aula qayıtdı.

– Mənim rəislərim və məmurlarım! – xan qışqırdı. – Koolu-Səndək – cinayətkardır! Onun başını vurmaq vaxtıdır. O – mənim nökərim, gördü ki, mən Xun-xana necə təzim elədim. Bu isə heç atdan da düşmədi. Aparın, onu edam edin.

Rəislər və məmurlar oğlanın qolundan tutub apardılar. Koolu-Səndək onlara dedi:

– Məgər bu Xun-xanın özü idi? Ola bilməz! Ona tabe olan Ay-xan belə özü ilə nökərini, yəni məni aparırdı. O isə tamam nökərsiz, özü də qara ayğırda tək idi. Mən elə fikirləşdim ki, "bu hansısa xanın nökəridir".

Rəislər və məmurlar məəttəl qaldılar.

– Əgər sən yalan danışırsansa, biz sənin başını vuracağıq! – ona dedilər.

– Gedin, xanın özündən soruşun, mənim fikirlərim düzdür, ya yalan, – oğlan cavab verdi.

Rəislər və məmurlar Ay-xanın yanına qaçdılar.

– Xun-xan tək gedirdi, yoxsa nökərlə? – rəislər soruşdu.

– Tək, – xan cavab verdi.

– Xun-xan qara ayğırda tək gedirdi? – məmurlar soruşdular.

– Bəli, qara ayğırda tək idi, xan cavab verdi.

– Koolu-Səndək, düz deyir, – rəislər dedilər.

– Bəli, o, düz deyir, biz onun başını vurmayacağıq, – məmurlar dedi.

Və onlar hazır cavab oğlanı azad etdilər.



## ORLAN-OOL VƏ ÇEÇEN-KIS

Çox qədim vaxtlarda uzaq xanlıqların birində bir tayfa yaşayırdı. Tayfada iki varlı var idi: Böyük varlı – Uluq-bay, kiçik varlı Biçe-bay və iki də hakim var idi. Birinci hakim ikincidən bir rütbə yuxarı, ikinci isə birincidən bir rütbə aşağı idi.

Bu tayfada Çolben adlı bir qoca oğlu Orlan-oolla birlikdə yaşayırdı. Onların bir inəyi və bir dənə də keçisi var idi.

Bir də bir Balaytık adlı bir qoca var idi. Onun Çeçen-kıs* adlı qızı tayfanın ən gözəl qızı idi. Onların nəinki heyvanı, hətta alaçığın qapısına bağlanan bir itləri də yox idi. Qoca hər gün meşəyə gedib yeməli ot kökləri axtarır, qızı isə mahir usta olduğundan dövlətli adamlara qara ipəkdən xələtlər və qara dəridən idiklər iki, beləcə sadə yaşayırdılar.

Qoca Çolben və Balaytıq qonşu idilər. Onlar tez-tez biri-birilərinə qonaq gedər, uzun söhbətlər edərdilər. Bir dəfə də sözü o yerə qoydular ki, uşaqlarını evləndirsinlər.

Bu söz-söhbət Biçə-bayın qulağına çatdı.

– Görəsən, doğrudanmı yolçu Çolben öz səfil oğluna Orlan-ool kimi gözəli nişanlayacaq?! – o qışqırdı, – Yox! Gözəl Çeçen-kıs mənim oğlumun arvadı olacaq!

Bu söz-söhbət Uluq-bayın da qulağına çatdı:

– Yox! Çeçen-kıs mənim oğlumun arvadı olacaq, – o, dedi. – Axı, mənim malım, dövlətim, qızılım və gümüşüm Biçe-baydan çoxdur. Gərək o, özü də məndən ehtiyat edib gözəli nişanlamasın. Mən sabah qoca Balaytıkın yanına gedəcəyəm.

Ertəsi günü Uluq-bay arvadına dedi:

– Kasıba yaxşı hədiyyələr bağışlamaq nəyə gərəkdir? Ona elə bir tikə pendir, bir tuluq da araq bəs edər. Axşam da Çeçen-kısı götürüb gələrəm.

---

* Çeçen – Kis – Gözəl qız

Biçə-bay da Balaytıkın evinə getməyə hazırlaşırdı. O, keçi ayaqlarını bişirib, bir tuluq da araq götürüb yola düzəldi.

Elə bu vaxt qoca Çolben axırıncı keçisini kəsib bişirirdi, xeyirxah adamlardan da bir tuluq araq xahiş edib, bunları Balaytığa pay götürdü. Onlar araqdan vurdular, yeyib-içib bayram etdilər və çox uzun-uzadı söhbətə başladılar.

Uluq-bay gəldi. Biçə-bay gəldi. Hər ikisi oğulları üçün gözəlin elçiliyini etdilər.

Qoca Balaytıq bilmirdi ki,neyləsin. Dövlətlilərə etiraz etməkdən qorxurdu, dostunun da ürəyini qırmaq istəmirdi. O, ora-bura qaçmağa başladı: gah alaçıqdan çölə çıxır, gah da içəri girirdi. Elə hey fikirləşir, fikirləşirdi.

Çeçen-kıs soruşdu:

– Sizə nə olub, ata? Siz elə bil özünüzü itirmisiz? – Eh, qızım! Dərd çəkməli bir adam varsa, o da mənəm! Uluq-bay də, Biçə-bay da – hər ikisi səni oğullarına nişanlamaq istəyirlər. Axı, mənim dostum Çolben də burada əyləşib. İndi bilmirəm kimə etiraz edim, kimə razılıq verim.

– Eh, ata, burda dərd çəkməli heç nə yoxdur. Onların gətirdikləi hədiyyələri qəbul elə və hamısına da de ki, cavabı üç gündən sonra bilərlər.

Qoca Balaytıq alaçığa qayıtdı və qızının dediyi sözləri qonaqlara çatdırdı. Elçilər hədiyyələri qoyub getdilər.

– Qoca üç gündən sonra razlığını mənə verəcək, – Uluq-bay dedi. Biçə-Bay, mənim var-dövlətimin müqabilində sən özünü mənə tay tutursan?

– Sən Uluq-bay olsan da, sən hamıdan dövlətli olsan da, sən yox, qocaya əti və keçi ayaqlarını mən pay gətirdim. Qoca razılığı mənə verəcək! – Biçə-bay dedi.

Onlar yol boyu dalaşa-dalaşa getdilər.



Yazıq Çolben fikirləşdi: "Mən baylarla ayaqlaşa bilmərəm!.. Doğrudanmı gözəl Çeçen-kıs onlardan birinin gəlini olacaq?

Üç gündən sonra bayın nökərləri cavab almaq üçün Balaytığın evinə gəldilər.

– Ata, onlara deyin ki, oğlanları üç aydan sonra hədiyyələri ilə bizim alaçığa gəlsinlər. Kimin hədiyyəsi yaxşı olsa, o da mənim ərim olacaq, – deyib Çeçen-kıs atasını vəziyyətdən çıxartdı.

Qoca Balaytıq nəticəni nökərlərə elan etdi.

Uluq-bay oğluna əlli gümüş pul verdi.

– Get satıcıların yanına. Ürəyin nəyi istəsə nişanlın üçün al.

Biçe-bay oğluna qırx gümüş pul verdi. Qoca Çolben də tək inəyini beş lana satıb onları Orlan-oola verdi.

Hər üç oğlan bazara gedib ən qiymətli hədiyyələri axtarmağa başladılar. Onlar çox axtardılar. Artıq üç ay qurtarırdı. Nəhayət, onlar möhkəm poladdan düzəldilmiş səkkiz təkərli, gözəl bəzəkli arabanı gördülər. Onun qiyməti əlli lan gümüş pula idi.

– Niyə belə bahadır? – bay oğulları soruşdular.

– Çünki atsız arabanın özü üç aylıq yolu üç günə qət edir, – satıcı cavab verdi.

Arabanı Uluq-bayın oğlu aldı.

Sonra onlar gümüş çəmbəri olan güzgünü gördülər. Onun qiyməti qırx lan gümüş pula idi.

– Niyə belə bahadır? – bay oğulları soruşdular.

– Çünki bu güzgüdən dünyanın istənilən guşəsi görünür, – satıcı cavab verdi.

Güzgünü Biçe-bayın oğlu aldı.

Orlan-ool fikirləşdi ki, artıq ən yaxşı hədiyyələri aldılar. Amma buna baxmayaraq o, axtarmaqda davam edirdi. O, bir çinliyə yaxınlaşdı. Çinli dərman bitkiləri satırdı. Onun çox da

böyük olmayan taxta mücrüsü var idi. Mücrünün qiyməti iyirmi beş lan gümüş pula idi.

– Niyə belə bahadır? Orda nə var? – oğlan soruşdu.

– Bu tozda – bütün doqquz silsilə dağların dərman otları toplaşıb, – çinli cavab verdi. – Otları qızıl həvəngdəstədə döyüb, ən narın ələkdən keçiriblər. Bu tozda üç gün əvvəl ölmüş adamı dirildə biləcək güc var.

Orlan-ool mücrünü aldı. Bay oğulları onun aldığı hədiyyəyə gülüb, öz hədiyyələrini tərifədilər. Biçə-bayın oğlu güzgünü qaldırıb dedi:

– Güzgüm mənim, bir göstər görüm gözəl Çeçen-kıs indi haradadır? Güzgü köhnə alaçığı göstərdi. Gözəl Çeçen-kis ölmüşdü. Qoca Balaytıq meyidin yanında oturub göz yaşı tökürdü.

Bay oğulları dedilər:

– Səkkiz təkərli arabada gedək, – basdırılmağa çatarıq. Onu özümüzlə götürməyək.

– Məni də götürün, Orlan-ool xahiş etdi. – Axı, məndə dərman otları var, Çeçen-kısı mən ayılda bilərəm.

Bay oğulları Orlan-oolun üstünə atıldılar ki, tozu onun əlindən alsınlar. Orlan-Ool özünü itirməyib onların kəmərlərindən yapışıb torpağa sıxdı. Uluq-bayın oğlu dedi:

– Yaxşı, sən də arabada gedəcəksən, amma araba sınsa, sən əlli il mənə nökərlik edəcəksən.

Orlan-ool razılaşdı. Biçə-bayın oğlu dedi:

– Əgər sənin dərman tozun Çeçen-kısı diriltsə, onda belə fikirləşirəm ki, bizim atalarımız sənin iyirmi beş lanını qaytarmağa razılaşacaqlar.

Üç gündən sonra səkkiztəkərli araba aula gəlib çıxdı. Orlan-ool bütün tozu qızın ağzına səpdi. Toz dərmanı doqquz sıra dağın dərman otlarından hazırlanmışdı. Qız dərmanı qəbul elən kimi ayıldı.



Və yenə də Uluq-bay, Biçə-bay və yazıq Çolben mübahisə etməyə başladılar: gözəl Çeçen-kıs kimin gəlini olacaq.

– Ən başlıca hədiyyə səkkiztəkərli arabadır, – Uluq-bay dedi, – onlar onun hesabına vaxtında evə çata bildilər.

– Xeyir, – ən başlıca – güzgüdür, – Biçə-bay dedi. – Onlar Çeçen-kısın xəstə olduğunu hardan bilərdilər ki? Hər üçü hakimin yanına getdi. Hakimlər çox fikirləşdilər və kiçik hakim təklif etdi:

– Çeçen-kısı çağırmaq lazımdır. Qocaların mübahisələrini qız özü həll edə bilər.

Çeçen-kıs dedi:

– Mən bu mübahisəni həll edə bilmərəm, ona görə ki, onlar mənim haqqımda mübahisə edirlər. Amma mən hakim olsaydım, bu mübahisəni ən çox ziyana düşmüşün xeyrinə həll edərdim.

Baş hakim bayları və qocanı yanına çağırdı.

– Sənin oğlun heç bir ziyan çəkməyib –, Uluq-baya dedi. – İndi onun sehirli arabası var. O, Çeçen-kısa evlənməyəcək.

– Sənin oğlun da heç bir ziyan çəkməyib, – Biçə-baya dedi. – İndi onun sehirli güzgüsü var. O da Çeçen-kısa evlənə bilməz.

– Sənin oğlunda isə heç nə qalmadı, – hakim Çolben qocaya dedi. Müalicəvi tozla gözəl qızı diriltdi. O da Çeçen-kısla evlənəcək.

Bununla da mübahisə bitdi. Bütün tayqa Orlan-oolla Çeçen-kısın toyuna yığılmışdı. Və cavanlar bu xoşbəxtlikdən məmnunluq, xalq isə sülh və əmin-amanlıq hissi duydular və xoşbaxt yaşadılar.

## HAZIRCAVAB ORLAN

Bir gün Xaydın-noyona* bir nəfər qonaq gəlirdi. Onlar əyləşib yeyib-içdilər, bayram etdilər. Noyon arağı qızıl piyaləyə töküb Orlan nökəri çağırdı.

– Orlan, get, Arağı allah yolunda qurban ver.

Orlan alaçıqdan çıxdı və arağı yerə tökdü. Amma piyalə əlindən yerə düşüb çilik-çilik oldu.

– Qızıl piyalə hanı, Orlan? – nökər geri dönən kimi noyon soruşdu.

– Siz mənə dediniz ki, mən allah yolunda qurban verim. Mən də piyaləni araqla birgə qurban verdim, – Orlan cavab verdi.

– Axı, mən sənə demədim: "Piyalə ilə birgə qurban ver!" haydı, get, onu tez bura gətir, – noyon dedi.

– Əgər qurban adı ilə verdiklərimizi geri götürsək, Allahın bizə qəzəbi tutar, – Orlan cavab verdi.

– Kəs, küçük! Piyaləni gətirməyi sənə əmr edirəm!

Orlan alaçıqdan çıxdı. Piyalənin qırıqlarına baxıb, əliboş geri döndü.

– Piyalə hanı? – noyon qışqırdı.

– Mənim noyonum, allah arağı içib, piyaləni də varlı olmağınızın şərəfinə yerə vurub çilikləyib.

Noyon qəzəblə Orlana baxıb dodaqlarını dişlədi. Qonaq isə noyona fikir verir, özünü gülməkdən güclə saxlayırdı. Oğlanın hazırcavablığı onun xoşuna gəlmişdi. O, yenidən nəsə eşitmək istədi. Amma noyon bərk qorxdu və daha nökəri ilə bir də danışmadı. Onda Orlan, dedi: – O... dövlətli adamlar–qeyri-adi adamlardır! Onlarda hər şey özünəməxsusdur, xüsusidir və hər xırda şeydə onların varı-dövləti özünü göstərir. Hətta onların

---

* Noyon – Knyaz, Başçı



itləri belə ağayana hürür, daha sadə adamların itləri kimi hürmür.

Noyon dözmədi, fəxr hissindən sinəsi qalxdı.

– Necə, de görüm, mənim itim necə hürür, Orlan?

– O... onun səsi çox ucadır, hürəndə yoğun səslə hürür: "Xonn, Xonn!", sadə adamların iti isə nazik səslə hürürlər: "Xan, xan!"

Noyon sevinclə gülümsündü.

– Deyirsən mənim itim hürəndə: "Xonn! Xonn!" deyir, sadə adamların iti "Xan, xan!" deyir?!

Bu yerdə yadına düşdü ki, Orlan onunla mərc kəsmişdilər ki, o, öz sahibini it kimi hürdürəcək. Noyon isə hələ də sakitləşə bilmirdi. O, öz itinin və kasıbın itinin necə hürdüyünü elə hey təkrar edirdi.

Qonaq fikirləşdi: "Orlan mənimlə sözləşdi ki, sahibinə it peyini yedirəcək. Görəsən o, buna necə nail olacaq? Gözləyək görərik".

Orlan artıq deyirdi:

– Dünyada çox qəribə sehirbazlar və ovsunçular yaşayır. Məsələn, bu yaxınlarda mənim başım elə ağrayırdı ki, az qaldı ölüm. Nə oturmaq, nə də yatmaq mümkün idi. Elə bu vaxt Narın-Şulutu-Başkı mənə bir neçə tikə qəribə dərman verdi. Mən onu içdim, elə o saat da başımın ağrısı kəsdi, eynim açıldı.

– O... bu dərmandan mənə də ver, yoxlayım, Orlan.

– Buyurun, mənim Noyonum. – Və Orlan ona təzim edərək, kəmərini açıb çıxartdığı balaca, boz düyünçəni iki əlində ona tərəf uzatdı.

Noyon bir tikə alıb, yavaş-yavaş çeynəməyə başladı.

– Bəli, onun özünəməxsus, bir az da xüsusi tamı var. Çox güman ki, bu-qeyri-adi təsiredici dərmandır. – Və noyon boz düyüncəyə təzim etdi.

Qonaq baxır, qulaq asır və özünü gülməkdən güclə saxlayırdı. "Bu oğlana bir neçə qəpik pul vermək heç də günah iş olmaz, – o fikirləşdi. – Belə səhnəni harda görmək olar ki?"

Orlan artıq danışırdı:

– Mənim noyonum, siz at qaçırmağı bacarırsız? Yalnız ən cəsarətli və ən iti ağıllı insanlar atı qaçıra bilər...

– Sən necə, bacarırsan? – noyon soruşdu.

– Bacarıram.

Noyon Orlandan hayıf almaq istəyirdi. O, elə hey öz qızıl piyaləsini fikirləşirdi. Noyon dedi:

– Onda bu gecə mənim Kalcan-Şilginimi qaçırt. Qaçırtsan, at sənindir, qaçırtmasan – beş il mənə havayı nökərçilik edəcəksən.

Orlan razılaşıb evinə getdi.

Noyon iki cümətinə tapşırdı ki, atı qorusunlar. Atı yarım gecə kök cümət, yarım gecə də arıq cümət qorumalı idi.

Gecəyarısı Orlan başı qotazlı papağı geyib noyonun alaçığına tərəf getdi. Kök cümət növbəsinin dəyişilməsini intizarla gözləyirdi. O, elə hey, sandıqda gizlədilmiş araq tuluğunu fikirləşirdi. Qaranlıqda bilinər-bilinməz qotazlı papağı görən kimi Kalçan-Şilginin yüyənini yerə atıb, heç nə demədən evə sarı qaçdı.

Orlan-ool Kalçan-Şilgini çox sakitliklə eşiyə çıxartdı. Auldan uzaqlaşanda belinə sıçradı, əvvəlcə addım-addım yeridi. Sonra da yorğa at kimi çapdı. Səhər Kalçan-Şilginin belində noyonun alaçığına tərəf çapdı. Noyon nəsə demək istədi, amma susmağı daha üstün bildi.

Noyon bir də hazırcavab Orlanla mübahisə etməyəcəyinə söz verdi.



## CƏSUR ÇƏPİŞ

Ucqar bir meşədə, tozağacı qabığından qayrılmış alaçıqda bir çəpiş yaşayırdı. Necə oldusa, bir dəfə avara bir canavar alaçığa hücum elədi və soruşdu:

– Sənin başında işıldayan ağ şey nədir belə?

– O, mənim xəncərimdir ki, onunla canavarları, ayıları öldürürəm.

– O, ağzının yanından sallanan boz şey nədir?

– O mənim yaylığımdır ki, ya canavarı, ya da ayını yeyəndən sonar onunla ağzımı silirəm, – çəpiş cavab verdi və "bol-bol!" qışqıraraq qaçıb toz ağacı qabığından olan alaçığını elə buynuzladı ki, alaçıq hissə-hissə olub töküldü.

Çəpiş "bol-bol!" çığırıb qayanı da buynuzladı.

Canavar çəpişin cəsurluğundan qorxub qaçdı.

Tezliklə canavarın qarşısına bir ayı çıxdı və o, canavardan soruşdu:

– Heç kimdən qorxmayan canın, kimdən belə qorxur? Heç vaxt geri çəkilməyən canavar, indi kimdən belə qaçırsan?

– Məni çəpiş qorxudub, – canavar dedi.

– Eh... sən balaca uşaq kimi nə qorxaq imişsən? O çəpişi yemək lazım idi! Birlikdə gedək.

– Yox, baba, mən qorxuram.

– Qorxma, mən səni iplə özümə bağlayaram, sən də özünü elə hiss edərsən ki, mən həmişə sənin yanındayam.

Ayı ipin bir ucunu canavarın boynuna, o biri ucunu da öz boynuna bağlayıb, birlikdə çəpişin yanına getdilər.

– Sənin başında işıldayan ağ şey nədir belə? – ayı soruşdu.

– O, mənim xəncərimdir ki, onunla mən ayı və canavarı öldürürəm.

– O, ağzının yanından sallanan boz şey nədir?

– O, mənim yaylığımdır ki, ya canavarı, ya da ayını yeyəndən sonra onunla ağzımı silirəm.

Və "bol-bol!" çığıraraq çəpiş qayanı buynuzladı.

Ayı qorxub qaçdı. O, qaçır və özü-özünə deyirdi:

– Qorxunc çəpiş qışqırır: "bol-bol!". Qorxunc çəpiş qışqırır: "bol-bol!" – Və canavarı ardınca sürüyürdü.

– Baba, mən boğuluram! – canavar qışqırdı.

– Boğul, boğul lənətə gəlmiş! – ayı cavab verdi.

– Baba, mən ölürəm! – canavar qışqırdı.

– Öl, öl lənətə gəlmiş! – ayı cavab verib daha da sürətlə qaçırdı.

– "Bol-bol!" – çəpiş qışqırır və addımbaaddım onların dalınca qaçırdı.

Ayı nəsə ağırlıq hiss etdi. Çevrilib baxanda gördü ki, ölü canavarı dalıyca sürüyür.

Dişləri ilə ipi qırıb, tezliklə ordan uzaqlaşdı.

Çəpiş yaxınlaşıb, ölmüş canavarı gördü. O, canavarı çiyninə alıb sürüdü. Tezliklə toz ağacının qabığından qurulmuş alaçığa yaxınlaşdı. Canavarı qapının ağzında yerə tullayıb, alaçığa girdi. Orda yeddi canavar var idi. Onlardan biri çadağanda* çalır, o biriləri də qulaq asırdılar. Çəpişi görən kimi onlar oxumağa başladılar:

Yeməyə nəsə vardır bu gün,
Bəs, sabah mən nə üyüdüm?

Çəpiş özünü itirməyib dedi:

– İmkan verin, mən də çalım!

Canavarlar qorxdular və çadağanı ona verdilər. Çəpiş oxudu:

* Çadağan – 4-8 simli lifdən və ya at tükündən hazırlanmış uzun yeşiyi xatırladan musiqi aləti.



Qara dəyədə yeddi heyvan.
Ölüb, qapıda-səkkizinci!
Kürk tikməkçin tapdım sizi,
Ax, necə də yaxşı kefdir!

Canavarlar qorxub, biri o birinə dedi:

– Bir bax, gör qapıdakı nədir elə?

Canavar eşiyə getdi və qayıtmadı. İkincini göndərdilər – ikinci də itdi. Növbə ilə canavarlar eşiyə çıxdırdılar və heç biri də geri qayıtmırdı. Axırıncı iki canavar eşiyə birlikdə çıxdı və ölü canavarı görüb, dabanlarına tüpürdülər, çəpiş də onların dalınca.

– Mən sizin hamınızı buynuzlayacağam, lənətə gəlmişlər, mən sizin dərinizdən özümə kürk tikəcəyəm! Bol-Bol! – deyə qışqırırdı.

Canavarlar buzun üzəri ilə qaçırdılar.

Çəpiş sürüşüb yıxıldı, dayandı və opların dalınca belə qışqırdı:

– Eh, əgər buz sürüşkən olmasaydı, sizin kimi lənətə gəlmişlərin öhdəsindən gələcəkdim! Sizin hamınızı buynuzuma taxacaqdım!

## TƏNBƏL BAYQUŞ

Çayın kənarında bir tənbəl bayquş yaşayırdı. İlıq, sakit səhərlərin birində o, söyüd ağacının budağında şirin-şirin mürgüləyirdi.

Böyük yaşıl meşədən al-əlvan bir ağacdələn uçub gələrək bayquşdan bir az aralıda olan ağaca qonub, onun gövdəsini uzun burnuyla döyəcləməyə başladı: Tık-tık, tık-tık!

Bayquş diksindi, ayıldı, ətrafa boylandı və gördü ki, al-əlvan bir ağacdələn qonşu ağaca qonub onu döyəcləyir. Bayquş əsəbiləşdi, qanadlarını çırpıb qışqırdı:

– Ey, ağacdələn! Sən niyə bura uçub gəlmisən? Sən burda nə eləyirsən?

– Necə yəni, nə eləyirsən? – ağacdələn məəttəl qaldı. – Mən burda yemlənirəm. Burda çoxlu yem var, bur-da, bur-da.

– Cəhənnəm ol başqa yerə, orda da yemini ye! Axı, sən mənim təmtəraqlı rahatlığıma, aldığım həzzə, mənim şirin yuxuma mane olursan! Bu dəqiqə rədd ol, burdan! – bayquş qışqırdı.

– Eh, səni... yatağan! – ağacdələn dedi. – Sən yuxu torbasısan!

O, darı kimi xırda gözləri ilə heyrətlə bayquşa baxıb, yaşıl meşəyə uçdu.

Bayquş yenə yuxuladı. Amma tezliklə bir ququ quşu uçub ağaca qonaraq nəğməsini oxumağa başladı.

– Ququldamağı qurtar, ququ! Bu nə səs-küydür?! Sən məni oyatdın!

– Ha-ha, ha-ha, ha-ha! – ququ güldü. – Məgər belə gözəl bir səhərdə yatmaq olar? Bulaqda sular oxuyur, ağacda yarpaqlar titrəşir, otlar günəşin şüaları altında parıldayır! Məgər sən görmürsən ki, bütün heyvanların və quşların ən gözəl dövrü



başlayır? Mən belə bir günü mahnılarımda vəsf edirəm. Mən buradan heç yana getmərəm!

Bayquş bilmədi nə eləsin. Məcbur olub özü uçdu. O, budaqları suya əyilmiş boz, balaca bir söyüdə qondu. Elə o dəqiqə də yuxuya getdi. Ancaq tezliklə yenə səsə yuxudan ayıldı. Yaşıl, kinli gözlərini gəzdirib gördü ki, onunla lap yanaşı ağacda bir pəsnək quşu ustalıqla özünə dəyirmi, yumşaq yuva qurur. Quşcığaz qovağın pərğu tüklərini tutub, yorulmadan balaca evini tikirdi. Bayquş balaca quşcuğazdan belə çalışqanlıq görüncə, öz tənbəlliyindən utandı. Heç kimi görməsin deyə, bayquş uzaq bir yerə uçmağı qərara aldı. İtiuclu daşları olan çılpaq qayaya qonub fikirləşdi: "Bax, bura yaxşı yerdir. Bura heç kəs gəlməz, yuxulamağa heç kim mane olmaz". Amma qayaların çatlarında qaranquşlar özlərinə yuva qurmuşdular. Odur ki, onların civiltisi bayquşu yuxudan oyatdı.

"Yox, bura pis yerdir, – deyə o, fikirləşdi. – Yaxşısı budur, çölə-düzə uçum".

Amma düzdə də torağaylar və çəyirtkələr ona yatmağa mane olurdular. Bayquş hara uçurdusa, hər yerdə həyat qaynayırdı.

Və bayquş fikirləşdi: "Bu balaca bacarıqlı pəsnək quşundan mənim nəyim əskikdir? Mən də özümə bir yuva qurum!" burdan-ora, ordan-bura uçduğu üçün yorulduğundan elə ordaca qərara aldı: "Yuvanı səhər quraram, hələlik yatmalıyam..."

O biri günü bayquş yenə yuvanın tikilişini ertəsi günə keçirdi. Və hər gün belə oldu. Şaxtalar düşdü. Qar yağdı. Artıq ətrafda nə quru otlar, nə qovağın pərğu tükləri, nə də yuvanı tikmək üçün lazım olan yumşaq gil yox idi.

Beləliklə də yuxulu bayquş hər dəfə işini sabaha qoyduğundan, bu günə kimi onun evi-yuvası yoxdur. Gah ora, gah bura uçur və soyuq gecələrdə sümüklərinə kimi donur.

## AĞ CANAVAR VƏ YAĞLI ÇƏPİŞ

Bu hadisə baş verəndə keçinin buynuzu göyə dirənərmiş, dəvənin quyruğu isə yerlə sürünərmiş.

Yol ilə axsaq bir canavar gedirdi. Onun ac olduğu batmış gözlərindən bilinirdi. Halsız olduğu dizlərinin bükülməsindən hiss olunurdu.

O, ayın otuz gününü gölməçələrdəki suyu yalayıb, biçənəkdəki tullantını və quru sümükləri gəmirərdi. Gecələr ulayar, gündüzlər isə günəşin istisinə qızınardı. Bütün günü isti, təzə ətin həsrəti ilə yaşayardı.

Bir gün o, sarı – sıldırım qayaya gəldi və gördü ki, orada yağlı bir çəpiş otlayır. "O...o...o, nəhayət ki, – canavar sevincək fikirləşdi, – nəhayət ki, mən də yeyib-doyacağam!" – o, gizlincə kolların arası ilə sürünərək ağzının suyunu udqunurdu. Ancaq çevik yağlı çəpiş düşmənin yaxınlaşdığını hiss edib, asanlıqla qayaya dırmaşdı. Zirvədə durub, qururla aşağı baxdı.

Canavarın gözlərindəki sevinç söndü. Qarnına qaranlıq çökdü. Canavar qışqırdı:

– Ey, çəpiş! Yaxşısı budur, ayağının ətindən bir tikəni sən özün kəsəcən. Yoxsa, burda durub gecə-gündüz gözləyəcəyəm. Səni tutsam bütöv ətini yeyəcəyəm. Nə ilana yalamaq üçün sulu yer, nə də sünbülqırana dadmaq üçün bir damla qan qoymayacağam qalsın!

Çəpiş fikirləşib dedi:

– Mən ətimdən bir tikə kəsməyə razıyam, amma mənim iti dəmirim yoxdur. Nə ilə kəsim? Qaç, Donqulunun yanına, bir bıçaq xahiş elə.

Canavar fikirləşdi: "Durub gözləməkdənsə yaxşısı budur Donqulunun dalınca qaçım", və o, Donqulunun yanına qaçdı.



– Donqul, mənə bıçaq ver, çünki sıldırım qayanın üstündən çəpiş mənə öz ətindən kəsəcək.

– Bıçağı elə indi götürə bilərsən, – Donqul cavab verdi, – amma bıçaq çox kütdür. Onu itiləmək lazımdır, get Çaldıyın yanına, ondan bülöv daşını xahiş elə.

Canavar fikirləşdi: "Donqulla mübahisə edincə bülövün dalınca getmək məsləhətdir". Və Çaldıyın yanına getdi.

– Çaldıy, bülövü mənə ver, Donqul bıçağını itiləsin ki, sıldırım qayaya dırmaşan çəpiş də ətindən bir tikə kəsib mənə versin.

– Bülövü indi apara bilərsən, – Çaldıy cavab verdi, – amma o, çox ağırdır, sən onu qaldıra bilməzsən. Cannığın yanına qaç, qoy o, sənə xizək versin.

Canavar fikirləşdi: "Mən tamam zəifləmişəm, ayaqlarımı güclə çəkirəm, o ağırlıqda bülövü necə daşıyaram!" və ayaqlarını sürüyərək Cannığın yanına getdi.

– Cannığ, sıldırım qayadakı çəpişin ətindən bir tikə mənə verməsi üçün Donqulun bıçağını itiləmək lazımdır. Bülövü Çaldıya çatdırmaq üçün xizəyini mənə verməyi xahiş edirdi.

– Xizəyi elə lap indi götürə bilərsən, – Cannığ cavab verdi. Yəqin ki, öz başına yol getməyəcək və sən də onları apara bilməyəcəksən. Get Güldüyün yanına, xahiş elə qoy atını versin.

Canavar fikirləşdi: "Çox güman ki, mən bu yekəlikdə xizəkləri apara bilməyəcəm. At mütləq lazımdır". Yenə də ayaqlarını dalınca sürüyüb Güldüyün yanına getdi.

– Güldüy, sıldırım qayadakı çəpişin bir tikə ətindən kəsib mənə verməsi üçün, Donqulun bıçağını itiləməyə lazım olan bülövü Çaldıya çatdırmaq üçün atını mənə ver.

– Atımın nə qədər şux, oynağan olduğunu bilməyən yoxdur, – Güldüy cavab verdi. – At indi otlaqdadır. Örkənsiz də

onu tutmaq qeyri-mümkündür. Get Aldayın yanına , örkəni ondan xahiş elə, versin.

Canavar fikirləşdi: "Əlbəttə ki, örkənsiz belə atı tutmaq mümkün olmayacaq". Əsə-əsə Aldayın yanına getdi.

– Alday, sıldırım qayadakı çəpişin ətindən bir tikə kəsib mənə verməsi üçün Donqulun bıçağını itiləməyə lazım olan bülövü Çaldıya çatdırmağa Güldüyün atı lazımdır. Atı da örkənsiz tutmaq mümükün deyil. Zəhmət olmasa örkənini mənə ver.

– Doğrusunu desəm, örkəni sənə verməyimə hayıfım gəlmir, – Alday dedi. – Amma mənim örkənim sandıqdadır, sandığın ağzı bağlıdır, açarı da ovçudadır. Get, ovçunun yanına, açarı al, gəl.

Canavar fikirləşməyə başladı. Və başa düşdü ki, açarsız keçinmək mümkün olmayacaq. O, var-gücünü toplayıb, yavaş-yavaş meşəyə yollandı ki, ovçunu axtarıb tapsın.

Ovçu çox güclü və diribaş adam idi. Onun bir qara silahı var idi. Birdən gördü ki, alaçığa tərəf sürünə-sürünə bir canavar gəlir.

– Ay lənətə gəlmiş, özün ayağıma gəlirsən? – ovçu dedi.

Canavar qorxdu və kefi dondu. Amma ovçu tüfəngi çiynindən salıb, tətiyi çəkdi. Canavar ordaca yıxıldı.

Çəpiş isə alınmaz qayada durub, günəşin istisinə qızınaraq otları qoparıb yeyirdi. O, bilirdi ki, insan həmişə onu anavardan qoruyub müdafiə edəcək



## AĞ DOVŞAN

Nə vaxtsa yer üzündə Möge-Sarıq adında bir qoca yaşayırdı. Onun nə uşağı, nə də mal-qarası var idi. Aulları gəzərək kim nə versə, onu da yeyərdi.

Bir dəfə qoca iki yolun ayrıcında böyük dəri torba gördü. "Aha, mənim yoldakı uğurum, bəxtimin gətirməsidir"– sevinclə fikirləşdi və torbanın ağzını açdı.

Ağ bir canavar dişlərini qıcayaraq torbadan sıçrayıb düşdü və dedi:

– Aha, lənətə gəlmiş! İndi səni parçalayacağam. Bütöv udacağam səni, bir damla da qoymayacağam qala, hamısını yeyib-yalayacağam! Nəhayət, mənim sevincli günüm yetişdi!

– Qoca o qədər qorxdu ki, canavara cavab verə bilmədi, dodağının altında nəsə dedi:

– Dayanın,...tələsməyin... məni axşam da yeyə bilərsiz.

Canavar fikirləşdi: "Axşam da yemək olar. Mənim qənimətim heç yana gedə bilməz". Və başını qaldırıb günəşə baxdı. Qoca dedi:

– Mən səni xilas etdim, amma sən məni yemək istəyirsən. Bu, düz deyil. qoy bizi mühakimə etsinlər.

İkilikdə yol ilə getdilər. Tezliklə qarşılarına iri bir öküz çıxdı. Qoca ona dedi:

– Bu canavar torbada idi. Mən onu xilas elədim. İndi, əziz öküz, de görüm, o, məni yeməlidir?

Öküz çox fikirləşdi, sonra dedi:

– Mən sizin mübahisəni həll edə bilmərəm. Mən başa düşə bilmirəm ki, bu adam canavarı necə xilas edib axı? Amma bu meşədə bir ağ dovşan yaşayır. Çox ağıllıdır. O, sizi mühakimə edər. Onun yanına gedin.

Qoca və canavar meşəyə getdilər. Amma dovşan görünmürdü, canavarsa elə yemək istəyirdiki, elə indicə qocanı parçalamağa hazır idi. Birdən lap uzaqdan dovşan göründü.

– Ehey, dovşan! Dayan! Qaçma! Bizim mübahisəmizi həll elə! – qoca dedi.

Dovşan onlara yaxınlaşıb soruşdu:

– Sizin mübahisəniz nə üstündədir?

– İndi deyərəm. Mən yol ilə gedirdim və bir torba gördüm. Torbanı açdım, ordan bir canavar çıxdı. Görürsən, mən onu tapdım, xilas elədim, o isə məni yemək istəyir, – qoca dedi

– Bəli, istəyirəm! – canavar təsdiqlədi.

Dovşan dedi:

– Mən həqiqi hakiməm. Mən gərək hadisə baş verən həmən yerə gedəm, baxam, görək ki, sən onu necə xilas etmisən.

Onlar üçlükdə yol ayrıcına getdilər.

– Qoca, göstər görüm, torba harda durmuşdu?– dovşan soruşdu.

– Torba burda dururdu, – qoca göstərdi.

– Torbanı yerinə qoy, – dovşan dedi.

Qoca torbanı yerinə qoydu.

– Sənsə, canavar, göstər görüm, torbanın içində necə uzanmışdın, – dovşan dedi.

Canavar torbaya girdi.

– Torba bağlı idi? – dovşan soruşdu.

– Bəli, bağlı idi, – qoca cavab verdi.

– O, necə bağlanmışdı? Göstər! – dovşan tələb etdi.

Qoca torbanın ağzını bağladı.

– Vəssalam, qurtardı, – dovşan dedi, – mən sizin mübahisənizi həll etdim. Sən, qoca, öz yolunla get, qoy canavar da torbada qalsın. Əlvida!

Və dovşan izlərini azdıra-azdıra meşəyə qaçdı. Qoca da öz yoluna davam elədi.



## DOVŞAN QOYUNU NECƏ XİLAS ETDİ

Nə vaxtsa yer üzündə boz bir qoyun yaşayirdi. Onun iki quzusu var idi. Bir dəfə qoyun boqda-burqana sitayiş etmək fikrinə düşdü. O, quzuları da özü ilə götürdü. Qoyun düzlə getdiyi yerdə, qarşısına qurd çıxdı.

– Səni də, sənin quzularını da indi yeyəcəyəm! – qışqırdı.

– Ah, canavar, bir az gözlə, imkan ver, boqda-burqana dua oxuyub, sitayiş edim. Geri qayıdanda, onda yeyərsən.

– Yaxşı, qoy elə olsun, səni geri qayıdanda yeyərəm, amma burqanın yanına tək gedəcəksən, quzuları burda saxlayacaqsan. Əgər üç gündən sonra qayıtmasan, mən onları yeyəcəyəm! – canavar dedi.

Qoyun nə etməli idi? Quzuları orda saxlamalı oldu.

Üç gündən sonra qoyun geri qayıtdı, amma qanı çox qara idi. Quzuları necə xilas etmək haqqında fikirləşirdi, ancaq heç nə fikirləşib tapa bilmirdi. Birdən qarşısına bir dovşan çıxdı.

– Ay qoyun, niyə belə qəmginsən, qanı qarasan? Haradan gəlirsən, belə? – dovşan soruşdu.

– Mən boqda-burqana sitayiş etməyə getmişdim. Yolda canavara rast gəldim. O, məni yemək istədi, amma quzularımı yanında saxladı və dedi ki, əgər üç günə geri dönməsən, onları yeyəcəyəm. Üç gün keçdi. Mən də ona görə qəmliyəm.

– Biz də səninlə canavarı aldadarıq, – dovşan dedi.

– Onu necə aldatmaq olar? – qoyun soruşdu.

– Get, imzalı bir kağız tap, – dovşan dedi.

Qoyun bir az əvvəl başqa yerə köçmüş aula tərəf qaçdı və orda çin yazısıyla yazılmış alabəzək çay kağızı tapdı, sevincək dovşanın yanına qayıtdı.

– Budur, – dovşan dedi, – bu kağızı sənin buynuzuna keçirəcəyəm və sən də canavara deyərsən ki, boqda-burqanın şəxsi əmrini aparırsan. Ona de: "Əvvəlcə əmri oxu, sonra məni ye!".

Qoyun canavarın yanına gəlib qışqırdı:

– Mən boqda-borqanın şəxsi sərəncamını aparıram! Canavar, onu oxu, sonra məni ye!

Canavar kağızı götürdü, ona hər tərəfli baxdı, yazını görür, amma oxuya bilmirdi. Birdən dovşanı gördü.

– Ey dovşan, bura gəl, oxu görüm, burda nə yazılıb. Sonra ikimiz birlikdə bu qoyunu yeyərik! – canavar qışqırdı.

Dovşan kağızı aldı, kağıza baxdı, sonra da canavar baxdı...

Və dili pəltək vura-vura oxudu: "Əmr. Canavarın dərisindən kürk tikməli... Tülkünün dərisindən papaq tikməli..."

Canavar bu sözləri eşidib dabanlarına tüpürdü.

.Dovşan qəhqəhə çəkdi.

Beləliklə də, bu minvalla qoyun quzuları ilə birlikdə canını canavardan qurtardı. Onlar çox yaşadılar, düzlərdə qoyunların da sayı artdıqca artdı.



## ALTI SİÇAN-QARDAŞLARI

Çox illər bundan əvvəl yer üzündə altı-siçan-qardaşları yaşayırdı. Onların alaçıqları bir ovuc boyda idi.

Bir gün səhər yuxudan ayılanda gördülər ki, gecədən yağan qar alaçığı basıb, divarları itib. Qardaşlar taxta bel düzəldib qarı kürüdülər. Bütün günü işləyib acıdılar.

Birdən qarı kürüdükləri yerdə hamılıqla bir tikə yağ gördülər. Yağ ən kiçik qardaşın burnunun ucunda – yerdə idi. Ağızlarını açıb söz deməyə vaxt tapmamış, kiçik qardaş yağı uddu.

Ən böyük qardaş qışqırdı:

– Sən nə elədin? Hamısını sən yedin! İndi mən sənə göstərərəm!

Hamının gözü qabağında tullanıb kiçik qardaşı quyruğu ilə bütövlükdə uddu. O, zaman beş qardaş onun üstünə atıldılar, əlini, ayağını bağlayıb xanın yanına apardılar ki, onu mühakimə etsinlər.

Xanın yanına çatana kimi onlar çox yol getdilər. Əl-ayağı bağlı olan qardaşı qapıda qoyub, özləri alaçığa girdilər.

Xan bütün əzəməti ilə taxta əyləşmişdi. O, qan-tərə batan, tənginəfəs siçanlara istehza ilə baxdı.

– Siz hardan gəlmisiz? – xan soruşdu.

– Biz yeddi qayış, yeddi aşırımın o tayından gəlmişik, – siçanlar dedilər.

– Baxan kimi görünür, diliniz görün necə eşiyə çıxıb?! – xan dedi.

– Biz yeddi idik, – siçanlar dedi.

– Oho, belə çox! – xan güldü.

– Özümüzün alaçığımız var idi, böyüklüyü sizin ovcunuz boyda olardı, – siçanlar dedi.

– Çox böyük alaçıq imiş! – xan gülümsündü.

– Biz qarı kürüyəndə Ən Kiçik Qardaşımız bir tikə yağ tapdı və elə o saat da onu yedi. Ən Böyük Qardaşımız isə onu quyruğu ilə birgə uddu!

– Oy, bu necə də qorxuncdur! Bəs, o hanı? – xan soruşdu.

– Biz onu sarıyıb mühakimə etmək üçün sizin yanınıza gətirmişik. Qapının ağzındadır. O, çox böyükdür. Biz onu tapanda çox balaca idi. Onu yanımıza götürdük və adını – Ən Kiçik Qardaş çağırdıq, amma o çox tez böyüyürdü və tezliklə biz onu Ən Böyük Qardaş deyə çağırdıq. O, artıq alaçıqda deyil, eşikdə yatırdı.

– Onu bura sürüyün, – xan əmr elədi.

Siçan-qardaşlar Ən Böyük Qardaşı çəkib içəri saldılar.

– Ha, ha, ha! – xan qəh-qəhə çəkdi. – Bu ki, pişikdir. Və o, pişiyin pəncəsinə dolaşmış ot saplaqlarını açmağa başladı.

– Xan, siz onu necə cəzalandıracaqsınız? – siçanlar soruşdu.

– Bax belə: açıb azad edəcəyəm. O, yaxşı edib siçanı yeyib. Qoy sizin hamınızı yesin! – xan qışqırdı.

Siçan-qardaşlar qorxub hərəsi bir tərəfə qaçdılar.

Xan isə Ən Böyük Qardaşı özünə pişik elədi.

O gündən pişik siçanlarla dostluq etmir. Siçanların onu əli-ayağı bağlı şəkildə yeddi çaydan və yeddi aşırımdan sürüyüb xanın yanına necə gətirməklərini unuda bilmirdi.

Siçanlar isə xandan incidilər ki, Xan cinayətkar pişiyi müdafiə edib ona haqq qazandırdı. Ona görə də onlar xanın kökələrini, piyini, yağını və taxılını daşımağa başladılar.

O gündən də siçanlar insanların, pişiklər isə siçanların düşməninə çevrildilər.



## QUŞLAR NİYƏ DANIŞMIRLAR

Bu hadisə baş verəndə keçinin buynuzu göyə dirənərmiş, dəvənin də quyruğu yerlə sürünərmiş.

Dağda iti qanadlı, güclü Darbaytı adlı bir qartal yaşayırdı. Bir dəfə o,dağların ətəyində, dərin bir yuvanın yanına qonub marmotun eşiyə çıxmasını güdürdü. Hava isti olduğundan qartal mürgülədi. Birdən qəfil qışqırıqdan ayıldı. Gördü ki, boz bir qırğı onun güddüyü marmotu əlinin altından qapıb, təpənin o biri üzünə apardı. Qırğı orda tez-tələsik marmotu dimdikləməyə başladı. Qartal əsəbiləşdi və uçub qırğının yanına qonanda, az qaldı ayağı ilə qırğını aşırsın.

– Əgər qonaq olmaq istəyirsənsə, nəzakətli ol, enəndə ehtiyatlı en. Amma sənin tüklərin biz-biz olub. Bəlkə sən məni qorxuzursan? – qırğı onu ələ salıb dedi.

Qartal daha çox əsəbiləşdi və dedi:

– Mən səndən iriyəm, səndən güclüyəm. Nəyə görə mən səndən qonaqlıq gözləməliyəm? Mən sadəcə ona görə uçub gəldim ki, görüm sən bu ölməli marmotu hardan tapmısan?

– O, heç də ölməli deyil, sən özün onu güdürdün, – qırğı dedi.

– Ey bədbəxt məxluq, sən tələyə düşmüş sünbülqıranları yığırsan! Mənim isə yediyim cüyür və dovşandır. Bax, bu-həqiqi mənada gözəl ətdir! – qartal qışqırdı.

Təsadüfən qırğının dimdiyi tərpəndi. Amma o, susdu və dimdikləməkdə davam elədi.

– Yazıq quş, – qartal qışqırdı, – ye, nə qədər ki, qanı donmayıb, əti ilənməyib, ye!

– Əlbəttə yeyəcəyəm. Sən yəqin, fikirləşirsən ki, mən hamısını yeyib qurtara bilmərəm, qalanını da sən yeyəcəksən? Artıq sənin boğazın belə əti udmağa hazırdır! – qırğı istehza ilə dedi.

– Of... bu necə zəhərli məxluqdur! Sən mənə tabe olacaqsan! Mən quşların xanı olmalıyam! – qartal dedi.

– Niyə sən xan olmalısan, amma mən yox? – qırğı soruşdu.

– Biz yarış keçirəcəyik. Kim yaxşı uçsa, o da xan olacaq.

Hay-küyə bütün quşlar yığıldı. Hamı qərara aldı: kim daha ucadan uçsa, o da quşların xanı olacaq, bununla da quşların mübahisəsinə son qoyulacaq.

– Siz hamınız mənim ixtiyarımda olacaqsız – qırğı qururla dedi.

– Siz hamınız mənim ixtiyarımda olacaqsız, – qartal təşəxxüslə dedi.

– Siz hamınız mənim ixtiyarımda olacaqsız, – sakit tərzdə ağbaş qrif dedi.

Quşlar hay-küy salıb "Mən, mən!" dedikləri vaxt balaca bir yarasa qrifin qanadı altına girib, orda gizləndi. Qrif qışqırdı.

– Yarışı başlayırıq!

Yarışda iştirak edən bütün quşların hamısı uçdu. Əvvəlcə qırğı elə uçurdu ki, onu kiminsə keçəcəyinə heç kimin ümidi yox idi. Amma quşlar daha yuxarı qalxdılar və qarşıdan əsən küləklə üzləşdilər. Qırğı arxada-aşağıda qaldı, qartal isə ağ qrifdən aşağıda qaldı. Külək üç dəfə qırğını fırlatdı. O, bundan artıq qalxa bilmirdi, amma qrif isə elə hey yuxarı və yuxarı qalxırdı. Nəhayət o, qışqırdı.

– Mən uddum! Heç kim məndən yuxarı qalxa bilməz. Mən xan olacağam.

Qartal və qırğı onunla razılaşdılar, çünki onların qriflə mübahisə etməyə həvəsləri və gücləri qalmamışdı.

– Aşağı enəcəyik, –ağbaş qrif dedi.

Elə bu vaxt yuxarıdan gələn səsi hamı eşitdi:

– Qrif elə fikirləşirsən ki, səndən yuxarıda heç kəs uçmur? Mən səndən yuxarıda uçuram! Mən xan olacağam!



Bu, yarasa idi. Hamı aşağı endi. Qırğı yerdə əyləşib onlara tamaşa edən bütün quşlara dedi:

– Hökmdarlıq eləməyə-yalnız hamıdan ucada uçanın səlahiyyəti çatır. Əgər o, hökmdarlıqdan imtina etsə – onda qoy hər şey əvvəlki kimi qalsın.

– Çox nahaq yerə mübahisə edirsiz, – qrif dedi, – mən özüm xan olacağam.

– Aha, belə de! – yarasa dedi, – deməli uçuşun hündürlüyü əsas deyil, əsas olan odur ki, kim yekədir, kim güclüdür, eləmi? Mən bunu əvvəldən bilsəydim, bu yarışda heç iştirak etməzdim. Amma heç nəyə baxmayaraq şərti mən yerinə yetirmişəm və hamıdan ucada uçmuşam!

Elə bu vaxt balaca quşlar qışqırıb-ciyildədilər:

– Qoy yarasa xan olsun, yarışda o qələbə çaldı.

Amma boz ququ quşu belə dedi:

– Mən yarasaya tabe olmayacağam, çünki mən onu sevmirəm! O, gecələr uçub məni yatmağa qoymur. Heç olmasa mənim kimi səsi olsaydı... yaxşısı budur, mən onun yerinə xan olum!

Onda yarasadan böyük olan quşların hamısı qanadlarını çalıb qışqırdılar:

– Mən də, mən də ona tabe olmayacağam! Yaxşısı budur mən, yaxşısı budur, mən xan olum!

Elə hay-küy, elə mərəkə qopdu ki, kar olmaq olardı. Ağacın dik başına qonmuş sehirbaz qara qarğa hay-küyü eşidib dedi:

– Yox, siz heç bir vaxt sözü bir yerə qoya bilməyəcəksiz, heç kimə də qulaq asmaq istəmirsiz. Bu gündən etibarən siz fit çalacaq, ciyildəyəcək, qoqquldayacaq, quruldayacaq, qığıldayacaqsınız, amma bir daha danışmayacaqsınız.

O gündən də quşlar heç bir vaxt danışmırlar.

## KİM DAHA ÇOX GÜNAHKARDIR

Çox qədim bir zamanda, meşələrin və otların təzə-təzə əmələ gəlməyə başladığı bir vaxtda, bütün heyvanların xanı sayılan Ak-Kandız adlı bir qoca yaşayırdı.

O bir dəfə səhər su içib, ot yemək üçün çaya endi. Onu görən ağaclar və otlar hay-küy salmağa başladılar və dedilər:

– Ay heyvanların xanı, sənin nökərlərinin arasında elə bir heyvan mövcud olub ki, bizə, yaşadığımız meşəyə çox böyük ziyanlar vurur. Əgər sən – heyvanların xanı onu axtarıb tapmasan biz səni meşədə saxlaya bilməyəcəyik, eyni zamanda, dadlı, təravətli otlardan doyunca yeməyə də imkan verməyəcəyik. Sən boz qumdan başqa heç nə görməyəcəksən.

Onlar bu sözləri söyləyib, yenə öz külək mahnılarını oxudular. Qoca fikir verib gördü ki, otlar bir-bir yox olur, onların yerində isə boz qum sahələri görünür. Heç vaxt qəm çəkməyən heyvanların xanı qəmə batdı. Və yarasanı çağırdı.

– Sən, gecə quşu heyvanısan, – dedi. – Gecə bütün heyvanlar öz yuvalarında olacaqlar, sənsə onları çox asan tapa bilərsən. Onların hamısına de: sabah şəfəqlənəndə, çılpaq qayalar parlayanda, bax, o vaxt bütün heyvanlar mənim yanıma gəlsinlər.

Yarasa bütün günü və bütün gecəni uçub, hamını – bütün heyvanları xəbərdar etdi. Ertəsi günü heyvanlar – ağbaş ayıdan tutmuş, ta ağbaş siçana kimi hamı xanın yanına gəldi. Xan dedi:

– Yeri eşməyi bacaran bütün heyvanlar günortaya kimi aşağı dünyaya çatanadək dərin bir xəndək – uçurum qazmalıdırlar.

Günortaya kimi heyvanlar xəndək-uçurumu qazdılar və hamısı ata-xanın dövrəsinə toplaşdılar. Onlar dəniz kimi coşmuşdular. Və xan onlara öz sözünü dedi:



– Heyvanların içərisindən meşə-xanlığında günaha batmış bir nəfəri tapmalıyam. Əgər günahkarı tapmasaq bizi bədbəxtlik gözləyir. Ağaclar və otlar tələf olacaq. Bizə ana olmuş meşələr olmayacaq. Hər tərəf çılpaq səhra olacaq. Xanlığımıza aclıq və ölüm ayaq açacaq. Nə əcdadlarımız, nə nəslimiz, nə də gələcəyimiz olmayacaq. Nə qarıldamağa qarğalar, nə qığırdamağa sağsağanlar qalmayacaq. Səhər tezdən çılpaq qayalar parıldayanda həmin xəndək – uçurumun üstündən atılacağıq. Kim doğrudursa o atılacaq, kim günahkardırsa o da aşağı yıxılacaq.

Heyvanlar dağıldılar. Hər kəs gedir və fikirləşirdi: "Görəsən günahkar kimdir? Kim yıxılacaq? Doğrudanmı mən?"

Hamıdan çox canavar qəmli idi. O, gedir və deyirdi:

– Ölməyən canım öləcək, sönməyən işığım da sönəcək. Məndən daha artıq kim günahkardır? Bütün heyvanları mən yemişəm. Mən uçurumdan yan ötməyəcəyəm. Məndən intiqam almaq istəyən indi gör nə sevinəcək! Uçuruma aşanda gör nə qədər güləcək!

Canavar bütün gecəni yatmadı- ağladı, uladı, ölümünü gözlədi.

Həmin gündən canavarlar gecələr ulamağa başladılar.

Boz dovşansa kolluğun içində gizlənib canavarın bütün dediklərini eşitdi. Kənara qaçıb gülməyə başladı. Gülməkdən qarnını tutub dombalaq aşırdı.

– Əlbəttə sən xəndək–uçuruma aşacaqsan! – dovşan canavara qışqırdı. Aşmağa layiq olan əlbəttə sənsən. Lənətə gəlmiş, mənim kimi günahsız və namuslu olsaydın bu başqa söhbət olardı.

Dovşan günortayadək güldü və elə güldü ki, üst dodağı partladı.

Səhər tezdən bütün heyvanlar uçurumun başında toplaşdılar. Xan – ata dedi:

– Biz çox, vaxt isə azdır. Canavardan başlayaq! Atıl!

Canavar atılmaq üçün dalı-dalı çox çəkildi. Elə qaçdı ki, dili azından çıxıb sallandı. Və uçurumun üstündən atıldı.

– İndi növbə sənindir, dovşan! – xan dedi.

Dovşan qaçmaq üçün daha da çox dala çəkildi. Qaçdı və ... düz uçurumun içinə düşdü. Bunu görüb, bütün heyvanlar öz günahlarını boyunlarına alaraq, kimin nə günah işlətdiklərini açıb söylədilər. Və hamısı uçurumun üstündən atılıb keçdilər.

Meşə xanının nökəri olan cavan qara şam ağacı dedi:

– Canavar günahkar olsa da, günahını boynuna aldı. Ona görə də uçurumdan o taya tullana bildi. Amma meşədəki bütün cavan ağacları qırpa-qırpa kəsən dovşan günahını boynuna almadı. Ağaclarsa qurudu. Özü də bu səbəbdən uçuruma yıxıldı.

Dovşansa yuxarı baxıb qışqırdı:

– Ölürəm! Xilas edin! Mən günahımı boynuma alıram!

Xanın dovşana yazığı gəldi və onun qulaqlarından tutaraq dartıb uçurumdan çıxartdı.

– Qoy dovşan yaşasın, – qara şam əlavə etdi. – Amma heyvanların içində ən qorxağı o olsun.

Və dovşan tayqaya qaçdı. Qaçaraq gözlərini çəpləşdirib baxırdı ki, arxasınca kimsə gəlir, ya yox?

Elə o vaxtdan da dovşanın qulaqları uzun, gözləri çəp və üst dodağı aralı qalmışdır.



## TƏLİMÇİ PİŞİK

Nə vaxtsa bir lama yaşayırdı. Onun monastırında siçanlar əmələ gəlməyə başlamışdı. Onlar nəinki yemək ehtiyatını, hətta dirəkləri də dişləri ilə ovurdular. Onda lama pişiyi yanına dəvət etdi.

Pişik gələndə lama bütün siçanları xural içlasa çağırıb dedi:

– Bu pişik sizin müəlliminiz – təmsilçiniz olacaq. Hər axşam o sizin üçün suduru* oxuyacaq. Siz ona tabe olmalısınız.

Siçanlar qorxub razılaşdılar.

Elə həmin gündən onlar pişiyin yanına gəlib sudurun oxunuşuna qulaq asırdılar. Onlar dağılanda isə pişik axırıncı siçanı tutub yeyirdi. Siçanların sayı isə getdikcə azalırdı. Siçanlar bunu hiss etdilər. Biri dedi:

– Bu nədir? Pişik bizə dərs keçəndən bəri biz elə azalırıq və azalırıq! Bu siçanlar hara yox olur?

– Bəlkə pişik siçanları yeyir? – başqa siçan dedi.

– Ola bilməz, axı o bizim müəllimimizdir! – üçüncü siçan etirazını bildirdi.

– Gəlin yoxlayaq, – dördüncü siçan dedi. – lamanın zınqırovunu oğurlayıb pişiyin quyruğuna bağlamaq lazımdır.

O biri günü axşam siçanlar pişiyin yanına gələndə zınqırovu da gətirmişdilər. Onlar pişiyə hiss etdirmədən zınqırovu müəllimlərinin quyruğuna bağladılar. Duaların oxunuşundan sonra siçanlar evlərinə getdilər. Qapının arxasında isə onlar dağılışmadılar, bir yerə toplaşıb qulaq asmağa başladılar. Elə o dəqiqə zınqırovun səsi gəldi. Siçanlar qayıdıb gördülər ki, pişik axırıncı çıxan bacılarını pəncəsində saxlayıb. Siçanlar içini çəkməyə vaxt tapmamış pişik siçanı yedi.

– Bax, gördünüz, – böyük siçan dedi. – Bu müəllim deyil, bu – manqısdır. Burdan qaçmaq lazımdır!

Və siçanların hərəsi bir tərəfə qaçdılar.

O gündən də siçanlar pişikdən ehtiyatlanırlar.

---

* Sudur – Lamaistlərin müqəddəs kitabı; sutra.

## NİYƏ TÜLKÜ QIRMIZI OLDU

Nə vaxtsa tülkü qara rəngdə olub. Bir dəfə o, nalim balığı ilə yarışa girmək fikrinə düşdü ki, görək kim daha iti qaçacaq. Tülkü çaya yaxınlaşıb qışqırdı:

– Murdar nalim, sən burdasan?

– Mən burdayam, – nalim cavab verdi.

– Sabah çay yuxarı qaçmaqda yarışa girəcəyik!

– Razıyam, – nalim cavab verdi.

Balıq suya baş vurdu, çaydakı bütün nalimləri bir yerə yığıb dedi:

– Tülkü məni yarışa çağırıb. İndi mən sizi sahil boyu yan-yana düzəcəyəm. Tülkü gəlib soruşanda: "Murdar nalim, sən burdasan?" – başınızı sudan çıxarıb cavab verin: "Burdayam!" bu minvalla da zəhlətökən tülkünü cəzalandırarıq.

Səhəri günü günəş çıxan kimi tülkü qaçıb çayın kənarına gəldi və qışqırdı.

– Murdar nalim, burdasan?

– Bəli, burdayam, – nalim cavab verdi.

– Gəl, ötüşək!

– Ötüşək! – nalim dedi.

Tülkü çayın qırağı ilə üzü yuxarı qaçmağa başladı, nalim isə suya baş vurdu. Tülkü var-gücü ilə üzü yuxarı qaçıb yoruldu, dayandı və qışqırdı:

– Murdar nalim, sən burdasan?

Çox qabaqda nalim başını sudan çıxarıb cavab verdi:

– Burdayam!

Tülkü sürətini bir az da artırdı, gücdən düşdü, dili ağzından çıxdı. Sözləşdikləri yerə gəlib çatanda nalim onu artıq gözləyirdi.

– Eh səni, – nalim istehza ilə dedi. – Mən səni çoxdan gözləyirəm. Sən murdar nalimi ötə bilmədin! Onda səni nə adla çağıraq, tülkü? Heç belə ad da yoxdur!

Bu sözlərdən sonra zəhlətökən tülkü başından ayağına kimi qıpqırmızı qızardı. Və həmişəlik qırmızı qaldı.



## DƏVƏ

Əvvəllər dəvənin çox şaxəli buynuzları və uzun, gur tüklü quyruğu var imiş. Və o, bütün heyvanların içində ən gözəl heyvan sayılırmış.

Bir dəfə dəvə çayın qırağında durub su içəndə maral onun yanına qaçıb dedi:

– Qardaş, buynuzlarını mənə ver, mən bayrama gedim, bəzənmək istəyirəm. Sabah yenə bu yerdə buynuzlarını sənə qaytararam. İnan, qardaş.

Dəvə inanıb buynuzları ona verdi. Elə yenə sudan içmək istəyirdi ki, at qaçaraq gəldi. Ağır nəfəs alsa da çox təbəssümlə kövşəyib dedi:

– Sən gur, uzun quyruğunu mənə ver, qardaş. Mən cığıra gedirəm, istəyirəm geyinib-kecinim. Səhər quyruğunu qaytaracam. İnan, qardaş.

Dəvə quyruğunu ona verdi.

O, maral və atı bir neçə gün gözlədi. Elə hey çayın kənarında durub uzağa baxırdı. Su içməyi də getdikcə azaldırdı. Hey baxır-baxır, atla, maralı gözdən qaçıracağından qorxurdu.

Nə at, nə də maral gəldi.

O gündən də dəvə uzağa baxanda elə baxırdı ki, guya kiminsə gözləyir. Və suyu da az-az içməyə başladı.

Maral isə tayqaya qaçdı, çöldə-düzdə bir daha görünmədi. O gündən maral çoxşaxəli buynuzlarla gəzir. Amma buynuz onun öz buynuzu olmadığı üçün onlar hər il düşürlər.

At o gündən uzun, gur quyruğu ilə qaçır. Dəvə ilə görüşməyi ağlına belə gətirmir, xoşlamır. Ondan qaçır və onu görəndə uzaqdan ötüşür.

## MÜNDƏRICAT

**İnstitutdan**......3
**Giriş**......6

Altı qardaş......13
Çin sehirbazlığı təlimini almış karısın sərgüzəştləri...20
Müdrik tutuquşu Uran-doydu......51
Pəhləvan Tevene Mege və onun atı Demir-şilge......54
Qorxmaz Xan-Xülyük......96
Ağ – Tün müəllim......113
Xeymər-ool və öküz boyda canavar......120
Qoca və Quzğun xan......125
Bumbaaday qoca......130
Baldır-bejeek......133
Deer-möge və altıbaşlı Manqıs Kolçaa Mörgen......140
Ösküs-ool və Karatı-xan......148
Öskküs oll və Ay kimi, Günəş kimi işıq saçan gözəl. 153
Ösküs-ool və Qurbustu-xanın qızı......165
İki qardaşın söhbətini eşidən Ösküs-ool......179
Tayqanın mahnılarını oxuyan Ösküs-ool......183
Balıqçı Ösküs-ool......188
Üç elmə yiyələnmiş Ösküs-ool......194
Ağ-sal qoca və Cümət......198
Bacarıqlı usta – Şever-çeçen......200
Üç qardaş......211
Koolu-səndək......215
Orlan-ool və Çeçen-kıs......220
Hazırcavab Orlan......225
Cəsur çəpiş......228



Tənbəl bayquş......231
Ağ canavar və yağlı çəpiş......233
Ağ dovşan......236
Dovşan qoyunu necə xilas etdi......238
Altı siçan-qardaşları......240
Quşlar niyə danışmırlar......242
Kim daha çox günahkardır......245
Təlimçi pişik......248
Niyə tülkü qırmızı oldu......250
Dəvə......252

**Türk xalqları folkloru.**
**Tuva xalq nağılları.**
Bakı, "Elm və təhsil" nəşriyyatı, 2013.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompyuterdə yığdı:
**Ülviyyə Əliyeva**

Korrektor:
**Gülnar Mirzəyeva**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Ülviyyə Əliyeva**

Kağız formatıl: 70/100 1/16
Mətbəə kağızı: №1
Həcmi: 256 səh.
Tirajı: 200

Kitab Azərbaycan MEA Folklor İnstitutunun Kompyuter Mərkəzində yığılmış, "Elm və təhsil" NPM-də ofset üsulu ilə hazır diapozitivlərdən nəşr olunmuşdur.